İlk peşə-ixtisas təhsili

NAİDƏ HACIYEVA

# ESTETİKA, PEŞƏ ETİKASI VƏ PSİXOLOGİYA

Azərbaycan Respublikası Təhsil Nazirliyinin
30.11.2012-ci il tarixli, 2167 nömrəli əmri ilə
təsdiq olunmuşdur.

Şərq Qərb East West
1986-cı ildən since 1986
BAKI
2012

**İlk peşə-ixtisas təhsili**

**NAİDƏ HACIYEVA**

# ESTETİKA, PEŞƏ ETİKASI VƏ PSİXOLOGİYA

Bakı, "**Şərq-Qərb**" Nəşriyyat Evi, 2012, 128 səh.

"Şərq-Qərb" Nəşriyyat Evində nəşr olunan "Etika, peşə etikası və psixologiya" dərsliyi ilk peşə-ixtisas təhsili müəssisələrinin şagird və müəllimləri üçün nəzərdə tutulmuşdur. Dərslikdə estetika, etika, həmçinin peşə etikası, psixologiya elminin mahiyyəti, bu elmlərin yaranma tarixi və əsas anlayışları haqqında məlumat verilir. Kitabda antik dövrdən müasir dövrədək bir sıra mütəfəkkirlərin etika, estetika və psixologiya haqqında fikirləri və şərhləri də öz əksini tapmışdır.

**ISBN** 978-9952-34-831-6

© "Şərq-Qərb" Nəşriyyat Evi, 2012

Şərq Qərb 1986-cı ildən East West since 1986

www.eastwest.az
www.fb.com/eastwest.az

# GİRİŞ

Çağdaş dövrə xas olan mənəvi problematikanın aktuallığı onun tədqiqinin bütün aspektlərinə marağı artırır. Bu, mürəkkəb dünyanın bəzi qanunauyğunluqlarını hələ də qəbul edə bilməyənlərə, müəyyən çətinliklərlə qarşılaşanda onlarla necə mübarizə aparıb aradan qaldırmağın yollarını tapmağa çalışanlara və ən əsası, bu günün şagirdlərinə və sabahın mütəxəssislərinə kömək edə biləcək biliklər verməkdir. İnsan şəxsiyyətinin xüsusiyyətləri, adamlarla ünsiyyət qurmaq bacarığı, hər bir insanın ürəyinə yol tapmaq, iş yerində davranış qaydaları haqda biliklər – müasir insana lazım olan vacib biliklərdir.

Müasir tarixi şəraitdə müəyyən elmlərin daha dərindən öyrənilməsinin çox böyük əhəmiyyəti vardır. Bu gün dünyada gedən sosial hadisələr, o cümlədən qloballaşma problemi, bunu daha zəruri tələbata çevirir. İnsanların biri-birini daha yaxşı anlaması, onların arasında birliyin yaranması bir çox problemlərin həllində ən gözəl vasitələrdən biri sayılır.

Hər bir insan iş həyatında uğur qazanmağını, peşəkar olmağını istər, öz karyera yüksəlişini həyatının mənası kimi başa düşə bilər. Lakin bir çoxları bu uğuru və yüksəlişi bilik dairəsinin genişliyi ilə və yaxud ali peşə səviyyəsi ilə ölçürlər. Birmənalı olaraq söyləmək olar ki, insanda mütləq həm bilik, həm də yüksək peşə səviyyəsi olmalıdır.

Lakin sözün əsl mənasında, iş adamının irəliləyişi daha çox onun insanlarla düzgün ünsiyyət qurmağından, iş yerində müəyyən etik norma və qaydalara riayət etməyindən, özünü insanlara estetik cəhətdən düzgün təqdim edilməsindən və əlbəttə ki, insan psixologiyasına bələd olmağından asılıdır. İnsanın psixoloji xüsusiyyətlərinə yaxından bələd olmaq, fəaliyyət və ünsiyyət prosesində onları düzgün nəzərə almaq müasir mütəxəssis – mühəndis, zabit, həkim, bir sözlə, hər bir sahədə çalışan işçi üçün vacib olduğu kimi, insanla münasibətdə olan hər bir şəxs üçün də eyni dərəcədə zəruridir.

Sözsüz ki, bir insan bütün bu deyilənlərə yiyələnərsə, onda onun işinin uğurlu olacağına heç bir şübhə qalmır.

Bəs insanlarla (istər iş yoldaşı, istərsə hər hansı bir sifarişçi olsun) necə davranmalı? Bu suala cavab vermək üçün üç elm haqqında müəyyən biliklərə yiyələnmək zəruridir. Bu elmlər: etika, estetika və psixologiyadır. Təqdim etdiyimiz bu kitabda çalışacağıq ki, hər bir elm haqqında müəyyən təsəvvür yaradaq və yiyələnəcəyiniz biliklərdən gələcək iş həyatında necə istifadə etmək barədə sizə məlumat verək.

# I HİSSƏ

## ESTETİKA ELMİNİN MÖVZUSU VƏ VƏZİFƏLƏRİ

### 1. Estetika elminin predmeti və strukturu

Estetika – yunan sözündən əmələ gəlmiş bir termindir, "hissi qavramaya aid olan" mənasını daşıyır. Öncə bildirmək istəyirik ki, estetika elmi çox böyük inkişaf yolu keçmişdir. İnsanın gerçəkliyə olan estetik münasibətini anlamaq və bədii yaradıcılıq qanunauyğunluqlarını dərk etmək cəhdləri hələ quldarlıq quruluşunun yaranma dövrünə təsadüf edir.

Estetik mülahizələrə artıq Hindistanın, Çinin, Babilistanın qədim ədəbi abidələrində də rast gəlinir. Lakin ən inkişaf etmiş estetik fikirləri antik Yunanıstana aid etmək olar. Çünki bu qəbildən olan biliklər orada fəlsəfi sistemin tərkib hissəsi kimi qəbul olunurdu.

Orta əsrlərdə estetik fikir ilahiyyatın tərkib hissəsi kimi, İntibah dövründə bədii tərcümə sahəsində, XVII-XVIII əsrlərdə isə bədii tənqid və publisistika janrlarında yer almışdır. Alman klassik dövrü artıq estetikanın ayrıca bir elm kimi təqdim olunmasına şərait yaratmışdı və birinci bu ideyanı həyata keçirən də elə alman filosofu A.Baumharten olmuşdur. O, "estetika" sözünü bir termin kimi tanıtmağından əlavə, həm də estetika elminə fəlsəfi biliklərin arasında xüsusi yer də vermişdi.



Aleksandr Hotlib Baumharten (1714-1762) – alman filosofu, "estetika" termininin müəllifi

Sonralar estetika predmetinin, onun əsas kateqoriyalarının və anlayışlarının formalaşması müxtəlif fəlsəfi cərəyanların, istiqamətlərin, məktəblərin təsiri altında keçmişdir və o, fəlsəfi biliyin ayrılmaz hissəsi olmaqla bərabər, həm də etika ilə daha da yaxınlaşmağa başlamışdır. Bu qarşılıqlı təsiri hər iki elmin bir mənəvi-estetik təhlil və yaradıcı potensial daşıyıcısı olan obyektə – insana yönəlməsi ilə izah etmək olar.

Bundan başqa, estetika elminin daim psixologiya elmi ilə kəsişməsini də qeyd edə bilərik. Bu elmlərin ümumi nəzəri marağı estetik hiss, yaradıcılıq prosesi və istedadla bağlı məsələlərdə eyni səmtə yönəlir.

Estetikanın təbii, texniki və iqtisadi elmlərlə də sıx əlaqəsi vardır və bu, müxtəlif idrak formalarında estetik başlanğıcın iştirakını təsdiq edir.

Estetikanın predmeti müasir nöqteyi-nəzərdən insan hissiyyatıdır. Estetika həm də bir fəlsəfə elmi kimi aşağıdakı sahələri əhatə edir:

*a*) *gözəllik aləmi;*

*b*) *insan fəaliyyəti prosesində dünyanın estetik cəhətdən mənimsənilməsinin ən ümumi prinsipləri;*

*c*) *estetikanın təbiəti, gerçəklikdə və incəsənətdə onun müxtəlifliyi;*

*ç*) *varlıq və qavrayışın mahiyyəti və qanunları, incəsənətin fəaliyyəti və inkişafı.*

## 2. Estetikanın vəzifələri

Estetikanın vəzifələri aşağıdakılardır:

a) *insanda quruculuq başlanğıcını formalaşdırmaq;*

b) *gözəlliyi qavramaq qabiliyyətini formalaşdırmaq.*

Estetika bir elm kimi reallığın gözəllik qanunlarına uyğun olaraq mənimsənilməsinə və estetik xüsusiyyətlərin qavranılmasına şərait yaradan müəyyən qanunlar, kateqoriyalar və ümumi anlayışlar sistemidir. Estetik kateqoriyalar həmişə bir-biri ilə müəyyən əlaqədə çıxış edərək, hər hansı bir konkret tarixi dövrdə öz nizamlı sistemlərini təşkil edir. Bu sistem estetikanın ən geniş və təməlli kateqoriyası olan estetik kateqoriya üzərində qurulur. O, özündə gözəl, çirkin, ali, rəzil, tragik, komik və həyatın başqa estetik xassələrini də əks etdirir. Estetik kateqoriyada predmetin həm təbii, həm də sosial xüsusiyyətləri ifadə olunur. Məsələn:

*qızıl* – parlaq metaldır (təbii);

*qızıl* – pulu təcəssüm edən metaldır, yəni ictimai münasibətlərin müəyyən tipidir (sosial).

Beləliklə, estetik kateqoriya – ümumbəşəri bir dəyərdir. Bu dəyər təbiətin və cəmiyyətin tarixi inkişafı prosesində dəyişilir və təkmilləşir.

Estetik ideal – reallıqla uzlaşan mükəmməllik təsəvvürü olaraq, insanın fəaliyyətində qiymət və vektor rolunu oynayır. Estetik ideal zövqün diktəsi ilə ən yaxşı estetik oriyentasiyaları seçmək yolu ilə formalaşır.

Estetik zövq – fərdin şüurundakı formalaşmış meyar sistemidir. Estetik zövq xüsusi təhlil olmadan həyat və incəsənətdə gözəllik və çirkinlik haqqında mülahizələr sürməyə imkan verir. Estetik zövq şəxsin estetik inkişaf səviyyəsini təyin edir, onun hər hansı estetik və sənət dəyərlərinə adekvat halda qiymət verməsinə imkan yaradır. Estetik zövq inkişaf etmiş, yaxud inkişafdan qalmış, həqiqi, yaxud pozulmuş ola bilər. Estetik zövq həm fərdi, həm də mədəni-tarixi xarakter daşıyır.

Estetik hiss – fərd tərəfindən reallığa olan estetik münasibətin bilavasitə emosional yaşanmasıdır. Estetik hiss görmə və eşitmə kimi psixofizioloji hallarla şərtləndirilir, lakin sırf insana aiddir. Estetik hiss inkişaf etmiş, dərin, çoxşaxəli, yaxud inkişafdan qalmış və pozulmuş ola bilər.

Estetik hislər təbiətin, incəsənət əsərlərinin gözəlliyini qavramaq, dərk etməklə əlaqədardır. Çünki insanlar ictimai təcrübədə dünyanın gözəlliyini əks etdirmək qabiliyyəti də əldə etmişlər. Bu zəmində insanda müxtəlif estetik hislər təşəkkül tapmışdır. J.J.Russo göstərir ki, gözəllik və ona münasibətdən doğan müqəddəs ideya və vəzifə hissi ancaq insan qəlbində yaşayır.

Füsunkar təbiət mənzərələri, yaşıl çəmənliklər, güllü-çiçəkli yamaclar, şır-şır axan bulaqlar, aylı gecələr, quşların nəğməsi və s. insanda estetik hislər doğurur. Məlumdur ki, təbiətin gözəllikləri bizdə müxtəlif əhvali-ruhiyyə yaradır. Məsələn, kükrəyib daşan çaylar insanda bir cür, gözyaşı kimi duru və sakit axan sular isə başqa bir əhvali-ruhiyyə yaradır. Yaxud aylı-ulduzlu aydın gecələr bizdə fərəh, şadlıq, nikbinlik, sakitlik, sərinlik əmələ gətirir.

İnsanın estetik hislərinin ilk mənbəyi təbiətin gözəlliyidir. Bundan sonra insana gözəllik hissini təlqin edən, həmin təbiəti obrazlarla əks etdirən bədii ədəbiyyat, incəsənət əsərləri və musiqidir. İnsanın özünün hərəkət və rəftarı da bu və ya digər estetik hiss doğura bilər. Təsadüfi deyildir ki, tarix boyu mütəfəkkirlər insan gözəlliyinə böyük qiymət vermişlər. "İnsan dünyanın əşrəfidir" deyən dahi Nizami, "insanı daima inkişaf edən təbiətin son əsəri" hesab edən Höte, "Yer üzündə ən böyük gözəllik insan gözəlliyidir" deyən Pestalotsi bu fikrə təsadüfən gəlməmişdilər. Çünki insanın fiziki və mənəvi gözəlliyi bir sıra estetik hislər doğurur.

N.Q.Çernışevski göstərir ki, biz ən gözəl şeyi təmənnasız olaraq sevirik, ondan zövq alırıq, onu bizə əziz olan adam kimi sevirik. Gözəllikdə nə isə bizim qəlbimizə yaxın, əziz olan bir şey var.

Bizim estetik hislərimiz həmişə bu və ya digər maddi tələbatımızın ödənilməsi ilə bilavasitə əlaqədar olmur, onlar aclığımızı və ya susuzluğumuzu təmin eləməyə, yaxud həyatımızı mühafizə etməyə yönəlmir. Hətta bəzən gözəl musiqi və ya bədii əsərdən alınan estetik hiss insana aclığı, susuzluğu belə müəyyən müddət unutdura bilir. Dilimizdə işlənən "o qədər gözəldir ki, adam istəyir yeməyib-içməyib ona tamaşa etsin" ifadəsi də, bunu aydın şəkildə göstərir. Məsələn, meyvələri çox canlı və həddən artıq gözəl təsvir etmiş olan bir rəssamın əsərinə baxdıqda ondan xoşumuz gəlir, onu seyr edərək, belə gözəllikdən zövq alır, həmin meyvələri yemək barədə isə düşünmürük. Bu mənada söyləmək olar ki, insan gözəllikdən təmənnasız zövq alır.

Bəzən insanın estetik hisləri onun əxlaqi hissi ilə birləşir. Məsələn, insan bəzən Vətənin təbii mənzərələrindən də gözəl mənzərələrə rast gələ bilər, hətta ondan həzz alar, lakin bir az keçən kimi həmin gözəllik insanın gözündə başqalaşar, sanki Vətən həsrəti hissinin təsiri altında öz cazibədarlığını itirər, o artıq darıxmağa başlayar. Vətənin boz çölləri belə insanın nəzərində dəyişər, gözəlləşər, daha cazibədar olar və insanı özünə çəkər.

İnsanın estetik hislərinə nəinki əxlaqi hisləri, həm də onun dünyagörüşü, yaşadığı ictimai mühit də təsir edir. Bu cəhətdən insanların nəzərində gözəllik meyarı başqa-başqa olur. Nəzərə almaq lazımdır ki, gözəllik və ya çirkinlik haqqında insanların təsəvvürləri nəinki ayrı-ayrı tarixi dövrlərdə, həm də eyni bir dövrdə yaşayan müxtəlif sosial qrupların nümayəndələrində də müxtəlif olur.

## 3. Estetik tələbat

İnsanın zövq alması tədricən başqa xarakter daşımağa başlamışdır. Xalis maddi tələbatla mənəvi, estetik tələbat arasında böyük fərq var. Estetik tələbat ali mənəvi tələbata aiddir. Estetik tələbatın gücü bizi əməkdə, məişətdə, incəsənətdə, insan həyatının bütün sahələrində gözəllik aləminə cəlb edir. İnsan əşyaları da gözəllik nöqteyi-nəzərindən qiymətləndirməyə başlayır.

Bəşəriyyət tərəfindən yaradılmış müxtəlif sənaye və məişət əşyaları, bədii əsərlər – insanın çoxsahəli fəaliyyətinin hamısı onun gerçəkliyə olan estetik münasibətləri dairəsinə daxildir. Məsələn, avtomobilin əsas vəzifəsi adamları, yükləri daşımaqdan ibarətdir. Lakin eyni zamanda avtomobilin formasına, mütənasibliyinə, rənginə də fikir verilir. Doğrudur, göstərdiyimiz misallarda estetik qiymət həlledici rol oynamır. Avtomobil öz forması etibarilə hətta köhnəlmiş olsa belə, hər halda hərəkət vasitəsi olaraq qalır. Kostyum və paltar dəbdən düşdükdə də öz faydalılıq rolunu yerinə yetirməkdə davam edir. Lakin bu o demək deyil ki, estetik qiymətə etinasız yanaşmaq olar. Nədə və harada təzahür edirsəetsin, insan gözəlliyə biganə qala bilməz.

## 4. Estetik tərbiyənin mahiyyəti

Söz yox ki, təbiətin, incəsənətin gözəlliyini hiss etmək və qavramaq qabiliyyəti insanın estetik mədəniyyətinin əlamətidir. Lakin təsadüfi deyil ki, biz adamları birinci növbədə onların hərəkətinə, davranışına və işlərinə görə qiymətləndiririk. Məhz fəaliyyət zamanı şəxsiyyət və onun qabiliyyətləri daha tam şəkildə aşkara çıxır. Passivlik durğunluq doğurur, insan isə dünyanı dəyişmək, yenidən qurmaq, onu daha yaxşı, daha bəşəri etmək iqtidarındadır.

İnsanın gözəlliyə, kamilliyə cəhdi fəal, yaradıcı olmalıdır. Estetik tərbiyənin məqsədi və mənası təkcə gözəlliyə heyran olmaqdan ibarət deyil, həm də onu təsdiq etməkdən, həyata gətirməkdən ibarətdir. Gözəlliyi – əməyə, incəsənətə münasibətdən başlamış, məişətdəki, ailədəki davranışa qədər hər yerdə və hər şeydə təsdiq etmək lazımdır.

Sənətkar yaradıcı deməkdir. Yaxşı çilingər, sürücü, dərzi haqqında da məhz belə deyirlər: “O, öz işinin sənətkarıdır”.

## 5. Estetik mədəniyyət

Qloballaşma şəraitində estetik mədəniyyət getdikcə daha böyük əhəmiyyət kəsb edir. Estetik mədəniyyətin spesifikası və funksiyası subyektin dünyaya münasibətinin azad özünüifadə etməsi ilə bağlıdır. Deməli, estetik mədəniyyət insanın hər bir predmetdə onun öz növünün ölçüsünü tapmaq, tətbiq etmək və beləliklə də, predmetin dəyərini aşkara çıxarmaq qabiliyyətində təzahür edir.



"Mona Liza". Dahi italyan rəssamı Leonardo da Vinçinin əsəri

Estetik mədəniyyət estetik düşüncənin məhsuludur. Estetik düşüncə təkcə maddi baza əsasında yox, həm də icma kollektivlərinin mənəvi həyatı əsasında yaranır. Bir sözlə, estetik düşüncə bu və ya digər formasiyada ictimai həyatın ən yüksək mənəvi forması kimi çıxış edir. Məhz buna görə də estetik mədəniyyətdə ictimai, siyasi, əxlaqi və dini baxışlar, təbiətin dərki, ətraf mühitə münasibət kimi çoxcəhətli mənəvi keyfiyyətlər birləşir.

Deməli, estetik mədəniyyət insan və dünya, insan və insan və nəhayət, insan və cəmiyyət arasındakı köklü münasibətləri birləşdirən mənəvi inkişafın zərurətindən doğan ictimai şüur formasıdır. Dünyanın, maddi aləmin insan düşüncəsində estetik şəkildə əks olunmasını yaradan səbəb nədir? Bu tələb, hər şeydən əvvəl, insan mənəviyyatının mövcudluq zərurətidir. İnsan yaradıcıdır. O, gördüyünü, sadəcə, olduğu kimi görmür, onu yenidən yaradır; ona özünəməxsus duyğu əlvanlığı, emosional çalarlılıq, fikir zənginliyi verir; hadisəni, predmeti öz mənəvi aləminin daşıyıcısına çevirir. Deməli, estetik tələbat ictimai varlığın dünyanın mürəkkəbliyi və sadəliyi ilə birlkdə qavramaq, anlamaq, duymaq və dərk etmək qabiliyyətinin imkanından doğur və onu şərtləndirir. Bu tələb necə formalaşır və insan cəmiyyətinin başlanğıcından hansı şəkildə estetik düşüncənin obyektinə çevrilir? Gerçəkliyin dərk edilməsi gözəllik qanunları əsasında baş verir. Bu zaman isə hər şey gözəllik obyektinə çevrilir.

## 6. Gözəllik nədir?

Gözəllik haqqında çoxlu nəzəriyyələr olmuşdur. Bir qisim nəzəriyyəçilər iddia etmişlər ki, həqiqi aləmdə gözəllik yoxdur və gözəllik haqqında fikirlər, mülahizələr anadangəlmə, yaxud yuxarıdan təlqin olunur. Onların digər qismi isə təbiətdəki gözəlliyi ilahi ruhun inikası hesab etmişlər.

Üçüncü qisim nəzəriyyəçilər də belə fərz etmişlər ki, gözəllik, guya, insandan asılı olmayaraq yaşayan və insan üçün görünməz olan əbədi ideyalardan ibarətdir.

Onu da qeyd edək ki, bu nəzəriyyələrdən ən əhəmiyyətlisi N.Q.Çernışevskinin nəzəriyyəsi olmuşdur. Onun belə bir tərifi çox məşhurdur: "Gözəllik bizim təsəvvür etdiyimiz həyatdır; o əşya gözəldir ki, o, özündə həyatı əks etdirir və ya bizə həyatı xatırladır".



N.Q.Çernışevski (1828-1889) – rus mütəfəkkiri və filosofu

İnsanın estetik qabiliyyəti cəmiyyətlə birlikdə doğulur və inkişaf edir. İbtidai icma dövründə bu qabiliyyətin artmasına və inkişafına təbiətin özü güclü təkan vermişdir. Təbiət çoxcəhətlidir və bu da özünü təbiət hadisələrində aşkar edir. Təbiət gözəlliyi: simmetriya, harmoniya, ahəngdarlıq, kiçiklə böyük arasındakı ölçülülük və s. ibtidai icma dövrünün sənətkarları tərəfindən genişliyi və dərinliyi ilə qavranılıb təsvir olunmuşdur. Azərbaycan ərazisində aşkar edilmiş qədim yaşayış məskənlərindəki qayaüstü və mağara rəsmlərində insanlardakı gözəlliyi qavramaq və istifadə etmək qabiliyyətinin estetik düşüncə səviyyəsinə çatdığının şahidi oluruq. İnsan, artıq estetik obyekt olduğu kimi, bütün reallığı və çoxcəhətliliyi ilə birlikdə təsdiq etməyi bacarır. Təbiətdə gözəllik bilavasitədir, onun özündədir, yəni birbaşadır. Həmin gözəlliyi insan anladığı zamandan bu, onun şüurunun məzmununa çevrilir. Məhz buna görə də insanın estetik düşüncəsi təbiət hadisələrinin dərki ilə başlayır. İbtidai insanın dünyaya, reallığa münasibəti sinkretik xarakterdədir. Buna görə də ibtidai insanın düşüncəsində hələ məntiqi olanla hissi olan, dini, etik və estetik olan ayrılmır, bütövlükdə mövcuddur. Buna baxmayaraq, biz düşüncənin elə cəhətlərini aşkarlayırıq ki, həmin cəhətlər ictimai şüurun bu və ya digər formasında özünün sosial inkişafını tapır. Gözəlliyi görmək üçün yalnız ətrafa baxmaq kifayətdir. İnsan qarşısında açılan aləmin hər hadisəsində gözəlliyi görür.



"Naməlum qadın". Rəssam İvan Kramskoy.

Təbiət – gözəlliyin ən qədim və ən geniş mənbəyidir. Gözəllik təbiətdə insandan asılı olmayaraq mövcuddur. Lakin onun kamilliyini təkcə insan başa düşə bilər, bu gözəllik yalnız insan üçün təbiəti dəyişən əməyin yaradıcı ilham mənbəyidir.

Təbiətdə gözəllik insandan əvvəl də mövcud olmuşdur. Amma təbiət aləminə daha dərindən nüfuz etdikdə, o, qarşımızda daha rəngarəng, daha gözəl görünür.

Canlı təbiətin kamil gözəlliyinin formaları yaşamaq uğrunda hər dəqiqə gedən əbədi, daimi mübarizənin, təbii seçmənin amansız qanununun nəticəsi ilə müəyyən olunur. Yalnız həyata daha yaxşı uyğunlaşa bilən bitki və heyvan orqanizmləri yaşaya bilər. Təbiətdəki bütün canlı aləmin yaşamaq uğurundakı bu mübarizəsi forma kamilliyini həyatı qorumağın qanunlarından birinə çevirir.



“Qudyalçay vadisi”. Rəssam Səttar Bəhlulzadə (1909-1974).

Hər bir canlı varlığın bir-birinə oxşamamasına baxmayaraq, onları bir qanun birləşdirir: onlardan hər biri ona görə yaşayır ki, onun forması vəzifəsindən irəli gəlir. Canlı varlıq öz nəslinə məxsus cəldliyini itirsə, öz növünə uyğun şəkildə yaranmasa, məhv olub gedər.

Gözəllik real və obyektiv varlıqdır. O, cansız və canlı təbiətin öz xidmətidir. Biz maddi aləmi, mühiti dərk etdiyimiz kimi, gözəllik duyğusu da həyatdakı gözəlliyin inikasıdır. Öz dövrünün inkişaf səviyyəsindən asılı olaraq, hamı gözəlliyi duyur. Bu duyğu predmetlərə və hadisələrə qarşı bizim xoş və müsbət münasibətimizi bildirir. Gözəlliyin sadə və bəsit əlamətlərini insanların əksəriyyəti müşahidə edə bilir. Bu əlamətlər qayda, səliqə, uyğunluq, yaraşıq, əvəzləmə, tənlik (simmetriya) və tənasüb (proporsiya) elementlərindən, rənglərin və səslərin ahəngindən, hislərin qarşılıqlı əlaqəsindən, vəhdət və bütünlük təsirindən ibarətdir. Lakin gözəllik anlayışı bu əlamətlərlə məhdud deyil, çünki gözəllik yalnız şəkil və forma da deyil. O ancaq zahiri görüntüdən ibarət ola bilməz. Əsl gözəllik mənalı və məndəricəlidir.

Dünyanı gözəllik qanunları ilə mənimsəyən sənətkar onları istər-istəməz bəşəriyyətlə münasibətdə, bəşər nəsli üçün əhəmiyyətliliyi baxımından qiymətləndirir. Belə ümumbəşəri əsaslar təkcə beynəlmiləl deyil, həm də milli və sinfi əsaslardan ibarətdir, çünki ümumbəşəri dəyərlərin özünün dərk edilməsi tarixi, sinfi və milli cəhətdən şərtləndirilmişdir. Və milli baxış nə qədər bənzərsizdirsə, o, bir o qədər də qiymətli, təkrarsız dəyərə malik olur. Eyni zamanda onun dəyər və əhəmiyyəti ümumbəşərilik və beynəlmiləlçiliklə, sinfilik və milli bənzərsizliklə nə qədər sıx qovuşarsa, bir o qədər də artar. Elə buna görə də əsərin yüksək bədiiliyinin mühüm şərtlərindən biri onun klassik səviyyədə və ümumdünya səviyyəsində olmasıdır.

## 7. Gerçəkliyə estetik münasibət

Gerçəkliyə estetik münasibətin metodoloji mahiyyətini açaraq, tədqiqatçılar estetik mədəniyyətin inkişafının əsasını göstərmişlər. Onlar aydınlaşdırdılar ki:

– *gerçəkliyin dərk edilməsi onun hissi qavrayışı ilə başlanır, bununla bərabər, idrak prosesi hiss və rasionallığın vəhdətidir;*
– *estetik hislərin əmələ gəlməsinin və inkişafının əsasında fəaliyyət durur;*
– *şəxsiyyətin estetik fəaliyyətinin əsasını insanların maddi həyat şəraiti təşkil edir;*
– *estetiklik öz ideyalarına uyğun olaraq gerçəkliyin insan tərəfindən dəyişdirilməsinin məqsəd və şəraitinə daxildir;*
– *estetiklik ümumbəşəri xarakteri ilə özünü göstərir;*
– *gerçəkliyə emosional – hissi münasibət insanda müxtəlif quruculuq məsələlərinə dərin maraq oyadır;*
– *estetiklik, bütövlükdə insanın mənəvi formalaşması kimi, həm praktiki problemlərlə, həm də digər problemlərlə əlaqədardır.*

Estetikanın çağdaş inkişafı onun predmetini üç əsas aspektdə müəyyənləşdirməyə yardımçı olur. Estetika gerçəkliyin özündə olan estetiklik haqqında elmdir. O həm də insanın dərk edilən, yaradan, dəyişən estetik fəaliyyətini öyrənir, bundan başqa, estetika incəsənətin əsas qanunlarını ümumiləşdirir.

Təbiətin estetik obyektivliyi problemi estetik düşüncənin qaynaqları ilə sıx bağlıdır (duyğu, həzz, qiymət). Estetik düşüncənin, dərkin və qavrayışın qaynağı təkcə dünya ilə insan arasındakı münasibət deyildir. Bu düşüncənin əsası – obyektiv gerçəkliyin özüdür, onun təbiətidir. Məhz buna görə də estetik praktika təkcə insanın mahiyyətinin incəsənətdə özünüifadəsi deyil, o həm də idrak vasitəsi kimi çıxış edir, dünyanın obyektiv mövcudluğunun mahiyyətini açır. Buna görə də özünüifadə bütövlükdə estetik praktika deyil, ancaq dünyanın obyektiv estetikliyinin dərkinin müəyyən konkret ifadəsidir. Deməli, estetik münasibət ancaq gerçəklikdəki estetikliyin müəyyən bir elementi olmaqla, idrak obyektinin, yəni bütövün tərkib hissəsidir.

## 8. Estetik fəaliyyətin subyekti

Estetik fəaliyyətin və mədəniyyətin subyekti mücərrəd fərd deyil, ictimai varlıqdır. O, meydana çıxan kimi nəinki hazır sosial münasibətlərlə, eləcə də müəyyən maddi və mənəvi nailiyyətlərlə, o cümlədən əvvəlki inkişaf nəticəsində yaranmış estetik dəyərlərlə rastlaşmalı olur. Bu dəyərlər insan varlığının obyektiv şərtləri olur və estetik fəaliyyəti üçün əsas rol oynayır. Sosial baxımdan qarşılıqlı təsir prosesində və məqsədyönlü tərbiyə nəticəsində estetik dəyərlər gerçəkliyə estetik münasibətin istiqaməti kimi çıxış edir, estetik qiymətin meyarı kimi, estetik fəaliyyəti təşkil etməyə imkan verən əsasa çevrilir.

Subyekt özünü estetik cəhətdən nə qədər sərbəst və orijinal ifadə edirsə, onun "ən böyük sərvət olan digər adama ehtiyacı" bir o qədər güclənir. Digər adamla (adamlarla) ünsiyyətdə cəmiyyətin estetik mədəniyyəti formalaşır, fərdin bilavasitə həyəcanının estetik dəyəri yoxlanılır, onun gerçəkliyə estetik münasibətinin orijinallığı və spesifikliyi ümumi sərvət kimi təsbit olunur. Fəaliyyət və informasiyanın qarşılıqlı mübadiləsi əsasında, həm də gerçəkliyə, yeni dəyər sistemlərinə estetik münasibətin yeni prinsipləri formalaşır.

## 9. Elmi-texniki tərəqqi və estetika



Lütfəli Rəhim oğlu Əsgərzadə (Lütfi Zadə) – alim, Kaliforniya Berkli Universitetinin professoru



Kərim Kərimov (1917-2003) – Kosmik uçuşlar üzrə Dövlət Komissiyasının sədri (SSRİ)

Məlum olduğu kimi, insan həm dərk edir, həm də qurur, yaradır. Sual oluna bilər ki, insana qədər təbiətin, maddi varlığın estetik xassəsi mövcud olmuşdurmu? Bu suala cavab olaraq bildiririk ki, əlbəttə yox! Çünki hər şey insanla başlanır.

Estetik fəaliyyətin səmərəli xarakteri hər bir perdmetin estetik dəyərinin təsdiqində reallaşır. Predmetin estetik dəyəri subyektin aşkara çıxardığı və qiymətləndirdiyi obyektiv daxili və xarici əlaqələrin zənginliyi ilə müəyyənləşdirilir. Təbiət, yaxud sosial hadisə predmeti nə qədər böyük həcmdə qeyri-estetik sərvətlərlə əhatə edərsə və əlaqələndirilərsə, onun estetik dəyəri bir o qədər artar.

Elmi-texniki tərəqqinin şəxsiyyətin estetik mədəniyyətinə təsiri problemi müasir estetikanın ən az öyrənilmiş və mürəkkəb problemlərindən biridir. Problemin mürəkkəbliyi şəxsiyyətin estetik mədəniyyətinin son nəticədə cəmiyyətin bütöv inkişafı ilə müəyyən olunması ilə əlaqədardır.

Şəxsiyyətin estetik mədəniyyəti ictimai münasibətlərlə, cəmiyyətin mədəniyyəti ilə, onun elmi-texniki nailiyyətləri ilə şərtləndiyi kimi, eyni zamanda onların öz xüsusi fəallığının məhsulu kimi də özünü göstərir. İnsan ətraf aləmi təkcə passiv surətdə müşahidə etmir, həm də yaradıcılıqla onu dəyişdirə bilir. Deməli, insanın şüuru obyektiv dünyanı təkcə əks etdirmir, eyni zamanda onu yaradır.

Elmi-texniki tərəqqi estetik mədəniyyətin bir sıra dəyişikliklərində səbəbkar rolunda çıxış edir. Estetik mədəniyyətin anlaşılmasının çıxış nöqtəsi fərdi yaradıcılıq formasında sosial və mənəvi dəyərlərin mənimsənilməsidir. Elmi-texniki tərəqqinin təsiri altında təkcə estetik mədəniyyət deyil, həm də müasir həyat tərzi də dəyişir.

## 10. Yaradıcılıq və estetika

Gerçəklik, bizi əhatə edən aləm estetik baxımdan tərbiyədə mühüm rol oynayır. Tədqiqatçılardan biri obrazlı şəkildə bunu belə ifadə etmişdir: "Gözəllik insan həyatına – günəşin doğmasından, aylı gecədən, quşların cəh-cəhindən, qumda "sehrli qala" düzəldən uşağın yaradıcılıq fərəhindən və sairədən yaranan çoxsaylı qapılardan daxil olur". Gözəllik, hissləri daşa dönməyə, qloballaşmağa imkan vermir. Kobud, estetik hissləri inkişaf etməmiş insan nəinki təbiət hadisələrinin və yaxud incəsənət əsərlərinin gözəlliyini duymur, həm də digər insanın dərdi və sevinci yanından etinasızlıqla, biganəliklə keçib gedir, əsl gözəlliyi saxta gözəllikdən fərqləndirə bilmir.

Yaradıcılıq çoxcəhətlidir. Rəsm əsərləri, kinofilm yaradanlar, yaxud teatr səhnəsində müxtəlif adamların obrazlarını canlandıranlar, zavod sexlərindəki dəzgahlarda detalı zövqlü yonanlar da yaradıcılardır. İnsan hər işdə ustadır. Ona görə də incəsənətdə olduğu kimi, əməkdə də mühüm bir qayda mövcuddur: "**Nə** yaratmaq deyil, **necə** yaratmaq vacibdir".

Bədii mədəniyyət cəmiyyətin estetik mədəniyyətinin ancaq bir hissəsidir. Estetik fəaliyyət estetik mədəniyyət sisteminə ictimai praktikanın müxtəlif sferalarını cəlb edir. Eyni zamanda elmi-texniki inqilabın estetik fəaliyyətə qarşılıqlı təsir prosesi baş verir. Bu iki tendensiya qovşağında estetik fəaliyyətin maddi istehsal sistemində yeni növü – dizayn yaranmışdır. O, müasir estetik mədəniyyətin mühüm elementi olmuşdur. Dizaynın məqsədi nəticə etibarı ilə maddi sərvətlər istehsalıdır. Lakin bu sərvətlər xüsusi özfəaliyyət – bədii konstruksiyalaşdırma əsasında estetik dəyərə malik olur.

Maddi istehsal sistemində cismin estetik dəyəri onun istehlak keyfiyyətinin göstəricilərindən biri kimi çıxış edir. Lakin dizayn ancaq hazır məhsul istehsalı ilə məhdudlaşmır. O, hələ öz rolunu itirməmiş köhnə əşyanın modernləşdirilməsindən, cəmiyyətin tələblərini ödəyən yeni məmulat layihəsi verilməsindən başlana bilər. Lakin dizayn insanın bütün əşya mühitinin estetik təşkili ilə başa çatmalıdır. Dizaynerin bilavasitə vəzifəsi çox, yaxud az dərəcədə məhdud görünə bilər ki, bura məmulatın funksiyaları və konstruksiya xüsusiyyətləri nəzərə alınmaqla, məqsədyönlü və mükəmməl formanın yaradılmasını aid etmək olar. Lakin onun daha böyük vəzifəsi məhz insanın tələblərinə uyğun münasib əşya mühiti təşkil etməkdir. Estetik cəhətdən mütəşəkkil mühitin (məişət və istehsalat mühitinin) özü insanın davranışını cəmiyyətin qəbul etdiyi və bəyəndiyi normalara uyğun olaraq istiqamətləndirir və həyata keçirir, yəni insanın davranış mədəniyyətində "əşyalaşır".

Dizaynın mədəni-estetik funksiyası bununla da bitmir. Dizayn incəsənət və istehsalat arasında vasitəçidir, incəsənətin yaratdığı bədii sərvətləri və ifadəli vasitələri texnikaya çevirməyə imkan verir. Bədii konstruksiyalaşma, öz növbəsində, texniki vasitələrin estetik baxımdan interpretasiyasına şərait yaradır.

# ESTETİKANIN YARANMA TARİXİNDƏN

## 1. Antik dövrün estetikası

Kitabın etikaya həsr olunmuş hissəsində etik və estetik baxışların inkişaf tarixinə daha çox yer verdiyimizdən, bu hissədə müəyyən tarixi cərəyanlar və bu cərəyanların nümayəndələri haqqında qısaca şərh verəcəyik.



Pifaqor



Platon



Aristotel

Ümumiyyətlə, estetik baxışların yaranma tarixini antik dövrə aid etmək olar. Antik dövrün estetik fikirlərindən danışarkən, Pifaqor, Platon və Aristoteldən bəhs etməmək mümkün deyil.

*Pifaqor* bizim eradan əvvəl VI əsrdə yaşamışdır. O, musiqi intervallarının əsasını təşkil edən riyazi münasibətləri üzə çıxarmışdır. Pifaqorun rəqəm estetikasının əsasını ən əvvəl rəqəmlərlə əşyaların bir-birindən fərqləndirilməməsi təşkil edirdi. Lakin bu estetikanın müəyyən inkişaf dövründə artıq rəqəmlərlə əşyaları bir-birindən seçməyə başlamışdılar.

*Platon* (*Əflatun*) – qədim yunan idealist filosofu, Sokratın tələbəsi, Aristotelin isə müəllimi olmuşdur. 30-dan artıq fəlsəfi dialoqun müəllifi olmuş (“Sofist”, “Parmenid”, “Teetet”, “Dövlət” və s.) Platon idealist baxışı müdafiə etməklə dövrünün materialist təliminə qarşı mübarizə aparmışdır. Sokratın, pifaqorçuların, Parmenidin və Heraklitin təlimlərindən geniş istifadə etmişdir. Platon varlığın izahı üçün şeylərin qeyri-cismani formalarının mövcudluğu haqqında nəzəriyyəni inkişaf etdirmişdir. Bu qeyri-cismani formaları o, “görünüşlər” və ya “ideyalar” adlandırmış və onları varlıqla eyniləşdirmişdir. Platon materiya və məkanla eyniləşdirilmiş olan qeyri-varlığı “ideyalara” qarşı qoymuşdur. Ona görə hissi aləm “ideyaların” və “materiyanın” törəməsi olmaqla, həm də onların arasında orta mövqe tutur. “İdeyalar” əbədidir, “səma hüdudlarından kənardadır”, yaranmır, məhv olmur, məkan və zamandan asılı deyil. Hissi şeylər keçicidir, nisbidir, məkan və zamandan asılıdır.

*Aristotel* – qədim yunan filosofudur. O, fəlsəfə, məntiq, psixologiya, etika, estetika, siyasət, fizika, biologiyaya aid fundamental məsələləri tədqiq etmişdir. Aristotel Şərq ölkələrində və Azərbaycanda Ərəstun adı ilə də tanınır.

Hələ Platondan təhsil alarkən Aristotel onun varlıqlara münasibətində ideyaların ilkin olması nəzəriyyəsini tənqid edirdi (o, belə bir fikir də söyləmişdi: – "Platon mənim dostumdur, amma həqiqət daha qiymətlidir"). Aristotel göstərirdi ki, belə yanaşma dünyanı anlatmır, ancaq cisimlərin izahatı lazım gələn kəmiyyəti göstərir. Böyük filosof hesab edirdi ki, mahiyyəti olduğu "varlıqdan" ayırmaq olmaz: əgər varlıqlar duyğulu dərk edilən aləmdə vardırsa, onda mahiyyət ideal axirət aləmində qala bilməz.

Aristotel maddi aləmin obyektiv varlığını qəbul edir və hislərə, anlayışlara və təsəvvürlərə real şeylərin törəmələri kimi baxırdı. Varlığın mahiyyətini o, varlığın özündə axtarırdı. Lakin Aristotel maddədə yalnız passiv başlanğıc görürdü. Onun fikrincə, bu başlanğıc xüsusi aktiv başlanğıca – "formaya" tabe idi və buna görə də bütün "formaların forması"nın ən yüksəyi Allahdır.

Aristotel estetikanın tarixində incəsənətə gerçəkliyi əks etdirən sahə kimi yanaşmışdır. Bu sahədə o, öz müəlliminin – Platonun əsərini ("İdeyalar ideyası" əsərini) tənqid etmişdir. Onun fikrincə, bu ideya həqiqi həyatla əlaqəsizdir. Belə ki, estetika məsələlərinə insanların ictimai vəziyyətləri ilə sıx əlaqədə baxılmalıdır.

O, hesab edirdi ki, səxavət yalnız azad insana aid bir xüsusiyyətdir. Qullar heç zaman səxavətli ola bilməzlər, onlar pozğundurlar. Aristotel qulu ağasının "danışan alət"i simasında görürdü. Ona görə də bu alimin ictimai-siyasi və fəlsəfi görüşləri özünün "ən mükəmməl sistem" saydığı quldarlığın möhkəmlənməsinə yönəlmişdi. Aristotel fəlsəfəsi bəşəriyyətin ictimai fikrinin sonrakı inkişafına çox ciddi təsir göstərmişdir. Aristotel Qərb fəlsəfəsinin inkişafı ilə yanaşı, Şərq və Azərbaycan fəlsəfəsinə də çox ciddi təsir göstərmişdir.

## 2. İntibah dövrü



"Xanım və təkbuynuz".
Rəssam Rafael Santi.

İntibah dövrü dini və maarifçi ədəbi şərh dövrlərinin sərhədi, keçid dövrüdür. İntibahı şərtləndirən əsas hadisələrdən biri elmlərin, xüsusilə tarixi və təbiət elmlərinin müstəqil fənlər kimi formalaşması idi. Nəticədə tarixin dünyəvi mənzərəsi ortaya çıxaraq intibah dahilərinə anlatdı ki, tarix fatalist yazının yox, insanların, qəhrəmanların və avantüristlərin fəaliyyətlərinin nəticəsi olub. İntibah ədəbiyyatında insanlığın tarixi Allahın iradəsinin tarixi kimi deyil, insanların iradəsinin tarixi kimi yaranmışdır. İntibah dövründə qədim yunan-Roma bütpərəst mədəniyyətinin və tarixinin bərpası baş vermişdi. Elə renessans sözü də fransızca bərpa, dirçəltmə deməkdir. Təsadüfi deyil ki, renessans dövrü təkcə ədəbiyyatda deyil, rəssamlıq və heykəltəraşlıqda da, arxitektura və teatrda da özünü göstərmişdi.

Dini ədəbiyyat Allahla bağlı ideyaların şərhi idi. Şərqin Molla Rumi, Füzuli kimi dahiləri özlərini şair yox, Allaha yaxınlaşmaq, onu dərk etmək elminin – təriqət elminin xidmətçiləri sanırdılar. Onlar özlərinin Allaha məhəbbətləri qarşısında sanki müəllif yaradıcılığından imtina edirdilər. Lakin müəllif yaradıcılığı bundan köklü şəkildə fərqlənirdi. Müəllif – iddialı, ilk növbədə isə şairlik, ədəbi və fəlsəfi yaradıcılıq iddiası olan şəxsiyyətdir. O, bu iddia ilə özünü Allahın xidmətçisi deyil, sənət və ədəbiyyatın xidmətçisi kimi tanıdır. Amma müəllif ədəbi yaradıcılığı Şekspir, Servantes, Dante, Bokaçço kimi intibah dahilərinin əsərləri ilə insan ehtiraslarının tərcümanı oldu, insanı, onun gücünü, sevgisini və eyni zamanda bütün eybəcərlik və qüsurlarını, yəni estetik kateqoriyalarını tərənnüm etdi.

Məhz intibah dövründə ədəbi şərh, estetika, fəlsəfə və qədim tarix müstəqil elmlərə çevrilərək dini ehkamlardan uzaqlaşdı. İntibah mütəfəkkirlərinin fəaliyyəti, habelə onların əsərləri maarifçiliyin böyük nümayəndələri Volter, Didro, Monteskyö və b. üçün örnək oldu. İntibah klassiklərinin əksəriyyəti rahiblər və ya dini təhsilli insanlar olsa da, lakin sanki tarixi prosesin özü dini ehkamlar çərçivəsindən çıxararaq, onları dünyaya yeni, sağlam dünyəvi nəzərlərlə baxmağa və bu baxışları təbliğ etməyə sövq etdi. Canlı həyata, insan ehtiraslarına, sevgi və faciələrə maraq intibah dövründə realizmin xüsusi formasını ortaya çıxardı. Buna **intibah realizmi** deyilir. Dini ədəbiyyat intibah dövründə tam aradan çıxmadı, lakin bu ədəbiyyatın yanında əsas qəhrəmanı insan olan ədəbiyyat yarandı. Beləliklə, bütün mədəniyyətin mərkəzində Allah ideyası ilə yanaşı duran qəhrəman – iradəli, eyni zamanda tərəddüdlərə və səhvlərə meyilli olan insan obrazı meydana çıxdı.

## 3. Romantizm dövrü



“Vezuvi vulkanının püskürməsi”.
Rəssam Yuhan Kristian Dal.

Romantizm dünya mədəniyyətində maarifçi ədəbi tərəqqinin bir dövrüdür. Ona görə romantizmi metod, cərəyan və s. kimi təqdim etmək əsassızdır. Romantizm terminini ilk dəfə işlətmiş alman nəzəriyyəçisi Fridrix Şlegel 1798-1800-cü illərdə yazdığı silsilə jurnal məqalələrində romantizmi dövrün tələblərinə ən uyğun olan müasir sənət forması kimi təqdim edirdi.

Əlbəttə, Şlegel haqlı idi, çünki onun dövründə romantizm ədəbi tərəqqinin ən yeni tendensiyalarını təmsil edirdi. Bu, keçid mərhələsi idi. Bəs onda gəlin, baxaq bu nəyə keçid idi?

Bu, ilk növbədə müasir müəllif yaradıcılığına, həm də realizm epoxasına keçid idi. Romantik epoxanın keçid xarakteri ən çox onun tarixilik duyğusunun erkən xarakterində idi.

Romantik qəhrəmanların məna və ehtiraslar baxımından monumentallığı ümumi tipoloji bir xüsusiyyət idi. Romantik əsərlərdə bu qəhrəmanlar çox vaxt digər bir qəhrəmana qarşı deyil, bütün dünyaya qarşı qoyulurdu. Romantiklərdə insanın iç aləminə, qəlb aləminə, estetik duyğularına maraq onların fərdi üslubuna bağlı deyildi. Romantiklərin insanın dərkində irəlilədikləri öz hüdudları vardı: onlar insanın psixoloji və emosional koordinatlarını təsvir etməkdə xeyli irəli getmişdilər. Lakin romantik qəhrəman bütöv halda hələ canlı adamdan çox, insan konsepsiyası və ideyası idi. Onların çoxu kitab mədəniyyəti ilə bağlı olan ideyaların ədəbi illüstrasiyası kimi yaradılırdı. Onlarda koloritli adam cizgiləri universal adam ideyasının cizgilərindən az idi.

Romantizmin klassik dövrü Böyük Fransa inqilabından, XIX əsrin birinci yarısına qədərki dövrü əhatə edir. Lakin onun Şərqi Avropa xalqlarının və bir çox Şərq xalqlarının ədəbiyyatlarındakı təzahürü daha sonrakı dövrləri əhatə edir. Məsələn, Azərbaycanda romantik cərəyan XX əsrin əvvəllərində, realist cərəyanla eyni vaxtda yaranmış və M.Hadi, A.Səhhət kimi klassiklərin yaradıcılığında özünü göstərmişdir.

Bir çox romantiklərdə konkret gerçəklik, tarixi reallığın özü qeyri-estetik bir şey sayılırdı. Böyük romantiklərin hamısı ədəbi tərbiyəsi, şəxsi zövqü baxımından intibah dövrünün dahilərinə bağlı idilər. Onların universal əxlaqi və estetik dəyərlərə, süjetlərə və qəhrəmanlara meyli də buradan irəli gəlirdi. Onlarda gerçəkliyin qeyri-estetikliyi barədə qənaəti ilk burjua inqilablarının qanlı və amansız təcrübəsi yaratmışdır.

## 4. Maarifçilik dövrü

XVIII əsrin ilk onilliyinin sonunda yaranıb, XIX əsrin iyirminci illərində bütün dünyaya yayılan maarifçilik tarixə ağıl, tərəqqi, milli mədəniyyətlərin inkişafı mərhələsi kimi daxil olmuşdur. İctimai-siyasi, sosial-iqtisadi mahiyyət kəsb edən maarifçilik öz faliyyətində və eyni zamanda inkişafında dövrün estetik fikrindən geniş istifadə edir, bədii yaradıcılığın, elmi-nəzəri fikrin ideya-təsir gücünə arxalanırdı. Heç də təsadüfi deyil



“Uoldqreyv bacıları”.
Rəssam Joşua Reynolds.

ki, maarifçiliyin beşiyi sayılan Fransada bu hərəkatın aparıcı, daşıyıcı simaları məhz fransız yazıçıları olmuş və onların yaradıcılığı əsasında fransız ədəbiyyatı maarifçiliyin klassikası hesab edilmişdir. Bu da tarixi faktdır ki, "maarifçilik dövrü" terminini də tarixə məhz fransız dramaturqu Volter bəxş etmişdir. Dünya maarifçi estetikasının nümayəndələri öz əsərlərində birinci vəzifə olaraq dövrün mədəniyyət nəzəriyyəsinə, ağıl proqramına cavab verən məsələləri işıqlandırır, "biliksizlikdən biliyə, az bilikdən tərəqqiyə, inkişafa" şüarı ilə çıxış edir və ən başlıcası, belə hesab edirdilər ki, yalnız elmi tərəqqinin sayəsində yeni ictimai-iqtisadi, mədəni inqilab pilləsinə qalxmaq mümkündür. Təsadüfi deyil ki, Volter maarifçilik dövrü İngiltərəsini "Ağıl adası" adlandırmışdır. Maarifçilik hərəkatı nümayəndələri birmənalı şəkildə etika məsələsini irəli sürür və tarixi baxımdan onun həllini məqsədəuyğun hesab edirdilər.

## 5. Realizm dövrü

Romantiklərdə parlaq sosial təsvirlər tapmaq olar. Lakin bütünlükdə cəmiyyəti təhlil etmək, onun dərin qatlarına, siniflərinə, bütün peşə adamlarına bədii işıq salmaq yaradıcılıq məqsədi kimi romantiklər üçün maraqsız idi. Onlar üçün həyatın prozası, adiliyi qeyri-estetik bir material sayılırdı. Lakin romantiklərin qeyri-estetik, ədəbiyyat üçün maraqsız saydıqları həyat materialı realizm epoxasının əsas bədii hədəfi oldu. Marksist nəzəriyyədə realizm, bir qayda olaraq, tipikliklə əlaqələndirilirdi. Şübhəsiz ki, tipiklik romantiklərdə də kifayət qədər var idi və onu realist ədəbiyyatın əsas əlaməti saymaq düzgün deyildi. O biri tərəfdən tipikliyin özü də nisbi bir anlayış idi. Bir-iki halı da, milyon variantda təkrarlanan variantı da tipik adlandırmaq olardı.


Lev Tolstoyun portreti.
Rəssam İ.Repin.

Tənqidi realizmin ümumi əlaməti onun bütün böyük nümayəndələrinin içində yaşadıqları cəmiyyətə qarşı mənəvi (siyasi yox) **müxalifətdə** olmaları idi. Bu müxalifətçilik L.N.Tolstoy, M.F.Dostoyevski, İ.S.Turgenev, A.P.Çexov kimi rus tənqidi realistlərində daha güclü idi. Bu, Rusiya cəmiyyətindəki faciəli ziddiyyətlərlə bağlı idi.

Tənqidi realizm epoxası üçün incəsənətin tamam **tarixilik prinsipinə keçməsi** səciyyəvi idi. Zaman və məkan konkretliyi, birmənalı milli zəmində durmaq realizmin ilkin əlamətlərindən biri idi. Ona görə realizm epoxası hər xalqın ədəbiyyatına özünəməxsus tarixi və milli həqiqətləri

əks etdirən bir hadisə kimi daxil olaraq, xalqların milli həyatının və tarixinin bədii mənzərəsi və salnaməsi kimi meydana çıxır. Romantizmdə bədii həqiqətin belə milli konkretliyi prinsip səviyyəsində yox idi. İntibah, klassisizm, romantizm epoxaları ədəbi obrazın məzmunca tarixiləşməsi baxımından, ardıcıl bir prosesin mərhələləri idilər. Məhz realizm epoxasında ədəbi obraz vasitəsi ilə tarixi həqiqətlərin əks etdirilməsinin təkmilləşmə prosesi tamamlanırdı. Ədəbiyyatda realizmin əsas janrı olan iri nəsr – roman janrı **milli bir janr olmağa** və adlanmağa başladı. Milli tarixilik zəminində yazılan romanlarda bədii obraz sistemi birmənalı milli və konkret tarixi məzmun daşıdığından, roman əsas milli janr hesab edilməyə başladı. Realist obraz estetik nöqteyi-nəzərindən sosial və milli əlamətləri əks etməklə yanaşı, həm də **fərdi həqiqətləri** əksetmədə də ədəbi tərəqqinin yüksək səviyyəsi oldu.

## 6. Sosialist realizminin estetik prinsipləri

Sosialist realizmi termini SSRİ-də bolşevik inqilabından sonra sovet hakimiyyətinin rəsmi himayə etdiyi ədəbiyyatın adı kimi yaranmışdır. Sosialist realizminin əsas vəzifəsi sovet dövlətinin və kommunist partiyasının üstünlüklərini və yaxşılığını tərənnüm etmək idi. Bu təkcə poeziyadan yox, bütün janrlardan tələb olunurdu. Beşillik planlar, İ.Stalinin və V.Leninin şəxsiyyəti, kommunist partiyasının siyasətindən gələn bütün kampaniyalar ədəbiyyat tərəfindən himayə olunmalı, böyük uğurlar, əmək adamlarına qayğı və s. kimi təqdim edilməli idi. Hələ proletar ədəbiyyatı dövründən başlayaraq, yazıçıdan həyatı inqilabi inkişafda göstərmək tələb olunurdu. Bunun üçün xüsusi bir tipiklik konsepsiyası yaradılmışdı. Bir milyon fakt qeyri-tipik sayıla bilərdi, amma inqilabi inkişafı göstərən bircə fakt isə, əksinə, tipik elan olunurdu. Həyata belə yanaşmaq tələbi hər bir müəllifin istedadına qarşı zorakılıq idi, çünki o, öz bildiyi və duyduğu şeyləri incəsənətə gətirə bilməzdi. Əgər belə təşəbbüs edilsə idi belə, rəsmi tənqid silahlanıb həmin yazıçını sovet gerçəkliyini təhrif etməkdə ittiham edirdi. Belə müəlliflər rəsmi partiya sənədlərində də pislənirdi.



“Fəhlə və kolxozçu”.
Heykəltaraş V.İ.Muxina.

**Müsbət qəhrəman.** Sosialist realizminin əsas estetik prinsiplərindən biri sovet həyatının yaxşılığa doğru inkişafını göstərən, sosializmə xidməti – həyat idealı sayan insanların obrazlarını yaratmaq idi. Əslində, həyatda belə adamlar yox idi, bəlkə, çox az və qüsurlu adamlar vardı. Partiya və dövlət orqanlarında

karyera quran adamların əksəriyyəti simasız, tamahkar, yaltaq insanlar idi. Amma partiya onları ideal insanlar kimi göstərməyi tələb edirdi. Bu tipik müsbət qəhrəman – **əmək adamı** idi. Ədəbiyyatda yaradılmış bu qəhrəman şəxsi mənafe və maraq hissindən məhrum, istehsalatda çalışan fəhlə idi. Hətta bu fəhlənin belə heç bir şəxsi qüsuru ola bilməzdi. Əslində, müsbət qəhrəman konsepsiyası sosialist realizmində cəmiyyəti müsbət planda təqdim etmək üsulu idi. Buna isə sovet ədəbiyyatının təsdiq pafosu adı verilmişdi.

Lakin sosialist realizmi ədəbiyyatının içində milli əqidəli, istedadlı, vicdanlı yazıçılar da olmuşdular. Məhz onlar – C.Cabbarlı, S.Vurğun, M.İbrahimov, İ.Əfəndiyev, B.Vahabzadə kimi yazıcılar sovet dövrü Azərbaycan ədəbiyyatında milli bir ədəbiyyat xətti yarada və qoruya bilmişdilər. Ona görə sosialist realizmi ədəbiyyatının içində həqiqi bir milli ədəbiyyat yarandığını da inkar etmək doğru deyildir.

Bütün bu deyilənlərdən bir nəticə çıxarmaq olar: ictimaiyyət arasında ideya-mənəvi, estetik və əxlaqi tərbiyə işini, mədəni dəyərlərin tətbiqi sistemini tənzimləmədən, başqa sosial, siyasi, iqtisadi sahələrdə mütərəqqi nəticələrə nail olmaq çətinləşər.

# II HİSSƏ

## ETİKA ELMİNİN MÖVZUSU VƏ VƏZİFƏLƏRİ

### 1. Etika elminin predmeti

Etika – fəlsəfi elmlər sistemində mühüm yer tutan **əxlaq** haqqında elmdir.

Hələ ibtidai dövrdə insanların müəyyən adət-ənənələr, qaydalar, qadağalar və s. formada mövcud olan münasibətləri zaman keçdikcə mürəkkəbləşir, yeni məzmun kəsb edirdi. Bu münasibətlər ibtidai insanların dünya haqqında təsəvvürlərini təşkil edən totemizm, animizm, fetişizm və magiyanın təsiri altında getdikcə dəyişirdi. Beləliklə, həyat fəaliyyəti prosesində inkişaf edən bu təsəvvürlər əsatir fəlsəfəsinin formalaşmasını təmin etdi.

İlk sinifli cəmiyyətdə insanların şüuru xeyli irəliləyərək əsatiri yaratsa da, qədim dövrə xas olan mifoloji dünyagörüş hələ yalnız "fəlsəfənin kandarına" çatmaqda idi. Bununla belə, sinkretik (bölünməmiş) mifoloji dünyagörüş dünya haqqında tam təsəvvür yaradan, dünyanı bütöv, küll halında öyrənən fəlsəfi dünyagörüşün sələfi oldu. Mifoloji dünyagörüş insanların siyasi, hüquqi, dini, elmi, fəlsəfi, əxlaqi, estetik və s. görüşlərini vəhdətdə əks etdirirdi.

Tam fəlsəfi dünyagörüş isə məhz antik quldarlıq dövründə formalaşdı. Qədim Hindistan və Çində əsası qoyulmuş müxtəlif fəlsəfi sistemlər məhz antik dövrdə sürətlə inkişaf etməyə başladı.

Dünyanın necə yaranması, insanın ölümü, həyatı və s. kimi suallar insanları hələ qədim dövrdən maraqlandırsa da, o zaman onlar bu problemlərə sırf mifoloji aspektdən yanaşır, bunları fəlsəfi cəhətdən nə ümumiləşdirə, nə də dərk edə bilirdilər. I minilliyin ortalarında (e.ə. VII əsrdə) Hindistanda, Çində fəlsəfi məktəblər yarandı və tezliklə bu dalğa antik dövrü bürüdü. Müxtəlif fəlsəfi suallarla dolu olan "Avesta" da məhz bu zaman meydana gəldi. Beləliklə, fəlsəfənin əsas məsələsinin iki tərəfini təşkil edən – "dünya nədən yaranıb" və "dünyanı dərk etmək mümkündürmü" sualları konkretləşərək fəlsəfi dünyagörüşün təməlini qoydu.



Demokrit

Antik dövrün ilk fəlsəfi məktəbi olan Milet məktəbinin nümayəndələri – Fales, Anaksimandr, Anaksimen (e.ə. VII əsr), sonrakı dövrdə pifaqorçular (e.ə. VI əsr), daha sonra Heraklit, Demokrit, Empedokl və b. əsasən obyekt-subyekt (yəni dünya-insan) münasibətləri ilə məşğul olur, dünyada baş verən bütün

hadisələri kosmosla əlaqələndirirdilər. Bugünkü mənasından daha geniş olan antik “kosmos” anlayışına kosmosla yanaşı, təbiət, hətta insanda aid idi. Yalnız təbiəti təhlil etməklə məşğul olan filosoflar üçün kosmos ön, insan isə arxa planda idi. Dünyaya bu cür yanaşma sonradan “kosmologizm” adlandırıldı və bu hal e.ə. V əsrədək davam etdi.

Dünyanın mahiyyətini anlamağa çalışan filosoflar fəlsəfənin ənənəvi problemləri olan “dünya necə yaranıb”, “dünyanı dərk etmək mümkündürmü”, “dünyanı dərk etmək yolları hansılardır” və s. suallarla yanaşı, “insanın dünyada mövqeyi”, “insanın həyatı”, “cəmiyyətdə fəaliyyəti”, “ictimai mahiyyəti”, “birgəyaşayış normaları” kimi həyati əhəmiyyətli digər məsələlərə də cavab axtarmağa başladılar. Artıq filosoflar yalnız obyekt-subyekt (təbiət-insan) münasibətləri ilə deyil, həm də subyekt-subyekt (insan-insan) münasibətləri ilə də maraqlanırdılar. Bu problemin sürətli inkişafı e.ə. V əsrdən, Sokratın dövründən başladı. “Kosmologizm” (dünya əhəmiyyətli problemləri kosmosa istinadən izah etməyə çalışmaq) “antropologizm”lə (antropologiya – insan haqqında elmdir, bu nəzəriyyəyə görə, artıq kosmos arxa plana, insan ön plana keçir) əvəz edildi. “Əxlaq nəzəriyyəsi” haqqında təlim yaradan Sokratın fikrincə, idrakın əsas məqsədi özünüdərketmə idi. Bu alimin “öz-özünü dərk et, onda insanları və allahları da dərk edərsən” ifadəsi həmin dövrdə çox məşhurlaşmışdı. Beləliklə, insan, onun taleyi, həyatdakı mövqeyi, idrakı, özünü dərketməsi fəlsəfədə mühüm yer tutdu.

İnsanlar arasında müxtəlif ictimai münasibətlərin formalaşması, məsələn, xeyirxahlıq, qarşılıqlı hörmət, əməyə tələbat, bəşəriyyətə xidmət etmək istəyi, dərin və incə hislər və s. sosial münasibətlər sistemində mühüm yer tutan və əxlaqi münasibətləri öyrənən “Etika”nın da fəlsəfənin tərkibinə daxil olan digər elmlər kimi inkişaf edərək müstəqil elmə çevrilməsinə səbəb oldu. Fəlsəfi dünyagörüşə daxil olan, yəni dünyanı fəlsəfi cəhətdən dərketmə vasitəsi olan təbiət elmləri, məsələn, riyaziyyat, zoologiya və s. inkişaf edib fəlsəfədən ayrıldıqdan və müstəqillik əldə etdikdən sonra daha fəlsəfi elm sayılmadığı halda, etika, estetika, dinşünaslıq və s. kimi ictimai elmlər fəlsəfədən ayrıldıqdan sonra da fəlsəfi elm olaraq qalırdı. Çünki bu ayrılma həmin elmlərin fəlsəfi xarakter daşımasına mane olmurdu. Onların bir-biri və fəlsəfə ilə həm dünyagörüş, həm də mifoloji bağlılığı əvvəlki kimi mövcud olaraq qalır.

Əxlaq haqqında elm olan “Etika” fəlsəfənin insan həyatının praktik məsələləri ilə daha çox bağlı olan sahəsidir. O, insanın gerçəkliyə əxlaqi münasibətlərinin qanunauyğunluqlarını, cəmiyyətin əxlaqi şüurunun strukturunu, insanların əxlaqi təcrübəsini, əxlaqi görüşlərini, insan əməllərinin məqsədini, insanın rəftarını idarə edən motivləri, onların mənəvi qiymətləndirilməsinin obyektiv meyarını aydınlaşdırır. Etika “insanın davranışı necə olmalıdır”, “insan hansı mənəvi keyfiyyətə malik olmalıdır”, “hansı normaları rəhbər tutmalıdır” kimi suallara cavab verməyə çalışır.

Əxlaq nəzəriyyəsi olan "Etika" xeyir, şər, ədalət, borc kimi kateqoriyaların münasibətlərini təhlil edir, mənəvi hissləri, emosiyaları, vərdişləri, adət və ənənələri nəzərdən keçirir. "Etika" insanın sirlərinə, onun digər insanlarla və bütün dünya ilə münasibətlərinə, insan varlığının ən dərin problemlərinə müraciət edir. Beləliklə, "Etika" əxlaqa və əxlaqi dəyərlərə aid hər nə varsa, hamısını öyrənir. Lakin "Etika" nə əxlaqı, nə onun prinsip və normalarını, nə də yeni davranış qaydalarını yaratmır, o yalnız bunların mənbəyini və mənşəyini tədqiq edir, insanın davranışı ilə əlaqədar əxlaqi qiymətləndirmənin xarakter və mahiyyətini öyrənir, bunları ümumiləşdirir və sistemləşdirir, əxlaq nəzəriyyələrini formalaşdırır. "Etika" yalnız bu və ya digər hallarda necə hərəkət etmək lazım olduğunu öyrədən normativ elm yox, həm də mürəkkəb və ziddiyyətli əxlaqi münasibətlərin və əxlaqın təbiətini öyrənən nəzəri təlimdir. Aristotel "Nikomax etikası"nda (3, I kitab, I fəsil) yazır ki, "Etika"nın əsas məqsədi bilik yox, əməldir.

Digər fəlsəfi elmlər kimi, "Etika" da anlayış və kateqoriyalar sistemindən istifadə edir ki, bunların vasitəsilə gerçəkliyin ayrı-ayrı detalları, tərəfləri deyil, bütövlükdə gerçəklik əks etdirilir. Məsələn, "həqiqəti danışmaq xeyirxahlıqdır" mühakiməsi bütün adamlara və cəmiyyətə aid ola bilər. "Etika" özünəməxsus, ənənəvi kateqoriyalar olan xeyir və şər, ədalət və s. ilə bərabər, həmçinin əxlaqi şüur, əxlaqi fəaliyyət, norma, məqsəd, münasibət və s. kimi universal anlayışlardan da istifadə edir.

Əxlaqdan bəhs edən "Etika" yunanca "ethos" (tələffüzdə etos kimi də işlətmək olar) sözündən olub, etimoloji mənası – adət, ənənə, xarakter, vərdiş, davranış, temperament deməkdir.

"Etika"nın həm termin, həm də ayrıca elm kimi yaranması Aristotielin adı ilə bağlı olsa da, bu prosesin formalaşması çox-çox əvvəllərə aid edilir. İbtidai dövrün dini təsəvvürləri, əsatirlər, nağıllar, atalar sözləri, zərb-məsəllər insanın təbiətə münasibətini, insanın dünyadakı mövqeyini, insanlar arasındakı münasibətləri özünəməxsus şəkildə dərk etmək və əks etdirmək üçün ilk təşəbbüs olmuşdur. E.ə. I minilliyin ortalarında cəmiyyətdə baş verən qlobal siyasi dəyişikliklər, qəbilə-icma münasibətlərinin, köhnə adət-ənənələrin sıxışdırılması, dövlətin möhkəmlənməsi və hakimiyyəti öz əlinə alması yeni baxışların, idealların və insanlar arasındakı yeni münasibətlərin formalaşmasına tələbat yaratdı. Bu dövrdə qədim Hindistanda, Çində və Yunanıstanda müxtəlif etik nəzəriyyələr meydana gəldi.

İlk dəfə olaraq Aristotel "ethosu" həm isim – "etika", həm də sifət – "ethikos" kimi işlətdi. O, "ethos"u "insanların adət etdikləri yaşayış məskəni", daha sonra isə sadəcə olaraq "adət", "vərdiş", "xarakter", "temperament" kimi mənalardan uzaqlaşdıraraq insan keyfiyyətlərini, insanın fərdi xüsusiyyətlərini ictimai əxlaqın müəyyən adət edilmiş formaları ilə vəhdətdə nəzərdən keçirən "etik" – "ethikos" şəklinə saldı. Aristotelin fikrincə, bu keyfiyyətlər "etik fəzilətlər" olub, "etika"nın əsas tədqiqat obyektini təşkil edir.

Etik fəzilətlər insanın xarakterinin, temperamentinin xüsusiyyətləri, habelə qəlbinin keyfiyyətləridir. Onlar, bir tərəfdən, bədən xüsusiyyətlərinə aid olan affektlərdən, digər tərəfdən isə əqli xüsusiyyətlərə aid fəzilətlərdən fərqlənirlər. Bu haqda biliklərin və etik fəzilətlərin məcmusunu bildirmək məqsədilə Aristotel məhz "etika" terminini irəli sürmüşdür.

Adında "etika" sözü olan ilk əsərləri də Aristotel yazmışdır: "Nikomax etikası", "Evdem etikası", "Böyük etika". Etik problemlər Aristotelin digər əsərlərində də mərkəzi yer tutur. Məsələn, "İkinci analitika", "Politika", "Ritorika" və s. əsərlərində Aristotel etikadan əsasən 3 mənada söhbət açır:

1) *etik nəzəriyyə;*

2) *etik kitablar;*

3) *etik təcrübə.*

Əsərlərin adlarının məhz "etika" sözü ilə bağlı olması ənənəsi Aristoteldən sonrakı dövrlərdə də davam edir. Məsələn, orta əsr fransız ilahiyyatçısı və filosofu Pyer Abelyarın (1079-1142) "Etika və ya özünü dərk et" əsəri, fəlsəfəsinin əsas hissəsini etik nəzəriyyələrin işlənməsinə həsr edən və əslən yəhudi olan XVII əsr holland filosofu Benedikt Spinozanın (1632-1677) ömrünün sonunda, yəni 1677-ci ildə yazdığı və ölümündən sonra nəşr olunan "Etika" əsəri, irrasionalizmin nümayəndəsi olan alman filosofu Eduard Qartmanın (1842-1906) 1898-ci ildə yazdığı "Etik oçerklər" kitabı buna misaldır.

"Etika" sözünün tarixi bir daha Roma zəminində təkrar olunur. Romalılar, xüsusən də Siseron yunan təcrübəsinə və birbaşa Aristotelə istinad edərək, öz dediyi kimi, latın dilini zənginləşdirmək məqsədilə Aristotelin yunan dilində olan "etik" anlayışından, "moralis", yəni "əxlaqi" terminini yaratdı. O, bunu tək halda "mos", cəm halda "mores" kimi işlədib ki, bunlar da yunanca olan "ethos" sözünün birbaşa latın analoqudur. Siseron bu haqda "Tale haqqında" adlı əsərində yazaraq əxlaq fəlsəfəsindən danışır, həm də bu zaman Aristotelin "Etika" adlandırdığı biliklər sistemini nəzərdə tutur. Öz yunan sələfi kimi, xasiyyət, adət, xarakter, davranış, xassə, qanun, göstəriş, dəb (moda), paltar biçimi (fasonu) mənalarını verən "moralis"dən sonralar, eramızın IV əsrində latın dilində "moralitas" – əxlaq termini yaranır ki, bu da yunan "etika" termininin latın ekvivalentidir.

Beləliklə, yunan dilindəki "ethika" və latın dilindəki "moralitas" sözləri etimoloji məzmununa görə bir-birinə uyğun gəlir. Bunlar xalq şüuru ilə deyil, tədqiqat məqsədilə süni surətdə yaradılmışdır. Bu gün dünyanın bir çox ölkələrində "etika" və "moral" (əxlaq) sözləri geniş yayılmışdır.

Müasir etika yalnız fəlsəfənin digər bölmələrini deyil, həmçinin psixologiya, pedaqogika, tarix, etnoqrafiya, sosiologiya, dinşünaslıq, estetika, arxeologiya və hətta biologiya ilə də sıx əlaqədə inkişaf edir.

## 2. Qədim Hindistanda və Çində etik fikir

Fəlsəfə kimi, etika da Qədim Şərq ölkələrində inkişaf etməyə başlamışdır. Misir, Babilistan, Hindistan və Çində formalaşmağa başlayan etik nəzəriyyələr sonralar Qədim Yunanıstan və Qədim Romada özünün tam ifadəsini tapır.

Qədim Hindistanda xüsusi ayin şəklində mövcud olan əcdadlara münasibət sonralar müxtəlif etik nəzəriyyələrin formalaşmasında müəyyən izlər buraxmışdır.

Vedant etikasına görə (məktəbin adı "Vedin sona çatması" mənasını verir), hər şeyin əsası və başlanğıcı mütləq substansiya olan Brahmanlardır, hər şey ondan əmələ gəlir və ona qayıdır. Lakin o, etiqad obyekti yox, abstrakt təfəkkür obyektidir ki, bunun vasitəsilə dindarlar ona qovuşmağa çalışırlar və həm də bu – yeganə reallıqdır. Bu fəlsəfəyə görə, idrakın məqsədi dünya haqqında olan səhv təsəvvürlərdən xilas olmaqdır. Brahmanda ifadə edilən həqiqətə çatmaqdırsa, əxlaqın məqsədi aldadıcı bağlılıqdan, ehtiraslardan və "yeddi günahdan" (sərxoşluq, sümük oyunları, qadınlar, ovçuluq, çubuq vurma, söyüş və şəxsi mülkiyyət hüquqlarının pozulması) xilas olub, təmizlənməkdir. Yalnız xeyirxahlıq nümunəsi olan Brahmana bələd olanlar yüksək sərvətlərə nail ola bilərlər. Xeyirxahlıq 3 əməllə konkretləşdirilir: təmkinli olmaq, ürəyiyumşaq olmaq, hədiyyələr etmək. İnsanın əxlaqi borcu hər kəs üçün müəyyən edilmiş həyat tərzi qanununa riayət etməkdir ki, buna da "dharma" deyilir. Vacib fərdi əxlaq qanunu kimi işlənən bu ifadə nəinki Vedant etikası, həm də bütünlükdə Qədim Hind etikası üçün mühüm əhəmiyyət kəsb edir. Bu haqda "Upanişad" və xüsusən də "Manu qanunları"nda ətraflı məlumat verilir. Müxtəlif davranış formaları (həzz, xeyir, borc, xilasolma) müxtəlif kateqoriyalı insanlar üçün (şagird, ailə başçısı, dilənçi, dərviş) başqa-başqa mənalar kəsb edir. Məsələn, insanların öz vəzifələrini yerinə yetirməsi – adət və ənənələrə riayət etmək, ata və babaların yolu ilə getməkdir. Bu yolla gedənlər məhv olmurlar. Xeyirxahlıqdan uzaqlaşanların isə ya özləri, ya da övladları və ya nəvələri cəzaya məruz qalırlar. Həmçinin özü də əvvəl-axır ziyan çəkməkdən yaxasını qurtara bilmir. Vedant təlimi obyektiv idealizmə yaxın idi. Bu təlimin tərəfdarları üçün digər təlimlərə riayət edənlər kafir sayılırdılar.

Yoq fəlsəfi-etik konsepsiyası "Yoqa-sutra" ilə əlaqədar olub, kifayət qədər son dövrləri əhatə edir (e.ə. II əsr). Lakin praktik baxımdan yoq məşğələlərinin tarixi daha qədim olub, nəinki "Mahabharata"da, hətta "Upanişad"da da xatırlanır. Yoqa aid edilən bəzi hərəkətlərə Vedlərdə də təsadüf olunur. Yoqla məşğul olanların əsas vəzifəsi əqli yanlışlıqdan, səhv olandan təmizləmək və aydınlığa çıxmaqdır. Həyat sakitliyə və sülh axtarışlarına həsr olunmalıdır. Bunun üçün bütün əzablardan yaxa qurtarmaq lazımdır. Yoq təlimini Qədim Hind fəlsəfəsinin digər cərəyanlarından fərqləndirən odur ki, o, insana passiv icraçı kimi

deyil (məsələn, "Vedanta"da olduğu kimi), aktiv və öz hərəkətləri üçün məsuliyyət hiss edən insan kimi baxır. Yoq məşğələlərinin populyarlığı yalnız bu təlimin tərəfdarları arasında deyil, daha geniş auditoriya daxilində mövcuddur. İnsanın fiziki və psixi halı arasında əlaqə yaratmağa çalışan yoq məşğələləri psixoloji problemləri həll edərkən özünəməxsus "psixoterapiya" və "autotreninq" üsullarından istifadə edir.

**Caynizm.** Ortodoksal məktəblər brahmanların maraqlarını ifadə etdiyindən, demokratik təlimlərin yaranması zəruri oldu. "Kafir" təlimləri sayılan qeyri-ortodoksal məktəblər e.ə. VII-VI əsrlərdə yaranaraq, ənənəvi brahmanizmə qarşı müxalifətə çevrildi. Öz mövcudluğunun ilk yüzilliyində caynizm əhəmiyyətli dərəcədə geniş yayılaraq, e.ə. IV-III əsrlərdə hətta buddizmlə rəqabət aparırdı. Lakin yeni dövrdə o, tədricən qapalı təriqətə çevrilməyə başladı.

Caynist etikasında insanın ruhu mühüm yer tutur. Bədənə yapışmasına baxmayaraq, ruhun azad seçim hüququ var. Ruhu azad etmək üçün onu materiyadan ayırmaq lazımdır. Kamil bilik, kamil intuisiya və ali nemətlər – ruhun bu dünyada insana məlum olmayan atributlarıdır. Bilik – ruhu materiyadan azad etmək üçün lazımdır, çünki cahillikdən ehtiraslar yaranır. Düzgün inam, düzgün idrak və düzgün davranış – azadlığa çıxmağın üç yoludur ki, bunun üçün də müəllimlərin dediklərini öyrənmək, onların nüfuzunu təsdiq etmək və onlara inanmaq lazımdır: düzgün inam həqiqətə hörmət etməkdir. O, fanatik yox, rasionaldır. Həqiqət axtaran müəllimlərin baxışlarının dərininə getdikdə kamil inam əldə edilir. Düzgün idrak – "mən" və "qeyri-mən"in, yəni ruhun və materiyanın real təbiətini dərk etməkdir. Kamil bilik və kamil inam birləşərək düzgün davranışa təsir edir. Düzgün davranışın məğzi buddistlərin də riayət etdiyi "5 böyük andın" yerinə yetirilməsindən ibarət idi: 1) *canlıya ziyan toxundurmamaq* (bura heyvanlar və bitkilər də aid idi, çünki onların ruhu var. Ov, balıqçılıq, hətta əkinçilik də qadağan edilirdi, çünki torpağı şumlayan zaman həşəratlar məhv ola bilərdi ki, bu da günah hesab edilirdi. Caynistlər hətta nəfəs alanda parçadan istifadə edirdilər ki, təsadüfən ağızlarına və ya burunlarına həşərat girməsin); 2) *yalandan uzaq olmaq, həmişə düz danışmaq;* 3) *oğurluq etməmək;* 4) *tamahını saxlamaq* (həzz aldığın bütün şeylərdən imtina etmək, hətta evlənməmək, cənnətdə olmağı belə arzulamamaq); 5) *bütün xoşagələn şeylərdən imtina etmək – səs, təmas, rəng, dad, qoxu.* Caynist təriqətlərinin birində – diqambarada hətta geyimdən də imtina edirdilər, çünki bədənin parça ilə örtülməsi gündəlik rahatlıq üçün edilən rəzil cəhd sayılırdı. Onların avadanlığı kokos çanağından düzəldilmiş qab və oturmaqdan əvvəl yeri süpürmək üçün opaxalo (iri yelpik) idi. Onlar sərgərdan həyat sürür və dilənçilik edirdilər. Ən böyük qəhrəmanlıq isə yalnız rahiblərə icazə verilən aclıq vasitəsilə ölüm idi.

Buddizm – e.ə. VI-V əsrlərdə yaranmışdı. Banisi Sidxarta Qautama idi. Sonralar Budda (mənası nurlu deməkdir) adını almışdı. Əvvəlcə buddizm Varna və

brahmanlara qarşı zəif protest kimi çıxış etdi. "Ved" və "Upanişad"ın müqəddəsliyini inkar edən buddistlər insanların bərabərliyini, bərabər əzab çəkməsini təsdiq edirdilər. Bu təlim e.ə. VI-III əsrlərdə Hindistanda geniş yayılaraq, dövlət dininə çevrildi. Seylonda, Birmada, Siamda, Tibetdə, Çində, Koreyada və Yaponiyada isə bu təlim çox populyar oldu. Düzdür, Hindistanın özündə VI-X əsrlərdə buddizmi onun yeni növləri – şivaizm və vişnuizm əvəz etmişdi. Lakin dini-fəlsəfi-etik təlim kimi, o, bu günə qədər də mövcuddur. Caynizm kimi, buddizm də "allahsız, yaradansız bir dindir". Buddanın keçdiyi yol – hər kəs üçün nümunədir. Bunun əldə edilməsinə hamı nail ola bilər. Bunun üçün 8 fəzilətə çatmaq lazımdır: 1) *düzgün baxışlar olmalı;* 2) *düzgün qərar qəbul etmə* (bunun üçün dünyaya bağlılıqdan, pis işlərdən və düşmənçilikdən əl çəkmək lazımdır); 3) *düzgün nitq* (yalan və böhtandan, pis söhbətlərdən əl çəkmək); 4) *düzgün davranış* (canlını öldürməkdən, oğurluqdan imtina etmək); 5) *düzgün həyat tərzi* (yalnız düz yolla pul qazanmaq); 6) *düzgün səylər* (pis fikirlərdən uzaqlaşma və yaxşı ideyaların əldə edilməsi. Bu səylər müntəzəm olmalıdır, çünki pis fikirlər qayıda bilər); 7) *düşüncənin düzgün istiqamətləndirilməsi* (öyrənilənin unudulmaması); 8) *fikrin düzgün cəmləşdirilməsi.*

Caynizmlə oxşarlığı olsa da, buddizmdə insanlara qarşı məhəbbət duyulur. Yeni əxlaq konsepsiyaları Qədim Hind ədəbiyyatının gözəl nümunəsi sayılan "Mahabharata" kitablarından birində – "Bhaqavadgita"da ("Gita") öz əksini tapıb ki, onun da müəyyən ideyaları "Artxaşstra" və "Manu qanunlarına" daxil olub. "Bhaqavadgita"da Brahman ənənələrinin izahı yoq, caynizm və buddizmin müddəaları nəzərə alınmaqla, özünəməxsus şəkildə, novatorcasına şərh edilib. Buna baxmayaraq, "Gita"da harmonik şəkildə mövcud olan özünəməxsus yeni əxlaqi mövqe ifadə olunub. Poemadakı təlimlərin formalaşması o dövrdə baş vermişdi ki, brahmanizm, buddizm, caynizm, sankxya, yoq və s. kimi müxtəlif dini-fəlsəfi məktəb və cərəyanlar artıq mövcud idi. Onlarla qarşılıqlı təsirdə olan və bəzi müddəalarını qəbul edən "Gita" eyni zamanda özünü tamamilə orijinal və müstəqil baxışlar sistemi kimi göstərirdi.

**Lokayata.** Materialist hesab edilən bu məktəbin nümayəndələrinin əsərləri barədə məlumat yoxdur. Onların adlarını materializmdən uzaq olan müəlliflərdən öyrənmək olar ki, bu da onların dünyagörüşü barədə olan təsəvvürlərin təhrif olunmuş, saxtalaşdırılmış olduğu haqqında fikir yaradır. Onların ateist olmaları fikri də mövcuddur. Hətta bəzi müasir hind tədqiqatçıları hesab edirlər ki, Lokayata hər hansı şəxs və ya insanlarla bağlı olan fəlsəfə olmayıb. O, düşmən Brahman doktrinasına qarşı çevrilən və kütlələrin həyatında dərin kök salan təcrübə və əqidələrin məcmusudur. Çattopadxyaya lokayat sisteminin əsasını təşkil edən baxışların köklərini nəinki "Ved"ə qədərki, hətta daha qədim dövrlərə aid edərək, onların sadəlövh-materialist xarakterli olduğunu və hətta ibtidai dövrdə anaxaqanlıq zamanı mövcud olan bir çox həyat normalarını əks etdirdi-

yini qeyd edir. Buradakı mərasimlərin təsvirinə "Upanişad" və "Ved"də də rast gəlirik ki, həmin mənbələrdə onlardan günah iş kimi danışılır. Bu sadəlövh materializm ideyalarını ümumiləşdirən və fəlsəfi sistem formasında ifadə edən mütəfəkkirlər, demək olar ki, əfsanəvidirlər. "Upanişad", "Mahabharata" və ondan sonrakı şahidliklərə istinad edərək lokayata məktəbinin (hətta məktəblərinin, çünki Radxakrişnan Qədim Hindistanda 4 materialist məktəbin olmasından danışır) nümayəndələrini sadalamaq olar. Adı çəkilən Brixaspati, Dxişan, Çarvak, çox güman ki, əfsanəvi mütəfəkkirlərdir. Uddilaki (e.ə.VII əsr), Kassapa, Acita, Kesakambal, Pakudxi Kaççayana (e.ə. VI-V əsrlər), həkim, şair və filosof Vatsyayan (b.e.-nın III-IV əsrləri) – daha real adlardır.

Lokayata təliminə görə, insan həyata yaxşı yaşamaq üçün gəlir. Yer üzündəki həyat – yeganə həyat olduğu üçün onu xoşbəxt yaşamağa çalışmaq lazımdır. Asket olmaq mənasızdır. Həyatdakı əzablara görə həzdən imtina etmək olmaz. Məgər içində dadlı düyü olan toxumu qabıqlı olduğu üçün tullayarlar? Həzz həmişə əzabla əlaqədardır. Bəzi hind tədqiqatçıları lokayatanı gedonizmlə eyniləşdirir, bəziləri onları həyata yüngül münasibət bəsləməkdə, "ye, iç, kef çək, sabah onsuz da öləcəyik" deməkdə günahlandırırlar. Bəziləri isə hətta lokayatanın ümumiyyətlə mövcud olmadığını söyləyirlər.

**Çin.** Qədim Çinin tarixi, fəlsəfəsi haqqında olan kitablarda əxlaq problemlərinə toxunulsa da, etik təlimlərə həsr olunmuş xüsusi əsərlər mövcud deyil. "Ved" kimi dini-fəlsəfi mənbəyi olan Qədim Hind fəlsəfəsindən fərqli olaraq, Çində etika ilə əlaqədar belə dini-mifoloji mənbə yox idi. "Dəyişikliklər kitabı" – "İ tzin" fəlsəfə üçün yeganə istinad mənbəyi oldu ki, bu da, əsasən, falçılıqdan bəhs edən mətnlərdən ibarət idi. Əsas ideya – təbiətdə baş verən daimi dəyişikliklərdir. Təbiət və cəmiyyətdə "yan" və "in" kimi əksliklər (işıq – qaranlıq, bərk – yumşaq, kişi – qadın, uğurlu – uğursuz) mövcuddur.



Konfutsi

**Daosizm.** Banisi Lao-tzı (e.ə. VI-V əsrlər) olan bu cərəyanın etik görüşlərində insanlar arasındakı münasibət, əsl əxlaqla qondarma əxlaq arasındakı fərq, təmənnasız və eqoist xarakterli davranış və sairədən danışılır.

**Konfutsiçilik.** Bu cərəyan 3 adamın adı ilə bağlıdır: Kun-tzı, yəni Konfutsi (e.ə. 552-478) təlimin banisi olub, onun əsas müddəalarını "Lun-yuy" – "Kəlmələr və söhbətlər" əsərində şərh edib; Man-tzı (e.ə. 372-289) – təlimi sistemləşdirib; Syun-tzı (e.ə. 313-238) Man-tzı ilə əks mövqedə dayanırdı. Konfutsi təliminin əsas anlayışı və etik qanunu – adətən, insan-

pərvərlik kimi tərcümə edilən "jen"dir. "Lun-yuy"da bu anlayışın rəngarəng interpretasiyaları verilir. Jen həm də cəmiyyətdə və ailədə insanlar arasındakı münasibətləri müəyyən edən əxlaq prinsipidir. Jenlə bağlı olan syao – valideynlərə və böyüklərə hörmət; li – mərasim, ritual; tzyun-tzı isə əxlaq nümunəsi olan sadiq, ədalətli, nəzakətli ər deməkdir.

**Moizm.** Mo-tzı (Mo Di e.ə. 470-400) Konfutsinin etik-siyasi konsepsiyası ilə rəqabət aparır və hətta e.ə. IV-III əsrlərdə onu üstələyirdi. Şər – konkretdir, onun daşıyıcısı isə varlılardır.

*Qanunçular* (Fa-tzyun). Bu məktəb "leqistlər" və ya "fa" da adlandırılır. Ölkənin idarə olunması, konfutsiçilərin dediyi kimi, mərasimlər, ənənələr, rituallarla deyil, qanunlar əsasında olmalıdır. Qanun imperatordan da yüksəkdə dayanır. Qanun qarşısında hamı bərabərdir. Cəmiyyətin həyatı üçün əxlaq yox, qanunlar əsas idi.

*Materialist etika* (Yan Çju və Van Çun). Yan Çjuya görə, əgər fəzilətlər xoşbəxtliyə, sakit və sevincli həyata xidmət etmirsə, onda nəinki neytral deyil, hətta ziyandır. Van Çun hesab edir ki, xeyirxah adamlar öz təbiətlərinə görə belədirlər. Pis adamları isə tərbiyə etmək və yaxşılıq etməyə həvəsləndirmək olar. İnsanın fəaliyyətdə olması onu həm əxlaqlı, həm də əxlaqsız edə bilər. Van Çun konfutsiçilik və Qədim Çin dinlərini tənqid edir, səma, ruhlar və qurbanvermə haqqında dini təlimlərdən imtina edirdi.

## 3. Antik dövrün etik fikri

**Qədim Yunanıstan.** Həm ibtidai, həm də qədim dövrün əxlaq problemləri nəinki mifologiya, epos, poeziya və dramaturgiyada, həmçinin antik mütəfəkkirlərin ilk fəlsəfi konsepsiyalarında öz əksini tapdı. E.ə. VII əsrdə mövcud olan və ilk fəlsəfi məktəb sayılan Milet məktəbinin nümayəndələrinin (Fales, Anaksimandr, Anaksimen) sadəlövh materializmi və Efesli Heraklitin dialektikası mifoloji ənənələri inkar etdi.

E.ə. IV-III əsrlərdə Afina fəlsəfi mərkəz oldu. Bu, əvvəlcə digər pólislərdən (şəhər-dövlətlər) olan sofistlərin (məsələn, Abderdən Protaqor, Leontindən Qorgi, Keosdan Prodik, Eleydən Gippi) və onlarla daim mübahisə edən Sokratın, sonra isə Platonun Akademiyasının və Aristotelin Likeyinin fəaliyyəti nəticəsində baş verdi. Sokratın söhbətləri, Demokrit və sofistlərin təlimləri ilə yanaşı, kirenaiklər (Sokratın şagirdi Aristipp), kiniklər (Qorgi və Sokratın şagirdi Antisfen), stoiklər (Kitiondan olan Zenon), skeptiklər (Karneaddan olan Arkesilay) məktəbləri də yarandı. Bunlarla mübarizədə Epikur özünün materializmə yaxın optimist konsepsiyasını yaratdı. E.ə. II əsrdə Yunanıstan Romanın əyalətinə çevriləndən sonra Qədim Yunan fəlsəfəsi tənəzzülə uğradı.

Onun son mərhələsi III-IV əsrlərdə neoplatonizmin (Plotin, Porfiri, Prokl) çiçəklənməsi dövrünə təsadüf edir. Qədim Yunan etikasının ən maraqlı dövrü e.ə. V-III əsrlər Demokrit və Sokratdan başlamış Epikura qədərdir. Məhz bu vaxt mənəviyyat barədə Ellin təlimlərinin bütün xüsusiyyətləri daha parlaq və müəyyən edilmiş şəkildə təzahür edir.

Sokrat (e.ə. 469-399) şüurlu surətdə böyük diakosmosun tədqiqindən imtina edir və diqqətini "kiçik diakosmos", yəni insan üzərində cəmləyir. O hesab edir ki, insanlara praktik cəhətdən xeyri olmayan şeyləri öyrənmək əbəsdir. Əgər insanlar ulduzlarda heç bir dəyişiklik edə bilməyəcəksə, onu öyrənməyin nə mənası? Tədqiqat real dəyişikliklərlə nəticələnməlidir. İnsan öz hökmünə tabe olan, dəyişdirilməsi və mükəmməlləşdirilməsi mümkün olan obyektləri tədqiq etməlidir. Belə obyekt insanın özüdür: özünü dərk et ki, dəyişə biləsən. İdrakın sonsuzluğunu söyləyən Sokrat tez-tez təkrar edirdi: "Bircə onu bilirəm ki, heç nə bilmirəm". Xeyirxah olmaq üçün bilikli olmaq lazımdır. Xeyrin əsl mahiyyətini anlayan insan heç vaxt pislik etməz. Fəzilətlər elm və təhsillə əldə edildiyi üçün əxlaqın mahiyyəti intellektual inkişafdır.

Platon (e.ə. 427-347) etikasının əsasını ideyalar və ruh haqqında təlim təşkil edir. Mənəvi keyfiyyətlərin, yəni fəzilətlərin fitri olduğunu söyləyən filosof hesab edirdi ki, düzgün tərbiyə bunları nizama salır, yanlış tərbiyə isə insanın "qabında olanları" ya məhv edir, ya da təhrif edir. Əxlaqın təməli, mənəviyyat nümunəsi Allahdır. "Allah hər şeyin meyarıdır". Xeyir ideyası Platon etikasında mühüm yer tutur ki, bu da əbədi olan ideyalar aləmində Allahın müntəzəm nəzarəti altında mövcuddur. Yer üzündə olan xeyrin bütün növləri ali "xeyir ideyasının" yalnız surəti ola bilər ki, bu da 3 anlayışın vəhdətindən ibarətdir: ölçü, gözəllik, həqiqət. İnsanın bunadək artması əxlaqi davranış nümunəsidir. Beləliklə, Platon hesab edirdi ki, insanın əxlaqı Allahın tabeliyindədir. Bu dünyada ali xeyir ideyası 4 fəzilətlə əlaqədardır: 1) *müdriklik;* 2) *mərdlik;* 3) *tədbirlilik;* 4) *ədalət.* Sonuncu, yəni ədalət əvvəlkilərin harmonik uzlaşmasıdır ki, bu da insanın bədənində müvəqqəti sığınacaq tapmış "ideyalar aləminin" nümayəndəsi olan ruhun hissələrinə uyğun gəlir 1) *ağıl;* 2) *iradə;* 3) *hissiyyat.* Müdriklik ağıla, mərdlik iradəyə, tədbirlilik hissiyyata uyğun fəzilətdir. Platon "Dövlət" əsərində dövrünün ictimai təbəqələrinin mövqeyinə uyğun əxlaq qaydalarının təsnifatını verirdi: müdriklər – cəmiyyəti idarə edən filosoflar, qəhrəmanlar – vətənin keşiyində duranlardır. Ya gərək cəmiyyətin üzvləri filosoflar səviyyəsinə yüksəlsin, ya da gərək cəmiyyəti filosoflar idarə etsin. Platon bu fikirdə idi ki, ali əxlaqa, yəni müdriklik və mərdliyə yalnız əslən aristokrat olanlar malikdirlər. Demosun (xalqın) əxlaqı isə tabeçilik və ya özbaşınalıqla bağlıdır ki, bu da onu mövcud qanun-qaydaya qarşı mübarizəyə ruhlandırır. Platon qulları, ümumiyyətlə, insan hesab etmir və güman edirdi ki, onlar mənəvi həyata qadir deyillər. Buna görə də diqqət mərkəzində ola bilməzlər.

Platonun etik fikirlərinə “Fedon”, “Sokratın tərifi”, “Qanunlar”, “Dövlət”, “Ziyafət”, “Teatet”, “Protaqor” və s. əsərlərində rast gəlirik.

Platon fəlsəfəsinin və etikasının həm tərəfdarları, həm də rəqibləri var idi. Onu qəbul etməyənlər sırasında e.ə. IV əsrdə qədim yunan filosofu Antisfen tərəfindən əsası qoyulmuş kiniklər məktəbi də var idi. Onlar Platonun xoşbəxtlik haqqında təsəvvürlərini abstrakt və qeyri-mümkün hesab edir və hər bir insanın fərdi xoşbəxtliyini buna qarşı qoyurdular. Antisfen həzz almaq hissini rədd edirdi: “Həzz almaqdansa, dəli olmaq yaxşıdır”. İnsan təbii halda olsa yaxşıdır. Nə varlılar olmalıdır, nə də kasıblar. Bu məktəbin digər nümayəndəsi Sinoplu Diogendir. O harada gəldi, hətta çəlləkdə yaşayır, primitiv geyinir, yabanı qida yeyir və yalnız su içirdi. Diogen insanları mənəvi azadlığa və cəmiyyətdən asılı olmamağa çağırırdı. Makedoniyalı İskəndər bir dəfə görüş zamanı ondan nə istədiyini soruşduqda, o belə cavab verib: “Burdan çəkil və işığın qabağını kəsmə”. Maddi nemətlər və insanın həzz almağa olan təbii arzuları onu korlayır. Var-dövlətdən, həzz almaqdan, ictimai təltiflərdən imtina etmək və bunları qınamaq, öz mənəvi aləminin dərinliklərinə baş vurmaq qabiliyyəti insanın ən ali fəzilətidir. Beləliklə, kiniklərin təlimi – hedonizmin neqativ formasıdır.

Kirenaiklər hesab edirdilər ki, duyğular xoşagələn və xoşagəlməyən olur. Xoşagəlməyən duyğular əzab gətirdiyi üçün şər, xoşagələn duyğular isə həzz yaratdığı üçün xeyirdir. Aristippə görə xoşbəxtlik ləzzət və zövq hissidir. Kirenaiklərin etikası hedonizmlə bağlıdır (*hedone* – latınca həzz, zövq deməkdir). Aristipp insanın həyatının məqsədini həzz almaqda görürdü. Onun fikrincə, insan 3 növ psixi vəziyyətə düşə bilər: 1) həzz; 2) iztirab; 3) neytral.

Stoisizm (yunanca *portik* – “binaya yapışıq sütunlu eyvan” sözündən olub, stoiklərin yığıldığı yeri bildirir) e.ə. IV əsrdə Kitionlu Zenon (e.ə. 336-264) tərəfindən yaradılıb. Stoiklərin fikrincə, insan müdrik və əxlaqlı olmaq üçün daim özünü tərbiyə etməlidir. Buna görə də fəzilət həzlə deyil, kamilləşmə ilə əlaqədardır. Yalnız insanın mənəvi kamilliyi ətrafdakı mənəviyyatsızlığa müqavimət göstərə bilər. Mənəviyyatın zirvəsi ehtiraslara etinasız olmaqdır, çünki hiss və ehtiraslara, hətta xoşniyyətli hiss və ehtiraslara tabe olmaq zəiflik əlamətidir. Əsl xoşbəxtliyin həzlə əlaqəsi yoxdur, var-dövlət, şöhrət və digər nemətlərin səbəbi taledir. Mədəniyyətin zirvəsi insanın onsuz da dəyişə bilməyəcəyi hadisələrə mane olmamaqdır. Stoisizmin son, Roma dövrü – Seneka, Epiktet, Mark Avrelinin adları ilə bağlıdır. Onların fikrincə, insan daim öz borcunu yerinə yetirməlidir. Əxlaqın əsas anlayışları borc, xeyir, şər və s. daimi tələblər olub, insanın taleyi ilə əlaqədardır. Borcu yerinə yetirmək özü xoşbəxtlikdir.

Epikur (e.ə. 341-270) etikanı fəlsəfənin əsas sahəsi hesab edirdi. Onun fikrincə, etika Yer üzündə insanın xoşbəxtliyinə nail olmaq haqqında təlimdir.

Xoşbəxtlik əzab və həyəcandan uzaq olan daha möhkəm və uzunmüddətli hisdir. Həyatın məqsədi və ən ali neməti bədənin sağlamlığı, qəlbin rahatlığı, mənəviyyatın meyarı isə hislərdir. Əxlaqın çıxış nöqtəsi xoşbəxtlikdir. Hedonizm kimi evdemonizm (latınca "xoşbəxtlik") də qədim yunan etikasında mühüm yer tutur ki, bu da daha çox Epikur yaradıcılığında inkişaf tapıb. Xoşbəxtliyə çatmaq təbii cəhddir. Xoşbəxt həyatın əvvəli və axırı həzdir. Həzz insanın ilk fitri nemətidir. Bu müddəa Epikuru hedonistlərlə yaxınlaşdırır. Əsl xoşbəxt həyat – həyəcan və iztirabsız həyatdır. Ona biliklə və əxlaq normalarına riayət etməklə çatmaq olar. Əlbəttə, heç də həmişə dərd və iztirabdan yaxa qurtarmaq mümkün deyil, hər bir həzdə iztirab da olur. Həzz 2 cür olur: 1) qida, yaşayış yeri, geyim və sairədən alınan maddi, fiziki həzz; 2) bilik və dostluqdan alınan mənəvi həzz. Bunlar ağılla seçilməlidir. Xəstəlik və iztirab gətirən fiziki həzdən qaçmaq, sadə və xeyirli həzzə can atmaq lazımdır. Bəzi müəlliflər, məsələn, V.Q.İvanov antik etikanın zirvəsində Aristoteli deyil, məhz Epikuru görür .

Aristotel (e.ə. 384-322) nəzəri problemlərin həllində öz dövrünü qabaqlayaraq e.ə. IV əsrədək mövcud olan bir sıra elm sahələrini ümumiləşdirir. Qədim dövrün etik fikir tarixində və onun inkişafında müstəsna rol oynayan dahi filosof etika elminin məsələlərini sistemləşdirir. İlk dəfə olaraq Aristotel etikanı elmi-fəlsəfi biliklər sisteminə daxil edərək onu ruh haqqında elm olan psixologiya və dövlət haqqında elm olan politikanın ortasında yerləşdirir. Aristotel etikanı öz ictimai-siyasi baxışlarına uyğun işləyərək hesab edir ki, etika siyasət və iqtisadiyyatla çox bağlıdır. "Nikomax etikası" Aristotelin əxlaq problemlərini daha dərindən ifadə etdiyi nəzəri traktatdır. Burada Aristotel etikanı predmeti əxlaq olan cəmiyyət haqqında elmin bir növü, tətbiqi və praktik elm kimi nəzərdən keçirir. Əsərdə Aristotel oğluna düzgün davranışla əlaqədar öyüd-nəsihət verir. Əgər Demokritin etik təlimi aforizmlərə əsaslanırdısa, Platon öz fikirlərini dialoq formasında, Aristotel isə monoloq formasında ifadə edirdi. Bədiilikdən və gündəlik məişət düşüncələrindən uzaq olan "Nikomax etikası" əsəri əsl elmi əsər kimi qiymətləndirilir. Aristotelin fikrincə, əxlaqi sistem yaratmaq üçün əvvəlcə müəyyənləşdirmək lazımdır ki, nemət nədir? İkincisi, insan bu nemətləri (burada hərəkətin qiymətləndirilməsi və iradə azadlığı problemləri qoyulur) qazana bilərmi? Üçüncüsü, nemətə çatmaq üçün (fəzilət, onun mahiyyəti və tərbiyə imkanları problemi) hansı yolla getmək lazımdır? Və dördüncüsü, insan cəhdlərinin daha layiqli məqsədi olan ali nemətlər nədir? Əsər nemətlər, fəzilətlər, iradə azadlığı haqqında təlimlərdən ibarətdir. Traktat mənəvi ideal haqqında mühakimə ilə bitir ki, bunu da hamı başa düşmür. Aristotel fəzilətlərin fitri deyil, sonradan qazanılan keyfiyyət olduğunu söyləyir. Aristotel özünün ruh haqqında təliminə uyğun olaraq fəzilətlərin təsnifatını verir. Fəzilətlərin spesifikasını müəyyənləşdirən Aristotel psixologiyaya müra-

ciət edir. Mənəvi fəzilətlər ruhun hansısa vəziyyəti deyil və insana təbiət tərəfindən verilməyib, təbiət yalnız fəzilətli olmaq üçün şərait yaradır. Bütün əxlaqi fəzilətlər insanın fəaliyyəti zamanı həyata keçir. Bunlara – ədalət, dostluq, məhəbbət, mərdlik, mötədillik, əliaçıqlıq, sülhsevərlik, xoşxasiyyətlilik və s. aiddir. Bütün bunlar həm də ictimaidir. Fəzilətlər fitri olmadığı üçün Aristotel onların tərbiyə olunmasına xüsusi fikir verirdi. Özü də yalnız uşaqlar deyil, bütün vətəndaşlar, hətta insanın emosional qavrama qabiliyyəti və hisləri də tərbiyə edilə bilər. Aristotel etikasında mühüm yer tutan ədalət digər insanlara münasibət zamanı fəzilətə çevrilir.

Fəlsəfədə olduğu kimi, Roma etik fikri də yunan mədəniyyətinin təsiri altında olduğunu büruzə verir. Əgər ədəbiyyatın, xüsusən də poeziyanın təsiri e.ə. III-II əsrlərdə bilindisə, fəlsəfənin inkişafına e.ə. 155-ci ildə Romada açılmış Afina səfirliyi təkan verdi. Onun fəaliyyətində stoiklərdən Diogen, Akademiyanın başçısı skeptik Karnead və peripatetik Kritolay iştirak edirdi. İlk Roma filosofu sayılan Siseron fəlsəfi biliklərin yayılmasına çalışaraq etikada stoisizmə meyil edirdi. Parlaq üsluba malik olmasına baxmayaraq, etikası heç bir orijinallığı ilə fərqlənmədiyi üçün Siseronun etik baxışları əks olunmuş əsərlərinin yalnız adlarını çəkməklə kifayətlənirik: “Tuskulan söhbətləri”, “Ali nemət və şər haqqında”, “Borc haqqında”.

Epikurun davamçısı Lukretsi Kar (e.ə. 199-44) “Şeylərin təbiəti haqqında” poemasında Epikurun etika və naturfəlsəfəsinə yenidən qayıdır.

Ən varlı romalı olan Seneka (e.ə. 4 – e.65) siyasi xadim, yazıçı, filosof-moralist (əxlaqa aid əsərlər yazan yazıçı) idi. İlk növbədə əxlaq müəllimi kimi tanınan Senekanın şeirləri, pyesləri və pamfletləri içərisində “Qəzəb haqqında”, “Mərhəmət haqqında”, “Xoşbəxt həyat haqqında” və s. traktatları, həmçinin “Lusiliyə məktubları” vardır ki, bunlarda da müəllifin etik təlimi daha çox özünü büruzə verir.

Antoninlər sülaləsinin imperatoru, Roma stoisizminin son nümayəndəsi Mark Avreli əxlaq müəllimi olmağa çalışmasa da, filosofluq edərək qısa qeydlər yazırdı ki, bunlar da onun ölümündən sonra işıq üzü görmüşdü. “Özümə qarşı düşüncələr” adlı gündəliyində müəllif həyat, onun yaranması, insanın mövqeyi barədə fikirlər yürüdürdü.

Ümumiyyətlə, antik etika hedonizm mövqeyində dayanaraq hesab edir ki, insanın fəaliyyətinin məqsədi xeyir və mənfəət əldə etmək, həzz almaq və xoşbəxtliyə çatmaqdır, lakin bununla belə, insan öz kefinin əsiri olmamalıdır, hər şeydə ölçü gözləməlidir.

## 4. Orta əsrlərdə və yeni dövrdə etik fikir

Orta əsrlərdə istər Şərqdə, istərsə də Qərbdə, yəni Avropa ölkələrində etik fikir dini ideologiya çərçivəsində inkişaf edirdi. Kökləri eranın əvvəllərində Şərqin mistiklərindən başlayan dini-etik təlimlərin və xristianlığın ideya mənbələrindən biri stoiklərin fəlsəfəsi oldu. Məsələn, İskəndəriyyəli Filon (təxm. e.ə. 25 – təxm. e.ə. 40) İncili və yunan mifologiyasını şərh edərək dini etikanı ehtiyatla təbliğ edirdi. Onun fikrincə, heç olmasa, bir gün yaşayan insan artıq günahsız deyil. İnsanların mənəvi həyatının əsas vəzifəsi Allahı təqlid etməkdir. Dinə tabe edilən əxlaq teoloji xarakter daşıyırdı. İlk yarandığı vaxtlarda xristian əxlaqı, əsasən, demokratik və proqressiv idi. Xristian etikasının ən böyük nailiyyətlərindən biri bütün insanların Allah qarşısında bərabər olması ideyasının tərənnümü oldu. Dini əxlaqın ali prinsiplərinə adam öldürməyin və əxlaqsızlığın qadağan olunması da daxil idi. Lakin əfsuslar olsun ki, özlərini xristian adlandıranlar əksər hallarda nəinki buna əməl etmirdilər, hətta bunun əksini edirdilər. Məsələn, səlib yürüşlərində, inkvizisiya tonqallarında nə qədər adam həlak olmuşdu. Vatikan ilahiyyatçıları Hitler və Mussolininin ənənələrinə xeyir-dua verirdilər.

Yeni dövrün qabaqcıl mütəfəkkirləri antik dövrün mütərəqqi ənənələrini davam etdirərək dini-asketik ideyalara qarşı çıxır, insanların xoşbəxt olmaq hüquqlarını və bərabərliyini təbliğ edirdilər. Onların fikrincə, əxlaq müstəqil sahə olmalı, dindən asılı vəziyyətə düşməməlidir. İnsanlar mənəvi zənginliyə kilsənin köməyi olmadan da çata bilərlər. Əxlaq kilsə boyunduruğundan xilas olmalıdır. Etika ilahiyyatdan ayrılıb fəlsəfənin müstəqil sahəsinə çevrilməlidir. Belə istiqamət götürənlər içərisində italyan Cordano Bruno (1548-1600), fransız Rene Dekart (1596-1650), holland Benedikt Spinoza (1632-1677), ingilislər – Tomas Hobbs (1588-1679), Con Lokk (1632-1704) və başqaları var idi. Spinoza hətta “Etika” adlı kitab da yazmışdı. XVIII əsrin Avropa maarifçiləri, o cümlədən fransız materialist filosofları da, məsələn, D.Didro, (1713-1784), J.O.Lametri (1709-1751), K.A.Helvetsi (1715-1771), P.A.Holbax (1723-1789) etik fikir tarixində özünəməxsus iz buraxmışlar. Onlar əxlaq məsələlərini elmi səviyyəyə qaldıraraq insanın davranışını onun təbii halı ilə əlaqələndirirdilərsə, alman klassik fəlsəfəsinin nümayəndələri olan İ.Kant (1724-1804) və G.Hegel (1770-1831) etikanı həyatdan



İ.Kant

ayırmağa çalışırdılar. Kantın etika sahəsində tarixi xidmətlərindən biri borc problemi ilə əlaqədardır. Borc problemi Kantın etikasında mərkəzi yer tutur. G.Hegelə görə əxlaq insan təbiətinə yad olmasa da, ona əvvəldən xas olan xüsusiyyət də deyil. İnsan doğularkən nə xeyirxah, nə də bədxah olur. Bu xüsusiyyətlər nəyinsə nəticəsində əldə edilir. Hər bir insanın müəyyən məqsədi olur. Əsas məqsəd isə sərvətə çatmaqdır. Hegel üçün əsas əxlaq kateqoriyaları borc, xeyir və vicdandır. Əxlaq yalnız cəmiyyətdə mövcud ola bilər. Hegelin əsas etik fikirləri "Ruhun fenomenologiyası" və "Hüquq fəlsəfəsi" əsərlərində öz əksini tapmışdır. Hegel fəlsəfəsi üçlük üzərində qurulub: 1) *tezis;* 2) *antitezis;* 3) *sintez.* Hegel mənəviyyatı "obyektiv ruhun" mərhələlərinə aid edir. Mənəviyyat obyektiv ruhun hərəkətinin məhsuludur. Burada ruh triada pillələri ilə inkişaf edir: 1) *hüquq;* 2) *əxlaq;* 3) *mənəviyyat.* Hüquq tezis olub, azadlıqdan uzaq olan xarici zərurətə tabedir. Əxlaq antitezis olub, subyektiv şüurdur, fərdin vicdanıdır. Mənəviyyat sintez olub, əsl azadlıqdır, hüquq və əxlaqın, zərurət və subyektiv iradənin qovuşmasıdır. O, ictimai həyatda gerçəkləşir ki, Hegel burada mənəviyyatın inkişafının üç formasını – ailə, vətəndaş cəmiyyəti və dövləti ayırır. Hegel bu ictimai formalara istinad edərək, etikanı fərdin dövlət qarşısındakı konkret vəzifələrinin məcmusuna çevirir.

XX əsrdə etika artıq əxlaq haqqında müəyyən biliklər sisteminə çevrilib ki, bu da özünəməxsus elmi kateqorial aparata malikdir. Tarixi inkişafın müxtəlif mərhələlərində etika müəyyən problemlərin həlli yollarını və bəzi spesifik sualların cavabını axtarmağa çalışmışdır. Belə problemlərə əxlaqi fəzilətlər, əxlaq normaları, insanın davranış qaydaları, bunlarla əlaqədar tələblər və s.; haqqında danışılan spesifik suallara isə: "xeyir və şər nədir?", "insanın mənəvi borcu nədir?", "insan özünü necə aparmalıdır?" və s. aiddir. Bu problemlərlə normativ etika məşğul olur.

## 5. Azərbaycanda etik fikir tarixindən

Dünya mifoloji və fəlsəfi fikir tarixi insanın mənəvi həyatı ilə bağlı nümunələrlə zəngindir. Belə nümunələrdən biri "Avesta"dır. Şərq xalqlarının və ümumiyyətlə, dünya xalqlarının fikir tarixində görkəmli yer tutan Zərdüştilik və onun nəzəri təcəssümü olan "Avesta" dualist zəmində inkişaf tapmışdır. Dini-fəlsəfi doktrina olmaqla yanaşı, Zərdüştlük etik ideyalarla da zəngindir. O, insanların həyat tərzini, davranışını əks etdirərək onları bir-birinə hörmət etməyə, qardaşlıq münasibətləri bəsləməyə, xeyirxah olmağa, şər qüvvələrə qarşı mübarizə aparmağa səsləyir. Zərdüşt inamına görə, bütün varlıq 2 əks qüvvənin mübarizəsi üzərində qurulub: 1) işıq; 2) zülmət. Bütün şəxsiyyət idealı 3 amilin vəhdətindən yaranıb: 1) xeyirxah niyyət; 2) xeyirxah söz və ya fikir; 3) xeyirxah əməl.

Uzun əsrlik tarixə və zəngin ənənələrə malik olan Azərbaycan xalqının etik mədəniyyəti və onun ayrı-ayrı problemləri xüsusi tədqiqat obyekti olduğundan, onun bəzi maraqlı məqamları üzərində dayanmağa çalışaq.

Ərazisində ibtidai insan məskənləri, mağaralar, şəhər xarabalıqları, qaya təsvirləri, istehkamlar, silahlar, əmək alətləri, gil qablar, bəzək əşyaları və s. tapılan Azərbaycan çoxəsrlik tarixə malik qədim mədəniyyət ölkəsidir.

Arxeoloji tədqiqatlar nəticəsində əldə edilmiş müxtəlif materiallardan məlum olur ki, hətta qədimlərdə Azərbaycanda zəhmətkeş insana, şəxsiyyətə hörmət, insanpərvərlik, kollektivçilik hissi geniş təbliğ edilmişdir. Müəyyən mədəni abidələrimizdə, mədəniyyət nümunələrində insanlar əməksevərliklərinə görə təriflənir, onların öz peşəsi sahəsindəki məharəti, mənəvi qüdrəti təsvir edilir.

Azərbaycan maddi mədəniyyət nümunələri ilə yanaşı, mənəvi mədəniyyət abidələri ilə də zəngindir. Bu baxımdan, şifahi xalq ədəbiyyatımızda insanların humanist arzularını, istəklərini əks etdirən çoxlu nağıllar, dastanlar və mahnılar mövcuddur. Burada zülmə, haqsızlığa qarşı nifrət, xoşbəxt gələcəyə çağırış sədaları nəzərə çarpır. Humanist ideyaların əsasında isə insanların dinc həyatını, əməyini qoruyan sədaqətə və dostluğa çağırışlar durur. Belə humanist fikirlərə əmək nəğmələrində də rast gəlirik. Əmək nəğmələri xalq yaradıcılığının ən qədim janrlarından olub, əmək prosesində insanların zəhmətini yüngülləşdirmək məqsədilə ifa edilirdi. Bu nəğmələr kollektivi həvəsə gətirir, işə səfərbər edir, əməyin çətinliyini, ağırlığını aradan qaldırır, insanlarda xoş əhvali-ruhiyyə yaradırdı. Burada həmçinin yoldaşlıq, qayğıkeşlik, dostluq tərənnüm edilirdi.

Şifahi xalq ədəbiyyatımızın ən maraqlı janrlarından olan Azərbaycan xalq nağılları etik fikir baxımından daha çox diqqəti cəlb edir. Nəinki realist səpkili məişət nağıllarında, hətta romantik səpkili sehrli nağıllarda, həmçinin heyvanlar haqqında olan nağıllarda da xeyir və şər, ədalət və haqsızlıq, dostluq, əmək-

sevərlik, sədaqət, xəyanət, məhəbbət və s. kimi məsələlərdən bəhs edilir.

Yazılı ədəbiyyatımız da bu baxımdan az maraq doğurmur. Məsələn, XI əsr Azərbaycan filosofu Bəhmənyar ibn Mərzban (?-1066) müxtəlif əsərlərində – "Məratib əl-mövcudat" ("Mövcudatın mərtəbələri"), "Mabəd ət-təbiə" ("Metafizika") və məktublarında humanist fikirlər söyləyərək, xoşbəxtliyin xeyirxahlıq yolu ilə əldə edilməsini, insanın sədaqətli, əxlaqlı olmasını, insanpərvərliyini və s. xüsusiyyətləri və bunların ağıl və bilik yolu ilə əldə edilə biləcəyini ön plana çəkirdi.



Nizami Gəncəvi

Nizami Gəncəvinin (1141-1209) əsərlərinin ana xəttini məzlum insan üçün səadət və ədalət axtarışları, zülmə, istismara, qeyribərabərliyə etiraz və nifrət təşkil edirdi. İnsan başqasından sədəqə istəməməli, öz ləyaqətini alçaltmamalıdır. İnsanın ağıl və biliyi Nizami əsərlərinin baş qəhrəmanıdır. "Sirlər xəzinəsi", "İskəndərnamə" və digər poemalarda xeyirxahlıq idealı siyasi ideалla bağlı nəzərdən keçirilir. Dövlətin idarə edilməsində ədalət prinsipi ön plana çəkilir. "İqbalnamə"də insanın səmimi olmasının vacibliyi vurğulanır, onun təbiətlə ayrılmazlığından danışılır. Q.Məmmədov qeyd edir ki, Nizamiyə görə, "ideal cəmiyyətdə şəxsi və ictimai mülkiyyəti oğrulardan, çapqınçılardan və qənimətçilərdən qorumağa ehtiyac yoxdur. Cəmiyyət üzvləri iqtisadi cəhətdən təmin olunduqları və eyni zamanda, tərbiyəli, əxlaqlı, düşüncəli adamlar olduqları üçün onlar nalayiq hərəkətlərlə məşğul olmurlar. Nizami oğurluğu, hər hansı bir qəbahət və xəyanəti cəmiyyət üçün fəlakət hesab edərək, ayrı-ayrı şəxslərdən tələb edirdi ki, onlar ancaq öz əmlaklarını yox, eyni zamanda başqalarının da əmlakını müdafiə və mühafizə etməlidirlər. Onun fikrincə, birisi başqasının əmlakına tamah məqsədi ilə toxunmadıqda, o, özünü müdafiə etmiş olur. Maraqlı burasıdır ki, Nizaminin təsvir etdiyi ideal cəmiyyətdə bütün sürülər çobansız otlamaqla bərabər, əkinlərə də ziyan vermirlər. Əkini qorumaq üçün heç bir qoruqçu da yoxdur. İdeal cəmiyyətin ağsaqqalları bu barədə İskəndərə deyir: "Əkin əkəndən altı ay sonra bir də onu biçmək üçün ora gedirik". Şair göstərir ki, əkin, bağ və bostanın becərilməsi mədəni cəmiyyətin ümumi səviyyəsinə müvafiq olaraq həyata keçirilməlidir. Nizami xəbərçilik və böhtançılığı fitnə və fəsadların səbəbi kimi qeyd etməklə, bunları özünə peşə edən düşkün, amalsız adamlara həmişə nifrət etmişdir. Nizaminin fikrincə, alicənab adam heç bir əsas olmadan başqasına eyib tutub, onun əsəblərinə toxunmaz, başqasını öz hərəkətləri ilə narahat

etməz. Eyni zamanda nəzakətli və nəcib adamlar söz gəzdirməklə məşğul olub, başqasının nüfuzuna toxunmamalıdırlar. Bu barədə ideal cəmiyyət adamlarının adından danışan Nizami “İqbalnamə”də yazır:

*Xəbərçilik bilməz bir nəfərimiz,*
*Özgənin eybinə göz yumarıq biz.*

Şair bununla insanları pis əməllərdən əl çəkib, xeyirxah olmağa çağırır. Nizami öyrədir ki, ağıllı və xeyirxah adamlar özlərinin yaxşı əməllərini öz mənfəətlərindən daha çox, başqalarının mənfəətinə sərf etməlidirlər. Nizami göstərir ki, birisi hirsli və ya qəzəbli olarsa, xeyirxah adamın borcu özünün mülayim və ağıllı məsləhətləri ilə əsəbiləşmiş adamı sakit edib, ona köməklik etməkdir ki, həmin adam pis yola getməsin, fitnə törədib nahaq yerə qan tökülməsinə səbəb olmasın. Digər tərəfdən Nizami göstərir ki, birisinə qarşı bir bədbəxtlik üz verərsə, cəmiyyət üzvləri onun qəminə şərik olmalıdırlar. Şad günlərdə – toyda, bayramda hamı bir yerdə şadlıq edib, şən həyat keçirməlidir... Nizaminin fikrincə, cəmiyyət üzvləri lazımi qaydalara əməl etsələr, onda xəstəliklərin qarşısı alınar və insanlar vaxtsız ölməzlər... Nizami göstərir ki, yüksək tərbiyəli cəmiyyətdə möhkəm əxlaqi qaydalar olmalıdır. Bu cəmiyyətin adamları əxlaqi cəhətcə təmiz və xüsusilə tamahkar olmamalıdırlar. Nizaminin fikrincə, ideal cəmiyyətdə əxlaqi təmizlik, yəni insanların əxlaqlı olması bir adət kimi həyata keçirilməlidir. Hər kim cəmiyyətin bu müqəddəs qaydalarını pozarsa, o, həmin cəmiyyətdən qovulmalıdır. Nizami həmçinin göstərir ki, “... təlim və tərbiyə cəmiyyətin inkişafında böyük əhəmiyyəti olan vasitələrdən biridir”. “Sirlər xəzinəsi”ndə Nizami təlim, tərbiyə və əxlaq qaydalarından bəhs edir. Qitələrin bəzilərində şair yaxşı insanları tərənnüm, pis adamları isə tənqid etməklə, birincilərə hüsnrəğbət, ikincilərə isə nifrət bəslədiyini bildirir. Nizami vətənpərvər, bacarıqlı və əxlaqlı insan tərbiyə etməyi cəmiyyətin əsas vəzifələrindən biri hesab edirdi. Çünki cəmiyyətin səadəti insanın kamilliyindən, onun xalqa düzgün münasibətindən çox asılıdır. Şair “Leyli və Məcnun” əsərində belə deyir:

*Səadət kamalla yetişir başa,*
*Xalqa hörmət elə, ədəblə yaşa!*

Böyük şairin fikrincə, yaxşı təlim-tərbiyə almış adam sağlam və tərəqqipərvər ideyalar irəli sürməklə, yaxud bu ideyalara tərəfdar olmaqla, həyatda yaxşı yaşamağa adət edər, qarşıya çıxan bütün çətinliklərin öhdəsindən asanlıqla gələr. İnsan gərək heç kəsi aldatmasın, cəmiyyət üzvləri qorxmaz, cəsarətli, işgüzar və şən olsunlar. Onlar bir-birinə ziyan vermədən, ədavət bəsləmədən

kinsiz-küdurətsiz olaraq daim səmimi yaşasınlar. Nizami göstərir ki, gözəl bir həyat qurub səadətlə yaşamaq ən böyük xoşbəxtlikdir. O, adamların yüksək tərbiyəli, nəcib sifətli, nəzakətli, gözəl, mülayim xasiyyətli və xüsusən elmli olmasını gözəl həyat qurmaq üçün nəcib bir şərt hesab edir. ...Şair göstərir ki, insan yaxşı tərbiyə alıb kamal sahibi olarsa, həyatda həmişə hörmətlə qarşılanar... Səadət ancaq kamal nəticəsində başa gələ bilər... Nizami hiyləgərlik və fitnə ilə məşğul olanlara həmişə nifrət etmişdir. İnsan çalışıb həyatda və məişətdə həmişə təmiz və namuslu olmalıdır. Nizami ...insanları səmimi yaşamağa çağırırdı.

Nizami dünyadakı bəlaların "bir səbəbini də cəmiyyətdəki əxlaq pozğunluğunda, xudpəsəndlik, lovğalıq, şöhrətpərəstlik, ikiüzlülük, hiyləgərlik, saxtakarlıq, paxıllıq, kinlilik, xəsislik, tamahkarlıq, tüfeylilik, əməyə, əməkçiyə xor baxmaq, kobudluq, qərəzçilik, eyş-işrət düşkünlüyü, hədsiz varlanmaq hərisliyi, məsləksizlik kimi mənfi əxlaqi keyfiyyətlərdə görürdü. "Xəmsə"də biz bu mənfi əxlaqi keyfiyyətləri zülmkar şahlarda, saray əyanlarında, böyük rütbə və ixtiyar sahiblərində, sələmçi tacirlərdə, yalançı dindarlarda – bir sözlə, başqalarının əməyi ilə yaşayan tüfeylilərdə görürük ("Sirlər xəzinəsi"ndə əmanətə xəyanət eyləyən şeyx, rəiyyəti incidən zalım padşah, "Xosrov və Şirin"də Bəhram Cubi, Şiruyə, "Yeddi gözəl"də Yəzdigürd, Simnarın ölümünə hökm verən şah, xalqa divan tutan vəzir Rast-Rövşən, tamahkar tacir Məlixa, şöhrətpərəst slavyan qızı, "İskəndərnamə"də Dara, onu öldürən rütbə sahibləri...). Bunların əksinə, "Xəmsə"də nə qədər gözəl mənəvi-əxlaqi keyfiyyətlər varsa, hamısı: düzlük, doğruluq, sadəlik, təvazökarlıq, mehribanlıq, xeyirxahlıq, qayğıkeşlik, əməksevərlik ...rəiyyətdə, yoxsullarda, zəhmət adamlarında, qismən də alimlərdə görünür ("Sirlər xəzinəsi"ndə kərpickəsən qoca, "Xosrov və Şirin"də Fərhad, "Leyli və Məcnun"da Zeyd, "Yeddi gözəl"də Fitnə, kəndli kürd, onun qadını, qızı, qoca çoban, qoca bağban, 7 məzlum, "İskəndərnamə"də çinli kəniz, qoca çoban). Belə bir əxlaqi fərqləndirmə öz-özlüyündə şairin əxlaq məsələlərinə də ictimai məna verdiyini və əxlaq pozğunluğunu da, əsasən, despotizm üsul-idarəsi ilə əlaqələndirdiyini göstərir".

Ədalətli olmaq fikri XIII-XIV əsr Azərbaycan filosofu Şəbüstərinin (1287-1320) yaradıcılığında da öndədir. O, hamını bir gözdə görmək, insanlara sədaqətlə xidmət göstərmək, dostluq etmək kimi nəcib keyfiyyətləri təbliğ edir. Demək olar ki, o, bütün əsərlərində gözəl əxlaqa malik olmaqdan bəhs edir: "Ədalətli olmaq – gözəl əxlaqın əsas xüsusiyyətlərindən biridir, ona görə ki, ədalətə sahib olan hər kəsin əxlaqı gözəl olur, çünki ondan heç vaxt zülm baş verməz".

Yaxın və Orta Şərq xalqlarının ictimai-fəlsəfi həyatında mühüm yer tutan Nəsirəddin Tusinin (1201-1274) "Əxlaqi-Nasiri" (Nasir əxlaqı) əsəri Azərbaycanın etik fikir tarixində mühüm hadisədir. Elmi-ədəbi irsi olduqca rəngarəng

olan N.Tusi əhatə etdiyi sahələrin diapazonu ilə də fərqlənir. O, nücum (astronomiya), riyaziyyat, tibb, məntiq, psixologiya, fəlsəfə, ədəbiyyat, coğrafiya, mədənşünaslıq (kimya), ilahiyyat, incəsənət, musiqi, tarix, iqtisadiyyat və s. elmlərdən mükəmməl xəbərdar olmuşdur. H.Məmmədbəyli özünün "Marağa rəsədxanasının banisi Nəsirəddin Tusi" adlı əsərində Tusinin 76 əsərinin adını çəkir. Alimə dünya şöhrəti qazandıran onun riyaziyyat və nücum elmlərinə aid yazdığı "Zince Elxani" kimi əsəri və Marağa rəsədxanasıdırsa, onu Şərq xalqlarına sevdirən "Əxlaqi-Nasiri" əsəri olmuşdur. Bu əsərin qəribə yazılma tarixi vardır. Əxlaq, fəlsəfə, məntiq məsələləri ilə maraqlanan, bəzən özü də bu məsələlərə aid əsər yazan İsmaili hökmdarı Nasir, Tusini yanına çağıraraq ona Əli Misgəvehin "Ət-təharə" adlı kitabını fars dilinə tərcümə etməyi təklif edir. O zaman İbn Misgəvehin bu kitabı ərəb dilində əxlaq haqqında yazılmış ən gözəl əsər hesab edilirdi. Tusi bu kitabı tərcümə etmək əvəzinə, onu çoxdan məşğul edən fəlsəfi-əxlaqi, ictimai-siyasi məsələləri dərindən şərh etmək üçün daha mükəmməl bir kitab yazmaq qərarına gəlir. Tusi özü bu barədə yazır: "Bu kitabın yazılması onun əmri və təşviqi ilə olduğundan adı "Əxlaqi-Nasiri" qoyuldu". "Əxlaqi-Nasiri" 3 məqalə və 30 fəsildən ibarətdir. Əsərin əvvəlində "Müqəddimə", "Bu kitabın yazılmasının səbəbi haqqında", "Kitabın məqsədi və fəsilləri haqqında başlanğıc" adlanan hissələr yerləşdirilib. "Əxlaqın saflaşdırılması haqqında" adlanan birinci məqalə "Əsaslar (başlanğıclar) haqqında" və "Məqsədlər haqqında" adlanan 2 hissədən ibarətdir. Birinci hissədə 7, ikincidə 10 fəsil mövcuddur. "Evdarlıq elmi haqqında" adlanan ikinci məqalə 5, "Ölkə (şəhərləri) idarəetmə qaydaları" adlanan üçüncü məqalə isə 8 fəsildən ibarətdir. Hələ kitabın əvvəlində əsərin məhz fəlsəfi əsər olduğu bəlli olur: "Bu kitabın məqsədi hikmətə aid məsələlərdən biri olduğundan ilk növbədə hikmətin mənasını şərh etmək, onun təsnifatını vermək lazımdır". Müəllif hikmətə tərif verərək onu 2 yerə bölür: biri – elm, o biri – əməl (iş). Sonra müəllif hikməti nəzəri hikmət və əməli hikmətə bölərək, bunların hər birinin bölmələrindən danışır və onların geniş təsnifatını verir ki, bunların da hər biri öz-özlüyündə böyük maraq doğuran problemlərdir. Məsələn, 3 yerə ayrılan nəzəri hikmətin birinci hissəsinə ilahiyyat, fəlsəfə; "Riyaziyyat" adlanan ikinci hissəyə həndəsə, astronomiya, astrologiya, musiqi; "Təbiət elmi" adlanan üçüncü hissəyə kimya, botanika, biologiya, psixologiya, fizika və s. aiddir. Əməli hikmət də üç yerə bölünür: birinci – əxlaqın saflaşdırılması; ikinci – evqurma qaydası; üçüncü – şəhərsalma siyasəti.

Etik görüşləri hələ kifayət qədər tədqiq edilməyən Tusi insan və ona məxsus olan xüsusiyyətləri mərkəzi planda nəzərdən keçirir, yaradıcılığı boyu insanın əxlaqi keyfiyyətlərini tərənnüm edir. Tusi əxlaqi sifətlərin yaranmasını real gerçəklikdə görür: "əxlaqi sifətlər yalnız ictimai həyatda yaranır və heç də anadangəlmə proses deyil", "insanlar öz əxlaqi sifətlərini həyatda tapdıqları-

na görə özlərini yaxşı tərbiyə etməyi də bacarmalıdırlar". Tusinin etik sisteminə əsasən, insanlar öz xarakterinə görə dörd qrupa bölünür: birinci, o adam ki, bilir və bildiyini başqalarına öyrədir, o, alimdir, ona ehtiram edin; ikinci, o adam ki, bilir və bildiyinə güvənir, o, özündən xəbərsizdir, lovğadır, onu tənqid edin; üçüncü, o adam ki, bilmir və öyrənməyə ciddi cəhd edir, o zəhmətkeşdir, ona kömək edin; dördüncü, o adam ki, bilmir və öyrənmək də istəmir, o adam ağılsızdır, ondan uzaq olun. Tusinin fikrincə, insanlar həyatda əxlaqi sərvətləri, keyfiyyətləri yaxşı mənimsəmək üçün uşaqlıq dövründən düzgün tərbiyə edilməlidir, ata və analar, hər şeydən əvvəl, övladlarını vicdanlı olmağa öyrətməli və sonra təlim və tərbiyə işlərinə başlamalıdırlar. Tərbiyə lap körpə yaşlarından başlamalıdır, çünki kiçik yaşda uşaqların mənəviyyatı sadə və təmiz olur. Hər bir valideyn öz övladının idealına çevrilməyə çalışmalıdır. Hər bir valideyn və tərbiyəçi uşaqlara həyatda zəruri tələbatı ödəmək üçün maddi nemətlərə sərf edilən əməyin və zəhmətin rolundan geniş danışmalıdır. Uşaqlar başa düşməlidirlər ki, onların yediyi, içdiyi və geyindiyi maddi nemətlər üçün valideynləri böyük əmək və zəhmət sərf etmişlər. Belə olarsa, uşaqlar körpə yaşlarından əməyin və zəhmətin nəyə qadir olduğunu düzgün dərk edərlər. Onlar uşaqların nəzərində mal-dövlətin, qızıl və gümüşün rolunu heç vaxt şişirtməməlidirlər, çünki qızıl və gümüşün vurduğu ziyan böyük bəlalara səbəb olar. Heç kəs anadangəlmə fəzilət sahibi olmur, məsələn, heç kəs dülgər, katib, ya başqa mütəxəssis doğulmur. Fəzilət təcrübə sayəsində əldə edilir, lakin çox zaman bir adam fitri olaraq bir fəziləti tez qəbul edir, onu mənimsəmək istedadı çox olur. İnsanı dörd amil hörmətli edər: doğruçuluq, ədəblilik, elmlilik və xoşxasiyyətlilik. Doğruçuluğun zinəti həya, camalı mənəvi saflıq, səmərəsi isə elmdir. Ədəblilik hörmət artırar, elm insanı yüksəldər. Elmin dəyəri mal-dövlətin dəyərindən faydalıdır. Xoşxasiyyətlilik insanın xoşbəxtliyi deməkdir. Xoşxasiyyətlilik yaxşılığın mayasıdır. Tusinin fikrincə, dostluq edənlər eyni xasiyyətə malik olmalıdırlar: Bir-birinə həsəd çəkib paxıllıq etməməli, bir-birindən mənfi xasiyyətləri gizlətməməli, bir-birinə etibar etməlidirlər. Vəfalı dost seçib onu axıra qədər qorumaq çətindir. Xeyirxah insanlarda 10 cür müsbət əxlaqi sifət olmalıdır: *əvvəla, yalançı olmamalıdır; ikinci, insaflı olmalıdır, üçüncü, eyib axtarmamalıdır; dördüncü, xalqın günahından keçməyi bacarmalıdır; beşinci, üzrxahlığı bacarmalıdır; altıncı, əziyyətə dözməyi bacarmalıdır; yeddinci, özünü tənbeh etməyi bacarmalıdır; səkkizinci, öz eybini başqasının eybindən tez görməlidir; doqquzuncu, hamı ilə mülayim rəftar etməlidir; onuncu, özünü çox təriflməməlidir, özü haqqında yüksək fikirdə olmamalıdır*. Tusi xeyir və səadətin növlərini göstərir: xeyirlər şərafətli, tərifəlayiq, qüvvə artıran və fayda verəndir. Xeyirlər kimi, səadətin də dörd növü var: hikmət, şücaət, iffət və ədalət.

“Ən yüksək dərəcədə arzu edilən xeyir və səadət haqqında” adlanan fəsildə xeyir və səadət arasında olan fərq aydınlaşdırılır, xeyir və səadətin növlərindən danışılır, bəzi qədim alimlərin rəyi verilir.

“Xasiyyətin (xarakterin) mahiyyəti, həddi (tərifi) və əxlaqın dəyişdirilməsinin mümkünlüyü haqqında” adlanan fəsildə xasiyyətə tərif verilir, xasiyyətin fitri olub-olmaması barədə fikirlərin müxtəlif olduğu söylənir. Bununla əlaqədar Aristotel və digər filosoflardan misal gətirilir: “Sonrakı alimlərin xasiyyətin fitri olmaması haqqında dəlilləri bundan ibarətdir. Onlar deyirlər ki, xasiyyətlər dəyişkəndir, dəyişkən isə fitri ola bilməz. Buradan belə nəticə çıxardırlar ki, heç bir xüsusiyyət fitri deyil”. Sonrakı fəsillərdə fəzilət cinslərinin sayı, növləri, onlara zidd rəzilət zümrələri, fəzilətlərin oxşarları və fərqləri, ədalət və s. məsələlərdən danışılır.

“Evdarlıq elmi haqqında” adlanan ikinci məqalədə “Mənzilə olan ehtiyacın səbəbi, onun əsasları və ən mühüm cəhətləri”, “Ailə dolandırmaq və evdarlıq qaydaları haqqında”, “Övlad saxlamaq və tərbiyə etmək qaydaları haqqında”, “Xidmətçiləri və qulları idarə etmək qaydaları haqqında” fəsillər, “Söz demək qaydaları”, “Oturub-durmaq adətləri, hərəkət və sükut qaydaları”, “Yemək qaydaları haqqında”, “Şərab içmək qaydaları” kimi yarımfəsillər mövcuddur.

Nəhayət, “Ölkə (şəhərlərin) idarəetmə qaydaları” adlanan üçüncü məqalədə “İctimaların əlaqəsi üçün zəruri olan məhəbbətin fəziləti və növləri haqqında”, “İctimaların növlərinin və şəhərlərin əmələ gəlməsi haqqında”, “Sədaqətin fəziləti və sədaqətli adamlarla (dostlarla) davranış qaydaları haqqında”, “Ölkə dolandırmaq siyasəti və şahların xisləti haqqında”, “Şah xidmətində olmaq və rəiyyətin qayda-qanunları haqqında”, “Xalqın bütün təbəqələr ilə davranış qaydaları (xüsusiyyətləri) haqqında” fəsillərindən sonra isə sonda: “Bütün fəsillər üçün faydalı olan Əflatunun vəsiyyətləri haqqında” fəsil gəlir ki, bununla da əsər bitir.

Füzuli (1498-1556) yaradıcılığında məhəbbət problemi ön plandadır. Füzuli məhəbbəti ilahi məhəbbət olub, insanın mənəvi gözəlliyini təsdiq edir. Füzuli məhəbbəti həm də ideal məhəbbətdir. Şair onu təzadların inkarı kimi göstərir. “Fəzliyə nəsihət” əsərində Füzuli yazır ki, hər kəs özünə əməklə yol açır, cəmiyyətdə etibar sahibi olur və şöhrətlənir. Ona görə də əməksevər olmaq lazımdır. İnsanın zəhmətə, əməyə qatlaşması onu ədalətli, yüksək əxlaqi sifətlərə sahib edir. “Şikayətnamə”, “Rind və Zahid”, “Ənisül-qəlb” əsərlərində ictimati ədalətsizlik və zülm tənqid edilir. Şairin fikrincə, bədxah adamlar heç vaxt həyatda xoşbəxt ola bilməzlər”.

Füzulinin fəlsəfi, etik və estetik görüşlərini diqqətlə tədqiq etmiş akademik Fuad Qasımzadə “Qəm karvanı, yaxud zülmətdə nur” əsərində yazır: “Füzuli öz əsas fəlsəfi traktatı olan “Mətləül-etiqad”da yunan fəlsəfəsinə dərindən bələd olduğunu büruzə verir. Əsər bir çox yunan mütəfəkkirləri haqqında dol-

ğun və yığcam, həm də, əsasən, düzgün məlumat verdiyindən, o, bir növ fəlsəfə tarixinə aid olan əsərə, ayrı-ayrı filosoflar və cərəyanlar haqqında biliklər verən məlumat kitabçasına, ensiklopediyaya oxşayır... "Mətləül-etiqad"da qədim yunan fəlsəfəsinin Fales, Heraklit, Demokrit, Anaksaqor, Empedokl kimi materialist, Aristotel (materializm və idealizm arasında tərəddüd edən), Pifaqor, Sokrat, Platon, Prokl kimi idealist nümayəndələrinin və başqalarının, habelə bir sıra alimlərin adları çəkilir, yaradıcılığı izah olunur. Füzuli bədii əsərlərində də yunan alim və mütəfəkkirlərini, tarixi şəxsiyyətləri tez-tez qeyd edir, onların işlərinə yüksək qiymət verir. Onun şeirlərində Ərəstunun (Aristotel), Əflatunun (Platon), Makedoniyalı İskəndərin (Aleksandr), Buqratın (Hippokrat) və başqalarının adına rast gəlirik. Farsca yazılmış qəsidələrdə Füzuli Aristotelin fəlsəfəsini, Hippokratın tibbi görüşlərini tərifləyir, onları İbn Sina və Loğmanla yanaşı təbliğ edir. Şair su, od, torpaq və havadan danışaraq (şübhəsiz ki, Empedokla işarədir) yunanlarda böyük alimlərin olduğunu yazır. "Ənisül-qəlb"də də yenə Əflatunun adı çəkilir, onun həqiqət sirlərini aça bilmədiyi qeyd olunur və bununla belə, yunan mütəfəkkirlərinə, ümumiyyətlə, yüksək və layiqincə qiymət verən Füzuli onları "yunan biliciləri" adlandırır. Əsərdə Əflatunun (Platonun) adını hörmətlə çəkən şair oxucuya xitabən deyir ki, hətta Əflatunu belə hikmətdən xəbərdar güman etmə. Məhz platonik eşqi nəzərdə tutan Füzuli "qərəz" rədifli qəzəlində göstərir ki, xalqın qərəzi gözəl vüsalından rahatlanmaqdır, aşiq üçün isə qərəz bu deyildir, təsərrüfsüz tamaşadır (seyr etməkdir). Platonik eşqin müəyyən təzahürləri "Leyli və Məcnun"da da vardır. Əsərin başlanğıcında verdiyi rübailərdə Füzuli ilahi eşqə, platonik eşqə işarə edərək yazır ki, o, həqiqət tələbinə görə məcaz yolunu tutmuşdur. Füzulinin etik görüşlərini təhlil edən müəllif daha sonra yazır ki: "şair əxlaq məsələləri ilə elmin məşğul olması zərurətini dərk etmiş və əxlaqdan xüsusi olaraq bəhs etməyi bir elm saymışdır. Yəni ...o, etikanın – bu istilahın özü onda olmasa da – əxlaq haqqında təlim, əxlaqi anlayış və qaydalardan bəhs edən elm olduğunu bilmişdir. ...Şair etikanı (fünuni-ədəb, yəni ədəb elmi) bir elm kimi qəbul etsə də, nəhayətdə insan əxlaqının əvvəlcədən təyin edildiyi kimi təzahür edəcəyini, pis təbiətli adamın bütün ömrü boyu məhz belə qalacağını söyləmiş və beləliklə də, əxlaqın çıxış nöqtəsi kimi ilahi başlanğıcı, Allahı qəbul etmişdir. Əxlaqın mənşəyi məsələsində onun idealist mövqeyi bir çox şeirlərində aydın görünməkdədir və şair bunu dəfələrlə, dönə-dönə söyləmişdir. "Leyli və Məcnun" poemasındakı minacatlardan birində o, Məhəmməd peyğəmbəri mədh edərək yazır ki:

*Keyfiyyəti-halı rövşən etdin,*
*Xeyrü-şər işin müəyyən etdin.*

Füzuli insan əxlaqının, davranış və əməllərinin Allahın iradəsindən asılı olması məsələsində daha da irəli gedərək, iqbal və idbarın, xoşbəxtliyin və bədbəxtliyin büsbütün Allahdan, ilahi iradədən asılılığını qəbul edir və bunların izahında fatalist mövqe tutur. Allahın qoyduğu səadəti əzəli sayan şair, xoşbəxtlik və bədbəxtliyin təyinində ilahi buyruğun, qeyridən edilən "əmri-mühalın" həlledici rolunu qəbul etməklə, əxlaqi əməllər məsələsində açıq-aydın qəza-qədər ideyasına gəlib. ...Şair qəza-qədər ideyasını, əsasən, dünyəvi hissləri, saf və real məhəbbəti tərənnüm edən "Leyli və Məcnun" dastanında irəli sürür. ...Bəs bu bədbəxtlik haradan gəlir, onu aradan götürmək, səadət və xoşbəxtliyə yetmək mümkündürmü? Məlum olur ki, bu, Məcnunun əvvəlcədən müəyyən edilmiş taleyidir, onun bəxti, müqəddəratı, qisməti irəlicədən məhz belə yoğurulmuşdur ki, o, bədbəxt olmalı və eşqinə qovuşmamalıdır". "Şair həyatın mənasını mal-dövlət toplamaqda, simü-zər cəmləməkdə deyil, bilik və elm əldə etməkdə görür. O, hünər kəsb etməyi, biliklərə yiyələnməyi daim fəzilət və hünərin şərti sayır. ...Əxlaqın yüksəlməsində əqlin, elmin gücünə verdiyi qiymət, demək olar ki, bütün əsərlərində dönə-dönə təkrar edilir və onun rasionalist etikası geniş şəkil alır. Əxlaq normalarının müəyyən edilməsində, insanların davranışlarında əqlin roluna verilən bu fikir Füzulidə sistemləşdirilmişdir. O, insan şərəfinin səbəbini də əqlin gücündə, elmin rolunda görür. Farsca olan rübailərindən birində deyir ki:

*Elm ilə, ədəblə tapılar şərəf,*
*Mirvari olmasa, nə lazım sədəf?*

Füzuli əxlaqi əməllərin təyinində əqlə verdiyi yüksək rola bir növ yekun vuraraq yazır ki, əvvəl fikir, sonra əməl, yəni işi başlamazdan əvvəl onun nəticələrini düşünmək lazımdır. ...Beləliklə, Füzulinin rasionalist etika tərəfdarı olduğu, əxlaqın əsas meyarı kimi əqlə və biliyə yüksək qiymət verdiyi, onları insanın yüksəlməsi və şərəfi üçün vacib şərtlər saydığı aydın olur.

XVII-XVIII əsrlərdə Azərbaycanda ictimai-siyasi və fəlsəfi fikir dövrün tarixi hadisələri ilə sıx əlaqədar inkişaf edirdi. Qövsi Təbrizi, Saib Təbrizi və b. Füzuli ənənələrini davam etdirirdilər. XVIII əsrdə Molla Vəli Vidadi və Molla Pənah Vaqif humanist ideallarын ən güclü ifadəçiləri olmuşdular.

Həmin dövrdə yaşamış Zeynalabdin Şirvani insanın kamil olması və təkmilləşməsi üçün 50 keyfiyyət qazanmağın zəruriliyini göstərirdi. Şirvaniyə görə, insan mülayim, təvazökar, ehtiyatlı, xeyirxah, vicdanlı, əməksevər olmalı və bu kimi yüksək keyfiyyətlər daşımalıdır.

XIX-XX əsrlərin Azərbaycan ədəbiyyatı etik fikir tarixində mühüm bir mərhələ təşkil edərək yalnız gənc nəslin deyil, cəmiyyətin bütün təbəqələri və siniflərinin əxlaqi tərbiyəsində və həyat təcrübəsinin zənginləşməsində əvəzedilməz

mənbə rolunu oynamışdır. Bu dövrün görkəmli maarifçiləri və mütəfəkkirlərindən Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Seyid Əzim Şirvani, Nəriman Nərimanov, Əbdürrəhim bəy Haqverdiyev, Cəlil Məmmədquluzadə, Üzeyir Hacıbəyli, Mirzə Ələkbər Sabir, Hüseyn Cavid, Cəfər Cabbarlı və digərlərinin əsərləri buna misaldır.

## 6. İslam etikası

VII əsrdən başlayaraq Yaxın və Orta Şərq ölkələrində yayılmağa başlayan İslam dini insan həyatının bütün sahələrində, o cümlədən dünyagörüşündə (dini, hüquqi, siyasi, elmi, əxlaqi və s.), eləcə də məktəb və tərbiyə sistemində özünəməxsus dəyişikliklər etmişdir. Ərəb xilafəti ərazisində formalaşmağa başlayan yeni mədəniyyət, o cümlədən fəlsəfə və bir sıra Şərq xalqlarının ərəb dilində yazılmış fəlsəfi əsərləri orta əsr fəlsəfi fikrinin mütərəqqi nümayəndələrini yetişdirmiş, onlar həmçinin antik irsdən və qeyri-islam yönümlü mütəfəkkirlərin mütərəqqi zəngin ənənələrindən bəhrələnmişdirlər. İslam dini dünyagörüşünə söykənən ərəbdilli zəngin İslam fəlsəfəsi VII-XI əsrlərdə öz klassik dövrünü yaşamışdır. İslam sivilizasiyası əsasında inkişaf edən bu fəlsəfənin bətnindən özünəməxsus davranış qaydaları, əxlaq normaları və prinsipləri sistemi doğulmuşdur. Bütün müsəlman dünyasının masaüstü kitabı olan "Quran"ı bu baxımdan İslam etikasının əsası hesab etmək olar ki, bu da öz genezisi və mənbələrinə görə İslam dini sistemi ilə bağlıdır. Konkret olaraq İslam etikası "Quran"ın ayrı-ayrı ayələrində öz əksini tapmışdır.

İslam yaranandan sonra formalaşan "müsəlman etikası" bir deyil, iki mənbəyə əsaslanır: Quran və Sünnə. "Sünnə" (ərəbcə "nümunə", "yol", yəni peyğəmbərin həyat yolu) hədislərin bütöv bir toplusudur. Peyğəmbərin dövründə yaşamış səlahiyyətli insanlar tərəfindən çatdırılan bu hədislərdə Allah elçisinin sözləri, hərəkətləri, davranışı, hər hansı işə bəraət qazandırması və ya icazə verməsi və s. barədə məlumat verilir. "Məhəmməd peyğəmbərin kəlamları humanizm, xeyirxahlıq, beynəlmiləlçilik, ümumbəşərilik ideyaları ilə yoğurulmuşdur. ...Peyğəmbərin fikrincə, insan cəmiyyət qarşısında məsuliyyətli olmalıdır, insanın müqəddəs borcu ümumiyyətin haqqında düşünməkdir. Xəsislik, hiylə, kinlilik, həsəd, peyğəmbərin fikrincə, insanda olan ən pis keyfiyyətlərdir. Şəriətimizdə yalan danışmaq, qeybət etmək pislənmiş, Allah yolunda düzgün danışmaq, haqq-ədalət tərəfdarı olmaq tərifəlayiq görülmüşdür. ...Məhəmməd peyğəmbər hamını və hər kəsi düzgünlüyə, haqqı və ədaləti unutmamağa çağırırdı. ...Peyğəmbərin müdrik kəlamları cilalanmış tərbiyə, əxlaq üsulları ilə zəngindir".

Hədislərin toplanması, məzmununun səhih olması ilə əlaqədar tədqiqi və şərhi "hədisşünaslıq" kimi bir sahənin yaranmasına səbəb olmuşdur ki, bu da

"ilm əl-hədis" – yəni "hədis haqqında elm" adlanır. Hədislər "səhih" və "qeyri-səhih" və ya zəif olur. Hədislərin "səhih" kimi təsdiq edilməsi uzun, ciddi və dəqiq tədqiqatdan sonra mümkün olurdu. "Səhih" hədis müəlliflərindən əl-Buxari və Muslimi göstərmək olar.

Müəyyən tərəfləri "fikx"lə (dini-hüquqi fikir) uzlaşan müsəlman etikasında qiymətləndirmə sistemi 5 əmələ əsaslanır: 1) *vacib* (fərz); 2) *məsləhət görülən* (müstəhəb); 3) *fərq etməyən* (mubah); 4) *məsləhət görülməyən* (məkruh); 5) *qadağan edilən* (haram). Bu əməllər Yaradanın əmri və ya qadağası ilə əlaqədar olub, axirətdə mükafat və ya cəza, savab və ya günah qazanmaqla nəticələnir. Vacib əməlləri yerinə yetirdikdə insan mükafatlanır, onlara əməl etmədikdə isə cəzalana bilər ("cəzalanacaq" demək olmaz, çünki insan yalnız Allahın qərarı ilə cəzalanır, Allahın yerinə heç kim bu hökmü çıxara bilməz, əks halda Allahın mərhəmətini şübhə altına almış olar). Qadağan edilən əməlləri icra etməyəndə insan mükafatlanır, edəndə – onu cəza gözləyə bilər. Məsləhət görülən əməllərə görə insan mükafatlandırılır, onları etmədikdə isə cəzalanmır. Məsləhət görülməyən (məkruh) əməlləri icra etdikdə insan cəzalandırılmır, onlardan çəkinəndə isə mükafatlandırılır. Fərq etməyən əməllərə görə isə nə cəza, nə də mükafat nəzərdə tutulmayıb. İnsan fikxə görə də onları icra etməkdə və ya etməməkdə azaddır. İslam etikasında insanların hərəkətlərinin xeyir və ya şər kimi qiymətləndirilməsinin əsas göstəricisi niyyətdir. Çox vaxt hakim də əməlin motivini bilmədən hökmü çıxarmaqda çətinlik çəkir.

Beləliklə, Quran Sünnəsiz, Sünnə isə Quransız mövcud ola bilmədiyindən və bunlar bir-birini tamamladığından müsəlman etikası bunlardan hansısa birinin olmadığı halda, tam dərk edilə bilməz. Klassik ərəb müsəlman mədəniyyətində "müsəlman etikası" xüsusi sahə kimi mövcud olmasa da, daha çox elmi xarakter daşıyan Quran və Sünnə, eləcə də fikx, ədəb və s. təlimlər bütövlükdə etik problemlərin daşıyıcısıdır. Həm də bunlar yalnız müsəlmanlar üçün deyil, bütün bəşər övladları üçün nəzərdə tutulub. Çünki sonuncu səmavi kitab olan "Quran" və ümumiyyətlə müsəlman dini, ümumbəşəri xarakter daşıyır.

Sonda toxunacağımız vacib bir məsələ də var ki, o da ədiblərin dinə münasibətidir. Əfsus ki, sovet dövrü ədəbiyyatında bu münasibət, o cümlədən ədiblərin tənqid obyekti bizə birtərəfli və təhrif olunmuş şəkildə təqdim edilirdi. Bunun nəticəsində ədiblərin, əslində, "nəyi" tənqid etmələri kölgədə qalır və bu, "dinin tənqidi" kimi nəzərdən keçirilirdi. Bunun əsas səbəbi bizim özümüzün (yəni sovet dövrü adamlarının) İslam dinindən, müqəddəs "Quran"dan kifayət qədər xəbərdar olmamağımız idi. Digər tərəfdən, yazıçıların bir qisminin "göz açıb" islamı bəzi təriqətlərin timsalında görüb qavraması da əsərin idraki-tərbiyəvi funksiyasına müəyyən qədər təsir göstərmişdir. Lakin əksər ədiblərimizin əsərlərinə bir daha nəzər salsaq, orada tənqid hədəfinin İslam dini deyil, başqa təzahürlər olduğunu görərik: mövhumat, cəhalət, nadanlıq, avam-

lıq, savadsızlıq, fanatizm, pirlərə inam, bidət, yəni peyğəmbərdən sonra dinə yenilik gətirmək, peyğəmbərin etmədiklərini “şəriət” adı ilə təqdim etmək, islamı “matəm dininə” çevirmək, “siğə” adı ilə əxlaqsızlıq yaymaq və s. söylədiklərimizə sübutdur. Öz çirkin əməllərini “din” adı ilə həyata keçirən, savadsızlıqdan və ya bilərəkdən xalqı çaşdıran yalançı mollalar, heç bir dini təhsili və səlahiyyəti olmadan fəaliyyət göstərən ruhanilər və başqaları da ədiblərimiz tərəfindən tez-tez tənqid atəşinə tutulurdu.

İnsanların əxlaqı ilə əlaqədar məsələlər – valideynlərə təmənnasız münasibət, öz ailəsinə sədaqət və qayğı, düzlük, doğruçuluq, imkansızlara yardım etmək və s. İslamda mühüm yer tutur. Sələmçilik (faizlə pul vermək), adam öldürmək, zina, oğurluq, əyyaşlıq, dələduzluq, vəfasızlıq, xainlik, acgözlük, yalançılıq, kobudluq və s. isə dinimizdə pislənən əxlaqi keyfiyyətlərdəndir ki, bugünkü ədəbiyyatımız məhz belə ideyalarla silahlanmalıdır. Beləliklə, fanatizm, mövhumat və bidətçilikdən uzaq olaraq müqəddəs “Quran”a və peyğəmbərin hədislərinə istinad edən islam əhli bütün dünyada nümunəvi əxlaq nümayiş etdirməyə qadirdir!

## 7. Əxlaqın mahiyyəti və əsas funksiyaları

Əxlaq bugünkü vəziyyətinə birdən-birə, “hazır şəkildə” gəlib çıxmamışdır. Primitiv norma və təsəvvürlərdən yetişməyə başlayan əxlaq, bəşəriyyətin bütün tarixi boyu mövcud olmuş və olduqca mürəkkəb, uzun və hətta çətin bir yol keçmişdir. Tarixi inkişafın hər bir pilləsində maddi və mənəvi istehsal prosesi zamanı insanlar müəyyən davranış normaları, prinsipləri, qaydaları, adət və ənənələr, dəblər yaratmışlar. Cəmiyyətin təşəkkül tapdığı ilk günlərdən insanlar bir-biri ilə münasibətlərini tənzim etmək üçün yaratdığı bu birgəyaşayış qaydalarına riayət edir, öz hərəkətlərində nəyin pis, nəyin yaxşı olduğunu, hansı hərəkətin bəyənilib-bəyənilmədiyini xeyir və şər kateqoriyaları vasitəsilə qiymətləndirmişlər.

İctimai şüurun qədim formalarından olan əxlaq insanlar arasındakı münasibətləri əks etdirir. Əxlaq insanların bir-birinə, dövlətə və cəmiyyətə olan münasibətlərini nizama salır, ictimai həyatın bütün sahələrində insanların hərəkətlərini tənzimləyir. Məsələn, əməkdə, məişətdə, siyasətdə, elmdə, ailədə, ictimai yerlərdə və s. Bunların hər birində o, müxtəlif rol oynayır. Bununla əlaqədar, “peşə etikası”, “ailə və nikah etikası” və s. terminlər yaranıb. Bütün bu sahələrdə əxlaqla yanaşı, insanların hərəkətlərinin digər tənzimləyiciləri də var. Məsələn, dövlətin hüquq normaları və dekretləri, istehsalatdakı qanun-qaydalar, təşkilatın nizamnamələri və təlimatları, vəzifəli şəxslərin göstərişləri, dini-ritual xarakterli qaydalar, takt, etiket, ədəb, davranış qaydaları, idman və

digər oyunların şərtləri, nəqliyyatın idarəolunma qaydaları, sanitar-gigiyena normaları və s. Bütün bunlar bəzən əxlaq normalarının spesifikasını aydınlaşdırmağa bir qədər mane olur. Əxlaqa "bu belədir" anlayışı ilə yanaşı, belə olmalıdır" daha çox uyğun gəlir.

Bəzi təsir formaları, məsələn, milli ənənələr, məişətdəki estetik normalar, əmək vərdişlərinin tərbiyə edilməsi və s. əxlaqla yanaşı, digər sahələrə də aiddir. Ayrı-ayrı insanların tərbiyəsinə təsir edən ictimai formalar – adət və ənənələr, ictimai rəy, tərbiyə və s. əxlaqla bağlı olsa da, bütünlükdə ona məxsus ola bilməz.

Hər bir dövrün və cəmiyyətin özünəməxsus əxlaq qaydaları, prinsip və normaları olduğu üçün, hər bir insan da, əsasən, yaşadığı dövrün və cəmiyyətin əxlaq qaydalarına tabe olur. Tarixi hadisə olan əxlaq bəşəriyyətin ictimai tərəqqisi gedişində dəyişir və inkişaf edir. Cəmiyyət siniflərə bölünən zaman əxlaq qaydaları da sinfi xarakter daşımağa başladı. Hər sinfin özünəməxsus əxlaq qaydaları yarandı. Müəyyən sinfə xidmət edən əxlaq sinfi xarakter daşıyaraq hakim sinfə xidmət edir. Tarixdə əxlaqın aşağıdakı əsas tipləri var ki, bunlara əxlaqın konkret-tarixi tipləri də deyilir: 1) ibtidai icma əxlaqı; 2) quldarlıq əxlaqı; 3) feodal əxlaqı; 4) burjua əxlaqı və s. Əxlaqın inkişafında bəşər mədəniyyətinin tarixi tərəqqisini əks etdirən varislik elementlərinə də rast gəlmək olar. Əxlaq bir formadan digərinə keçərkən insanlar arasındakı münasibətlərdə humanizm ünsürləri də artır. Artıq ibtidai icma dövründə qarşılıqlı yardımın sadə formaları yaranır. Adam əti yemək adəti yox olur. Tayfa ittifaqları və dövlətin yaranması ilə qan düşmənçiliyinə son qoyulur. Feodal əxlaqı təhkimli kəndlini öldürməyə yol vermir, halbuki quldarın öz qulunu öldürməsi onun şəxsi işi idi. Burjua əxlaqında şəxsiyyətə hörmət prinsipi təsdiqlənir. Zaman keçdikcə, cəmiyyət inkişaf etdikcə əxlaq qaydaları da dəyişir. Çox vaxt hətta zahirən əbədi görünən əxlaq qaydaları belə dəyişikliyə uğrayır, öz əvvəlki məzmununu itirir və ya onlara heç bir ehtiyac qalmır.

Əxlaq – gerçəkliyi dərketmə vasitəsi olub, insanın praktik-mənəvi dünyagörüşüdür. Mürəkkəb və ictimai hadisə olan əxlaqın təbiətini öyrənmək üçün onun strukturunu aydınlaşdırmaq lazımdır. İctimai şüurun digər formaları kimi, əxlaqın da strukturu ictimai münasibətlərlə müəyyənləşir. Əxlaqi münasibətlər ictimai münasibətlər sistemində mühüm yer tutur ki, bunlar da əxlaq haqqında elm olan etika tərəfindən öyrənilir.

Əxlaq insanı birgəyaşayış şəraitində yaşamaq qabiliyyətləri baxımından xarakterizə edir. Əxlaqın məkanı – insanlar arasındakı münasibətlərdir. İnsanın güclü və ya ağıllı olmasını müəyyən etmək üçün onu digər insanlarla münasibətdə görmək və ya müqayisə etmək vacib deyil, çünki bu, fərdin özünəməxsus xüsusiyyətləridir. Lakin insanın nə dərəcədə xeyirxah, əliaçıq, mehriban olmasını və bu kimi digər xüsusiyyətlərinin şahidi olmaq üçün, onu məhz

başqaları ilə ünsiyyət prosesində görmək zəruridir. Məsələn, Robinzon Kruzo nə qədər ki, adada tək idi, onun mənəvi keyfiyyətlərinin olub-olmamasının heç bir əhəmiyyəti yox idi. Məhz Pyatnitsa peyda olandan sonra bu xüsusiyyətlərin üzə çıxmasına imkan yarandı.

Əxlaq normaları hər yerdə, müxtəlif şəraitlərdə təzahür edərək universal, bəşəri xarakter daşıyır. Onlar həm cəmiyyətin, həm də ayrı-ayrı şəxslərin rəyinə əsaslanır. Əxlaq normaları kifayət qədərdir. Bunlara ətrafdakılarla nəzakətli rəftar tələb edən sadə normalardan tutmuş, "öldürmə!", "oğurluq etmə!", "böyüklərə hörmət et!", "yalan danışma!" kimi mürəkkəb, insanın həyat prinsipinə çevrilmiş normalaradək aid etmək olar. Lakin əxlaqı normalar məcmusu kimi təsəvvür etmək o qədər də düz deyil. Çünki, əvvəla, bu normaların özləri əsaslandırılmalıdır, məsələn, "nəyə görə oğurluq etmək olmaz?", "öldürmək olmaz?"; ikincisi, konkret situasiyalarda bu normalar bir-birini inkar da edə bilər. Məsələn, bir cani qadının ardınca qaçır və yoldakılardan onun hansı tərəfə getdiyini soruşur, məgər bu zaman adamlar caniyə sözün düzünü deməlidirlərmi? Və yaxud həkim öz xəstəsinə həmişə diaqnozu olduğu kimi deməlidirmi? Ümumiyyətlə, nəzərə almaq lazımdır ki, yaranmış situasiyalar elə rəngarəng ola bilər ki, onların hərəsi üçün ayrıca norma fikirləşmək heç mümkün də deyil.

İnsan əxlaqi şüurla birgə doğulmur. O, əxlaq normalarını və davranış qaydalarını tədricən mənimsəyir. Bu normalar və qaydalar müəyyən vaxtdan sonra onun fərdi şüurunda özünə yer tapır ki, bu da "yaxşını pisdən", "əxlaqı əxlaqsızlıqdan" ayırmağa kömək edir. İnsan çox vaxt hətta öz istəyinin əksinə gedərək, ictimai rəyi nəzərə alıb, hamı tərəfindən qəbul edilmiş davranış qaydalarına və əxlaq normalarına uyğun hərəkət etməli olur. Çünki cəmiyyətdə yaşayan insan ondan təcrid oluna bilməz. O, bu və ya digər mənada cəmiyyət qaydalarına tabe olmaq məcburiyyətində qalır. Çox vaxt, əsasən, "öz ürəyinin hökmü ilə" hərəkət edən insan cəmiyyət və ya ayrı-ayrı şəxslər qarşısındakı borc və vicdan hislərinin təhriki ilə hər hansı addımı atır və bu zaman özü də hiss etmədən ictimai mənafe şəxsi mənafedən üstün tutulur. Belə olmasaydı, nə maddi və mənəvi nemətlər istehsal oluna bilər, nə də insan cəmiyyəti mövcud ola bilərdi.

Hər hansı addımın, hərəkətin hansı cəmiyyətdə baş verməsindən asılı olmayaraq, o həmişə "xeyir və şər", "ədalət və ədalətsizlik" mövqeyindən qiymətləndirilibdir.

Əxlaqın mahiyyətini daha yaxşı başa düşmək üçün onun əsas funksiyalarını da nəzərdən keçirmək lazımdır. Əxlaqın formalaşması və mədəniyyətin müstəqil sahəsinə çevrilməsi prosesində müəyyən əxlaq funksiyaları yaranıb ki, onlar bu gün də aktualdır. Əxlaqın funksiyaları içərisində ən əsasları bunlardır:

1) *qiymətləndirici;* 2) *idraki;* 3) *dünyagörüş;* 4) *tərbiyəvi;* 5) *tənzimləyici.*

Qiymətləndirici funksiya əsas funksiya olub, onu yalnız əxlaqa deyil, digər ictimai şüur formalarına – incəsənətə, dinə, hüquqa, siyasətə və s. də aid etmək

olar. Bu funksiyanın xüsusiyyəti, hər şeydən əvvəl, ondan ibarətdir ki, burada qiymətləndirmə əxlaqi şüurun əsas anlayışları prizmasından – xeyir, şər, ədalət, vicdan, borc və sairdən keçir. Əxlaqi qiymətləndirmə, adətən, universal xarakter daşıyaraq insanın bütün hərəkətlərinə aid olur. Hüquq sahəsində bu, başqa cürdür. Məsələn, hörmətsizliyə, kobudluğa, nəzakətsizliyə görə heç kəsi cinayətkar kimi mühakimə etmirlər. Siyasi qiymətləndirmə də bütün hərəkətlərə aid olmur. Burada da müəyyən məhdudiyyətlər, hərəkətlərin təzyiq, hədə-qorxu, hər hansı affektin (qorxu, qısqanclıq) təsiri altında baş verməsinin nəzərə alınması və s. səbəblər mövcuddur. Əxlaqi qiymətləndirmə həm də fərdin mənəvi əqidəsinə və ictimai rəyin nüfuzuna əsaslanır. İnsan şüurunda əxlaqi qiymətləndirmə, adətən, "xalis" olmayıb, estetik, siyasi və s. qiymətləndirmə ilə tamamlanır.

İdraki funksiya qiymətləndirici funksiya qədər intensiv və əhəmiyyətli olmasa da, onunla geniş mənada uzlaşır. Adətən, fərd başqalarının və ya özünün hərəkətlərini qiymətləndirdiyi zaman digər şəxslərin və ya özünün daxili aləmi haqqında, natamam da olsa, təsəvvür əldə edir. İdrakın bütün formalarının, o cümlədən elmi idrakın əsas şərti mənəvi keyfiyyətlərdir. Çünki obyektivlikdən uzaq olan alim qibtə və yalana əl ata bilər, öz xeyrini güdə bilər, əldə etdiyi nəticələri təhrif edə bilər, şöhrətpərəstlikdən özünü və ya başqalarını aldada bilər. Əxlaqın idraki funksiyası elmin idraki funksiyasından onunla fərqlənir ki, əxlaq daha obrazlı olub, ön plana hissləri, inamı və intuisiyanı çəkir. Elmi idrakda isə ağıl, dərrakə bunları üstələyir. Beləliklə, əxlaqın da idraki funksiyası ictimai şüurun digər formalarında olduğu kimi, sosial gerçəkliyi əks etdirir. Lakin əxlaqi şüur mövcud olan və ya formalaşan sosial varlığı, ictimai münasibətləri qanunlar şəklində deyil, cəmiyyətin tələbləri və şəxsiyyətin maraqlarını bildirən ideya, təsəvvür, ümid, arzu, əhvallar kimi müəyyən məqsədlər şəklində, yəni "bu belədir" əvəzinə, "belə olmalıdır" kimi əks etdirir.

Dünyagörüş funksiyası müxtəlif sistemli əxlaq normalarının, prinsiplərinin, ideallarının cəmiyyət və şəxsiyyətin fəaliyyətinə yol göstərən dəyərlər məcmusundan ibarət olması ilə əlaqədardır. Fərd cəmiyyətin yaratdığı əxlaqi norma və prinsipləri mənimsəyərək öz şüurunda özünə gərək olacaq müəyyən baxış və məsləklər formalaşdırır. Əxlaq sadə normalardan ibarət ola bilməz. O, bu normaları əsaslandırmalı, onlara haqq qazandırmalı, onların nəyə görə yerinə yetirilməli olduğunu göstərməlidir. Beləliklə, əxlaqi şüur həyat əhəmiyyətli suallarla, ali dəyərlərlə əlaqədar olur. Bunları həll etmək üçün insanın dünyadakı mövqeyini aydınlaşdırmaq tələb olunur. Bunun üçün isə dünya haqqında, heç olmasa elementar da olsa, təsəvvürə malik olmaq lazımdır. Dünya haqqında təsəvvür əldə etmək üçün yalnız elmi

nəticələrə əsaslanmaq olmaz, indiki halda bu natamam olar. Dünyanın elmi mənzərəsi və dünyagörüşü eyniyyət təşkil etmir. Dünyagörüş yalnız biliklər əsasında formalaşmır, bura həmçinin insan hislərinin rəngarəng qamması da aiddir. Əxlaqi şüurda dünyagörüş xüsusi anlayışlar prizmasında formalaşır: dünya ya xeyirxah, ya qəddar, ya da neytral, qaydaya salınmaz və ya xaotik kimi nəzərdən keçirilir.

Tərbiyəvi funksiya – əxlaqın əsas funksiyalarındandır. Fasiləsiz, intensiv və məqsədyönlü tərbiyə prosesi olmadan nə cəmiyyət mövcud ola bilər, nə də ayrıca insan şəxsiyyət kimi formalaşa bilər. Tərbiyənin mərkəzində şəxsiyyətin mənəvi özəyini formalaşdıran əxlaq tərbiyəsi dayanır.

Tənzimləyici funksiya digər funksiyaların özünəməxsus sintezidir. Lakin əxlaq insanların hərəkətlərinin yeganə tənzimləyicisi deyil: din, incəsənət, hüquq, siyasət də bu qəbildəndir. Məhz əxlaqi dəyərlər insanın mənəvi aləminin mərkəzində dayanaraq, onun həm siyasi mövqeyinə, həm mövcud hüquq qaydalarına (o cümlədən insanın hüquqi şüuruna) münasibətinə, həm müxtəlif dini təlimlərə qiymət verməsinə, həm də incəsənət sahəsindəki biliklərinə (estetik zövqünə) təsir edir. Hüquq, siyasət və estetik şüurdan fərqli olaraq əxlaq, demək olar ki, insan həyatının bütün sahələrini tənzimləyir. Əxlaq insanlardan çox şey tələb edərək onları mənəvi ideala yaxınlaşdırır (bu, qeyri-mümkün olsa da belə). Nəhayət, bu funksiya da insanın əxlaqi əqidəsinə və ictimai rəyin nüfuzuna, ilk növbədə vicdana əsaslanır. Lakin bütün bunlarla yanaşı, əxlaq kifayət qədər gücə malik deyil. Buna saysız-hesabsız cinayətlərin olması, gündəlik həyatdakı kobudluq, nəzakətsizlik və s. misaldır. Bunların da səbəbi az deyil: əvvəla, ayrı-ayrı fərdlərin əxlaqi şüuru çox vaxt lazımi səviyyədə olmur; ikincisi, ictimai rəy də səhv edə bilər. Bundan başqa, bəzən həyat şəraiti əxlaqi hisləri boğur. Məsələn, uşaqları acından ölən qadının cinayətə və ya oğurluğa əl atması və s.

## 8. Əxlaq və ictimai şüurun digər formaları

Əxlaq – ictimai şüurun qədim formalarından olub, insanlar arasındakı qarşılıqlı münasibətlərin xüsusiyyətlərini əks etdirir və tənzimləyir. Əxlaqi münasibətlərin rüşeymləri insan cəmiyyətinin formalaşmağa başladığı ilk dövrlərdən yaranıb. İbtidai dövrdə görülən bir çox işlər, məsələn, yem axtarma prosesi, bu zaman görüləcək işlərin planlaşdırılması və razılaşdırılması, əməyin bölünməsi, əmək alətlərinin hazırlanması təcrübəsinin yayılması zərurəti insanlar arasında olan qarşılıqlı münasibətlərin tənzimlənməsini tələb edirdi. Adətlər şəklində reallaşan bu cür tənzimlənmə ibtidai cəmiyyətin ilk əxlaq normalarına

çevrilirdi. Adətlərin şüurlu surətdə nəsildən-nəslə ötürülməsi və qorunması, mövcud quruluşa münasibətin formalaşması əxlaqın yaranmasına səbəb olur, əxlaqi təcrübəni praktik cəhətdən ümumiləşdirir və hamı üçün vacib edirdi.

Əxlaq da ictimai şüurun digər qədim növü olan din kimi ictimai şüur formasına ibtidai dövrdə hələ çevrilə bilmirdi, çünki onun da rüşeymləri həmin dövrdə kifayət qədər inkişaf tapa bilməmişdi. Bu da ibtidai icma dövründə insanların bütün şüurlu fəaliyyətinin bilavasitə istehsal fəaliyyəti ilə bağlı olmasından irəli gəlirdi.

Məhz ictimai əmək bölgüsü nəticəsində əməyin zehni və fiziki əməyə bölünməsi ictimai şüur formalarının inkişafı üçün şərait yaratdı ki, bu da quldarlıq dövrünə aid olunur. Əxlaq yalnız sinifli cəmiyyətdə nisbi müstəqillik əldə edə bildi. Onun mahiyyəti son nəticədə cəmiyyətin iqtisadi quruluşu ilə müəyyənləşir. İctimai şüur forması kimi ibtidai dövrdə yaranan əxlaq da nəzəri cəhətdən yalnız sinifli cəmiyyətdə inkişaf tapır. Əxlaqın nəzəri cəhətdən dərk olunması və əsaslandırılması əxlaq haqqında elm olan etikanı yaratdı. Etika əxlaq normaları və prinsiplərinin dərk edilməsi, izahı və əsaslandırılması, yəni əxlaqın nəzəriyyəsidir.

Cəmiyyətin inkişafı əxlaqla bərabər, mənəviyyatın digər sahələri, o cümlədən ictimai şüurun digər formaları üçün geniş imkanlar açdı. İctimai şüurun hər bir forması gerçəkliyi özünəməxsus şəkildə əks etdirərək, digər ictimai şüur formaları ilə sıx əlaqədədir. İctimai şüurun 7 forması var: 1) *siyasət;* 2) *hüquq;* 3) *elm;* 4) *fəlsəfə;* 5) *din;* 6) *incəsənət;* 7) *əxlaq.*

Elm, incəsənət və s. kimi obyekt-subyekt münasibətlərini əks etdirən ictimai şüur formalarından fərqli olaraq, əxlaq da hüquq kimi "subyekt-subyekt" münasibətlərini əks etdirir. Əxlaqın digər ictimai şüur formaları ilə münasibətində müəyyən maraqlı cəhətləri nəzərdən keçirək.

**Siyasət və əxlaq.** Siyasət siniflər arasındakı münasibətləri, onların hakimiyyət uğurundakı mübarizəsini əks etdirərək, diqqət mərkəzinə siyasi məqsədəuyğunluğu, yəni sinfi maraqların daha səmərəli ifadəsini və təminatını qoyur. Əxlaq da sinfi maraqları əks etdirir və bunu özünəməxsus şəkildə, bütün insanlara aid olan, özündə ümumbəşəri element və aspektləri cəmləşdirən universal tələblər kimi ifadə edir. Siyasət sinfi mübarizə qanunlarına, strategiya və taktikaya malikdir ki, bunlara əməl etməyənləri cəza gözləyir. Bununla yanaşı, öz strateji məqsədlərində o, mənəvi dəyərlərə, ideallara əsaslanır, öz taktikasında və mübarizə üsullarının seçilməsində ümumi rəyi, əxlaqi qiymətləndirməni, əxlaqi uyğunluğu nəzərə alır. Siyasət də, əxlaq da insanların davranışını tənzimləyir, hakim sinfə və partiyaya xidmət edir. Müəyyən siniflərin siyasəti əxlaqi hiss və baxışların məzmunu ilə əlaqədardır. Buna görə də hakim sinif özünün əxlaq normalarını və prinsiplərini hakim edə bilir. Çünki əxlaq norma-

ları müəyyən sosial birləşmələrin – siniflərin, qrupların, millətlərin siyasi tələblərini əks etdirir.

Siyasi münasibətlər cəmiyyətin həyatının mənəvi tərəflərini özünəməxsus şəkildə tənzimləyir. Bütün siyasi addımlar insan əməllərinin nəticəsi olduğu üçün əxlaqi məzmun daşıyır. Əxlaq prinsipləri cəmiyyətdə insanların praktik fəaliyyəti vasitəsilə reallaşır. Belə praktik fəaliyyət siyasi xarakter daşıyır. Praktik fəaliyyət tələb edən digər sahə – iqtisadiyyat isə əxlaqi münasibətlərə öz siyasi təzahürləri – müəssisələr, nəzəriyyələr, praktik işlər vasitəsilə təsir edir. Bu baxımdan, əxlaq cəmiyyətin siyasi maraqlarını daha düzgün əks etdirir.

Mütərəqqi əxlaqa zidd olan, hadisələrin gedişini ləngidən, xalqa bədbəxtlik gətirən siyasət əvvəl-axır məğlubiyyətə uğrayır. Tərəqqipərvər əxlaqa söykənən siyasət həmişə müvəffəqiyyət əldə edir. Ədalətli siyasət özü mürtəce əxlaqın məhv edilməsinə və mütərəqqi əxlaqın yaranmasına kömək edir. Beləliklə, siyasət daim əxlaqi qiymətləndirməyə məruz qalır. Əxlaq isə bir tərəfdən, hakim sinfin siyasi ideallarından asılı olmaya bilmir, digər tərəfdən isə o, cəmiyyətin əsas qüvvələrinin mənəvi dəstəyinə ehtiyac duyan, siyasətə güclü təsir göstərən amillərdən birinə çevrilir.

Məhz siyasi şüur dövlətin və digər siyasi institutların fəaliyyətini, həmçinin ayrı-ayrı sosial qrupların və bütünlükdə cəmiyyətin gündəlik, həyati əhəmiyyətli maraqlarını özünəməxsus hiss və təsəvvürlər vasitəsilə ifadə edir və qoruyur. Bura mədəni, milli, iqtisadi və s. maraqlar aid edilir. Hər bir dövlətin bütün əhali üçün ümumi olan maraqları var: sərhədlərin qorunması, beynəlxalq aləmdə müəyyən nəticələr əldə edilməsi, milli mədəniyyətin və ənənələrin qorunması və s. – bura aid edilir. Dövlətin ilk mövcud olduğu dövrlərdə – quldarlıq və feodalizm quruluşlarında hakim təbəqələrin siyasi şüuru aparıcı rol oynasa da, sonrakı dövrlərdə, xüsusən XX əsrdə siyasi şüur ümumbəşəri məzmunla daha çox zənginləşir. Siyasi və əxlaqi şüurun qarşılıqlı münasibətinin xarakteri də tarixən müəyyən dəyişikliyə məruz qalmışdır.

Siyasi şüuru, adətən əxlaqi, şüur istiqamətləndirir. Əxlaqi şüurun əsas anlayışları xeyir və şər olduğu halda, siyasi şüurun əsas anlayışı hakimiyyətdir. Sonuncuya güc tətbiqetmə, məcburetmə, hədələmə, azadlıqdan məhrumetmə və s. aid olduğu halda, əxlaqi şüur zor işlətməyə nadir hallarda, şərin məhv edilməsinin başqa yolu olmadıqda müraciət edir.

Hər hansı bir cəmiyyətdə əxlaqi şüurla siyasi şüurun qarşılıqlı münasibəti zəruridir. Onların hər ikisi insanların müxtəlif mənəvi tələbatlarına cavab verərək, cəmiyyətin sabitliyini özünəməxsus şəkildə qoruyur.

**Hüquq və əxlaq.** Hüquq ictimai şüur formaları içərisində əxlaqla daha sıx bağlıdır. Çünki hər ikisi insanların cəmiyyətdə davranışını tənzimləyən müəyyən qaydalar və normalarla əlaqədardır. Hər ikisi tarixi xarakter daşıyır, hakim

sinfə xidmət edir, həmin sinfə məxsus norma və qaydaları qoruyur. Hər iki halda bu normalar hər bir vətəndaşa aid olur.

Hüquqa nisbətən əxlaqın tarixi daha qədimdir. Əgər əxlaq cəmiyyətin təşəkkül tapdığı ilk dövrlərdən yaranıbsa, bəşəriyyət mövcud olduqca yaşayacaqsa, hüququn xeyli sonra – siniflər meydana gəldikdə yaranması diqqəti cəlb edir. Hüququn yaranması dövlətin yaranması ilə əlaqədardır. Hüquq – dövlətin başlıca tərkib hissəsidir. Onun meydana gəlməsi şüurlu xarakter daşıyaraq dövlət tərəfindən əsaslandırılır. Məhz dövlətin yaranması ilə qan düşmənçiliyi, insanın qurban verilməsi kimi adətlərə son qoyuldu, müxtəlif cinslər arasındakı münasibətlər nizama salındı. Dövlət, həmçinin, şər qüvvələrin tərksilah edilməsi, vətəndaşların cinayətkarlardan qorunması, qarşıdurma, toqquşma və s. halların aradan qaldırılması, o cümlədən mənəvi dəyərlərin həyata keçirilməsi işində də müstəsna rol oynayır. Ayrı-ayrı imkanlı şəxslər 10, 20, ən çox isə 100 adama yardım edə bildiyi halda, məhz dövlət milyonlarla imkansız və köməksizi öz qanadı altına almağa qadir olub, onların hüquq və azadlığını qorumaq iqtidarındadır.

Hər bir ictimai-iqtisadi formasiyanın özünəməxsus hüquq və əxlaq normaları olur. Hər bir cəmiyyət borc və vicdan, ədalət və ədalətsizlik haqqında ümumbəşəri təsəvvürlərə malikdir. Hüququn əsas kateqoriyaları ədalət, əxlaqınkı – xeyirdir. Ədalətə nisbətən xeyir kateqoriyasının əhatə dairəsi daha genişdir. Bəzi hüquq normalarının əxlaqla qətiyyən əlaqəsi olmur. Əxlaq normalarının da hamısı hüquq qaydalarında öz əksini tapmaya bilər. Hüquq qaydaları, adətən, ümumi olduğu halda, əxlaq qaydaları fərdi də ola bilər. Çünki heç bir hüquq məcəlləsi insan hərəkətlərinin rəngarəngliyini əvvəlcədən nəzərə ala bilməz. Əxlaq normaları ayrı-ayrı insanlar və ya kollektiv qarşısında qoyulan konkret tələblərdir ki, onların yerinə yetirilməsi hər bir kəsin vicdanından asılı olub, ictimai rəyə söykənir. Hüquq normaları isə dövlət orqanlarının nəzarəti altında olur və onların pozulması hüquq qaydaları ilə nəzərdə tutulmuş sanksiyalarla müəyyənləşir. Hüquq normaları, adətən, yazılı şəkildə mövcud olduğu halda, əxlaq normaları şifahi mövcud olub, xalqın şüurunda yaşayır və ictimai rəy tərəfindən tənzim edilərək könüllü xarakter daşıyır. Hüquq qaydalarına əməl edilməsi, lazım gəldikdə xüsusi qanunçuluq aparatının köməyi ilə səlahiyyətli şəxslər tərəfindən həyata keçirilən güc vasitələri ilə (inzibati, cinayət və iqtisadi sanksiyalarla) təmin edilir.

Hüquq və əxlaqın münasibəti keçmişdə və indi mövcud olan etik nəzəriyyələrin ayrılmaz hissəsi olaraq qalır. Sokrat, Platon, Aristotel hüququn ideologiyası barədə fikir söyləyərək, etikanı qanunçuluqla bağlamağa çalışırdılar.

**Elm və əxlaq.** Elm və əxlaq ilk baxışdan ictimai şüurun müxtəlif formaları olsa da, onlar müəyyən mənada bir-birini tamamlayır. Elmin nəzəri təfəkkürə

əsaslanmasına, əxlaqın isə gündəlik ailə-məişət problemləri ilə əlaqədar olmasına baxmayaraq, onlar bir-biri ilə qarşılıqlı əlaqədədirlər. Alimin öz fəaliyyətində əxlaq prinsiplərini rəhbər tutması əxlaqın elmə, əxlaq prinsiplərinin elmi cəhətdən əsaslandırılması imkanı isə elmin əxlaqa göstərdiyi müsbət təsirlə bağlıdır. Çünki bəzi elmi kəşflər bəşəriyyətin xeyrinə deyil, ziyanına xidmət edə bilər. Alim insanların sağlamlığına və psixikasına mənfi təsir edəcək və ya kütləvi işsizliyə səbəb olacaq vasitələrdən istifadə etməzdən əvvəl bəşəriyyət qarşısındakı vətəndaşlıq borcunu, əxlaqi cavabdehliyini unutmamalıdır.

**İncəsənət və əxlaq.** İncəsənət və əxlaq ictimai şüurun digər formalarına nisbətən bir-birinə daha yaxındır. Həm incəsənət, həm də əxlaqın əsasını etiklik və estetikliyin vəhdəti təşkil edir. Əxlaq və incəsənətin qarşılıqlı əlaqəsi gözəllik və xeyirxahlıq ideyalarının birliyi ilə də bağlıdır. Bu həm əxlaq, həm də incəsənətdə müəyyən etik və estetik idealın formalaşmasına gətirib çıxarır. Hər iki ictimai şüur forması insanın mənəvi simasının formalaşmasına xidmət edir. İncəsənət həyatı hərtərəfli əks etdirə bildiyi halda, əxlaq onun yalnız bir tərəfini – mənəvi münasibətləri əks etdirir.

Əxlaqi problemlər incəsənətdə mühüm yer tutur. Buna görə də həyat hadisələrini incəsənət əxlaqa nisbətən daha geniş işıqlandıra bilir. Etikadakı xeyir və şər problemləri incəsənətdə bədii şəkildə həll edilərək, gözəllik və eybəcərlik kimi qiymətləndirilir. Həyatdakı əxlaqi – etik problemlər, məsələn, xeyirlə-şərin mübarizəsi, borc, xoşbəxtlik, məhəbbət və s. incəsənətdə bədii vasitələrlə, bədii formada, estetik cəhətdən həll edilir. İncəsənət cəmiyyətin mənəvi idealının təbliğatçısına çevrilir. Əxlaqi normalar incəsənətə, sadəcə olaraq, köçürülmür, onlar əvvəlcə sənətkarın fikir süzgəcindən keçir. İncəsənət hər hansı bir hadisəyə həm əxlaqi (xeyir və ya şər), həm də estetik qiymət verərək (gözəllik, ülvilik, rəzillik) onları birləşdirir. İncəsənətdə mənəvi gözəlliyin təsviri – bədii yaradıcılığın əsas vəzifəsidir. Xeyirxahlığa xidmət edən incəsənət eyni zamanda gözəldir. Bu çox vaxt təkcə xeyirin təsdiqi kimi deyil, həm də şərin inkarı kimi verilir. Sənətkar eybəcərliyi və şəri fiziki cəhətdən məhv edə bilməsə də, onları mənən yox edir. İncəsənət şəri inkar etməklə, insanda ona qarşı müəyyən estetik münasibət yaradır.

Həm əxlaqın, həm də incəsənətin ümumi funksiyası olan tərbiyəvi funksiya əxlaqda əsas, incəsənətdə köməkçidir. Əxlaq tərbiyəsində çox vaxt incəsənət daha təsirli rol oynayır. Lakin incəsənətin tərbiyəvi funksiyaya malik olması onun əxlaqı əvəz edə bilməsi demək deyil. Bəzi sənət əsərləri əxlaqa hətta mənfi təsir də göstərə bilər. İncəsənətin tərbiyəvi funksiyası yalnız əxlaq tərbiyəsindən ibarət deyil. Bura tərbiyənin digər növləri də aid ola bilər. Məsələn, əmək tərbiyəsi, vətənpərvərlik tərbiyəsi, fiziki tərbiyə (xoreoqrafiya sənətində, rəqsdə və s.), estetik tərbiyə (peyzaj, natürmort və s. janrların vasitəsilə) və s.

**Din və əxlaq.** Din əxlaqdan sonra yaranan ictimai şüur formasıdır. Müxtəlif adət və ənənələr, əxlaq qaydaları (primitiv şəkildə də olsa) dindən xeyli əvvəl mövcud idi və insanlar buna riayət edirdi.

Dünya dinlərindən hər biri öz inkişafında müəyyən iqtisadi, sosial amillərlə yanaşı, əxlaqa da dəfələrlə müraciət ediblər. Bütün dini sistemlərdə əxlaq prinsipləri, norma və qaydaları haqqında kifayət qədər informasiya var. Din heç də yarandığı gündən cəmiyyətin əxlaqi funksiyalarının daşıyıcısı olmamışdır. Məsələn, qədim misirlilərin, babillilərin və yunanların dini ilk vaxtlar əxlaq məsələləri ilə bağlı deyildi. Din cəmiyyətin hakim əxlaq nəzəriyyələrinin daşıyıcısı olaraq ibtidai icma quruluşunun sonunda tədricən əxlaqın məzmununa qatıldı və ona güclü təsir göstərməyə başladı. Artıq əxlaq qaydaları insanların dini təsəvvürlərindən asılı oldu ki, bu da kahinlər və rəhbərlərin şəxsi maraqlarına xidmət edirdi.

Dinə yalnız inam sistemi kimi deyil, həmçinin mədəniyyət, dünyagörüş, əxlaq və hüquq kimi də yanaşmaq lazımdır. Bütün dini abidələr insanların həyatını, əxlaqını, məişətini, adət və ənənələrini əks etdirir. Belə dini kitablar tarix və mədəniyyət abidələridir.

Ən möhtəşəm və son din olan İslam və onun müqəddəs kitabı "Qurani Kərim" bütün bəşəriyyətə Allah tərəfindən göndərilən və vacib buyurulan əvəzedilməz nemətdir. "Qurani Kərim" dini abidə olmaqla yanaşı, həm də insanların ictimai həyatının bütün sahələrini əhatə edərək istənilən məsələ və problemlərin həlli yollarını göstərir. Burada müxtəlif elmi (elmin bütün sahələrinə – astronomiya, okeanologiya, embriologiya, coğrafiya, fizika, kimya, sosiologiya, etika, biologiya, hüquq, tarix və sairə aid), tərbiyəvi və digər məsələlər işıqlandırılıb. Bütün bunları ilk dəfədən anlamaq asan olmadığından, İslam dini insanların ilk növbədə elmli olması zərurətini yaradır. "Qurani Kərim"də dini tərbiyə ilə yanaşı, insanların hüquq və əxlaq tərbiyəsi də ön plana çəkilərək, konkret vəziyyətlərdə necə hərəkət etməyin lazım olması məsləhət və ya zəruriyyət kimi göstərilir. Bu baxımdan "Quran" bütün dövrlər, bütün xalqlar və millətlər üçün dəyişilməz qalan əxlaq kodeksidir. Bu gün olduqca dəbdə olan gender probleminə, ümumiyyətlə qadının həm cəmiyyətdə, həm ailədə mövqeyinə hələ VII əsrdə "Quran"da münasibət bildirilmiş və bütün məsələlərdə qadının mənafeyi üstün tutulmuşdur. Vərəsəlik, övladgötürmə və s. kimi hüquqi problemlər, insanın həyat yoldaşına, valideynlərinə, övladlarına, qonaqlara, dövlət başçısına və digər insanlara olan münasibəti, hətta geyimi, yerişi ilə əlaqədar bəzi əxlaqi problemlər islami dəyərlərin üstünlüklərini nümayiş etdirir.

## 9. Əxlaq və şüur

Müasir tədqiqatçıların çoxu əxlaqda iki, nisbətən müstəqil sahə olduğunu söyləyir:

1) *əxlaqi şüur;*

2) *əxlaqi fəaliyyət* (praktika və ya təcrübə).

Bəziləri əxlaqda 3-cü elementi də ayırır ki, bu da əxlaqi münasibətlərdir. Lakin əxlaqi münasibətlər əxlaqi fəaliyyətlə (praktika ilə) əlaqədar olduğu üçün əksər hallarda hər iki element vəhdətdə nəzərdən keçirilir.

Əxlaqi şüur ictimai şüurun spesifik forması olub, ictimai münasibətləri əks etdirən anlayış və təsəvvürlərin məcmusundan ibarətdir. Anlayışlar sistemi hər hansı bir təlimin – siyasi, dini, estetik və s. özünəməxsus "dilidir" və bunlarsız əsas ideyaları ifadə etmək mümkün deyil. Ən ümumi anlayışlar kateqoriyalar adlanır ki, bunların vasitəsilə gerçəklik müxtəlif səviyyələrdə dərk edilir. Əxlaqi şüur anlayışlarının spesifikliyi ondan ibarətdir ki, onlar cəmiyyətin və şəxsiyyətin mənəvi həyatını özünəməxsus şəkildə əks etdirir. Bu anlayışlardan hər hansı bir hərəkətin qiymətləndirilməsi zamanı da istifadə olunur. Əxlaqi şüurun əsas anlayışlarına xeyir və şər, borc və vicdan, şərəf və ləyaqət, əxlaqi hislər, əxlaq normaları, əxlaqi prinsiplər, əxlaqi ideal, əxlaqi qiymətləndirmə və s. aiddir. Əxlaqi şüur insan həyatının əhəmiyyətli tərəflərini – insanların bir-birinə, cəmiyyətə və bütün dünyaya münasibətlərini əks etdirən norma, adət, ənənə, dəb, baxış, ideya, emosiya, hiss və təsəvvürlərdən ibarətdir ki, bunlar da xeyir, şər, ədalət, vicdan, ləyaqət və s. anlayışlarla ifadə olunur.

Əxlaqi şüur anlayışının təşəkkülü hələ qədim dövrlərdən başlayır. Etika ilə məşğul olan ilk filosoflar – Platon, Aristotel, Epikur və başqaları əxlaqın əsas anlayışlarının bir çoxunun, məsələn, ədalət, xoşbəxtlik, müxtəlif fəzilətlər və sairini dərin təhlil etmişlər. Hətta müxtəlif anlayışların təsnifatına, içərilərindən ən əsaslarının seçilməsinə də cəhd göstərmişlər. Əsas anlayışın müəyyən edilməsinə, digər anlayışların onun üzərində qurulmasına da təşəbbüs edilmişdir. Bu istiqamətdə hərə öz variantını qurmağa çalışsa da, antik etikanın əsas anlayışı xoşbəxtlik sayılırdı. Həzz (zövq almaq) də bu qəbildən idi. Epikur hesab edirdi ki, bütün fəzilətlər öz təbiətinə görə gözəl həyatla əlaqədardır, həzz isə həyatın bizə verdiyi ilk və fitri xoşbəxtlikdir. Sonralar İ.Kant əsas anlayış kimi borcu diqqət mərkəzinə qoydu və onun vasitəsilə digər anlayışları müəyyən etməyə çalışırdı.

Antik etikanın diqqət mərkəzində, həmçinin əxlaqi şüurun əsas anlayışlarından olan şəxsiyyətin mənəvi keyfiyyətləri dururdu ki, bunlar da "fəzilət" və "qəbahət" adlanır. "Fəzilət" dedikdə müsbət əxlaqi keyfiyyətlər – əməksevərlik, təvazökarlıq, nəzakət, xeyirxahlıq, səmimilik, vicdan, düzlük, cəsarət, mərdlik, öz səhvini etiraf etmək, başqasının halına yanmaq və s., "qəbahət" dedikdə

isə mənfi əxlaqi keyfiyyətlər – xainlik, yalançılıq, yaltaqlıq, namərdlik, paxıllıq, vəfasızlıq, kobudluq, qorxaqlıq, cəsarətsizlik, ikiüzlülük, riyakarlıq, şöhrətpərəstlik və s. nəzərdə tutulur. "Xalis" əxlaqi və ya qeyri-əxlaqi mənəvi keyfiyyətlər olmur. Yalnız ictimai qiymətləndirmə, mənəvi keyfiyyətləri əxlaqi və ya qeyri-əxlaqi, "fəzilət" və ya "qəbahət" kimi müəyyən edə bilər.

**Əxlaqi şüur fərdi və ictimai olur.** Fərdi əxlaqi şüur insanın daxili aləmi ilə əlaqədardır. Hələ antik dövrdə insanın daxili aləmini 3 hissəyə bölürdülər: ağıllı, hissiyyatlı, iradəli. Bununla əlaqədar, fərdi əxlaqi şüurun 3 komponenti var: 1) ağıl; 2) hiss; 3) iradə.

Ağıl – fərdi əxlaqi şüurun rasional tərəfi olub, xeyir, şər, borc, vicdan, ali sərvətlər haqqında təsəvvürlər, ideya və ya anlayışlardır. İnsanın mənəvi həyatında ağılın mühüm rol oynadığını hələ Sokrat və Platon da qeyd edirdilər.

Hiss insanın həyatında mühüm rol oynayır. Psixologiya elmi bütün psixi hadisələri 3 qrupa bölür: 1) *psixi proseslər* (dar mənada, çünki bütün psixi hadisələr həmçinin prosessual xarakter daşıdığı üçün həm də "proses" adlandırıla bilər ki, bu da geniş mənada başa düşülür); 2) *psixi hallar;* 3) *psixi xassələr və ya keyfiyyətlər.*

Psixi proseslər adlanan birinci qrupa iradi proseslər, emosional proseslər və idrak prosesləri aid olunur. Bunlar digər psixi hadisələrdən fərqli olaraq, sırf prosessual xarakter daşıdığı üçün bu qrup məhz belə də adlanır. O cümlədən idrak prosesləri də 2 yerə bölünür: *hissi idrak və məntiqi idrak.* Hissi idrak proseslərinə həm insanlara, həm də heyvanlara xas olan duyğular (görmə, eşitmə, dadbilmə, qoxubilmə, lamisə), qavrayış, diqqət, hafizə, təsəvvür; məntiqi idrak proseslərinə isə yalnız insana məxsus olan nitq, təfəkkür və təxəyyül prosesləri aiddir.

Psixi hallar adlanan ikinci qrupa hislər, emosiyalar, affektlər, stress, şok, depressiya və s. aiddir ki, bunlar birinci qrupdakı proseslərdən fərqli olaraq, daha uzunmüddətlidir. Əgər birinci qrupdakı proseslər bir neçə an, saniyə, dəqiqə və ya saat davam edirsə, ikinci qrupdakı proseslər bir neçə gün, hətta bir neçə ay davam edə bilər.

Psixi keyfiyyətlər adlanan üçüncü qrupa tələbatlar, maraqlar, xarakter, temperament, zövq, ideal, qabiliyyətlər, dünyagörüş və s. aiddir ki, bunlar həm də insanın fərdi psixoloji keyfiyyətləri adlanır və daha uzunmüddətli proseslər sayılır.

Göründüyü kimi, hiss və emosiyalar 2-ci qrupa daxildir. İnsan hisləri müxtəlifdir: aclıq, susuzluq, yuxusuzluq, sevinc, kədər, məhəbbət, nifrət, qısqanclıq, təəssüf, peşmançılıq, qəzəb, fərəh, utancaqlıq və s. Hislərin bir qismi maddi tələbatla əlaqədar olub, heyvanlara da xasdır. Lakin maddi tələbatla bağlı olmayan hislərdə heyvanlara aid ola bilər. Məsələn, şadlıq, məhəbbət, qəzəb və s. Yalnız insanlara məxsus olan ali hislər də mövcuddur ki, bunlara da zehni, estetik və əxlaqi hislər aiddir.

Əxlaqi hislər cəmiyyətdəki əxlaq normalarına bəslənən subyektiv münasibətdir. Əxlaqi hislərin obyekti adamlar, qruplar, münasibətlər, adamların hərəkət və rəftarı, ictimai həyatın qanunları və sairdir. Bəzən həyatda vaxt və ya informasiya qıtlığı üzündən elə situasiyalar yaranır ki, burada tək ağıl kifayət etmir, çünki insan hadisələri ildırım sürəti ilə qiymətləndirməli olur. Bu zaman məhz əxlaqi hislər ağlın köməyinə gəlir. Vicdan hissi, borc hissi, ədalət hissi və s. bu qəbildəndir. Onlar mənəvi təcrübəyə əsaslanaraq ağılın görə bilmədiyi hərəkətləri və situasiyaları "tuta bilir". İnsanın gündəlik rəftarında və şüurunda, eləcə də motivasiyasında müsbət (səmimilik, rəhmlilik, dərdə şərik olma, xeyirxahlıq, dostluq, rəğbət, yoldaşlıq, məsuliyyət və s.) və mənfi (fərdiyyətçilik, bədxahlıq, düşmənçilik, paxıllıq, ikiüzlülük, şöhrətpərəstlik, başqasının dərdinə sevinmək və s.) əxlaqi hislər böyük rol oynayır. Müsbət əxlaqi hislər mövcud cəmiyyətin birgəyaşayış qaydalarına uyğun, müəyyən davranış normalarına müvafiq hərəkət etməyə xidmət edir. İnsanda olan utancaqlıq, vicdan, məhəbbət və s. hislər də xeyirxah əməllərin əsas törədicisidir. Mənfi əxlaqi hislər insanı mövcud əxlaq normalarına uyğun hərəkət etməməyə, öz mənafeyini cəmiyyətin mənafeyindən üstün tutmağa vadar edir. Bəzən insan məhz nifrət, acıq, qibtə, qısqanclıq, özünəvurğunluq, şöhrətpərəstlik hisləri ucbatından zərərli hərəkətlər törədir. Öz hərəkətlərinin ictimai əxlaqa uyğun gəlmədiyini dərk edərək iztirab keçirən zaman insanda təəssüf, peşmançılıq, utancaqlıq, xəcalət və s. kimi əxlaqi hislər yaranır. Deməli, əxlaqi hislər mövcud cəmiyyətin rəftar və əxlaq normalarına insanın bəslədiyi mənfi və ya müsbət münasibətin əks etdirilməsidir. Müxtəlif həyat şəraitində yaşayan insanların əxlaqi hisləri də məzmun etibarilə bir-birindən fərqlənir. Buna görə də hər bir tarixi dövrdə insan hislərinin tərbiyə edilməsinin məqsəd və istiqaməti dəyişir, yeni forma və məzmun kəsb edir. Ağıl və hislərin harmoniyası daha effektli olub, insanın məsləkini təşkil edir. Bunlar isə heç də həmişə reallaşmır.

İradə – əxlaqi şüurun üçüncü elementi və ya komponenti olub, qətiyyət, dözüm, mərdlik, müstəqillik, təkidlilik, konkret işlərə hazırolma, özünüidarəetmə ilə üzə çıxır. İradə insan fəallığının xüsusi forması olub, mürəkkəb psixi prosesdir. Onun 2 əsas funksiyası var: 1) *təhriketmə və* 2) *ləngitmə.* Birincidə insan öz arzu və tələbatlarından imtina edərək, daha vacib olanı seçir (məsələn, özü istirahət etmək əvəzinə, xəstəyə baş çəkməyə gedir). İkincidə insan öz dünyagörüşünə, əqidə və ideallarına uyğun gəlməyən işləri görməkdən şüurlu surətdə imtina edir. Məhz bu xüsusiyyətlər iradəni motivdən fərqləndirir.

İctimai əxlaqi şüur fərdi əxlaqi şüurla qarşılıqlı əlaqədə formalaşır ki, bunun da daşıyıcısı bütün cəmiyyətdir. İctimai əxlaqi şüurun strukturuna gündəlik əxlaqi şüur və nəzəri əxlaqi şüur aid edilir.

Gündəlik əxlaqi şüur hələ ibtidai icma dövründə kortəbii şəkildə yaranaraq müxtəlif əxlaq problemləri, onların qiymətləndirilməsi, əxlaqi hislərlə əlaqədar gündəlik mülahizələri ifadə edir. Bu anlayışlar, adətən, ziddiyyətli və anlaşılmaz olur. Gündəlik əxlaqi şüur nəzəri əxlaqi şüurla sıx əlaqədardır. Onların arasında "Çin səddi" çəkmək düzgün deyil.

Nəzəri əxlaqi şüur əqli əməyin fiziki əməkdən ayrılması, peşələrin yaranması və bu peşə sahiblərinin – filosofların, müəllimlərin, din xadimlərinin, dramaturqların və başqalarının gənclərin təlim-tərbiyəsi ilə məşğul olması, mənəvi həyatın müxtəlif problemlərini nəzərdən keçirməsi ilə əlaqədardır ki, burada da əsas rolu əxlaq fəlsəfəsi olan etika oynayır. O daha məqsədyönlü şəkildə formalaşır və əsasən, insan varlığının mərkəzinə, həyat, əhəmiyyətli məsələlərə doğru tuşlanaraq ardıcıllığı, rasionallığı, sistemliliyi, aydınlığı ilə xarakterizə edilir.

İnsanın mənəvi həyatında inam və hislər daha çox iştirak etdiyindən, məhz onlar əxlaqi şüurun bütün səviyyələrinə nüfuz edirlər. Bəzi müəlliflər əxlaqi şüurun 2 səviyyəsini ön plana çəkir:

1) *hissi-emosional;*

2) *rasional.*

Əxlaqi şüurun hissi-emosional səviyyəsi əxlaqi hiss və həyəcanların məcmusundan ibarətdir. Hislərin ümumpsixoloji təsnifatına görə zehni və estetik hislər kimi ali hislərə aid olan əxlaqi hislər, şəxsiyyətin mənəvi tələbatları və maraqları ilə bağlıdır. Əxlaqi hislər insanların düzgün addım atmasına və düzgün hərəkət etməsinə kömək edir. Bu hislər hərəkətin motivi olduğu üçün əxlaqi əhəmiyyətə malik olur. Onlar, adətən, müxtəlif emosional vəziyyətlərdə yarana bilən borc və vicdan hislərindən ibarətdir. Belə vəziyyətlər utancaqlıq, peşmançılıq, vicdan əzabı və s. ilə əlaqədardır. Şəxsi ləyaqət və şərəf hissi də bu qəbildəndir. Lakin əxlaqi hislər bununla bitmir. İnsanın hər hansı bir hissi əxlaqi əhəmiyyətə malik ola bilər, belə ki, o, əməl xarakteri daşıyan hərəkətdən törəyir. Məsələn, hər bir insana xas olan qorxu hissi təbii hiss olub, əsasən özünümüdafiə instinkti ilə bağlı olduğu üçün heç bir əxlaqi əhəmiyyətə malik deyil. Lakin müxtəlif situasiyalarda o həm qorxaqlıq kimi, həm də qorxunu dəf etməyə yönəlmiş cəsarət, igidlik, şücaət və s. kimi üzə çıxır. Bunu digər hislərə də aid etmək olar: məhəbbət, nifrət, sevinc, heyfsilənmək, məğrurluq və s. Bu əxlaqi hislər şəxsiyyətin, kollektivin, qrupun spesifik reaksiyasıdır ki, bunlar da insanla insan və ya insanla cəmiyyət arasında baş verir.

Şüur, əxlaqi hislər və emosiyalar gerçəkliyi əksetdirmənin və hərəkətin motivinin ayrı-ayrı tərəfləri olsa da, bir-biri ilə qarşılıqlı əlaqədədirlər. Əxlaqi şüuru yalnız qaydalardan ibarət olan insan, real həyatla, insanın hiss və iztirabları ilə qarşılaşdıqda, ətrafdakılar üçün, adətən, quru, aciz, sxematik təsir bağışlayır. O, insanlara qarşı laqeyddir, sevməyə və nifrət etməyə layiq deyil, onun

“normaları” insan qəlbinin dərin qatlarına nüfuz edə bilmir. Emosiya və hislər insanın mənəvi həyatını daha dolğun edir, əxlaqi şüura sabitlik və aydınlıq gətirir, hərəkətin qəbul edilib-edilmədiyini, qənaətbəxş olub-olmadığını, alqışa və ya məzəmmətə səbəb olduğunu düzgün müəyyən etməklə əlaqədar əxlaqi şüurun qiymətləndirmə bacarığını gücləndirir, hadisələrə olan reaksiyasını tamamlayır.

Əxlaqi şüurun rasional səviyyəsi normativ-dəyər məzmunlu xüsusi tip anlayışlardan ibarətdir ki, bunlara əxlaq normaları, mənəvi prinsip və ideallar, düzgün olan və olmayanlar haqqında ideyalar, əxlaqi qiymətləndirmə aiddir. Şüurun digər formalarında olduğu kimi, əxlaqi şüurda da emosional tərəflə rasional tərəf bir-biri ilə qovuşur, hissi təcrübə ilə idrak (ağıl) birləşir. İ.Kant yazırdı ki, ağıl hissi təcrübəsiz boşdur, hissi təcrübə isə ağılsız kordur. Ağıl hislərə müəyyən ictimai istiqamət verir, şüur isə emosional hislərin intellektual əsası kimi çıxış edir.

Əxlaq normaları insanların hərəkətlərini müəyyənləşdirir, istiqamətləndirir, nəyi etmək olar, nəyi yox, hansı şəraitdə nə cür hərəkət etmək lazımdır və s. kimi suallarda onlara yardımçı olur, davranış qaydalarının çərçivəsini, standartlarını bildirir. Əxlaq normaları mənəvi və praktik tərəflərin vəhdətindən ibarətdir. Onlar əxlaqi şüurun özəyidir. Əxlaq normaları yalnız davranış qaydaları qarşısında tələblər qoymur, həm də cəmiyyətin buna münasibətini ifadə edir, onları qiymətləndirir. Əxlaq normaları eyni zamanda həm tələb, həm də qiymətləndirmədir. Bunlara norma-tələblər, norma-qiymətləndirmə deyilir. Bundan başqa, hər hansı davranış xəttini müəyyən edən norma-məqsədlər və hərəkəti məhdudlaşdıran və ya qadağan edən norma-çərçivələr də mövcuddur. Bunlar vasitəsilə cəmiyyət şər əməlləri mühakimə edir, xeyir əməllərə bəraət qazandırır. Beləliklə, əxlaq normaları sonuncuların (xeyrin) katalizatoru kimi çıxış edir.

Əxlaqi şüurun tərkib hissəsi olan adət və ənənələr insanların məişətinə möhkəm daxil olaraq davranış qaydalarının sabit tərəfi kimi çıxış edir. Onların formalaşması böyük insan birliklərinin iştirakı ilə illərlə, hətta on illərlə davam edir. Bu zaman insanların tələbatı və ictimai rəy nəzərə alınır. “Ənənə” anlayışı “adət” anlayışından daha genişdir. Ənənəyə bir neçə adət daxil ola bilər, məsələn, qonaqpərvərlik, toy adətləri və s. Hərbi, vətənpərvərlik, inqilabi, mədəni, məişət, milli, beynəlmiləl və s. ənənələr də mövcuddur. Bir çox ənənələr minilliklərin sınağından keçib. Öz dövrünü yaşamış, mürtəce xarakter almış adət-ənənələrlə cəmiyyət heyfsilənmədən vidalaşır, insanların xeyrinə olan adətlərin isə qoruyucusuna çevrilir.

Əxlaq prinsipləri əxlaqi şüurun daha mürəkkəb forması olub, ayrıca əxlaq normalarında konkretləşir. Əxlaqi norma və prinsiplərin məcmusu əxlaq kodeksini yaradır. Bütün dini kitablar (əlbəttə, orijinal variantları), ən başlıcası

isə Quran özünəməxsus əxlaq kodeksidir. Əxlaq prinsipləri əxlaqi tələblərin ümumiləşmiş ifadəsidir.

Mənəvi ideal əxlaqi şüurun daha geniş, ümumiləşmiş formasıdır. O, bəşər tarixinin nisbətən sonrakı pillələrində yaranıb. İbtidai və quldarlıq cəmiyyətlərində o hələ inkişaf etməmişdi. Əgər əxlaq normaları bugünkü davranış qaydalarını tələbata uyğun ifadə edirsə, mənəvi ideal əxlaqi tələbləri mümkün qədər mütləqləşdirərək, gələcəyə tuşlanır. Mənəvi ideal – əxlaqi qiymətləndirmə, prinsip və normaların sintezidir.

Əxlaqi qiymətləndirmə – əxlaqi şüurun mühüm elementi olub, insanların hadisələr, şəxsiyyətlər, adətlər, davranış qaydalarının mənəvi dəyəri haqqındakı təsəvvürləridir. Burada subyektin qiymətləndirilən obyektə rəğbəti və ya tənqidi ifadə olunur. Subyekt – ayrıca insan, insan birliyi, yəni kollektiv, sinif, cəmiyyət; obyekt isə fərdin əməllərindən tutmuş, qlobal ictimai-siyasi hadisələrə və ya tarixi dövrlərədək olan daha geniş anlayışdır. Qiymətləndirməyə aid olan mühakimələrə “bu yaxşı işdir”, “bu ədalətli deyil”, “layiqli hərəkətdir”, “ləyaqətli insandır” və s. daxildir.

Beləliklə, əxlaqi şüurun çoxşaxəli olduğunun şahidi olduq.

## 10. Əxlaqi fəaliyyət

Əxlaq da ictimai şüurun digər formaları – siyasət, hüquq, elm, din və s. kimi yalnız şüur formasında deyil, həm də insanın davranışının, praktik fəaliyyətinin bir növü kimi mövcuddur.

İnsanın hər hansı fəaliyyəti onun tələbatları və maraqları ilə çox bağlıdır. Etika və psixologiya mütəxəssislərinin çoxu bu fikirdədirlər ki, insanın bütün motivlərinin əsasını onların şüurlu tələbat və maraqları təşkil edir. Məsələn, estetik fəaliyyətin əsasında estetik tələbat və maraqlar durur. Estetik şüur anlayışına insanın estetik tələbatları, estetik maraqları, estetik zövqü, estetik idealı, estetik hissləri, bədii emosiyaları, bədii qabiliyyətləri, bədii təfəkkürü, bədii təxəyyülü daxildir və onun zəminində həyata keçir. O cümlədən əxlaqi fəaliyyəti əxlaqi şüur reallaşdırır. (Doğrudur, bəzən insan hər hansı bir işi istəmədən, məcburən və ya kiməsə xoş gəlməkdən ötrü görür, ya da öz borcunu, vəzifəsini yerinə yetirir.)

Tələbat və maraqlarla yanaşı, insanın əxlaqi fəaliyyətinə əxlaqi hisslər, xüsusən, utancaqlıq, məhəbbət və s. təsir göstərir. Bunlar çox vaxt xeyirxah işlərin əsas səbəbi olur. Bədxah işlər paxıllıq, düşmənçilik, kinlilik, qısqanclıq, eqoizm, şöhrətpərəstlik və s. hisslər nəticəsində yaranır. Beləliklə, estetik fəaliyyətdən fərqli olaraq, əxlaqi fəaliyyət yalnız müsbət deyil, həm də mənfi ola bilər.

Əsasən insanların gündəlik həyatında və rəftarında reallaşan əxlaqi fəaliyyətin “hüceyrəsi”, “kərpici”, “hissəciyi” hərəkətdir. Fəaliyyət məhz hərəkət-

lərin məkan-zaman ardıcıllığı nəticəsində yaranır. Hərəkətlər iki cür olur: 1) *əməliyyat xarakterli;* 2) *əməl xarakterli.* Əməliyyat xarakterli hərəkətlərdə digər tərəfin münasibəti tələb olunmur. Məsələn, "o, ağacdan alma dərdi" cümləsi əxlaqi keyfiyyətlərdən bəhs etmir. "O, özgənin ağacından alma dərdi" deyilərsə, söhbət oğurluqdan gedər ki, bu da mühakiməyə səbəb olan hərəkətdir. Artıq diqqət mərkəzində hərəkətin baş verməsi faktı deyil, onun əxlaqi tərəfi dayanır. Hərəkət əməliyyatdan əmələ çevrilir. Adətən, əməliyyata "neytral" hərəkət, əmələ isə etik hərəkət deyilir. Məsələn, "o, mağazadan çörək aldı" neytral hərəkət, yəni əməliyyat, "o, mağazadan xəstə qonşusu üçün çörək aldı" isə etik hərəkət, əməldir. Əməliyyat kortəbii, mexaniki, əməl isə şüurlu işdir. Məsələn, mağazadan nəsə almaq, ev işləri ilə məşğul olmaq, nəqliyyatdan istifadə etmək və s. heç bir əxlaqi məqamla müşayiət edilmədiyi halda, məsuliyyətli və ədalətli olmaq, xeyirxahlıq etmək, kiminsə qayğısına qalmaq kortəbii surətdə mümkün deyil. İnsan bunları dərk edərək həyata keçirir. Çünki fərdi davranış aktı olan əməl – insanın şüurlu surətdə istiqamətlənmiş və sona yetən hərəkətidir. Əməlin qiymətləndirilməsi onu törədənin şəxsiyyətindən çox asılıdır, yəni cinsindən, yaşından, ictimai vəziyyətindən, xasiyyətindən və s. Məsələn, qadının cinayətkara fiziki zərbə endirməsi, Fitnənin ağır heyvanı qaldırması, futbol yarışında qadınlardan ibarət komandanın kişi komandasına qalib gəlməsi, azyaşlı uşağın qonaqpərvərliyi, böyüklərə münasibəti və s. Pis adamın yaxşı hərəkət etməsi o dəqiqə gözə görünür və təriflənir, çünki ondan bunu heç kəs gözləmirdi. Yaxşı adamın bu hərəkəti etməsi isə heç kəsin diqqətini cəlb etmir. Alovun içində yanan uşağı yoldan keçən xilas edirsə, bu, qəhrəmanlıq kimi nəzərdən keçirilir, yanğınsöndürənlər xilas edirsə, bu, onların vəzifə borcu hesab olunur. Adətən, məşhur adamların adi hərəkətləri şişirdilir, pis əməlləri isə ya hiss edilmir, ya bağışlanır. Adi adamlarda isə, əksinə, yaxşı əməlləri gözə görünmür, əhəmiyyətsiz qüsurları şişirdilir. Əməlin qiymətləndirilməsində onun yönəldiyi obyekt də mühüm rol oynayır. Məsələn, köməksiz adama – uşağa, qocaya, əlilə və s. əl qaldırmaq, özünü müdafiə edə bilənə əl qaldırmaqdan daha çox günah hesab edilir.

Əməl – insanın konkret hərəkətlərindən ibarət olub, tərifə və ya mühakiməyə, müsbət və ya mənfi münasibətə səbəb olan hər hansı ictimai əhəmiyyətli hərəkətdir.

Əməl – yalnız hərəkətlə yox, həm də hərəkətsizliklə, sükunətlə, susmaqla, passivliklə, laqeydliklə və ya ton, jest, baxış və s. ilə bildirilən münasibətlə də ifadə oluna bilər. Məsələn, lazımi məqamda etiraz etmək əvəzinə susmaqla müəyyən insanlara müvafiq işə başlamaq üçün razılığını bildirmək, yəni "susmaq – razılıq əlamətidir"; iclasda hücuma məruz qalan kolleqasının xeyrinə olan faktları açıqlamamaq, laqeydliklə susmaqla nə olacağını gözləmək, "nəyimə lazımdır?" – deyə heç nəyə qarışmamaq; nüfuzundan istifadə edərək

hansısa işə razı olmadığını səsinin tonu, hərəkət, baxış və ya jestlə anladıb, onunla hesablaşacaqlarını bilə-bilə istədiyi nəticəyə nail olmaq, “gizli səs-vermə”də kimə səs vermək lazım olduğunu müdirin “üzündən oxumaq” və s. Bəzi valideynlər övladını cəzalandırmaq üçün onunla müəyyən müddət danışmırlar. Və yaxud iki mübahisə edən şəxsdən biri o birinin söyüşlərini, təhqirlərini, sadəcə olaraq, cavabsız buraxır, onun “səviyyəsinə enmir”. Ya da övlad ev üçün, valideynləri üçün heç bir iş görmür, bütün günü onlar ilə heç danışmır da. Buna görə də “danışmaq gümüşdür, susmaq qızıl” kəlamı özünü nəinki doğrultmur, hətta bəzən mənfi nəticə verir.

İnsanların və heyvanların ekologiya, psixologiya, pedaqogika, kriminologiya sahəsindəki fəaliyyətinə bəzən davranış deyilir. Etikada davranış yalnız şüurlu fəaliyyətdir ki, bu zaman hərəkətlər azad seçim şəraitində baş verməli və əxlaqi keyfiyyətə malik olmalıdır. Əxlaqi davranış cəmiyyətdə mənəvi iqlimin yaranmasında, əxlaqi sərvətlərin formalaşmasında böyük rol oynayır. Əxlaqi davranış əxlaqi fəaliyyətə nisbətən daha dar məna daşıyır. Əxlaqi davranış insanın şüur və iradəsi ilə bağlı olan əxlaqi əməllərin məcmusudur. Yəni əməl davranışın vahid elementidir. Hər hansı bir əməlin törənməsi insanların bir-birinə müəyyən münasibəti ilə nəticələnə bilər. Belə münasibətlər çox zaman əxlaqi münasibətlər olur. Əxlaqi münasibətlər arzu və ya xülya şəklində mövcud olmayıb, müəyyən fəaliyyətlə əlaqədardır. Kömək, məsləhət, toxtaqlıq və s. bu qəbildəndir. Əxlaqi münasibətlərə milli, dini və s. amillər də təsir edir ki, bu da bəzi adət və ənənələrə gətirib çıxarır. Məsələn, alman dəqiqliyi, Şərq qonaqpərvərliyi və s. Əslində, hər hansı şəxsiyyətlərarası və ya ictimai münasibətlər müsbət və ya mənfi əxlaqi keyfiyyətə malik olarsa, bu zaman əxlaqi münasibətlər kimi şərh edilə bilər. Məsələn, siyasi münasibətlər baxımından müharibə, müstəsna da olsa, müəyyən şəraitdə zəruri formadır. Əxlaqi cəhətdən qiymətləndirdikdə isə müharibə insanların kütləvi şəkildə öldürülməsinə səbəb olduğu üçün əxlaqsız hərəkətdir. Beləliklə, əxlaqi davranış əməllərin, adətlərin, əxlaqi münasibətlərin məcmusudur. Davranışın əxlaqi və ya qeyri-əxlaqi (əxlaqsız) ola bilməsini nəzərə alaraq qeyd edirik ki, insanın davranışına qiymət vermək elə də asan deyil. Belə qiymətləndirmə zamanı meyar, adətən, o olur ki, insanlara bunun nə kimi xeyri və ya ziyanı var, qəbul edilmiş normalara bu nə dərəcədə uyğundur? Bu ziyanı və ya xeyri dərhal düzgün qiymətləndirmək, işin nəticələrini əvvəlcədən görə bilmək də həmişə mümkün olmur. Bu zaman işin nəyin naminə görüldüyünü də bilmək vacibdir. Belə hallarda bəzi amillər nəzərə alınmalıdır. İlk növbədə əməllərin bir-biri ilə əlaqədar olan struktur elementlərindən başlamaq lazımdır. Bunlara motiv, nəticə, şərait və vasitələr aiddir. İnsanı hər hansı hərəkətə, adətən, bir yox, bir neçə motiv təhrik edir. Belə hallarda əsas motiv aşkara çıxarılmalıdır. Eyni hərəkətlər motivindən asılı olaraq müxtəlif cür qiymətləndirilə bilər. Məsələn,

ağacların budanması və ya xuliqanlıq məqsədilə kəsilməsi. Bir də görürsən, xoşniyyətlə başlanan iş heç də xeyirxah əməllərə gətirib çıxarmır. Nəticədə xoş niyyətlərdən bəd əməllər yaranır: "Yaxşılıq etmək istədim, pislik çıxdı". Buna görə də hər hansı bir əməlin nəticəsini, yəni insanlara nə dərəcədə xeyir gətirib-gətirməyəcəyini nəzərə almaq lazımdır. Əməlin baş verdiyi şəraitin də əhəmiyyəti böyükdür. Məsələn, imkanlı adamın yardım etməsi ilə imkansız adamın "yox yerdən", "özündən kəsərək" yardım etməsi arasında böyük fərq var. Məhz şərait motivi nəticəyə çevirə bilər. Məqsədə çatmaq üçün istifadə olunacaq vasitələrin də olması vacibdir. Məsələn, öz qohumlarına yardım etmək üçün dövlət vəsaitindən istifadə edilir; dövlətdə və ya idarədə nizam-intizam yaratmaq üçün insafsızlığa yol verilir, insanların şərəf və ləyaqəti tapdalanır. Bəzən insan dara düşmüş bir adama kömək etmək istəyir, lakin bacarmır, çünki ya lazımi maddi vəsaiti yoxdur, ya da həmin konkret sahədə lazımi bacarığı, prinsipiallığı, mətinliyi kifayət qədər deyil. Məsələn, tibb sahəsindən elementar bilgisi olmayan insan, qəzaya düşənə ilk tibbi yardımı lazımi səviyyədə göstərə bilmir və ya ətrafdakıların təsiri altına düşərək düzgün olmayan hərəkətlər edir. Məsələn, tələbə imtahan vaxtı qrup yoldaşının ondan köçürməsinə şərait yaradır. Belə hadisələr bəzən ikiüzlülüyə də gətirib çıxarır: tələbələr özləri "şparqalka"dan köçürməyi, üzürsüz dərs buraxmağı pisləsələr də, heç nə dəyişmir. Belə hallar hətta müəllimlərin də başına gəlir. Dərsdə şagird və tələbələrə müxtəlif iradlar tutan müəllimlər özləri iclaslarda oturarkən və ya təkmilləşmə kurslarında mühazirə dinləyərkən bir-biri ilə söhbət edir və hətta partaları da yazırlar.

Bəzən elə hallar da olur ki, hər hansı şəxs ürəkdən bunu istəsə belə, vəzifə borcu ilə əlaqədar iş başında olduğu üçün xeyirxah işi yerinə yetirə bilmir. Məsələn, əsgər gecəyarı çox mühüm bir obyekti qoruyarkən kimsə yaxındakı çayda boğulur və köməyə çağırır. Əsgər nə etməlidir? Öz vəzifə borcunu yerinə yetirməkdə davam etməli, yoxsa insan həyatını xilas etməyə çalışmalıdır? Hər iki halda o, öz borcuna və vicdanına qarşı çıxmış olur. İnsanın bir-birini təkzib edən işlər arasında seçim etmək məcburiyyəti qarşısında qalmağına əxlaqi konflikt deyilir. Beləliklə, insanların davranışının düzgün qiymətləndirilməsi o qədər də asan məsələ olmadığı üçün burada tələm-tələsikliyə yol verilə bilməz. Yenə də, əlbəttə ki, hərəkətin motivi bəlli olmalıdır. Bəzən insanlar heç özləri öz əməllərinin əsas motivini düzgün müəyyən edə bilmirlər: "özüm də bilmirəm niyə belə etdim?" deyirlər. Əməlin baş verdiyi obyektiv, zahiri (təbii, sosial, məsələn, "ictimai fon") və subyektiv, daxili (məsələn, insanın dünyagörüşünün tipi, psixikasının vəziyyəti, xarakterinin cizgiləri və s.) şərait onu icra edənin iradəsindən asılı olmaya da bilər. Çünki əməlin artıq fakta çevrilmiş nəticələri daha insanın hökmünə tabe deyil. Hegelin dediyi kimi: "Daş əlindən çıxdısa, şeytana məxsus olur".

Fəlsəfə və etika tarixində əməllərin zahiri – obyektiv, yoxsa daxili – subyektiv elementlərinə daha çox fikir verməklə bağlı, bir-birinə zidd iki fikir mövcuddur. Konsekvensial (*consequentia* – nəticə sözündən) etikanın, məsələn, evdemonizm, makiavellizm, utilitarizmin nümayəndələri, əsasən, hərəkətin nəticələrinə böyük önəm verir, motivin dəyərini arxa plana çəkirdilər. Bunu belə izah edirdilər ki, bəzən xoş niyyətlərdən xoşagəlməz işlər yaranır. Digər nəzəriyyənin nümayəndələri hərəkətlərin dəyərini yalnız motivin dəyəri ilə ölçürdülər. Kant deyirdi ki, işinməğzi görünən hərəkətlərdə yox, onların görünməyən daxili prinsiplərindədir .

Bəzi adamlar müəyyən hərəkətləri vərdiş etdikləri və ya ictimaiyyətə xoş gəlmək, tərifl ənmək üçün edirlər. Məsələn, kimsəsizlərə etdiyi yardımı bacardığı qədər reklam edənlər var. Buna yalnız o zaman haqq qazandırmaq olar ki, bununla başqalarına nümunə göstərilsin. Və yaxud ayrı-ayrı adamlar məscidə dərin dini hisslər, inam xatirinə deyil, vərdiş və ya özünü camaata dindar göstərmək üçün gedirlər. Bu, o vaxt belə olur ki, insanın əxlaqi davranışı zahiri xarakter daşıyır, xeyir və ədalət törətmək arzusu yox dərəcəsinə enir və əxlaqi motivasiyası kifayət qədər olmur. Motivasiya – motivin seçilməsi, dərk edilməsi, başqaları və ya özü qarşısında əsaslandırılmasına deyilir.

İnsan fəaliyyətinin xüsusi növü olan əxlaqi fəaliyyət, əxlaqi niyyətdən yaranır, yəni əxlaqi niyyət onun motivi olur. Məsələn, “niyə məhz belə etdin” sualına: “Borcum idi” və ya “Başqa cür etməyə vicdanım yol verməzdi” cavabı alınır ki, bu da davranışın xalis əxlaqi motivdən doğduğunu göstərir. Bu, dar mənada əxlaqi fəaliyyətdir ki, belə hallara həyatda az-az təsadüf olunur. Doğrudan da, motivi yalnız sırf əxlaqi hisslər, əxlaqi normalar, əxlaqi təsəvvürlər olan fəaliyyət – nadir hadisədir. Adətən, insanlar öz davranışlarında əxlaqa aid olmayan digər məqsədləri, maraqları, meyarları rəhbər tuturlar, yəni onları fəaliyyətə əxlaqi şüura aid olmayan şüurelementləri də təhrik edir ki, bu da geniş mənada əxlaqi fəaliyyətə aiddir. Məsələn, məqsədəuyğunluq (səmərə, xeyir götürmə), effektivlik (qoyulan məqsədə daha yaxşı çatmaq baxımından), siyasi proqramlar, oyunlar və idmandakı müəyyən qaydalar, təlimatlar, qəbul edilmiş gözəllik qanunları (dəb baxımından) və s. Beləliklə, əxlaq insanın hər cür fəaliyyətinin və davranışının mühüm tərəfidir. Hansı motivlə stimullaşmasından asılı olmayaraq, insanın bütün şüurlu və azad fəaliyyəti əxlaqi xüsusiyyətlərə malik olub, “xeyir”, “şər”, “haqq”, “nahaq” meyarları baxımından qiymətləndirilir. Bura insanın dostlarına, yaxınlarına, ailəsinə, əməyə, kollektivə münasibəti; elm, incəsənət, mədəniyyət sahəsində fəaliyyəti; eləcə də gündəlik işləri və s. aiddir. Bütün bunlar nəinki insanın cəmiyyətə, həmçinin cəmiyyətin insana, insanın təbiətə və özünə qarşı münasibətlərini formalaşdırır.

Şüurun daxili elementi olan niyyətlər əməlin motivi olmaya da bilər. Niyyət – hələ baş verməmiş fəaliyyətin obrazı olub, çox vaxt motivlə üst-üstə düşmür.

Məsələn, kimsə iclasda söz almaq niyyətindədirsə, bunun motivləri müxtəlif ola bilər: həqiqəti sübut etmək, rəqiblərin cavabını vermək, kütlə qarşısında özünü göstərmək, natiqlik məharətini nümayiş etdirmək, hazırcavab kimi şöhrət qazanmaq və s. Niyyət əməldən əvvəl gəldiyi halda, motiv ondan sonra da yarana bilər. Bu, törədilmiş əmələ haqq qazandırmaq, onu əsaslandırmaq üçün edilə bilər. Məsələn, məhkəmə zamanı aqressiv xarakterli adam kiməsə xətər yetirməsini özünü müdafiə etmək, öz şərəf və ləyaqətini qorumaq kimi motivləşdirir. Hegelə görə, motiv həmişə daxili və subyektiv, lakin dərk edilmiş səbəbdir. Əməlin strukturunda insanın şüur və iradəsinə tabe olan yeganə element subyektiv xarakter daşıyan motivdir. Ona görə də əməlin və ya davranışın əxlaqi qiymətləndirilməsi zamanı motivlər və onların əxlaqi keyfiyyəti mühüm rol oynayır. Bu zaman biz əvvəlcə törədilmiş əməlin müsbət və ya mənfi tərəfi ilə, sonra onu icra edənin şəxsiyyəti ilə maraqlanırıq.

Heyvanlardan, körpə uşaqlardan və ruhi xəstələrdən fərqli olaraq, hər bir normal insan öz əməllərinin mahiyyətini, şəxsi motivini, mənəvi (dini, əxlaqi) və hüquqi məsuliyyətini dərk etməlidir. Çünki qanunları bilməmək insanı məsuliyyətdən azad etmir.

## 11. Etikanın əsas kateqoriyaları

Hər hansı bir təlimin (estetik, siyasi, dini və s.) öz əsas ideyalarını ifadə etməsi üçün müəyyən anlayışlar aparatı, özünəməxsus "dili" olur. "Kateqoriya" adlandırılan ən ümumi anlayışlar gerçəkliyin mənəvi mənimsənilməsində mühüm rol oynayır. Latınca "mühakimə", "tərif" mənasını verən "kateqoriya" bütün elmlərin anlayışlar sistemini təşkil edir. Hər bir elm öz obyektini öyrənmək və məzmununu şərh etmək üçün xüsusi sözlərdən istifadə edir: riyaziyyat – mənfi və müsbət, fizika – elektron, kimya – molekul və s. Əxlaqın müxtəlif tərəflərini və funksiyalarını ifadə edən etik kateqoriyalar xaraktercə struktur və substansional olur. Struktur kateqoriyalar əxlaqı onun komponentlərini təşkil edən daxili əlaqə baxımından, substansional kateqoriyalar isə əxlaqı cəmiyyət və şəxsiyyət arasında yaranan münasibətlərin məzmununun xüsusiyyətləri baxımından xarakterizə edir. Birincilərə əxlaq normaları, prinsipləri; əxlaqi qiymətləndirmə, ideal, baxışlar, hisslər; adətlər, hərəkət, davranış, münasibətlər və s.; ikincilərə isə xeyir, şər, borc, vicdan, ədalət və s. aiddir. Etikanın nəzəri əsası olan kateqoriyalar cəmiyyətin mənəvi həyatının zənginliyini və rəngarəngliyini, əxlaqi münasibətlərin obyektiv qanunauyğunluqlarını əks etdirir.

Etikanın kateqoriyalar sistemi əxlaqın strukturunu müəyyən edən, əxlaqi prinsiplərin və əxlaqi şüurun mühüm tərəflərini əks etdirən ən ümumi anlayış-

lardır. Əxlaq prinsipləri əsasında inkişaf edən etik kateqoriyalar onlardan asılı olaraq insanın mənəvi simasını, əxlaqi sifətlərini, davranış qaydalarını və başqalarına münasibəti müəyyən edərək etikada mərkəzi yer tutur.

Əxlaq kateqoriyaları öz məzmununa görə obyektiv, həyatakeçmə formasına görə isə subyektivdir. Bir tərəfdən, onlar həyata aid olub, onu qiymətləndirənin şüurundan asılı olmayaraq mövcuddur; digər tərəfdən, onların subyekt tərəfindən seçimi azaddır, yəni insan ya xeyri, ya şəri seçir; eqoizmi və ya altruizmi üstün tutur. Kateqoriyaların bir qismi əks qütblü, digər qismi isə qarşılıqlı şərtləndirilmiş olur. Birincilərə xeyir və şər, ədalət və ədalətsizlik, ikincilərə borc və vicdan, şərəf və ləyaqət və s. aiddir. Özünəməxsus xüsusiyyətlərə malik olan hər bir etik kateqoriya elmi idrakın müxtəlif pillələrini ifadə edərək, şəxsiyyət və cəmiyyət əlaqələrinin müəyyən tərəfini əks etdirir.

Əvvəlki dövrlərin filosofları, adətən, bu kateqoriyalardan hər hansı birini ön plana çəkir, digərlərini ona tabe edirdilər. Məsələn, Aristotel və Platon xeyri, Kant borcu, Hegel vicdanı, Demokrit, Epikur, Helvetsi, Feyerbax xoşbəxtliyi üstün tuturdu.

Hər bir tarixi mərhələnin özünəməxsus əxlaqi dəyərlər sistemi olduğundan insanların müxtəlif dövrlərdə xeyir və şər, borc və vicdan və s. haqda təsəvvürləri də fərqli olur. Bu anlayışların formalaşmasına ümumbəşəri mənəvi təcrübə də təsir edir.

Etikanın əsas, ənənəvi kateqoriyaları bunlardır: xeyir və şər, borc və vicdan, şərəf və ləyaqət, xoşbəxtlik və həyatın mənası. Bu kateqoriyalar yalnız etikanın nəzəri anlayışları deyil, həm də əxlaqi şüurun əsas anlayışlarıdır ki, onların vasitəsilə cəmiyyət insanların davranışını tənzimləyir.

## 12. Xeyir və şər

İnsanın hər hansı bir fəaliyyəti əxlaqi şüurun mərkəzi anlayışı olan xeyir və şər kateqoriyaları prizmasından qiymətləndirilir. Əxlaqi şüurun daha əsas, ümumi və spesifik anlayışları olan xeyir və şər insanlara aid olub, yalnız etika tərəfindən öyrənilir. Etikanı bəzən hətta xeyir və şər haqqında təlim də adlandırır, əxlaq və əxlaqsızlığı isə xeyir və şərin sinonimi kimi nəzərdən keçirirlər. İnsanların xeyir və şər haqqında təsəvvürləri bəşəriyyətin ilk çağlarında yaranaraq dövrdən-dövrə, zamandan-zamana adladıqca dəyişmişdir. Antik dövrdə xeyir və şər vəhdətdə nəzərdən keçirilirdi. Hegelə görə, təzə doğulan insan nə xeyirxah, nə də bədxah olur. O, bu keyfiyyətlərə sonradan nail olur. Hegel bu kateqoriyaları vəhdətdə nəzərdən keçirirdi. Russo hesab edirdi ki, insan təbiətən xeyirxahdır, Freydə görə isə insan əzazildir (83, səh.193). Ümumiyyətlə, xeyir və şərə yalnız insani keyfiyyət kimi baxan etikada onların fitri və ya sonradan qazanılan olması barədə fikirlər də müxtəlifdir. Bəziləri

bunların fizioloji, bioloji təbiətə malik olduğunu israr edirlər. Aristotelə görə, fəzilətlər fitri olmayıb, təcrübə vasitəsilə əldə edilir.

Müsbət və mənfi keyfiyyətlər olan xeyir və şər daha ümumi anlayışlar olub, bütün mənəviyyatı xarakterizə edir və hətta insanlar arasındakı münasibətlər çərçivəsindən çıxaraq təbiət hadisələrinə də şamil olunur (məsələn, "şər qüvvələr", "qorxulu epidemiya", "xeyirli səhər" və s).

Bir sözlə, xeyir – insanların xeyrinə olan, şər – zərərinə olandır. Xeyir – hamının arzuladığı, dəyərli, nümunəvi, şər isə məhv edilməli, yolverilməz olandır. Bununla əlaqədar, xeyir, adətən, müsbət – mənəvinin, şər isə əxlaqsızlığın sinonimi olur. Bu anlayışlar insanların şüurlu hərəkətlərini qiymətləndirir. Adətən, insanlar şüurlu surətdə xeyirxahlığa can atır, öz fəaliyyətlərini xeyirlə eyniləşdirirlər. Şər haqqında isə heç kəs açıq danışmır, onu fəaliyyətin məqsədi kimi təqdim etmir, məcburi addım kimi qələmə verirlər. Hətta şərin hədələmək və ya daha böyük qəbahətlərdən qaçmaq məqsədi daşıdığını söyləyirlər. İnsan xeyir işlər gördükcə onun hüdudlarını genişləndirir, şərin hüdudlarını isə daraldır. Xeyirxahlıq idealı insanı özünükamilliyədək yüksəldir. İnsan çox vaxt xeyri intuisiya vasitəsilə hiss edir. İnsan şəri ona görə tanıyır ki, xeyir haqqında kifayət qədər anlayışı var; xeyrə ona görə qiymət verir ki, öz təcrübəsində şərlə qarşılaşıb. Beləliklə, xeyir və şər bir-biri vasitəsilə dərk edilir.

Xeyir və şər anlayışları vasitəsilə insanlar ətraf aləmi də dərk edirlər. Hər hansı bir qiymətləndirilmə (yəni əxlaqın, mənəvi keyfiyyətlərin, insanlar və ya siniflər arasındakı münasibətlərin, cəmiyyətdəki durumun) xeyir və şərin daha konkret: prinsip, norma, mənəvi keyfiyyət formasına düşməsinə səbəb olur. Digər mənəvi keyfiyyətlər kimi, bu anlayışlar da tarixən dəyişkəndir. Məsələn, inkvizisiya dövründə insanların tonqalda yandırılması, insan qurbanlarının verilməsi, totalitarizm və s. insanların xeyir və şər haqqında yanlış təsəvvürlərindən irəli gəlirdi.

Xeyir anlayışı vasitəsilə insanların ümumi və mühüm maraqları, gələcəyə olan ümid və arzuları ifadə olunur. Nəyə aid və nədən asılı olaraq xeyir daha konkret mənalarda işlənir: xeyirxahlıq, ədalət, fəzilət və s.

Abstrakt anlayışlar olan xeyir və şərdən fərqlənən ədalət daha konkret-tarixi xarakter daşıyır. Ədalət konkret-tarixi məzmun daşıyan bərabərlik və bərabərsizliyin inikasıdır. İbtidai cəmiyyətdə ədalət o dövr üçün nəzərdə tutulan davranış qaydaları və normalarını pozanların cəzalandırılmasını tələb etmək kimi başa düşülürdü. Bunlara qan düşmənçiliyi də aid idi. Yunan mifologiyasında ədalət ilahəsi olan Femida gözübağlı təsvir edilirdi. Bu, hökm çıxaran zaman onun düzgün mövqe tutmasına işarə idi. O dövrdə icad edilən tərəzi də Femidanın simvolu idi. Pifaqorçular deyirdilər ki, tərəzi bir tərəfə əyilməməlidir, yəni cəza ciddi şəkildə cinayətə tən gəlməlidir. Demokritə və digərlərinə görə, ədalət təbiətə uyğun hərəkət etmək və öz borcunu yerinə

yetirməkdir. Sokrata görə, ədalət özgənin rifahıdır (xoşbəxtliyidir). Yaxşı adam ədalətsizlik etməz. Sokrat da, pifaqorçular da bu fikirdə idilər ki, ədalətsizlik etməkdənsə, ədalətsizlikdən əziyyət çəkmək daha yaxşıdır. Aristotel hesab edirdi ki, iki cür ədalət mövcuddur: təbiətən ədalətsizlik, qanuna görə ədalət. Sonuncu dövlət tərəfindən müəyyən edilir. Aristotel üstünlüyü birinciyə versə də, diqqətini ikincinin üzərində cəmləşdirirdi: ədalətli olmaq – qanuna, qanun isə fəzilətlərə riayət etməyi tələb edir: mərdliyə, müdrikliyə və s. Beləliklə, ədalət ən kamil fəzilətdir. Digər fəzilətlər də burada cəmləşir. Lakin ədalət digər insanlara münasibətlə müəyyənləşir. Buna görə də onun çıxış nöqtəsi, prinsipi bərabərlikdir. Qeyri-bərabərlik ədalətsizliyə gətirib çıxarır, insan özünü digərlərindən fərqli olaraq daha yaxşı təmin edir. Bir sözlə, ədalət israfçılıqla çatışmazlıq arasında olur. Artistotel bir də onu qeyd edir ki, insan bilmədən pis iş görürsə (məsələn, atasını düşmən zənn edib öldürür), bu, ədalətsizlik yox, bədbəxtlikdir.

Aristotelə görə, fəzilətlər fitri deyil, təcrübə ilə əldə ediləndir. Orta əsrlərin xristian etikası 3 növ fəzilətdən bəhs edir*: 1) inam; 2) ümid; 3) məhəbbət.* İnam – Allaha inam, ümid – Allahın mərhəmətinə ümid, məhəbbət – Allaha məhəbbət nəzərdə tutulurdu.

Şər – xeyrin antipodu, mənfi etik kateqoriyadır. O, mənəviyyatsızlığın, əxlaqa zidd və mühakiməyə səbəb olan hərəkətlərin, bütün mənfi mənəvi keyfiyyətlərin ümumi xarakteristikasıdır. Mənfi mənəvi keyfiyyətlərə antihumanizm, zorakılıq, yalan, alçaqlıq, oğurluq, xuliqanlıq, zalımlıq, satqınlıq, xəbərçilik və s. aiddir. İstismar, işğalçılıq müharibələri, başqa dinlərin, azadfikirliliyin, başqa dərili insanların, digər millətdən, təbəqədən, mənşədən olanların təqibi və s. kimi qlobal miqyaslı "şərin" mövcud olduğu cəmiyyətdə "mikroşər" də mövcud olur ki, bu da insanların gündəlik həyatına və psixologiyasına daxil olaraq, adətə çevrilir. Bunlara kobudluq, eqoizm, digərlərinin, hətta öz qohumlarının dərdinə laqeydlik, qəddarlıq, yalançılıq, sərxoşluq, biclik, fırıldaqçılıq və s. aiddir. Belə hallarda güclü zəifi incidir, kimsə öz günahını başqasının üstünə atır, xuliqan adamları təhqir edir, satıcı adamları acılayır, bürokrat rüşvət gözləyir, taksi sürücüsü, usta, ofisiant gördüyü işdən dəfələrlə çox pul tələb edir, kiçiklər böyüklərə hörmət etmirlər, kişilər otururlar, qadınlarsa ayaq üstə qalırlar, işdə xaltura edilir, vəzifədən şəxsi məqsədlər və ya qazanc üçün istifadə edilir, rəhbər işçilər öz tabeçiliyində olanların qayğısına qalmır, yalnız öz rütbəsi barədə düşünür, zəhmətsiz gəlirlərlə yaşayır.

Şər ya özgəsinin hesabına özünütəsdiqə cəhd formasında, ya da iradəsizlik formasında, mövcud şəraitin təzyiqinə müqavimət göstərə bilməmək kimi mövcud olur. Hərəkətin və ya niyyətin əxlaqsızlıq kimi qiymətləndirilməsi milli şüurda və milli mədəniyyətdə bu anlayışların mövqeyi ilə bağlıdır.

Z.Göyüşov "Əxlaqi sərvətlər" adlı əsərində bu problemləri belə şərh edir:

“Xeyir kateqoriyası etikanın əsas və müəyyənedici kateqoriyasıdır. Bu kateqoriyanın məzmunu düzgün müəyyən edilməsə, heç bir etik problemi həll etmək olmaz. Xeyir və şər anlayışları elə mühüm və elə ümumi anlayışlardır ki, bunlarsız hətta əxlaqi hərəkət və davranışlara qiymət vermək də olmaz. Xeyir artıq müsbət qiymətləndirilmiş və əxlaqi sərvət şəkli almış kateqoriyadır. Bunun əksinə olaraq, şər mənfi qiymətləndirilmiş əxlaqi keyfiyyət və sifətlərin, hərəkət və davranışların təcəssümüdür. Geniş mənada xeyir əxlaqlılığı, şər isə əxlaqsızlığı ifadə edir. Başqa etik kateqoriyalar kimi xeyir və şər kateqoriyaları da zaman keçdikcə dəyişmiş, sinfi xarakter daşıyaraq müxtəlif məzmun kəsb etmişdir. Lakin əxlaq yarandığı gündən indiyədək xeyir ayrı-ayrı insan qrupları, siniflər və bütövlükdə cəmiyyətin əxlaq cəhətcə bəyəndiyi, təqdir etdiyi, fəzilət hesab etdiyi hərəkət və davranışları, şər isə cəmiyyətin pislədiyi, bəyənmədiyi, qəbahət saydığı hərəkətləri ifadə etmişdir. Buna görə də bu anlayışlar özündə müəyyən ümumbəşəri cəhəti də, nisbi sabitliyi də ehtiva edir”.

## 13. Borc və vicdan

Borc və vicdan anlayışları insanın daxili tələbatlarından irəli gələrək etikada mərkəzi yer tutur. Onlar insanın şüurunda şəxsiyyətin cəmiyyətə, kollektivə, digər insanlara və özünə olan mənəvi öhdəçiliklərindən irəli gəldiyi üçün müəyyən əxlaq normaları və mənəvi prinsiplərlə bağlıdır. Mənəvi dəyərlər imperativdir, yəni vacibdir. Onlar əxlaq normaları və prinsipləri ilə bağlı olub, insanlar arasındakı münasibətləri tənzimləyir. Bunlara yalnız hər hansı şəraitlə əlaqədar yox, hər zaman riayət olunmalıdır. Bunları yalnız məhdud dairədə – qohumlar, dostlar, kolleqalar, yerlilərlə deyil, bütün insanlarla münasibətdə əldə rəhbər tutmaq lazımdır. Mənəvi imperativlər yerindən, şəraitdən, zamandan, milliyyətdən, şəxsiyyətdən asılı olmayıb, universal xarakter daşıyır. Etikada borc və vicdan anlayışlarının fitri olması barədə baxışlar geniş yayılmışdır. Bu anlayışlar fərdi inkişaf prosesində formalaşır, çünki cəmiyyətdə müxtəlif insanların borc və vicdanının inkişaf səviyyəsi eyni deyil. Bəziləri borc və vicdanı xoşbəxtliyə qarşı qoyur və hesab edirlər ki, bu zaman insan öz istəyinin əksinə getməli olur: “istəyirəm” və “etməliyəm” anlayışları bir-birinə qarşı çıxır. Lakin bir çox filosoflar hesab edirlər ki, insan öz borcunu yerinə yetirdikdə və ya vicdanla hərəkət etdikdə öz işindən zövq alır, məmnun olur. Məsələn, suda boğulanı xilas edərkən insan öz bahalı geyiminin korlanmasına heyfsilənməməlidir. Bəzən cinayətkarlar “vəzifə borcu” adı ilə öz çirkin əməllərini həyata keçirirlər. Məsələn, faşistlərin törətdikləri antihumanist hərəkətlər buna misaldır. “Azərbaycanfilm” kinostudiyasının istehsalı olan “İstintaq” filmində müstəntiqlə müttəhimin söhbəti, müttəhimin verdiyi ifadələr

bu baxımdan maraqlıdır. Müttəhim əlbir işlədiyi cinayətkar yoldaşlarını ələ verməməyini belə əsaslandırır: "Mən onlarla bu şərtlərə əsasən işləməyə söz vermişəm, indi də öz borcumu yerinə yetirirəm".

Borc kateqoriyası insanın cəmiyyət və ya digərləri qarşısındakı mənəvi öhdəçiliyidir. Bu, obyektiv olaraq mövcud olan ictimai öhdəçiliyin yerinə yetirilməsi ilə əlaqədar daxili-mənəvi zərurətdir. Borcun mənbəyi və təməli ictimai maraqdır. Borc daxilində maraq imperativ, amiranə xarakter alaraq hakim meyil kimi üzə çıxır və hərəkəti seçən motivi müəyyənləşdirir. Lakin insan öz öhdəsinə düşəni avtomatik şəkildə yerinə yetirmir. Borc həmişə hərəkətin motivlərindən biri kimi çıxış edir. Bu halda o, digər kateqoriyalardan fərqli olaraq, daha güclü, amiranə stimula çevrilir.

İnsanda olan borc hissi hələ qədim dövrlərdən mövcuddur. Sinifli cəmiyyətə keçid bu hissin yaranmasına şərait hazırlayır ki, bu da mənəvi təsəvvürləri alt-üst edir. Mənəvi inkişafın yeni dövrü başlayır. İnsanların kollektiv qarşısında borc hissi yaranır. Cəza ilə əlaqədar qorxu kollektivin nüfuzunun artmasına gətirib çıxarır. Çətin məqamda kollektivin köməyinə arxalanmağın mümkünlüyünü dərk edən insan kollektivlə hesablaşmağa, ictimai prinsip və normalara əməl etməyə daxili tələbat duyur. Borcun yerinə yetirilməsi məcburi xarakter daşımamalıdır. İnsanın borcu mənəvi ideala uyğun gəlməlidir. O daim xeyirxahlığa doğru yönəlməli, imkan dairəsində hamıya yaxşılıq etməli, şərdən uzaq olmalıdır. Borc insanlar arasındakı münasibətlərin özünəməxsus mexanizmidir. Könüllülük prinsipinə əsaslanan borcda şəxsi və ictimai cəhətlər vəhdətdə olmalıdır.

Mənəvi borc anlayışına daxil olan öhdəçilik yalnız gələcək qarşısında deyil, həm də keçmişə aiddir. Bura Vətən uğrunda canından keçənlərin ruhuna hörmət və s. aiddir. Borcun könüllü surətdə yerinə yetirilməsi şəxsiyyətin yüksək mənəvi şüurundan xəbər verir.

Borcun müxtəlif formaları mövcuddur ki, bu da ictimai şəraitdən, həyati situasiyalardan, öhdəçilikdən asılıdır, məsələn, Vətənlə bağlı "vətənpərvərlik borcu", dövlətlə bağlı "vətəndaşlıq borcu", bundan başqa, "beynəlmiləlçilik borcu", "hərbi borc", "peşə borcu" və s. Lakin insan yalnız cəmiyyət qarşısında deyil, özü və yaxınları qarşısında da müəyyən borca malikdir. Məsələn, "ailə borcu", "yoldaşlıq borcu" və s.

Mənbələrə görə, borc anlayışını etikaya ilk dəfə Demokrit gətirib O, bunu insan fəaliyyətinin daxili motivi ilə əlaqələndirir, ağılla icra edilən yaxşı əməlləri qorxu və ya məcburiyyət qarşısında görülənlərdən qat-qat üstün tuturdu. Məsələn, satıcı müştəriyə yaxşı xidmət göstərirsə, bunun 2 səbəbi ola bilər: ya satıcı işini itirməkdən qorxur, ya da sadəcə olaraq, öz vəzifə borcunu yerinə yetirir.

Balaca uşaqlarda öz öhdəçilikləri barədə təsəvvür olmadığı üçün onlar böyüdükcə yaşlıların tələblərini mənimsəyir və özlərində mənəvi keyfiyyətlərin

formalaşmasına zəmin yaradırlar. Beləliklə, fərdin şüurunda borc və buna uyğun hisslər və təsəvvürlər formalaşır. Borcun dərk edilməsi əxlaqi şüurun digər komponentləri – ədalət, vicdan və s. ilə sıx bağlıdır. Ədalətlə hərəkət etmək – borcun yerinə yetirilməsindən irəli gəlir. Borcu yerinə yetirmək – insanın vicdanı ilə bağlıdır. Deməli, borc əxlaqi zərurətdir. Buna xüsusi mənəvi motiv də demək olar.

Borc anlayışı dilimizdə 2 mənada işlənir: *maddi və mənəvi borc: 1) "Mən qonşuya 100 manat borcluyam"; 2) "Mən dostuma kömək etməyə borcluyam".* Mənəvi borca insanların birgəyaşayış prosesində yaranan öhdəçilikləri (məsələn, Vətən, xalq, kollektiv, ailə, valideyn qarşısındakı borc və ya ər-arvadlıq borcu), o cümlədən peşə fəaliyyəti (müəllimlik borcu, həkimlik borcu və s.) ilə bağlı vəzifələri aiddir.

Xüsusi (qeyri-tipik) vəzifələri, xüsusi qayda və tələblərin yerinə yetirilməsini borcdan fərqləndirmək lazımdır. Bunlar etiket, ünsiyyət sahəsinə və s. aiddir. Məsələn, "teatra" getmisinizsə, əvvəlcə bilet alırsınız, sonra zalda məhz öz yerinizi tutursunuz, tamaşa zamanı söhbət etmirsiniz, telefonunuzu söndürürsünüz, yerə zibil atmırsınız və s. Siz bunu etməyə borclusunuz, yəni teatrın qayda-qanununa əməl etməyə məsuliyyətlisiniz, bu, sizin vəzifənizdir. Borc insanı digərləri ilə, cəmiyyətlə bağlayır və obyektiv öhdəçiliklər əldə edir. Obyektivlik – yəni bizim istəyimizdən asılı olmayaraq mövcud olan öhdəçiliklərdir. Bunlara əməl etməsək, ətrafdakılara ziyan vurarıq. Məsələn, dostumuzu aldatsaq, onun qarşısındakı borcumuzu, dostluq öhdəçiliyini yerinə yetirməsək, dostumuzu itirə bilərik və ya iş yerində səhlənkarlığa yol versək, oğurluq etsək, işimizi itirə bilərik. İctimai borc bəzi hallarda qanunla tənzimlənir.

İmmanuil Kant borcu etikanın ən əsas kateqoriyası hesab edərək, onu fəaliyyətin müəyyən sxemi, davranış norması adlandırır. Kantın etikasını "borc etikası" da adlandırmaq olar. Kant borc anlayışını son dərəcə nəzəri və normativ səviyyəyə qaldırır, onu əxlaqın spesifikası ilə əlaqələndirir. Kantın etikaya aid əsərləri çoxdur. Bunlardan daha mühümü 1787-ci ildə yazdığı "Təcrübi zəkanın tənqidi" əsəridir.

Belə güman edilir ki, insanın fərdi əxlaqi şüurunda vicdan borca nisbətən öndə gedir. O, insanın daxili hakimi olub, öz hərəkətlərini hiss etmək və başa düşmək qabiliyyəti kimi çıxış edir. Şəxsiyyətin müstəqilliyinin, əxlaq azadlığının və buna uyğun mənəvi məsuliyyətinin artması ilə əlaqədar insanın mənəvi şüurunda bir qədər sonra borc anlayışı formalaşır. Borc və vicdanın ümumi cəhətləri çoxdur. Onlar, adətən, məzmunca oxşar olub, insanın hərəkətlərinin əxlaqi tənzimlənməsi zamanı oxşar funksiyalar yerinə yetirir. Əgər borcda əxlaqın daha çox imperativ, amiranə cəhətləri ifadə olunursa, vicdan ilk növbədə insanın hərəkətlərinin nəzarətçisidir. Vicdanın əsas xüsusiyyəti budur ki, o, dərin intim hiss olub, insanın daxili həyəcanlarında özünü göstərir. Vic-

dan – şəxsiyyətin cəmiyyət qarşısında məsuliyyət və borcunun subyektiv dərk edilməsidir. O, şəxsiyyətin mənəvi özünə nəzarət funksiyasını həyata keçirən etik kateqoriya olub, mənəvi öhdəçiliyi müstəqil dərk etməyə, onların həyata keçirilməsini özündən tələb etməyə və etdiyi hərəkətlər üçün özünə qiymət verməyə imkan yaradır. Vicdanını rəhbər tutan insan öz hərəkətlərini, onun motiv və nəticələrini özü təhlil edir. Vicdan insanın hərəkətlərinin mövcud cəmiyyətin əxlaq normaları baxımından mənəvi qiymətləndiricisi və nəzarətçisidir. Borc kimi vicdan da müəyyən hiss, təsəvvür və bilikləri özündə birləşdirir. Borc insanın öz hərəkətlərinə, fikir və arzularına tənqidi yanaşma qabiliyyəti kimi çıxış edir. Borc kimi, vicdan da ətrafdakıların rəyindən, fikrindən asılı olmayıb, müstəqildir. Bu baxımdan, vicdan insan şüurunun digər daxili nəzarət mexanizmindən – utancaqlıqdan fərqlənir. Qeyd edək ki, vicdan və utancaqlıq arasında yaxınlıq mövcuddur. Utancaqlıq da insanın özünün və ya yaxınlarının qəbul olunmuş bəzi mövcud normalara uyğunsuzluğunun və ya günahının dərk edilməsidir. Lakin utancaqlıq bütünlüklə digər insanların rəyi ilə əlaqədardır. Ətrafdakılar insanı nə qədər çox qınayarsa, insan bir o qədər çox utanar. Bəzən insan təsadüfi hadisələrə görə də utana bilər. Məsələn, onun normal saydığı hadisəni ətrafdakılar qəbul etmirsə o, bununla əlaqədar da utana bilər. Ətrafdakıların şəxs haqqında rəyi düzgün olmadıqda da utancaqlıq hissi əmələ gələ bilər. Lakin utancaqlıq vicdanın yerini tuta bilməz. Utancaqlıq şahid olarkən yaranır, lakin vicdan üçün şahid vacib deyil.

İnsan öz hərəkətlərini təhlil edib, ona qiymət verərkən onun mənəvi məsləkləri və dünyagörüşü əsas amilə çevrilir. Öz hərəkətlərini təhlil edən insan bunun pis və ya ədalətli olub-olmamasını "öz arşını ilə ölçür". Lakin insanların düşüncə tərzi müxtəlif olduğu üçün bəzən pis iş görən insan nə utanır, nə də vicdan əzabı çəkir, o hətta öz hərəkətinə bəraət qazandırmağa da çalışır. Belə insanlara elə gəlir ki, onların vicdanı təmizdir. Bəzən isə, əksinə, insan səbəbsiz utancaqlıq hissi keçirir. Ədalətli hərəkət etdiyi halda, ona elə gəlir ki, düz iş görmür, hamı onu qınayacaq. Öz hərəkətlərini düzgün qiymətləndirmək üçün insan aydın mənəvi məsləklərə, elmi dünyagörüşə malik olmalıdır. Öz məsləklərinə xəyanət edən insan vicdan əzabı çəkir. Bu, öz əxlaqında və ya işdə yol verilən səhvlər nəticəsində də yarana bilər. Düşüncəli insan öz səhvinə görə vicdan əzabı çəkir. O, ürəyində də olsa, öz kollektivi qarşısında sanki hesabat verir, səhvlərini boynuna alır, onları düzəltmək üçün yollar axtarır, gələcəkdə təkrar etməməyə çalışır. Vicdan əzabı emosional həyəcan hissi zamanı da yaranır.

İnsanda vicdan hissinin formalaşması üçün müəyyən həyat təcrübəsinin olması zəruridir. Bu hissin formalaşması müəyyən yaş dövrünün yetişməsini tələb edir. Vicdan əzabı və utancaqlıq da bu qəbildəndir. Müasir dövrün insanlarından fərqli olaraq, qədim dövrlərdə bu keyfiyyətlərin əldə edilməsi üçün

kifayət qədər zaman ötüb keçmişdir. Bu uzunmüddətli proses dəblərin, adət və ənənələrin formalaşması ilə paralel mövcud olduğuna görə o, bioloji deyil, ictimai köklərə malik olub, müəyyən şəraitdə və yalnız insanda olur. İnsanın mədəni həyatı zənginləşdikcə bu anlayış vaxtı keçmiş, lazımsız elementlərdən təmizlənir. Məsələn, ibtidai dövrlərdə istehsal qüvvələrinin aşağı səviyyədə olması, ağır həyat şəraiti qoca və xəstələrin öldürülməsi adətinin yaranmasına səbəb olmuşdu. Bunu edən ibtidai insan qətiyyən vicdan əzabı çəkmirdi. Lakin zaman keçdikcə, istehsal qüvvələrinin inkişafı nəticəsində əmək qabiliyyəti olmayanların qayğısına qalmaq imkanı yarandı. Artıq nəinki belə hərəkətlər tənqid olundu, hətta bunu edənlər vicdan əzabı çəkməyə başladılar. Vicdan əzabı insanın həyatında mühüm rol oynaya bilər. O, insanın mənəvi həyatına qəfildən daxil ola bilər, onun planlarını alt-üst edər və həyat yolunu kökündən dəyişə bilər. Qədim romalılar hesab edirdilər ki, vicdan – on şahidə bərabərdir. Beləliklə, vicdan kateqoriyası qiymətləndirici xarakter daşıyır. İnsan dərk edəndə ki, yaxşı hərəkət edib, məmnunluq hissi keçirir, əksinə, pis iş tutanda vicdan əzabı çəkir. Vicdan aktiv və passiv xarakter daşıya bilər. Birinci halda vicdan insanı yaxşı işlər görməyə təhrik edir, ikinci halda isə yalnız pis işlər görməkdən saxlayır. Vicdanın aktiv və ya passiv olması tərbiyədən və insanın xarakterindən çox asılıdır.

Vicdan əzabını həm utancaqlığın bir forması kimi, həm də şəxsiyyətin dərin emosional həyəcanları kimi nəzərdən keçirmək olar. Lakin bütünlükdə oxşarlığa baxmayaraq, vicdan və utancaqlığı eyniləşdirmək olmaz. Utancaqlıq, qeyd edildiyi kimi, şahid tələb edir. Məsələn, insan dəbə uyğun geyinmədikdə də utancaqlıq hissi keçirə bilər. Halbuki o, bu geyimdə evdə sərbəst gəzə bilər, tanışlarla rastlaşmayacağına əmin olduqda, hətta evdən belə də çıxa bilər. Bəzən isə insan utancaqlıq hissi keçirdiyi halda vicdan əzabı çəkmir. Məsələn, kimsə avtobusda sizi itələdiyi üçün siz kiminsə ayağını tapdalamısınızsa, bu halda o adamdan üzr istəsəniz də, vicdan əzabı çəkmirsiniz, çünki sizdə günah olmayıb. Çox vaxt vicdan bütün mənəviyyatın sinoniminə çevrilir. Ona görə də tez-tez belə ifadələrə rast gəlirik: “sənin vicdanın yoxdur”.

Vicdanda qiymətləndirmə, hərəkətlər və qərar ətrafdakıların rəyi ilə deyil, borc hissi ilə əlaqələndirilir. Vicdan tələb edir ki, insan heç kim görmədikdə, heç bir nəzarət olmadıqda, bu hərəkətdən heç vaxt, heç kimin xəbər tutmayacağına əmin olduqda belə pis iş tutmasın. Vicdan insanın özü qarşısında məsuliyyətini tələb edir. Vicdan borcun yerinə yetirilməsinə səbəb olur. Bu halda deyirik: “mənim vicdanım sakitdir” və ya “təmizdir”. Yəni insan öz öhdəsinə düşən işləri imkan dairəsində yerinə yetirir.

Etikada və ümumiyyətlə, gündəlik leksikonda tez-tez işlənən ifadələrdən biri də “vicdan azadlığı”dır. Etikaya görə, vicdan azad olmalı, azadlıq isə vicdanla yaşamaq kimi başa düşülməlidir. Ümumişlək mənada insanın mənəvi

həyatı, daxili aləmi, məslək seçimi azad olmalıdır. Dar mənada bu, dini ayinlərə riayətetmə ilə əlaqədardır.

Vicdan, hər şeydən əvvəl, ayrı-ayrı şəxslərə məxsusdur. Lakin "ictimai vicdan" haqqında da fikirlər mövcuddur. Kütləvi informasiya vasitələri, ictimai təşkilatlar ictimaiyyətin rəyini ifadə edir və formalaşdırır. Bu rəy, adətən, bitərəf və olduqca ciddi olur. Beləliklə, vicdan insanın bütün mənəvi həyatını fəallaşdırır, xeyirxahlıq və ədalətin təsdiqinin mühüm "mexanizmi" kimi çıxış edir.

"Vicdan" anlayışına Demokritin dövründə hələ rast gəlməsək də, "utancaqlıq"dan danışarkən, görünür ki, Demokrit məhz vicdanı nəzərdə tuturmuş: "Adam pis iş tutanda əvvəlcə öz-özündən utanmalıdır" – söyləyən filosof, "Başqalarından utanmaqdan daha çox özündən utanmağı öyrən" tezisini irəli sürürdü. Demokritin bu fikri də məlumdur ki, yaxşı adam yalnız həmişə yaxşılıq edən adama deyil, ömründə bir dəfə də olsun pislik haqqında fikirləşməyi bacarmayan və pis hərəkət etməyən adama deyilməlidir. Aristotel "Nikomax etikası"nda yazır ki, ağıl və vicdanı insana təbiət bəxş edib. Siseron "Allahların təbiəti" adlı traktatında bütün ümidlərini vicdana bağlayır: "O, hər hansı ilahi zəkadan asılı olmayaraq, fəzilət və qəbahəti ölçüb-biçmək qabiliyyətinə malikdir. O olmasa – hər şey batar". Naturalist nəzəriyyənin nümayəndələri olan Darvin, Spenser, Leturno, Kropotkin vicdanı qeyri-ictimai, insanla bərabər heyvana da məxsus bir hadisə kimi nəzərdən keçirirdilər. Vicdanın mənbəyini ictimai instinktlərdə görürdülər. Darvin hətta deyirdi ki, ictimai instinktə malik olan hər hansı heyvan mənəvi hiss və vicdan əldə edir.

Z.Göyüşov bu problemi də yuxarıda adı çəkilən əsərində araşdıraraq ona tarixi baxımdan yanaşmış və maraqlı tədqiqat apara bilmişdir: "Böyük rus yazıçısı L.N.Tolstoy öz əsərlərində vicdana müstəsna əhəmiyyət verərək yazmışdır ki, "mən dünyada iki həqiqi bədbəxtlik tanıyıram: biri vicdan əzabı, o biri xəstəlikdir". Vicdan – insanların həyatının doğru yol göstəricisidir. Böyük fransız filosofu və riyaziyyatçısı L.Paskala görə: "vicdan – bizim malik olduğumuz ən yaxşı əxlaq kitabıdır, yoldan azmamaq üçün ona tez-tez baxmaq lazımdır". Dahi Norveç yazıçısı H.İbsenə görə: "saf vicdan – ən yumşaq yastıqdır". Görkəmli fransız yazıçısı və əxlaq nəzəriyyəçisi O.Balzakın nəzərincə, vicdan, hələ ki, biz onu ləkələməmişik, çox qabil və səhv etməyən hakimdir. Görkəmli amerikan yazıçısı Heminquey yazırdı ki, "saxtakarlıqdan qorunmaq üçün Parisdə saxlanan metr – etalon kimi mütləq surətdə dəyişməz vicdana malik olmaq lazımdır". Çex xalqının qəhrəman oğlu Yulius Fuçik demişdir ki, "vicdanı ləkələnmiş adamlara baxmaq döyülüb əzilmiş adamlara baxmaqdan daha qorxunc və daha dəhşətlidir". Böyük proletar yazıçısı M.Qorki dönə-dönə qeyd etmişdir ki, "vicdan insanın mənəvi saflığının mühüm əlamətidir". Onun fikrincə, yalnız özünü yalan, abırsızlıq və həyasızlıq zirehinə bürüməyən adam vicdan mühakiməsi qarşısında titrəməyə bilər. Vicdansız olsan, böyük

ağlın olsa belə yaşaya bilməzsən. …Qeyd etmək lazımdır ki, Şərqin Şeyx Sədi, Şirazi, Hafiz, Nəziri, Cəlaləddin Rumi, Mahmud Şəbüstəri kimi əxlaq nəzəriyyəçiləri də vicdan və insafı məhz yüksək əxlaqlılığın, fəzilətliliyin mühüm əlaməti kimi tərənnüm etmişlər. Onların hamısı vicdanlı və insaflı olmağı əxlaqi məziyyətlərin əsası saymışlar. Bu cəhətdən Azərbaycanın görkəmli maarifçisi və mütəfəkkirlərinin fikirləri də çox xarakterikdir. Görkəmli maarifçimiz və əxlaq nəzəriyyəçimiz A.Bakıxanov öz fəlsəfi traktatı "Təhzibül-əxlaq"da insaf kateqoriyasının şərhinə ayrıca bir fəsil həsr etmişdir".

## 14. Şərəf və ləyaqət

Şərəf və ləyaqət digər kateqoriyalar kimi şəxsiyyət və cəmiyyət arasındakı münasibətləri tənzim edir, insanın özünə qarşı münasibətlərini aydınlaşdırır, onun mənəvi dəyərlərini ifadə edir və onların əxlaqına təsir edəcək vasitəyə çevrilir.

Bir-biri ilə bağlı olan bu kateqoriyalar sosial qrupların, siniflərin, insanların əxlaqi fəaliyyəti prosesində formalaşır. Onların məzmunu son məqamda mövcud cəmiyyətin iqtisadi quruluşu ilə müəyyənləşir. Məsələn, feodal cəmiyyətinin hakim dairələri şərəf və ləyaqətdən çox danışırdılar. Müxtəlif cəngavər adətləri məhz bu anlayışlarla bağlı idi. Lakin onlar çox vaxt zahiri xarakter daşıyırdı. Zadəgan özünə layiq olmayan işlər görməklə özünü alçaltmamalı, "aşağı" təbəqəyə qoşulmamalı, özünü "yüksək" tutmalı idi. Orta əsrlər zadəganlarının ləyaqət və şərəf kodeksində duellər mərkəzi yer tuturdu. Məlumdur ki, arvadının doğrudan və ya yalandan təhqir edilməsinə görə ər qarşı tərəfi duelə çağırmalı idi, özü isə başqasının arvadını yoldan çıxarmağı yüksək cəngavər şücaəti hesab edirdi.

Feodal cəmiyyətinin qanunlarını ləğv edən burjuaziya orta əsrlərdəki şərəf və ləyaqət haqqında olan təsəvvürləri alt-üst etsə də, təbəqələşmə ilə bağlı, insanın ictimai vəziyyəti ilə əlaqədar məsələlərə münasibətini saxlamışdı. Bununla yanaşı, hər bir xalqın, millətin şərəf və ləyaqət haqqında öz təsəvvürləri var idi.

Bir-birinə yaxın olsalar da, bu kateqoriyalar arasında həm insanın əxlaqi dəyərlərini ifadə etmək baxımından, həm də digər aspektlərdən müəyyən fərqlər var. Şərəf insanın əxlaqi dəyərlərini onun konkret ictimai vəziyyəti, fəaliyyət növü, ictimai həyatdakı rolu, əxlaqi xidmətləri ilə əlaqədar ifadə edir. Hər bir insan cəmiyyətin bir hissəciyi olduğu halda, ictimai rəydən qaça bilməz. "Şərəf" anlayışının məzmunu müəyyən qrupun üzvü, müəyyən ictimai funksiyaların daşıyıcısı olan insanın hərəkətləri, davranışı, həyat tərzinə ictimai əxlaq tərəfindən qoyulan tələblərə riayət etmək baxımından açılır. Bu baxımdan kişi, qadın, əsgər, fəhlə, həkim, müəllim, gənc və başqaları qar-

şısında konkret tələblər məcmusu mövcuddur. Öz növbəsində ictimai əxlaq "kişi şərəfi", "qadın şərəfi", "əsgər şərəfi", "fəhlə şərəfi", "ailə şərəfi", "zavodun şərəfi", "məktəbin şərəfi" və s. anlayışlarla əlaqədardır. Hətta əvvəllər "qəbilənin şərəfi" kimi anlayışlar da mövcud olub. Şərəf insanları bir-birindən fərqləndirərək onların şöhrətində, qazandıqları ad və etibarında öz əksini tapır.

Şərəf kimi ləyaqət də həm cəmiyyətin insana, həm də insanın özünə qarşı münasibətlərini aydınlaşdıraraq əxlaqi qiymətləndirməni və özünü qiymətləndirməni ifadə edir, insanlar arasındakı münasibətləri və insanın davranışını tənzim edir.

İnsanın öz ləyaqətini başa düşməsi özünüdərketmənin və özünənəzarətin bir formasıdır ki, insanın özünə qarşı tələbkarlığı bunun əsasında formalaşır. Öz ləyaqətinin qorunması və təsdiqlənməsi üçün insan elə müvafiq addımlar atır ki, ləyaqətinin ləkələnməsi üçün səbəb olmasın. Şəxsi ləyaqətinin dərk edilməsi insanın ilk növbədə özü qarşısında məsuliyyətini artırır. Ləyaqət – digər adamlardan öz hüquqlarının qorunması üçün özünə qarşı hörmət tələb etməkdir. Şəxsi ləyaqətini yüksək tutan insan alçaqlıq və satqınlıq etmir, nə özünü, nə də başqasını alçaltmır, həyatını nəyəsə tabe etmir. Ləyaqət insanların bərabərliyi prinsipini əsas tutur.

Ləyaqət həm həqiqi, həm də aldadıcı ola bilər. Birinci halda ictimai rəy ədalətli olaraq insana xeyirxah işlərində, insanlara etdiyi yaxşılığa görə müsbət qiymət verir. İkinci halda isə bu rəy düzgün olmur, çünki haqqında söhbət gedən adam hamını aldatmağa müyəssər olur, öz hərəkətlərini həddindən artıq şişirdir. Əslində, onun ictimai-faydalı əməkdə rolu çox cüzidir, onun borc və vicdanla bağlı əxlaqi hissləri də çox zəif inkişaf edib.

Şərəf və ləyaqətlə çox bağlı olan məsələlərdən biri də şöhrətpərəstlikdir. Məşhur olmaq, hamıdan irəlidə getmək şöhrət qazanmaq, tanınmaq, müasirlərindən seçilmək, şəxsiyyət kimi parlamaq çoxlarının arzusudur. Bu, müəyyən mənada yaxşı nəticələr verə bilər. Yəni insan, məqsədindən asılı olmayaraq, xeyirxah işlər görmüş olur. Lakin əksər hallarda bu hisslər şöhrətpərəstliyə aparıb çıxarır. Bunu eqoizmin nəticəsi kimi də başa düşmək olar. Ancaq unutmaq olmaz ki, şöhrət insana özü gəlir. Onu süni yolla çox yaşatmaq mümkün deyil. Şişirdilmiş şöhrət gec-tez partlayır. Şöhrətpərəstlik cəmiyyət üçün qorxulu hala çevrilə bilər. Bəzi adamlar şöhrət naminə, adının tarixə pis cəhətdən olsa belə düşməsi xatirinə hətta cinayətə əl atırlar. Hitler, Mussolini və bu kimilər belələrindəndir.

Şöhrətpərəstliyə əks olan keyfiyyət – təvazökarlıqdır. O, insanda daha çox diqqəti cəlb edir və hörmətlə qarşılanır.

Şərəf və ləyaqət kateqoriyaları ilk dəfə Roma stoikləri Seneka, Epiktet və Mark Avreli tərəfindən işlənib. Onların fikrincə, bu kateqoriyalar insanın ali dəyərləridir, bunlarsız həyat öz mənasını itirir. Onlar hətta intiharı şərəfsiz

və ləyaqətsiz həyatdan üstün tuturdular. Epiktet yazırdı ki, insanın doğulub həyatdan getməsinə, pulundan və evindən məhrum olmasına heyfsilənmək lazım deyil, yalnız o vaxt heyfsilənmək olar ki, insan əsl mülkiyyəti olan ləyaqətini itirsin. İntibah dövründə Piko della Mirandola, Lorenso Valla, Rotterdamlı Erazm bu kateqoriyaları nəzəri cəhətdən daha çox əsaslandırırdılar.

Azərbaycan filosofu Ziyəddin Göyüşov da bu kateqoriyaları özünəməxsus şəkildə nəzərdən keçirib: "İnsan cəmiyyətinin inkişafı tarixində yaranıb formalaşmış mühüm əxlaqi sərvətlərdən biri şərəf, namus və ləyaqətdir. Vicdan, insaf və həya kimi şərəf, namus və ləyaqət də eyni mənalı əxlaqi anlayışlardır. Bunlar insanın əxlaqi şüurunun eyni bir cəhətini əks etdirir. Başqa əxlaqi kateqoriyalar kimi şərəf, namus və ləyaqət də uzunsürən əxlaqi tərəqqinin məhsullarıdır".

Şərəf – insanın və onun hərəkətlərinin sinif, millət, xalq, kollektiv, cəmiyyət tərəfindən bəyənilməsi və qiymətləndirilməsi deməkdir. Şərəf insanın öz şəxsi ləyaqətini dərk etməsidir. Ləyaqət isə onun bir şəxsiyyət kimi özünü başa düşməsindən ibarətdir. Namus insanın öz şərəf və ləyaqətini əzizləyib qoruması və qiymətləndirməsi deməkdir. Göründüyü kimi, bu üç anlayış arasında keçilməz bir sədd qoymaq və bunları bir-birindən ayırmaq olmaz. Bunlar bir-birini tamamlayan və bir-biri ilə qırılmaz dialektik vəhdət halında mövcud olan eyni ümumi anlayış və əxlaqi sərvətlərdir, qoşa əxlaqi kateqoriyalardır.

Şərəf, namus və ləyaqət haqqında təsəvvür formaca fərdi, müstəqil xarakter daşısa da, məzmun etibarilə həmişə ictimai xarakter daşıyır. Çünki şərəf, namus və ləyaqət insanın başqa insanlarla, insan qrupları ilə, bütövlükdə cəmiyyətlə əlaqə və münasibətlərini nəzərdə tutur. Şərəf və ləyaqət şəxsiyyətə verilən ictimai qiymətlə şəxsiyyətin özünün özünə verdiyi qiyməti təcəssüm etdirir. Bu iki cür qiymətin mütənasibliyi olmadan şərəf, namus və ləyaqət kimi əxlaqi sərvətlərin təbiəti düzgün aydınlaşdırıla bilməz. …Bəzi əxlaq nəzəriyyəçiləri şərəf kateqoriyasının məzmununu müəyyən etməyə cəhd edərkən şəxsiyyətə verilən ictimai qiyməti nəzərə almayıb, şərəfi ancaq şəxsiyyətin özünün özünə verdiyi qiymətlə məhdudlaşdırırlar. Məsələn, T.Lipps "Etikanın əsas məsələləri" adlı kitabında yazır ki, şərəf ancaq mənim şərəfim, yəni mənim vicdanlılığım və namusluluğum ola bilər. Başqa adamlar məndə şərəf olduğunu təsdiq edə bilsələr də, onlar mənə şərəf verə bilməzlər.

Şərəf və namusun məzmununu bu cür şərh etmək, şəxsiyyətin özünə verdiyi qiyməti ictimaiyyətin şəxsiyyətə verdiyi qiymət hesabına şişirtmək və ictimai qiyməti nəzərə almamaq, əlbəttə, yanlışdır. Çünki, ümumiyyətlə, cəmiyyətdən kənarda şəxsiyyəti düşünmək mümkün olmadığı kimi, ictimai qiymətdən kənarda namus, şərəf, ləyaqət də təsəvvür etmək olmaz. Əslində, elə

şəxsiyyətin özünə verdiyi qiymət, şərəf, namus və ləyaqət məfhumları ictimai qiyməti nəzərdə tutur. Namus, şərəf, ləyaqət başqa insanlara münasibətdən sərf-nəzər edilərsə, heç bir mənaya malik olmaz… "Şərəfin tarixi inkişafı haqqında bir neçə qeyd" adlı məqaləsində A.İ.Gertsen şərəf və namusu insan şəxsiyyətinin yaranması ilə əlaqələndirir və göstərir ki, insan yalnız ictimai həyatda şəxsiyyət olduqdan sonra cəmiyyət qarşısında öz şərəfini və ləyaqətini dərk etməyə başlayır. Həmin məqalədə A.İ.Gertsen şərəf və namusun inkişafını üç əsas dövrə bölür. Birinci dövr – qəbilə quruluşu dövrüdür. Bu dövrdə artıq şərəf, namus və ləyaqət haqqında ilk təsəvvür yaranır. Lakin bu dövrdə şəxsiyyət hələ tam formalaşmadığından şəxsi şərəf və namus da yox dərəcəsindədir. Çünki bu dövrdə şəxsiyyətin özü qəbilə, tayfa və ailədən ayrılmadığından, onun şərəf və namusu da qəbilə, tayfa, ailə şərəfi və namusudur. Ayrı-ayrı fərdlər öz şəxsi şərəf və namusu uğrunda deyil, bütün qəbilənin, tayfanın şərəfi uğrunda düşməndən qan intiqamı alırlar. Başqa sözlə desək, bu dövrdə şəxsiyyətin özü kimi, onun şərəf və ləyaqəti də qəbilənin, tayfanın şərəfi içərisində əriyir.

Şərəfin inkişafının ikinci dövrünü A.İ.Gertsen yunan-Roma dövrü adlandırır. Bu dövrdə ayrı-ayrı fərdlərin vətəndaşlıq ləyaqəti, vətəndaşlıq şərəfi haqqında təsəvvürləri xeyli yüksəlir. Bu dövrdə Afina və Roma şəhərləri azad şəhərlər olduğundan, bu şəhərlərdə doğulanlar və ya yaşayanlar azad vətəndaşlar hesab edilirdilər. Beləliklə, A.İ.Gertsenin haqlı olaraq qeyd etdiyi kimi, adamların ləyaqəti onların doğulduğu ərazi ilə müəyyən olduğundan, şərəf – əslində, adamların öz şərəfi deyil, Afina və Roma kimi şəhərlərin şərəfidir. Bundan əlavə, Roma və Afina kimi şəhərlərin vətəndaşları başqa şəhər və kəndlərin əhalisini tam şərəfsiz və ləyaqətsiz hesab edirdilər. Onlar öz qullarına, xaricilərə "yarım adam", barbarlar kimi baxırdılar. Buna görə də, əslində, bu dövrdə də şəxsiyyətin şərəfi, namusu və ləyaqəti tam formalaşmamışdı.

A.İ.Gertsenin nəzərincə, şəxsi şərəf və ləyaqət yalnız üçüncü dövrdə – orta əsrlərdə qəti formalaşıb özünün ən yüksək nöqtəsinə çatır. Bu dövrdə tarix səhnəsinə cəngavər əxlaqı çıxır. Şərəf, namus və şəxsi ləyaqət ən böyük fəzilət hesab olunur. Şərəf və namus bir növ əxlaqın meyarına çevrilir. Lakin bu dövrdə şəxsi şərəf, namus vətəndaşlıq şərəfi hesabına inkişaf edir. Cəmiyyətin ümumxalq şərəfi arxa plana çəkilib kölgədə qalır. Buradan A.İ.Gertsen belə bir nəticə çıxarmışdı ki, şəxsiyyətin həqiqi şərəfi, namus və ləyaqəti inkişaf etmiş azad şəxsiyyətlə cəmiyyət arasında ahəngdar əlaqə yarandıqdan sonra mümkün ola bilər. Nə qədər ki, şəxsiyyətin həqiqi azadlığı təmin edilməmişdir, şərəf, namus və ləyaqət lazımınca inkişaf edə bilməz".

## 15. Həyatın mənası və xoşbəxtlik

"İnsan həyatda nə üçün yaşayır", "Onun dünyada mövqeyi nədən ibarətdir", "İnsanın xoşbəxtliyi nədədir" kimi suallar hər bir ağıllı insanı narahat etməyə bilməz.

Xoşbəxtlik – etikanın digər kateqoriyalarından fərqli olaraq, daha konkret məzmuna malik olsa da, xüsusən borc, vicdan, şərəf və s. məsələlərlə bağlı onlarla sıx əlaqədədir. İnsan mənəviyyatının dərinlikləri ilə əlaqədar olan xoşbəxtlik – əxlaqi şüurun əsas anlayışlarından olub, insanın daxilən razı qalmasına uyğun bir haldır. Arzu kimi, xoşbəxtlik də insan idealının hissi-emosional formasıdır, lakin fərq bundadır ki, o yalnız məqsəddən, cəhddən ibarət olmayıb, bunların həm də həyata keçirilməsi ilə bağlıdır. Xoşbəxtlik yalnız insanın müəyyən konkret obyektiv mövqeyini və ya subyektiv vəziyyətini xarakterizə etmir, o, insanın həyatının necə olması və əsl səadətin nədən ibarət olması barədə təsəvvürləri ifadə edir. Xoşbəxtlik ruhun daimi rahatlığıdır. O, fasiləsiz sevinc deyil, əksinə, ruhun xüsusi emosional yüksəliş məqamıdır. Buna görə də xoşbəxt həyata qəmli-qüssəli, dərdli məqamlar da aid ola bilər. Xoşbəxtliyə həm də həyatın bir çox sevinclərindən imtina etmə daxildir.

Xoşbəxtlik kifayət qədər güclü, gərgin və müsbət həyəcan olub, öz həyatından yüksək dərəcədə razı qalma halıdır. Bu halın yaranması üçün heç də insanın həyatının bütün sahələrində müvəffəqiyyət əldə edilməsi tələb olunmur. Bu müvəffəqiyyət yalnız qlobal problemlərə aiddir. İnsanlar çox müxtəlif situasiyalarda özlərini xoşbəxt hesab edə bilərlər. Məsələn, yenicə evlənənlər bir çox kəm-kəsirləri olsa belə, özlərini, adətən, xoşbəxt hesab edirlər. Onları nə dəbdəbəli ev, nə xarici markalı maşın, nə də başqa sərvətlər maraqlandırmır. Kasıb sənətkar da, öz əsərləri ilə bağlı müəyyən nailiyyət əldə etdikdə, özünü xoşbəxt hesab edə bilər. Rəssamın hər hansı mötəbər sərgidə iştirakı, şairin ilk kitabının çıxması, müğənninin mükafat və ya fəxri ad alması və s. bu qəbildəndir. Göründüyü kimi, xoşbəxtliyə səbəb olan hadisələr uzunmüddətli olmur. Çünki həyatda qane olma halları daimi deyil. Xoşbəxtlik qısamüddətli olub, şimşəyin çaxma anını xatırladır. Təsadüfi deyil ki, "bal ayı" ifadəsi mövcuddur, "bal beşilliyi" isə gülüş doğura bilər. Sadəcə olaraq, insan öz müvəffəqiyyətlərinə alışır və yeni-yeni zirvələr fəth etmək istəyir ki, bu da yeni, daha dərin hisslər keçirməyi tələb edir, özünütəsdiq və mənəvi zənginləşmə üçün digər yollar axtarır. Mütləq xoşbəxtlik mümkün deyil. Tələbata uyğun olaraq, o, daim inkişafdadır. Xoşbəxtlik anlarında insan dünyanı da ayrı cür qavrayır. Görəsən, cinayətkarlar özlərini tam xoşbəxt hiss edə bilirlərmi? Yəqin ki, yox. Elə təkcə hər an ifşa olunmaq təhlükəsi buna mane ola bilər. Cinayətkar öz əməlindən nə dərəcədə həzz alsa da, uzun müddət sevinc hissi keçirsə də, bu, əsl xoşbəxtlik deyil.

Xoşbəxtliyin yaranma prosesi bir sıra özünəməxsus əxlaqi xüsusiyyətləri də üzə çıxarır. Hadisənin və şəraitin xırda eqoizm mövqeyindən deyil, yüksək əxlaqi dəyərlər baxımından qiymətləndirilməsi xoşbəxtliyin başa düşülməsində mühüm rol oynayır. Müxtəlif əxlaqlı adamların xoşbəxtliyi və onu başa düşməsi arasında müəyyən fərqlər mövcud olur.

Xoşbəxtlik azad quşa bənzəyir. O olmayan yerdə insanı güclə özünü xoşbəxt hesab etməyə məcbur etmək olmaz. Bu baxımdan xoşbəxtliyə aid bir sıra atalar sözləri də mövcuddur. Məsələn, "xoşbəxtlik at deyil ki, boynuna cilov taxasan" və ya "xoşbəxtlik balıq deyil ki, onu tilovla tutasan" və s.

Xoşbəxtlik fərdi olur. Yəni hər bir insanın, ailənin, sosial qrupun, millətin xoşbəxtliyi ola bilər. Xoşbəxtlik insanın mənəvi ideala nə dərəcədə yaxın ola bilməsi ilə də üzə çıxır. "Yaxşı həyat nədir və insan ilk növbədə nəyə can atmalıdır» kimi suallar xoşbəxtliyə aid olan əsas məsələlərdəndir.

Xoşbəxtliklə bağlı insanların fikirləri çox müxtəlifdir. Bəziləri üçün xoşbəxtlik öz zahiri əlamətləri ilə seçilməlidir ki, bura ilk növbədə uğur, həzz, şərəf, var-dövlət və s. aiddir. İnsanın sevincə, rahatlığa, arzularının icrasına can atması təbiidir. Lakin bunların əxlaqi tələblərlə, məsələn, borcla toqquşması problem yarada bilər.

Bəxtigətirmə, tale kimi başa düşülən xoşbəxtlik insanın özündən asılı deyil. Buna başqaları da qarışa bilməz. Bu barədə düşünən Aristotel o fakta diqqət yetirib ki, insanın ədalətli olması, və yaxud hər hansı xeyirxahlığı uğur kimi qiymətləndirilmir. Çünki bu keyfiyyətlər insanın cəhdindən, səyindən asılıdır. Lakin mirasa sahib olmaq, yaxşı yaşayışa, fitri istedada malik olmaq uğur, müvəffəqiyyət kimi başa düşülür. Pis bir hadisədən, qəzadan yaxa qurtarmaq özü də uğurdur. Lakin Allahın göndərdiyi səadət belə insandan müəyyən zəhmət tələb edir. "Səndən hərəkət, Allahdan bərəkət" misalı da təsadüfən yaranmayıb. Lakin hər hansı uğur, həyatın "insana gülümsəməsi" hələ insana özünü xoşbəxt hiss etməyə imkan vermir. Eyni zamanda xoşbəxtliyin yaşanması, duyulması onun əsas məqamıdır. Xoşbəxtlik o vaxt həqiqi olur ki, o, insanda sevinc və razılıq duyğuları oyatsın.

Xoşbəxtlik haqqında yayılmış təsəvvürlərdən biri də budur ki, o yaşanan zaman keçirilən sevinc hissi dərin olur. Lakin bu cür həyəcan vəziyyəti də tez keçəndir. Xoşbəxtlik ona görə qısa ömürlü, epizodik hal kimi xatırlanır ki, insan xoşbəxt olanda saat yadına düşmür, hər saat bir ana çevrilir.

Həzz və xoşbəxtliyin fərqini insanlar nəinki çoxdan başa düşüblər, hətta onu da dərk ediblər ki, hər bir həzz heç də xoşbəxtliyə aparmır. Qədim Yunanıstanda məşhur siyasi xadim, e.ə. VI əsrdə yaşamış Solon deyirdi ki, "sənə qüssə gətirəcək həzdən qaç". Bəzən bədbəxt adamlar da nədənsə həzz ala bilər. Eyni zamanda, xoşbəxtlik də həzlə müşayiət edilir. Həzsiz xoşbəxtliyi dərk etmək çətindir. Lakin həzz xoşbəxtliyin nə şərti, nə də məzmunu deyil.

Xoşbəxtlik haqqında yayılan digər təsəvvür var-dövlətlə bağlıdır. Lakin var-dövlət həmişəmi xoşbəxtlik gətirir? Burada var-dövlətin hansı yolla qazanılması da rol oynayır. Bundan başqa, bir çox var-dövlət sahibləri heç də özlərini xoşbəxt hiss etmirlər. Əlbəttə, halal yolla qazanılmış var-dövlət insana əziyyət vermir, ondan qətiyyən qaçmaq lazım deyil, çünki kasıb ola-ola xoşbəxt olmaq doğrudan da çətindir. Lakin bir daha xatırladırıq ki, xoşbəxtlik var-dövlətlə, onun miqdarı ilə ölçülmür. Doğrudur, uğurlu tale, sevinc, maddi və mənəvi baxımdan zəngin həyat, xoşbəxtliyin əldə edilməsinə səbəb olan amillərdir. Lakin bunlar xoşbəxtlik üçün yalnız əlverişli şəraitdir, onun səbəbi və məzmunu deyil. Sokrat deyirdi ki, xoşbəxtlik insanın tərbiyəsindən, təhsilindən və nə dərəcədə xeyirxah olmasından asılıdır. Yalnız layiqli və namuslu adamlar xoşbəxt ola bilər, ədalətsiz və səfehlər xoşbəxt ola bilməzlər. Ədalətsizlər cəzalanmırsa, onda onlar xüsusilə bədbəxtdirlər.

Xoşbəxtlik məmnunqalma kimi başa düşülürsə, deməli, bu qaneolunma ani deyil, uzunmüddətlidir, həyatın böyük bir zaman kəsiyini əhatə edir. Xoşbəxtlik üçün kəmiyyət göstəriciləri olmasa da, həyatın bütövlükdə və ya ayrı-ayrı tərəflərinin insanı qane etməsi kimi kəmiyyət göstəriciləri mövcuddur.

Xoşbəxtlik sevinc hissi ilə də çox yaxındır. Sevinc emosional olduğu halda, xoşbəxtlik sakit də yaşana bilər.

Birgəyaşayış şəraitində mövcud olan insan nə iləsə barışmalı, nəyin naminəsə özünü qurban verməli, müəyyən məhdudiyyətlərə dözməlidir. Bu cür dözümlü, xeyirxahlıqlarla dolu həyat xoşbəxtliyə səbəb ola bilər. Bir çoxları məhz bu fikirdədirlər ki, "xoşbəxt olmaq istəyirsənsə, xeyirxah ol". Bu, əlbəttə, çətin xoşbəxtlikdir. Qədim filosofların çoxu xoşbəxtlik və xeyirxahlığın nisbəti barədə artıq öz fikirlərini söyləyiblər. Polyak filosofu B.Tatarkeviç (1886-1980) özünün "Xoşbəxtlik və insanın kamilliyi" adlı əsərində xoşbəxtliyin bir neçə növündən söhbət açır: *"1) həzz, ləzzət; 2) uğur, bəxtigətirmə; 3) tale* (qədim yunan mifologiyasında tale və xoşbəxtlik ilahəsi Tixe, qədim Romada isə Fortuna idi); *4) sərvətə malik olma".*

Xoşbəxtlik çox mürəkkəb anlayış olsa da, onun mövcudluğunun təzahürü olan bir sıra amillərdən danışmaq mümkündür. Nahaq yerə demirlər ki, xoşbəxtlik balıq deyil ki, onu tilovla tutasan. Bu amillər xoşbəxtliyin yaranmasına zəmanət verməsə də, hər halda, müəyyən mənada ona təkan ola bilər. Bu amilləri şərti olaraq obyektiv və subyektiv olaraq 2 qrupa ayırmaq olar: Obyektiv amillər, əsasən, insanın şüurundan və iradəsindən asılı deyil, subyektiv amillərin yaranmasında isə, adətən, insan özü iştirak edir. Obyektiv amillərə təbii şərait (əlverişli iqlim, coğrafi mövqe, təbii fəlakətlərin baş verməməsi və s.) və cəmiyyətin vəziyyəti (müharibə və ya sülh şəraitində yaşaması, qanunların işləməsi, ədalətin bərqərar olması və s.) aiddir. Əgər ölkədə təbii fəlakət baş verirsə, qorxulu epidemiya yayılırsa, vətəndaş müharibəsi gedirsə və s. bu kimi

hallar mövcuddursa, tam mənada xoşbəxtlikdən danışmağın heç yeri deyil. Əgər ətrafdakı insanlar əzab çəkirsə, qan tökülürsə, hansı xoşbəxtlikdən danışmaq olar? Torpaqları işğal altında olan hansı xalq rahat yaşaya bilər?

Xoşbəxtliyin yaranması dövrlə, xalqın adət-ənənələri, mədəni xüsusiyyətləri, siyasi rejimi və s. amillərlə də bağlıdır. Obyektiv amillərə həmçinin insanın sağlamlığı, temperament tipi (məsələn, kimsə tündməcazlığı, hər hansı mənfi xüsusiyyəti ucbatından cəmiyyət, kollektiv, qonşular, qohumlar tərəfindən sevilmir), hətta xarici görkəmi aiddir. İnsanın məşğuliyyəti də bu baxımdan mühüm rol oynaya bilər. Çünki çox vaxt yaradıcılıq uğurları insanda nəinki adicə məmnunluq hissi oyadır, hətta onu yetərincə xoşbəxt edir.

Subyektiv amillərə insanın məsləkləri, əqidə və etiqadı, maraqları, nəyəsə olan həvəsi, əhvali-ruhiyyəsi və s. aiddir. Subyektiv amillər çox vaxt müxtəlif hadisələrə fərdin münasibətini formalaşdırır. Bu bir daha o deməkdir ki, biz hadisələri dəyişə bilməsək də, onlara münasibətimizi dəyişməyə qadirik ki, bu da bizi xoşbəxt edə bilər. Seneka deyirdi ki: "Özünü xoşbəxt hesab etməyən adam bədbəxtdir". Doğrudan da, insanın xoşbəxt olması yalnız obyektiv, xarici şəraitdən deyil, həm də subyektiv amillərdən, insanın özündən, onun fəallığından, məqsədyönlülüyündən asılıdır. Pessimist insan asanlıqla öz xoşbəxtliyindən yan keçə bilər. Əfsanəyə görə, Makedoniyalı İskəndər çəlləkdə yaşayan Diogendən soruşanda ki, "dünyada ən xoşbəxt adam kimdir?", o, cavab vermişdi ki: "mənəm, çünki dünyanın yarısı sənin ola-ola gözün doymur, mənim isə heç nəyim olmasa da, heç nəyə ehtiyacım yoxdur". F.Nitsşe isə deyirdi ki, "xoşbəxtliyə yalnız seçmə adamların hüququ var, çünki onlar digərləri üzərində müəyyən hakimiyyətə malikdirlər". A.Şopenhauerə görə isə: "xoşbəxtlik yalnız iztirabların olmamasıdır. İztirablar pozitiv və real olduğu halda xoşbəxtlik həmişə arzu kimi qalacaq". L.Bethovenə görə, "başqalarını xoşbəxt etmək özü xoşbəxtlikdir". J.Rasin hesab edirdi ki, "xoşbəxtlik ona görə mövcuddur ki, onu kiminləsə bölüşməyi bacarasan".

A.Bakıxanov "Təhzibül-əxlaq" və "Nəsihətnamə" əsərlərində təvazökarlığı xoşbəxtlik əldə etməyin mühüm vasitələrindən biri hesab etmişdir. Onun nəzərincə, təvazökar olmayan adam heç bir vaxt sakitlik, qəlb rahatlığı əldə edə bilməz. Təvazökarlıq insanın cəmiyyətdə mövqeyini yaxşılaşdırmağa, həm də ona daxilən mənəvi cəhətcə təkmilləşməkdə kömək edir. Təvazökar olmayan adam öz əxlaqını saflaşdıra bilməz. Çünki təkəbbürlü və lovğa adam çox vaxt öz nöqsanlarını və zəif cəhətlərini görə bilmir. Təvazökarlığın mənəvi mənfəəti ondadır ki, insan özünün nöqsan və acizliyindən xəbərdar olduğu üçün sadəliyi üstün tutur.

A.Bakıxanova görə, insan öz ağlına müəyyən hədd qoyub deyə bilməz ki, daha mən hər şeyi bilirəm, çünki insanın dünyada dərk etməli olduğu çox şeylər vardır. Kim ki öz bilik və təcrübəsini artırmağa ehtiyac hiss etmir, o, ciddi surət-

də yanılır. Öz biliyinə həddindən artıq güvənmək cəhalət əlamətidir. A.Bakıxanov bu münasibətlə özü haqqında deyir ki, gənclik çağlarında öz əqlimə tamamilə inanırdım, nöqsanlı olduğumu heç vaxt ürəyimə gətirmirdim. Rəyimə müvafiq olmayan bir işi, öz istəyimin əksinə nəticələnən bir məsələni özgəsindən bilərək, zəmanə adamlarını təqsirləndirirdim. Hərçənd ki, onlar da günahsız deyildilər. Lakin onların günahı mənim düşündüyüm qədər deyildi. Getdikcə tədqiqatım və təcrübəm artdı. Öz əqlimin dərəcəsinə şübhə etməyə başladım, bilmədiyim nöqsanlar yavaş-yavaş meydana çıxdı. Nəhayət, zövqümün xoş bir çağında və yabançılardan uzaq olduğum bir zamanda insafı hakim edərək özümün xasiyyət və rəftarımı bir-bir nəzərdən keçirdim. Məlum oldu ki, mənim təsəvvürlərim puç imiş, nəfsimin və şəhvətimin təsiri altında imiş. Yaxşı sandığım şey mənim halıma uyğun deyilmiş. Zehnim və zirəkliyim xudbinliyimə qalib gəlmiş olsaydı, bu gün xatırladıqda, peşmançılığını çəkdiyim işləri görməzdim.

A.Bakıxanov məsləhət görmüşdü ki, elm və kamalımızın nöqsanları olduğunu bildikdən sonra insan gərək öz elm və etiqadına arxayın olmasın. İşi hərtərəfli dərin düşünmədən ona əl atmasın; əqli tədqiqatını, dünyanın böyük adamlarının və xalqlarının görkəmli alimlərinin rəyləri ilə tətbiq etsin və ümuminin faydasına olan işi qəbul etməkdən utanmasın. Çünki bizim heç bir işimiz təqlidsiz olmamalıdır, heç olmazsa, pisliyə və zərərə səbəb olan iş deyil, ümuminin faydasına olan iş təqlid edilsin.

Maraqlıdır ki, Abbasqulu ağa Bakıxanov təvazökarlıq və sadəlikdən danışarkən, sadəliyi prinsipsizlik, acizlik dərəcəsinə endirməməyi tələb etmişdir. O yazırdı ki, "həlimliyin acizlik, təvazökarlığın isə alçaqlıq dərəcəsinə gəlib çıxmasından saqınmaq lazımdır. Ancaq acığı və vüqarı, yeri gəldiyi vaxtda, bədəni qorumaq üçün alət etmək lazımdır. Çünki bir çoxları bir nəfəri aciz gördükdə onu incitməyə tələsirlər".

Z.Göyüşov özü isə belə hesab edir ki, "…xoşbəxtlik – əxlaqi ideal və arzu ilə sıx surətdə bağlıdır. Əxlaqi ideal və arzu insanın xoşbəxtliyinin mühüm tərkib hissəsi olmaqla bərabər, həm də qiymətli əxlaqi sərvət xarakteri daşıyır. İdealsız, arzusuz, məqsədsiz, gələcəyə inamsız mənalı insan həyatı təsəvvür etmək çətin olduğu kimi, bunlarsız əsl xoşbəxtlik də mümkün deyil".

İnsan həyatında yalnız sevinc yox, kədər də mövcuddur. Xoşbəxtlik kimi, bədbəxtlik də dərin həyəcanla müşayiət olunur. Lakin xoşbəxtlik fəlsəfi anlayış olduğu halda, bədbəxtlik fəlsəfi anlayış deyil. Psixoloqlardan fərqli olaraq, filosoflar bədbəxtlik haqqında müzakirə açmırlar. Ona görə yox ki, onlar insan həyatına biganədirlər, sadəcə olaraq, xoşbəxtlik anlayışı, onlara görə, ideala yaxındır. İnsanlar xoşbəxtliyi uğurdan ayıra bildikləri kimi, bədbəxtliyi də şansın reallaşmamasından, bəxti gətirməməkdən fərqləndirməyi bacarırlar. Bəzən adi danışığımızda dərdi, bəlanı, dərin həyəcanları bədbəxtlik kimi tələffüz etsək də, bunun əsl bədbəxtlik olmadığını başa düşürük. Bədbəxtlik –

faciədir. Bu zaman insan öz istəklərini həyata keçirmək imkanından obyektiv və ya subyektiv səbəblər üzündən məhrum olur. Bəziləri hesab edirlər ki, iztirab çəkməyən adamlar xoşbəxtdirlər. Lakin bu, insanlıqdan uzaq haldır. İnsan qəlbi özgə iztirablarını başa düşməli, onlara şərik çıxmağı bacarmalı, imkan dairəsində kömək etməyə meyilli olmalıdır. Yalnız iztirablarla qarşılaşdıqdan sonra insan həyatın rəngarəngliyini, onun yalnız sevincdən deyil, kədərdən də ibarət olduğunu dərk edir. Bədbəxtlik bəzən bəxti gətirməkdən daha çox, insanın pis xasiyyətli olmasının nəticəsidir. Heç kim səhv buraxmaqdan, günah işlətməkdən, xəstəliyə tutulmaqdan, pis adamların ona vuracağı zərbədən və yaxın adamlarını itirməkdən sığortalanmayıb. Bədbəxtliyin səbəbi də çox vaxt elə bunlar olur. Hər adamın həyatında sevincli və kədərli günlər mövcuddur. Xoşbəxtliklə bədbəxtlik bir-birini istisna etmir. Eyni cəmiyyətdə hamının eyni dərəcədə xoşbəxt olması mümkün deyil. Rəqiblərdən hansınınsa xoşbəxtliyi digərinin bədbəxtliyinə səbəb ola bilər. Çox vaxt insanlar xoşbəxtlikdən danışarkən yalnız şəxsi xoşbəxtliyi nəzərdə tuturlar. Çoxları isə hesab edirlər ki, insan məhz öz borcunu yerinə yetirdikdə xoşbəxt olur.

Bəzən həyatda insanın elə halları olur ki, o, cəmiyyət tərəfindən qınanılan və özünə heç bir zaman layiq bilmədiyi hərəkətləri etmək istəyir. Hətta özü elə vəziyyət yaradır ki, qanun-qaydaya riayət etməli olmasın. Bunu bir anlıq gözünün önünə gətirən insan özünü müstəqil və sərbəst hiss edir. O hətta öz adətlərinə, vərdişlərinə də riayət etmir. Bəzi xalqların mədəniyyətlərində belə hallar üçün xüsusi şərait mövcuddur. Bu cür kütləvi formalardan biri karnavallardır. Karnaval zamanı insan maska taxır və tanınmayacağına əmin olduğu üçün özünü sərbəst aparır, istədiyi hərəkətləri edir və öz məqsədinə çatmaq üçün yollar axtarır. Belə "sərbəstliyə çıxma" iri həcmli tədbir olan karnavallarla yanaşı, kamera xarakteri daşıyan kiçik formalar, məsələn, lətifələr vasitəsilə də həyata keçirilir. Lətifələrin köməyi ilə "sarı sim"ə toxunan, çox incə mövzuların gülüş vasitəsilə ifşa olunmasına geniş şərait yaranır.

İnsanın həzzalma mənbələrinin çoxsaylı olmasına baxmayaraq, həzzin özü həmişə ani, müvəqqəti, qısamüddətli olur. O heç vaxt kifayət etmir.

Həzz – tələbat və maraqların təmin edilməsi ilə müşayiət edilən hiss və həyəcandır. Bioloji baxımdan həzz və iztirabların təsiri (rolu) onların adaptiv (uyğunlaşdırıcı) funksiya daşıması ilə müəyyən olunur. Həzz – orqanizmin tələbatlarına cavab verən fəallığı stimullaşdırır, həzzin yoxluğu və iztirab isə orqanizmi onun üçün təhlükə törədəcək təsirlərdən təcrid edir. Psixofizioloji baxımdan həzz tələbatların təmin edilməsi olub, daxili gərginliyin fiziki və psixi cəhətdən azalması və sönməsi ilə müşayiət olunur, orqanizmin zəruri funksiyalarının bərpa edilməsinə səbəb olur. Həzzin insan üçün faydalı olması müəyyən normativ mövqeyə gətirib çıxarır: həzzalma, məmnunolma orqanizm üçün ideal olduğundan, insan bu halı əldə etməyə çalışmalıdır. Etikada belə

mövqe **hedonizm** adlanır (yunanca "hedone" həzz deməkdir). Baxışlar sistemi və həyat tərzi kimi mövcud olan hedonizm o təsəvvürlərə əsaslanır ki, insan fəaliyyətinin əsas mənası və xoşbəxtliyin real təməli iztirablara qarşı ikrah hissi keçirmək və həzzə can atmaqdadır.

Bütün etik sistemlərdə xoşbəxtlik bilavasitə həyatın mənası anlayışı ilə əlaqələndirilir. Xoşbəxtlik kimi həyatın mənası da yalnız şəxsi xoşbəxtlik üzərində qurula bilməz. Bu hal gec-tez fərdi xarakter alaraq eqoizmə aparır.

Etik sistemlərin çoxunda xoşbəxtlik insan hüquqlarının ayrılmaz hissəsi, xoşbəxtliyə can atma isə insanın fitri xüsusiyyəti kimi nəzərdən keçirilir.

İnsan özünü dərk etməyə başlayandan onu həyati əhəmiyyətli suallar narahat etməyə başlayıb: "İnsan nə üçün yaşayır?", "Onun məqsədi nədir?", "İnsanın xoşbəxtliyi nədədir?", "Həyatın məzmunu və məqsədi nədir?". Beləliklə, həyatın mənası problemi insandan asılı olmayaraq mövcuddur. Xoşbəxtlik və həyatın mənası problemi etika tarixində çoxlarını düşündürüb. Bu baxışları əsasən 3 qrupa bölmək olar: *1) həyatın mənasını fərdi nailiyyətlərlə bağlayanlar; 2) dini etiqadlara tabe olaraq o biri dünyanı qazanmaqla bağlayanlar; 3) insan həyatını və mövcudluğunu absurd, mənasız hesab edənlər.*

Birinci cərəyanın nümayəndələri fərdiçilik konsepsiyasını irəli sürənlər hedonizm (həzz) və evdemonizm (xoşbəxtlik) prinsiplərini ön plana çəkirlər. Xoşbəxtliyin maksimum qaneolunma kimi başa düşülməsi utilitarizm (yararlılıq) etikasında da mövcuddur. Bu eqoistik konsepsiyanın əxlaqa zidd olduğunu onun tərəfdarları da hiss etdiklərindən özlərini təmizə çıxarmaq üçün müxtəlif bəhanələr tapırdılar. Epikurdan tutmuş, fransız maarifçilərinədək bu problemlə məşğul olanlar, yeni nəzəriyyə – "ağıllı eqoizm" nəzəriyyəsini ortaya atdılar.

İkinci cərəyan daha çox dini etika tərəfindən irəli sürülür. Bu dünyadakı həyatın insanlar üçün Allah tərəfindən sınaq kimi göndərilməsi və əsl həyatın o biri dünyada olması fikrindən müəyyən məqsədlər üçün istifadə edən bəzi din xadimləri bu minvalla insanları **asketizmə** (tərki-dünyalığa) ruhlandırır. Keçmiş əsrlərdə, əsasən, hakim siniflərin mənafeyinə xidmət edən bu mövqe insanları ədavətə, zülmə, haqsızlığa qarşı mübarizədən çəkindirir, dinin özünə qarşı isə düzgün olmayan münasibət formalaşdırırdı. Əslində, din insanı xoş həyat uğrunda fəaliyyətdən, zəhmətdən, mübarizədən nəinki çəkindirmir, əksinə, insanı öz həyatını yaxşılaşdırmaq, asanlaşdırmaq üçün elmlərə yiyələnməyə, əməksevərliyə təhrik edir, öz xoşbəxtliyini düşünməyi, həmçinin digərlərinin, xüsusən imkansızların qayğısına qalmağı məsləhət görür. Uzun müddət ateistlər, xüsusilə İslam dininin düşmənləri bu kimi məsələləri təhrif olunmuş şəkildə izah edərək insanları çaşdırmışlar. "Qurani Kərim"i özü şəxsən oxumayan insanlar, özünü "molla" adlandıran, savadsız fırıldaqçıların danışdığı cəfəngiyatla kifayətlənməli olurdular. Bu gün insanların dini şüurunun və savadının artması sayəsində İslamın ən humanist din olması qəbul edilir. Fanatizmdən,

cəhalətdən, avamlıqdan, savadsızlıqdan uzaqlaşaraq sırf dini mövqe tutanlar həyatın əsl mənasını dərk edir, bütün gücünü, qüvvəsini, vaxtını, ağıl və düşüncəsini insanların xoşbəxtliyi, xoş həyatı uğrunda mübarizəyə həsr edirlər.

Üçüncü cərəyanı pessimist cərəyan adlandırmaq olar. Bu cərəyanın nümayəndələri insanın mövcudluğunun mənasını inkar edir, onun absurd, mənasız olduğunu sübut etməyə çalışırlar. Kinik (e.ə. IV əsr, əxlaq normalarını inkar edən fəlsəfi məktəb) məktəbinin etikasında, ekzistensialistlərdə (mövcudluq fəlsəfəsi) və sairdə bunun izlərinə rast gəlmək olar.

Etika tarixində həyatın mənası, onun sevincləri haqqında ilk təlimin yaradıcısı Epikur sayılır. O, həyatın mənasını müdriklikdə görür. Onun fikrincə, insan ağlı ilə bütün mənasız arzulardan əl çəkməli, qəlbin rahatlığına nail olmalıdır. Qədim Yunan filosoflarından Gegesi hesab edirdi ki, o vaxt yaşamağa dəyər ki, həyatın gətirdiyi həzzin miqdarı iztirablardan çox olsun. Əgər əksinədirsə, onda insan ölsə yaxşıdır. Siseronun dediyinə görə, bu filosof sonralar Peysitanatos ləqəbi qazanır ki, bu da "intihar carçısı" mənasını verir. Onun mühazirələri İskəndəriyyədə bu səbəbdən qadağan edilmişdi.

XVIII əsr fransız materialistləri həyatın mənasını insanın dünyəvi maraqlarından ayırmağa qarşı qətiyyətli çıxış etdilər. Bu, onların əvəzsiz xidmətləridir. Onlar həyatın mənasını xoşbəxtliyə, dünyəvi ideala qovuşmaqda görür, elmi nailiyyətləri, bəşəriyyətin tərəqqisinə sonsuz inamı bunun əsası hesab edirdilər. Psixoloq E.Fromm yazır ki: "İnsan yeganə heyvandır ki, onun varlığı özü üçün problemə çevrilir, o, bu problemi həll etməlidir və ondan heç yerə qaça bilməz".

Keçmişini və gələcəyini, özünü və ətrafdakıları, etdiyi hərəkətləri və gətirə biləcəyi yenilikləri düşünməyən adamın həyatını mənalı hesab etmək olmaz. İnsan təbiətən praktik məxluqdur. O, qarşısına məqsəd qoyur və onlara çatmağa çalışır. Məqsəd və vəzifələrsiz insan heyvana çevrilir. İnsan öz inkişaf və fəaliyyət perspektivlərini, həyatının məqsədini, nəyə əsaslanmalı olduğunu başa düşməli, bilməli və görməlidir.

Həyatın mənası və həyatın məqsədi anlayışları bir-biri ilə sıx bağlı olsa da, eyniyyət təşkil etmir. Həyatın mənası – insanın istəyindən asılı olmayaraq, obyektiv şəkildə mövcuddur. Həyatın məqsədi – daxili, şəxsi və konkret olub, insanın özü tərəfindən qoyulur. Bu, hər hansı peşəyə yiyələnmə, konkret bir işdə hansısa nəticəni əldəetmə və s. ola bilər. İnsanın bütün həyatının məqsədi ayrı-ayrı konkret hissələrdən ibarət ola bilər ki, bunun da məcmusu bütöv bir proqram təşkil edir. Şüurlu surətdə qarşıya qoyulmuş məqsədin əxlaqi tərəfi onun həyatın mənasına olan münasibəti ilə ölçülür.

Bütün tələbatları birdən yerinə yetirmək mümkün deyil. Böyük və kiçik məqsədlər mövcuddur. Kiçik məqsədlər yaxın, bilavasitə, birgünlük olduğu halda, böyük məqsədlərə çatmaq üçün insan bəzən bütün ömrünü həsr etməli olur. Məsələn, dissertasiya müdafiə etmək, milyon dollar toplamaq, Amerika-

ya getmək, özü üçün ayrıca ev almaq və s. Bunlar məqsəd-ideallardır. Həyatın mənası ayrı-ayrı məqsədlərin əhəmiyyətliliyi ilə deyil, insanın bütün həyat boyu davranışı, götürdüyü istiqamətlə müəyyənləşir.

Bəzən insanın məqsədi şəxsi mənfəət çərçivəsindən, karyeradan "o yana" getmir. Hətta əxlaqa zidd məqsədlər də olur ki, bunlara bəraət qazandırmaq mümkün deyil. Lakin belə də düşünmək düzgün olmazdı ki, həyatın mənası, guya, yalnız ictimai rifahla bağlı olmalıdır. Cəmiyyət ayrı-ayrı fərdlərdən ibarət olduğu üçün hər bir insanın səadəti mühüm əhəmiyyət kəsb edir. Hər bir insan ilk növbədə özü, öz şəxsi xoşbəxtliyi barədə düşünməlidir. Cəmiyyətin xoşbəxtliyi ali məqsəd olduğu halda, fərdin xoşbəxtliyi son məqsəddir.

Həyatın mənası anlayışı sosial amillərlə yanaşı, şəxsi həyatda baş verən bəzi hadisələrlə də bağlıdır. Bura yaxın adamların itirilməsi, şəxsi həyatdakı qəfil dəyişikliklər, müəyyən yaş dövrü və s. aiddir. Bu zaman yüksək əxlaqi dəyərlərə söykənmək zəruridir. Çünki belə olduqda insan istər-istəməz xeyir, şər, ədalət, borc haqqında düşünür və bunları öz həyatı, taleyi, plan və ümidləri ilə əlaqələndirir. Həyatın mənasız olduğunu dərk edən insan mənəvi cəhətdən sarsılır, əsəbləri pozulur. Əlbəttə, həyatın mənası haqqında düşünmək və narahat olmaq qabiliyyəti bütün insanlarda eyni deyil. Bu, insanın peşəsindən, iş qabiliyyətindən və başqa keyfiyyətlərindən asılı deyil.

İnsanın mənəvi həyatında belə bir fikir əsas rol oynayır ki, həyatın mənası var və son məqamda xeyir şərə qalib gəlməlidir. Bu inam olmasa (hətta zəif formada), insan həyatı ağır, məşəqqətli, yorucu və əzablı keçər.

İnsanın həyatı onun yaşadığı illərin sayı ilə yox, məzmunu ilə, ətrafdakılara münasibəti, cəmiyyətə verdiyi xeyirlə, əxlaqi keyfiyyətləri, həmçinin şərəfi, namusu, vicdanı, ləyaqəti ilə qiymətləndirilir.

# III HİSSƏ

## PEŞƏ ETİKASI

### 1. Tətbiqi etika nəyi öyrənir?

İnsanın biliyinin və texnoloji imkanlarının inkişafı etik problemlərin də sayca çoxalmasına səbəb olduğundan, biologiya, fizika, kimya, təbabət və digər elmlərin nailiyyətlərinin əldə edilməsində etik təfəkkür də iştirak edir. Bu, etikanın da bir elm kimi müəyyən dəyişikliyə uğramasına səbəb olur. Təbabət, siyasət, ekologiya, biznes və s. kimi müxtəlif sahələri məhz etika, daha doğrusu, bunlarda mövcud olan ortaq etik problemlər birləşdirdiyi vaxt etikanın yeni sahəsinin – "Tətbiqi etika"nın meydana gəlməsinə ehtiyac yarandı.

"Tətbiqi elm" termini ilk dəfə təbiətşünaslıqda fundamental elmlərin tərkibində yaranıb, sonra humanitar elmlərə, o cümlədən fəlsəfə və etikaya keçib. Bunun üçün həmin elmlərin nəzəri hissələri həddindən artıq inkişaf etməli və praktikadan uzaqlaşmalı idi. Nəzəriyyə və praktika arasında fərqi ilk dəfə klassik alman fəlsəfəsinin banisi İ.Kant görərək "təcrübi zəkanı" əxlaqi idrak və davranışın sinonimi kimi işlətmişdir. Kanta qədər etikanın əsaslandırılması müxtəlif empirik-hedonist, utilitar (həzz prinsipinə, mənfəət prinsipinə əsaslanmaq) üsullarla əlaqədar idi. İlk dəfə olaraq Kant etikanın nəzəri əsaslandırılmasının mümkünlüyünü sübut etmişdir. Məhz bu səbəbdən Kantı "Tətbiqi etikanın" ilk nümayəndəsi hesab etmək olar.

Müasir dövrdə tətbiqi etikanın əhatə dairəsi genişdir: bioetika, ekoetika, biznes etikası, pedaqoji etika, hüquqi etika, siyasi etika, parlament etikası, incəsənət etikası, hərbi etika, senzura etikası, kompüter etikası və s. Bu sahələrin hər biri, öz növbəsində, kifayət qədər müstəqil olub, özünəməxsus problematikaya malikdir. Məsələn, bioetikada "gen mühəndisliyi", "klonlaşdırma", "surroqat (saxta, əvəzedici) analıq"; ekoetikada "təbiət və onun hüquqları", "atılmışlar"; hüquqi etikada "şpionaj", "ölüm hökmü"; kompüter etikasında robotlardan insan əməyinin əvəzedicisi kimi istifadə edilməsi; tibbi etikada evtanaziya, insan orqanlarının transplantasiyası və s. problemlər mövcuddur.

İnsanın özünün bir fərd kimi cəmiyyətdə real statusunun dəyişməsi və bununla əlaqədar dövlətin onun hüquqlarının qorunmasına təminat verməsi, inkişaf etmiş texnologiyanın insanın sağlamlığına və rifahına xidmət etməsi və s. tətbiqi etikanın inkişafı ilə əlaqədardır. Əxlaqın insanların milliyyəti, mədəniyyəti, peşəsi və s. ilə əlaqədar dəyişməsi tələbatı da bu qəbildən olan problemlərin yaranmasına səbəb olur. Bu problemlər içərisində peşə etikası özünəməxsus əhəmiyyət kəsb edir

## 2. Peşə etikası

Peşə etikası insanların peşə fəaliyyəti ilə əlaqədar aralarındakı münasibətlərin mənəvi xarakterini təmin edən davranış kodeksidir. Bir çox əxlaq normalarının ümumbəşəri xarakter daşımasına baxmayaraq (yəni bu prinsiplərin hər bir insana aid olması, məsələn, bütün fəaliyyətin borc, vicdan, sədaqət prinsipləri, dostluq, yoldaşlıq münasibətləri əsasında qurulması, böyüklərə hörmət etmək, yalan danışmamaq, xəyanət etməmək, ziyan vurmamaq və s.), müxtəlif peşələrlə əlaqədar fəaliyyət növlərinin də özünəməxsus davranış normaları var. İnsanın mənəvi həyatı rəngarəng olduğu üçün bəzən gündəlik həyatda nəinki yüksək mənəvi dəyərlərə, hətta adi əxlaq normalarına da riayət etmək asan olmur. Məsələn, işin xeyri üçün insan yalan danışır, münasibətləri düzəltmək naminə nəyi isə başqasına xəbər verməli olur, həqiqəti üzə çıxarmaq üçün şantaj üsuluna əl atmağa məcbur olur və s. Bəzi peşə sahibləri isə bu problemlərlə daha tez-tez rastlaşdıqları üçün onların işi xüsusi gərginlik tələb edir və mənəvi prinsipləri həyata keçirmək mürəkkəbləşir. Rəhbər işçinin, müəllimin, həkimin, hüquqşünasın, din xadiminin fəaliyyəti bu qəbildəndir. Məhz peşə etikası müxtəlif peşələrin əxlaq problemləri ilə əlaqədar konkret hadisələri öyrənir, təhlil edir və müəyyən tip peşələrin mürəkkəb və qeyri-adi fəaliyyəti zamanı əxlaqi dəyərlərin gerçəkləşməsinə və həyata keçməsinə kömək edir. Lakin peşə etikası əxlaqi şüura aid yeni prinsip və anlayışlar yaratmır. O, bunları insanın həyat fəaliyyəti ilə bağlı müvafiq sahələrlə uyğunlaşdırır. Beləliklə, peşə əxlaqını öyrənən peşə etikası əxlaq mədəniyyətinin əsas komponentidir. Peşə əxlaqının prinsip və normaları nisbi müstəqilliyə malik olduğu üçün peşə etikası özü də müstəqildir.

Peşə latınca "professio" sözündən olub, mövcudluq mənbəyi sayılan və əmək fəaliyyətinin müəyyən hazırlığa ehtiyacı olan ixtisas, rəsmi məşğuliyyət mənasını verir. Peşə əxlaqının prinsip və normaları cəmiyyətin inkişafının müəyyən mərhələsində yaransa da, dəyişməz deyil. Peşə əxlaqı normaları sivilizasiyanın, əxlaq mədəniyyətinin, insan münasibətlərindəki humanizmin inkişafı ilə bağlı olub, əxlaqi tərəqqinin bir forması kimi də nəzərdən keçirilə bilər. Peşələr mövcud olduqca tarixən formalaşmış peşə etikası normaları da yaşayacaq. Bunlar hər kəsi öz çalışdığı sahədə məsuliyyətli olmağa sövq edir. Peşə etikasının bəzi prinsipləri hər bir cəmiyyətin, millətin bu və ya digər prinsipləri ilə uyğun gəlsə də, müəyyən konkret şəraitdə dəyişikliyə məruz qalaraq fərdiləşə bilər. Hər bir peşənin öz ictimai funksiyaları, ictimai məqsəd və vəzifələri var. Bu peşə qruplarının daxilində insanların bir-birinə və gerçəkliyə müəyyən münasibətləri yarandığı üçün konkret əxlaq qaydaları və normaları məhz bununla əlaqədar formalaşır.

Peşə etikası ictimai şüur formaları, o cümlədən əxlaqın özü kimi quldarlıq cəmiyyətində ictimai əmək bölgüsünün, peşələrin, spesifik peşə əxlaqının

meydana gəlməsi ilə əlaqədar yaranıb. Peşələr hamısı eyni zamanda yaranmadığı üçün, peşə qrupları da müxtəlif vaxtlarda formalaşıb. Yeni-yeni peşələrin əmələ gəlməsi insanlar arasında da xüsusi münasibətlər yaradırdı. Əməyin obyektindən, istifadə etdiyi alətdən, metod və üsullarından asılı olaraq insan bənzəri olmayan situasiyalarla rastlaşır ki, bu da müvafiq metod, ritm, hərəkət, psixoloji reaksiya tələb edir. Hər bir peşənin məhz özünəməxsus ziddiyyətləri və bu ziddiyyətlərin dəfedilmə üsulları var ki, burada insanın subyektiv münasibətləri, mənəvi aləmi özünü göstərir. Peşə münasibətləri ilə əlaqədar çoxsaylı situasiyalar içərisində nisbətən tez-tez təsadüf olunanlar, həmin peşələrə aid əxlaq normalarının spesifikasını formalaşdırır. İnsanlar öz davranışlarını müvafiq situasiyalarda bu normalara uyğun qurmalı olurlar. Bütün bunlar peşə etikası və peşə əxlaqı problemlərinin mühüm əhəmiyyətə malik olmasını göstərir. Peşə əxlaqı məsələləri antik dövrdən mövcud olsa da, nə antik filosoflar, nə də onlardan sonrakılar bu problemləri lazımi səviyyədə işıqlandıra bilməmişlər.

Hal-hazırda mövcud olan peşələrin sayı 40 minə yaxındır. Bunlardan daha qədim tarixə malik olanlar həkim və müəllim peşələridir. Həkimlik etikası (tibbi etika) anlayışı e.ə. VI-V əsrlərdən yaranmağa başlayaraq, XIX-XX əsrlərədək həkimlik əxlaqı anlayışı ilə sinonim kimi işlənirdi. Bu anlayış tibb işçilərinin gündəlik fəaliyyəti, davranış və hərəkətlərindəki mənəvi dəyərlərini bildirir. Həkimlik etikası anlayışına həkimin borcu haqqında təlim – həkimlik deontologiyası da daxildir. Həkimlik deontologiyası normaları yalnız həkim və xəstə arasındakı münasibətləri, həkimlik etikası isə həkimin kollektiv, cəmiyyət, dövlət, digər tibb işçiləri ilə münasibətlərini tənzimləyir. İlk elementar, ümumtibbi normalar, həkimlərin qarşısına qoyulan əxlaqi tələblər haqqında yazılar Qədim Misir və Çinə aiddir. Həkimin davranış normalarının nisbətən sistemləşdirilmiş variantı e.ə. VIII-VI əsrlərdə Qədim Hind həkimlərinin təlimlərində verilib. Bu yazılardan məlum olur ki, həkimlər xeyirxah olmalı, xəstəyə ürəyi yanmalı, özünü itirməməli, təmkinli, dözümlü olub xəstəyə atalıq etməli, sağalmağa doğru gedənləri qorumalı, sağlamların dostu olmalı, hamının sağalmasına ümid verməlidirlər. Qədim Hind etikasının başlıca tələbləri bu gün də maraq doğurur: “Təcrübə vaxtı uğur qazanmaq istəyən həkim sağlam, dözümlü, təvazökar, xoşagəlimli olmalı, qısa saqqal saxlamalı, dırnaqları səliqə ilə tutulmuş və təmizlənmiş, geyimi ağ və ətirli olmalı, evdən çıxarkən çəlik və çətir götürməli, qadınlarla zarafat və boşboğazlığa qətiyyən yol verməməlidir. Həkimin nitqi asta, xoşagələn və həvəsləndirən olmalıdır. Onun təmiz və başqalarını düşünən ürəyi, sakit temperamenti olmalıdır. O, daim xeyirxahlığa və müdrikliyə can atmalıdır”. Qədim yunan həkimi Hippokratın məşhur “And”ındakı vəsiyyətləri bütün dövrlərdə populyar olub. Dahi həkim özünün “Həkim haqqında”, “Xoş rəftar haqqında”, “Nəsihətlər” əsərlərində

həkimlik sənətinin zəngin təcrübəsini ümumiləşdirməklə yanaşı, tibbi etika tarixində ilk dəfə olaraq həkimlik fəaliyyətinin uzun illər əhəmiyyətini itirməyən əsas əxlaqi prinsip və normalarını elmi cəhətdən formalaşdırmışdır. Onların müəyyən hissəsi bu gün də aktuallığını qoruyub saxlayıb. "Hippokrat and"ının bəzi müddəalarını nəzərdən keçirək: "Hansı evin kandarına ayaq basıramsa, xəstənin xeyrindən başqa heç nə düşünmürəm. ...Mən xəstələrin rejimini onların xeyrinə yönəldərkən öz qüvvə və biliyimi nəzərə alır, hər cür ziyan və ədalətsizlikdən uzaq olmağa çalışıram. Mən heç kimə özünü öldürmək üçün yol və vasitə göstərmərəm".

Tibb fakültələrini bitirənlər üçün "Hippokrat andı" əsasında müvafiq andiçmə mərasiminin keçirilməsi artıq çoxdandır ki, ənənə şəklini almışdır.

Orta əsrlərdə həkimlik etikasının əsas prinsipləri bir qədər də inkişaf etdirilir, qədim dövrdə formalaşmış ayrı-ayrı müddəaların ümumi cəhətləri konkretləşir, həkimlik sənəti və ləyaqəti barədə aforizmlər geniş yayılmağa başlayır.

Orta əsrlərdə həkimlik etikası sahəsində ərəb filosofu, həkim İbn Sinanın (980-1037) böyük xidmətləri olmuşdur. "Həkimlik elminin qanunları" əsərində xəstəliklərin öyrənilməsi, müalicəsi və qarşısının alınması ilə yanaşı, xəstənin şəxsiyyətinə münasibət və həkimin özünün əxlaqi simasına olan tələblər də şərh olunmuşdur. Müasir dövrümüzdə tibbi etika və həkimlik əxlaqı normalarının pozulması hallarına heç də az təsadüf olunmur. Saxta dərmanlar hazırlamaq və satmaq, xəstə ilə pis rəftar etmək, ona soyuqqanlı münasibət göstərmək, xəstəyə qarşı bilik və bacarığını əsirgəmək, öz xeyri üçün bahalı firma dərmanları yazmaq, xəstədən rüşvət tələb etmək, eləcə də uşaq alveri və s. buna misaldır. Tibb sənəti laqeydliyi sevmir. Həkimin özünə arxayınlığı, təmkinliyi, işə can yandırması, diqqətcilliyi, xoşniyyətliliyi, optimizmi, qayğıkeşliyi və s. onun nüfuzunu qaldırır, xəstəyə isə ruh yüksəkliyi verir. Həkimdən başqa, heç bir sənət sahibi xəstə ilə belə yaxın ünsiyyətdə olmur. Buna görə də həkimlik əxlaqı hətta digərlərinə nümunə ola bilər. Həkim qədər heç bir sənət sahibi insanın bioloji və sosial həyatına belə hərtərəfli və dərindən yanaşmır. Həkimin qarşısındakı yalnız xəstə və onun xəstəlikləri deyil, bütün həyat tərzi, özünəməxsus xarakter və həyəcanları olan insandır. Həm də həkimin insanla görüşü ona məhz bədbəxtlik üz verəndə – yəni insan xəstələnəndə baş verir. Bu vəziyyət həkimin daha diqqətli və qayğıkeş olmasını tələb edir. Həkimin əməyinin əsas çətinliyi ondadır ki, o, digərlərindən fərqli olaraq, heç cür, hətta kiçicik səhv və ehtiyatsızlıq edə bilməz. Burada səhlənkarlıq, etinasızlıq, formallıq dözülməzdir. Həkimin işi yalnız diaqnozu düzgün qoymaq deyil, o həm də pasiyentin vəziyyətini başa düşməli, onun iztirablarını azaltmağa çalışmalı, xəstəliklə əlaqədar qorxusunu, çıxardığı nəticə və şübhələrini dağıtmalı, sağalmağa inamını artırmalı, emosional vəziyyətini yüksəltməlidir. Təbabətdə peşə və əxlaqi problemlərin vəhdəti psixoterapiyada özünü göstərir. Hansı xəstəliyi

müalicə etməsindən asılı olmayaraq, həkim maddi vasitələrlə yanaşı (dərman, fizioterapiya, tibb alətləri, operativ müalicə, qida rejimi və s.), insanlara həmçinin mənəvi-psixoloji və əxlaqi-etik təsir də göstərir. Psixoterapiya ilə həkimin əxlaqı arasındakı bilavasitə mövcud olan əlaqə onunla şərtlənir ki, psixoterapiya xəstəliklə mübarizə aparmaqdan ötrü xəstənin fiziki və mənəvi qüvvələrini səfərbərliyə almağı bacarmaq üçün tibb işçisinin davranış prinsiplərini formalaşdırır. Çünki xəstəlik prosesi insanı xeyli dəyişə bilər. İnsan fikirli ola bilər, xəstəliyi barədə çox və ciddi düşünər, özünün cəmiyyətdəki rolunu və imkanlarını götür-qoy edər ki, bu da onun ruhdan düşməsinə gətirib çıxarar. Həkim bütün bunları nəzərə alaraq, xəstəyə çox diqqət və qayğı ilə yanaşmalı, əlindən gələn köməyi göstərməklə onu həm fiziki, həm də mənəvi baxımdan həyata qaytarmağa çalışmalıdır. Psixoterapiyanın bu elementləri, demək olar ki, bütün xəstəliklərin müalicə metodlarında mövcuddur.

Həkimlik etikasına həkimlik sirri də aiddir. Bu, iki cür olur: *1) xəstə haqqında xəstənin özündən alınan və ya müalicə prosesində üzə çıxan və gizli qalmalı olan məlumat; 2) xəstə haqqında o gizli məlumat ki, onu xəstənin özünə qətiyyən demək olmaz.* Məsələn, çarəsi olmayan xəstəlik haqqında diaqnoz və s. Bu problem, yəni tibbi sirrin qorunması hələ qədim dövrdən mövcud idi. Feodalizm dövründən başlayaraq isə tibbi sirrin saxlanması zərurəti bəzi ölkələrin hətta qanunvericilik aktlarında öz əksini tapdı. Həkimlik etikasının peşə kodeksi insanpərvərlik naminə "müqəddəs yalan" danışmağa, diaqnozu "yüngülləşdirməyə" də yol verir.

Tibbi etikaya bir sıra başqa problemlər – evtanaziya, klonlaşdırma, orqanların transplantasiyası, koma vəziyyətində uzun müddət həyatın süni surətdə saxlanması və s. də aiddir. Dünənədək fantastik sayılan bu əməliyyatların mümkünlüyü bu gün bir çox ənənəvi norma və təsəvvürlərə yenidən baxmağı, insanın həyatı və ölümü ilə əlaqədar məsuliyyətli qərarlar qəbul etməyi tələb edir ki, bunlar da bir sıra əxlaqi problemlər yaradır. Bu problemlərlə nisbətən yeni sahə olan bioetika məşğul olur. Bioetika XX əsrin 70-ci illərində ABŞ-da daha intensiv inkişaf taparaq tətbiqi etikanın əsas hissələrindən birinə çevrilmişdir. Bioetika terminini ilk dəfə 1971-ci ildə amerikalı V.R.Rotter işlətmişdir.

Bioetikanın əsas anlayışlarından olan evtanaziya "gözəl (yüngül, xoş) ölüm" deməkdir. Bu termin canverən insanın ölümünü asanlaşdırmağı, ölməyinə kömək etməyi bildirir. Qədim yunanlar bu terminlə orqanizminin zəiflədiyini və ölümünün yaxınlaşdığını başa düşən insanın vəziyyətini təsvir edirdilər. Həmin söz bugünkü mənada VII əsr ingilis filosofu F.Bekonun dövründən işlənməyə başlayıb. Hələ orta əsrlərdə Avropa dinşünas alimləri müqəddəs Avqustin və Akvianlı Foma bunun əleyhinə çıxaraq söyləyirdilər ki, insanın ölümünə yalnız Allah qərar verə bilər. Bu problem XX əsrin 30-cu illərində ABŞ-da və Böyük Britaniyada qalxmışdı. 1938-ci ildə yaradılan Amerika evtanaziya cəmiyyəti

evtanaziya aktını insanın həyatına onun dəhşətli fiziki ağrılarının kəsilməsi məqsədilə son qoyulması kimi müəyyən edirdi. Nasist Almaniyasında da "Reyx"ə xeyir gətirməyənlərdən – xəstələrdən və qocalardan yaxa qurtarmaq mövqeyi tətbiq edilirdi. Uzun illər gizli saxlanılan və yalnız müəyyən dairələrdə məlum olan evtanaziyanı məhz bioetika üzə çıxardı. 80-ci illərin sonunda evtanaziya müəyyən məhdudiyyətlərlə bəzi ölkələrdə, məsələn, ABŞ-da, Fransada, Hollandiyada, Belçikada və Niderlandda bu və ya digər şəkildə (həkimin məsləhəti və xəstənin xahişi ilə) leqallaşdı. Lakin bu ölkələrin həkimləri, hüquqşünasları, ilahiyyatçıları və filosofları hələ də tez-tez bu leqallaşmanın əleyhinə çıxırlar. Amerika Tibb Assosiasiyası insanın həyatına qəsdən son qoymağın əleyhinə olsa da, bəzi hallarda çarəsiz xəstələrin müalicəsini dayandırmağa icazə verir və bunu dolayı yolla hətta Hippokrat andı ilə də əlaqələndirir.

Pedaqoji etika da humanist aspektlərlə zəngindir. Bu etikada müəyyən normativlər və ənənələr çoxdan və əsasən kortəbii şəkildə əmələ gəlmişdir. Hələ antik dövrdə müəllimdən savadlı olmaq, uşaqları sevmək, təmkinli olmağı bacarmaq, nə tərifi, nə də cəzanı asanlıqla "paylamamaq", şagirdlərə qarşı diqqətli olmaq, onlara dərsi yaxşı öyrətmək, öz əxlaqına nəzarət etmək tələb olunurdu. O dövrdə müəllimin mövqeyi ata qədər, bəzən isə atadan da üstün olurdu. Müəllim daim öz mədəni səviyyəsinin yüksəlməsi qeydinə qalmalı, cəmiyyətdəki müstəsna rolunu dərk etməli idi. Çünki pedaqoji etika yalnız müəllim-şagird münasibətlərini deyil, həm də müəllim-müəllim, müəllim-cəmiyyət, müəllim-dövlət, müəllim-valideyn münasibətlərini öyrənir. Buna görə də müəllimin nəzakətli, öz yerini bilən, gözəl nitq mədəniyyətinə malik olan, öz fikrini aydın ifadə etməyi bacaran olması vacibdir. M.İ.Kalinin yazırdı ki, "müəllim nəinki öz fənnini yaxşı bilməlidir, həm də onu elə başa salmağı bacarmalıdır ki, şagirdlər o dərsi mənimsəyə bilsinlər". Bununla yanaşı, müəllim səlis nitq qabiliyyətinə, gözəl danışıq tonuna, zəngin dünyagörüş və leksikona malik olmalı, dərsi başa salarkən əsas, vacib məsələləri vurğulamağı bacarmalıdır. Müəllim üçün vacib olan məsələlərdən biri də uşaqların inamını qazanmaqdır. Pedaqoji prosesdə əsas məqsəd yalnız uşaqların inamını qazanmaq yox, həm də uşağın özünə etibar etməyi bacarmaqdır. Məşhur pedaqoq A.S.Makarenko öz pedaqoji fəaliyyətini həmişə tərbiyəsi ilə məşğul olduğu uşaqların inam və etibarı əsasında qururdu. Belə olduqda uşaq öz şəxsi ləyaqətini dərk edə bilir, onda öz gücünə əminlik hissi yaranır, ona göstərilən etimadı doğruldacağına inanır, özünün yaxşı cəhətlərini nümayiş etdirməyi və özünə tənqidi yanaşmağı öyrənir.

Digər anlayışlar kimi, peşə etikasının da spesifik anlayışları var. Məsələn, peşə borcu, peşə şərəfi, peşə ləyaqəti, peşə ədaləti, peşə nəzakəti və s.

Peşə əxlaqının özünəməxsus prinsipləri də mövcuddur. Bunlardan humanizm prinsipi, peşə optimizmi prinsipi, vətənpərvərlik prinsipi və s. daha

mühüm əhəmiyyət kəsb edir. Humanizm prinsipi peşə etikasının bütün sahələrinə aid olub, hər bir insanın şəxsiyyətinə hörmətlə yanaşmağı tələb edir. Bu prinsip insana utilitar, yəni hər hansı, hətta kifayət qədər mühüm məqsədlərlə əlaqədar yanaşma ilə daban-dabana ziddir. Humanizm prinsipinin dərk edilməsi rəhbər işçilər, hüquq-mühafizə orqanları əməkdaşları və fəaliyyətini uşaqlara məhəbbət üzərində quran müəllimlər üçün daha vacibdir. Bu prinsip optimizm prinsipi ilə uzlaşır. Məsələn, müəllim, himayəsində olan balaca vətəndaşları öz qüvvələrinə və gələcəyə inamı olmadan tərbiyə edə bilməz. Müxtəlif islahedici müəssisə işçiləri üçün də optimizm olmadan fəaliyyət göstərmək çətindir. Rəhbər işçinin də əgər insanlara inamı olmazsa, planlarının reallaşması qəlizləşər. Belə inam digər peşə sahiblərinə – həkimlərə, müəllimlərə və başqalarına, həmçinin onların tabeçiliyindəkilərə hava və su kimi lazımdır.

Peşələrin əksəriyyəti, xüsusən insanla bilavasitə əlaqədar olanlar yüksək ideyalardan qidalanmalıdır. Buna görə də peşə etikası vətənpərvərlik ideyalarını da özündə əks etdirməlidir. Peşə əxlaqının əsas prinsiplərindən olan vətənpərvərlik prinsipi nəinki öz ölkəsinə, hətta digər ölkələrə və xalqlara da diqqət və hörmətlə yanaşmağı tələb edir.

Beləliklə, peşə əxlaqının əsas anlayış və prinsipləri onun özəyini təşkil edir ki, bu da müxtəlif həyat şəraitlərində yeni məzmunla zənginləşir.

## 3. Peşə etikası peşə mədəniyyətinin tərkib hissəsi kimi

Hər hansı bir təhsil ocağında təhsil səviyyəsinin göstəricisi kimi peşə mədəniyyətinin tərkib hissəsi olan peşə etikası çıxış edir.

Etik normalar peşə fəaliyyətinin özünəməxsus xüsusiyyətləri ilə təyin olunur. Bu normalar insan həyatının bu və ya digər şərtlərinə, onun cəmiyyətlə, kollektivlə, yaxud ayrı-ayrı insanlarla olan münasibətinə yönlənir. Mənəvi normalar bir çox hallarda insanların dəyər istiqamətləri ilə təyin edilir.

Dəyər istiqamətləri (oriyentasiyaları) şəxsiyyət quruluşunun elementləri olaraq, onun fəaliyyət yönlərini xarakterizə edir. İnsanın istiqamətlənmiş fəaliyyəti nəticəsində şəxsiyyətin yeni psixoloji cəhətləri əmələ gəlir.

Həyat və mədəniyyətin əsas dəyərləri insanın şəxsi dəyərlərinə çevrilir. Şəxsi dəyərlər isə, öz növbəsində, mənəvi etalonlara (etik normalara, etik mədəniyyətə) transformasiya olunur və insanın vicdanını yönləndirir.

Bir çox mütəxəssislərin fikrinə görə, gələcək işçilərin (kompüter üzrə operatorların, modelyerlərin, dərzilərin və digər ixtisaslar üzrə liseylərdə təhsil alan şagirdlərin) peşə etikasını təhsil alarkən formalaşdırmaq daha məqsədəuyğundur. Tələb olunan etik normaların siyahısı da çox genişdir: müdriklik, vic-

dan, nəzakət, çalışqanlıq, dəqiqlik, mütəşəkkillik, intizam, ədəb, diqqətcillik, ünsiyyətçillik və s. Lakin hər bir gələcək işçidən vicdan, məsulliyət və peşəkarlıq kimi ən vacib xüsusiyyətlər tələb olunur.

## 4. Peşə-etik metodların formalaşması

Peşə-etik metodları şərti olaraq aşağıdakı qruplara bölmək olar:

*1) Əsas rol təhsilə verilir* ("təlim", "müəyyən seminar məşğələlərin aparılması", "xüsusi kurslar", "diskussiyalar");

*2) Ailə institutunun rolu* ("ailə tərbiyəsi", "uşaqlıqdan düzgün aparılan tərbiyə");

*3) Etika prinsiplərini, həmçinin peşə kollektivləri formalaşdıra bilər* ("praktik təlim", "nümunə əsasında tərbiyə", "müəllim və şagird arasında humanist və demokratik münasibət");

*4) Mənəvi özünütərbiyənin rolu* ("öz biliyini artırma", "inadkarlıq").

Peşə etikası – peşə mədəniyyətinin tərkib hissəsi kimi çıxış edir. Onun formalaşmasına nitq və təfəkkür mədəniyyəti çox böyük təsir göstərir.

## 5. Peşə etikası və peşə mədəniyyətinin formalaşmasının etapları

Peşə etikası və peşə mədəniyyətinin formalaşması bir neçə etapdan ibarətdir:

*I etapda* – öz peşəsinə olan marağın artması nəzərə çarpır. Bu, laboratoriyalarda təşkil olunmuş tanışlıq və oyun şəklində keçirilən məşğələlər zamanı əldə olunur.

*II etapda* – şəxsiyyətin hər hansı fəaliyyət növünə olan intellektual-yaradıcı fəallığı formalaşır. Bu, didaktik oyunların, təlim-yaradıcı məsələlərin həlli prosesində əldə olunur.

*III etapda* – şagirdlərin ünsiyyət mədəniyyəti, peşəkarlıq fəallığı artır. Bu daha çox istehsalat təcrübəsi keçirilərkən özünü büruzə verir. Təcrübə proqramlarında həmçinin təşkilatlar tərəfindən qəbul olunmuş müəyyən davranış qaydaları da öz yerini tutur.

# IV HİSSƏ

## PSİXOLOGİYA ELMİNİN MÖVZUSU VƏ VƏZİFƏLƏRİ

### 1. Psixologiya elminin predmeti

Psixologiya termini yunan sözü olub, *psyuxe* – ruh, ruhi aləm, *loqos* – bilik, öyrənmək, elm sözlərindən əmələ gəlmişdir, mənası “psixika haqqında elm” deməkdir. Psixologiya termini elmin predmetini dəqiq ifadə edir: psixologiya – psixika haqqında elmdir.

Psixologiyanın predmetini başa düşmək üçün biz əvvəlcə əsas anlayışla – psixika anlayışı ilə tanış olmalıyıq. Psixika anlayışına nələr daxildir? Psixika nədir? Lakin bu tanışlıqdan öncə gəlin psixologiya elminin yaranma tarixinə nəzər salaq.



“Düşünən adam”.
Heygəltaraş Roden.

### 2. Psixologiya elminin tarixindən

Psixologiya elmi qədim tarixə malikdir. Psixoloji anlayışlar sistem şəklində ilk dəfə Aristotelin (eramızdan əvvəl IV əsr) “Ruh haqqında” adlı məşhur traktatında şərh olunmuşdur. Traktatın adına diqqət etsək, görərik ki, o, psixologiya deyil, “ruh haqqında” adlanır. Bu, təsadüfi deyildir. Uzun müddət (XIX əsrin sonlarına qədər) psixologiya elmi fəlsəfəyə (və ilahiyyata) aid fənn hesab olunmuşdur. Avropa ədəbiyyatında bəzən onu mental (“mental” – latın sözü olub, psixi olan deməkdir) fəlsəfə, ruhiyyət adlandırmışlar. XVIII əsrin sonuna qədər psixologiya sözü nə ingilis, nə də fransız ədəbiyyatında işlənməmişdir.

Alman ədəbiyyatında isə psixologiya sözü ensiklopedist alim Xristian Volfun (1679-1754) 1734-cü ildə “Empirik psixologiya” və “Rasional psixologiya” adlı kitabları nəşr olunandan sonra məlum olmuşdur.

XVIII əsrin sonu XIX əsrin əvvəllərindən başlayaraq, psixologiya termini Amerika, Avropa və rus ədəbiyyatında vətəndaşlıq hüququ qazanmış və böyük əhəmiyyət kəsb etmişdir.

Azərbaycanda psixologiya termini XIX-XX əsrin əvvəllərində rus psixoloqlarının əsərləri vasitəsilə işlənməyə başlanmışdır. Azərbaycan psixologiya elmində öz sözlərini demiş alimlər sırasında F.İbrahimbəyovun, Ə.Əlizadənin, M.Həmzəyevin, Ə.Bayramovun, R.İbrahimbəyovanın adlarını çəkmək olar.

### 3. Psixi hadisələr

Psixi hadisələri şərti olaraq üç böyük qrupa bölürlər:

1. *Psixi proseslər;*
2. *Psixi hallar* (və ya psixi halətlər, vəziyyətlər);
3. *Psixi xassələr* (və ya xüsusiyyətlər).

**Psixi proseslər** psixologiya elminin əsas kateqoriyalarından biridir. İdrak proseslərinə (duyğu, qavrayış, diqqət, hafizə, təfəkkür, nitq və təxəyyül), iradi proseslərə və emosional proseslərə birlikdə psixi proseslər deyilir. Başqa sözlə, psixi proseslər özləri də üç yarım qrupa bölünür: idrak prosesləri, hissi proseslər və iradi proseslər.

Psixi hadisələrin ikinci qrupunu təşkil edən **psixi hallar** və ya vəziyyətlər də müxtəlifdir. Şən əhval, affektlər, ehtiraslar, dalğınlıq, inamsızlıq, şübhə və s. psixi hallara misal ola bilər.

**Psixi xassələr** də psixologiya elminin kateqoriyaları içərisində mühüm yer tutur. Temperament, xarakter və qabiliyyətlər əsas psixi xassələrdir. İnsanın onun üçün səciyyəvi olan əqli keyfiyyətlərini (ağlın tənqidliliyi və ya müstəqilliyini), emosional xassələrini (tez özündən çıxma, emosionallıq) və s. də psixi xassələrə aid edilir.

Psixi proses termini psixi faktın dinamikasını nəzərə çarpdırır. Məsələn: Anar ayağını yüngülcə əzmişdi. Ağrı duyğusu əmələ gəlmişdi və ayağının ağrısı davam edirdi. Amma bir müddət keçdikdən (1 saat, 1 gün, ya 1-2 gündən) sonra bu kəsildi.

Psixi halət termini psixi faktın nisbi davamlılığını bildirir. Məsələn: 13-14 yaşlı məktəbli şagird oğlan küçədə şit hərəkətlər edirdi. Birdən əmisinin o biri səkidən keçdiyini görüb, tez özünü yığışdırdı. Ancaq əmisinin onu gördüyünü hiss etmişdi. Oğlanın qanı qaralmışdı və bu hal onda bir neçə gün davam etmişdi.

Psixi xassə və ya psixi xüsusiyyət termini isə psixi faktın sabitliyini, onun şəxsiyyətin strukturunda möhkəmləndiyini və təkrar olunmasını ifadə edir. Məsələn: iki şagirdə məktəbin həyətyanı sahəsində işləmək tapşırılmışdı. Şagirdlərdən biri tənbəl, digəri əməksevər idi. Biri oturduğu yerdən ayağa qalxmaq istəmir, o biri isə işdən doymurdu. Yaxud biri sakit, digəri isə coşqun idi, biri ünsiyyətcil, digəri isə qaradinməz idi.

Psixologiya heyvanların və insanların psixikasını öyrənir. Müasir psixologiyada insanı fərd (bioloji varlıq) və şəxsiyyət (sosial varlıq) kimi nəzərdən keçirirlər. İnsanın bir fərd və şəxsiyyət kimi xüsusiyyətləri onun psixi proseslərində, psixi hallarında və s. xassələrində bütün təfərrüatı ilə əks olunur. Məsələn, kinli adamın ayağını təsadüfən tapdalayarkən əvəzini çıxmaq üçün az qala bunu ömrü boyu yadında saxlayır; xeyirxah adamın ayağı tapdalananda isə o, buna əhəmiyyət vermir, bu hadisəni elə oradaca yadından çıxarır. Kinli olmaq və xeyirxahlıq – bunlar insanın şəxsiyyəti ilə bağlı xüsusiyyətlərdir. Təsadüfi deyildir ki, müasir psixologiyada bu problemlərin öyrənilməsinə xüsusi əhəmiyyət verirlər. Hal-hazırda şəxsiyyət psixologiya elminin ən aktual problemlərindən birinə çevrilmişdir.

## 4. Şüur psixikanın yüksək forması kimi

Psixikanın ən yüksək səviyyəsini şüur təşkil edir. Şüur da psixika kimi beynin funksiyasıdır. Lakin şüur obyektiv aləmin insana məxsus inikasıdır, başqa sözlə, şüur ancaq insana məxsusdur, heyvanlarda şüur yoxdur.

İctimai şüur nədir? İctimai şüur dedikdə bütövlükdə müəyyən cəmiyyət üçün və ya müəyyən sosial qrup üçün səciyyəvi olan baxışlar, ideyalar nəzərdə tutulur. Cəmiyyətdə ictimai şüur müxtəlif formalarda: ictimai-siyasi və hüquqi nəzəriyyələr və baxışlar, fəlsəfə, əxlaq, din, incəsənət şəklində meydana çıxır, ictimai varlığı əks etdirib, ona fəal təsir göstərən bu formalardan hər birinin öz inikas obyekti və üsulu vardır, hər biri insanların ictimai varlığına özünəməxsus şəkildə təsir göstərir. Cəmiyyəti təşkil edən insanlar olmadan cəmiyyət mümkün deyildir və deməli, fərdlərin şüuru olmadan ictimai şüur da mümkün deyildir.

Fərdi şüurun özünəməxsus xüsusiyyətləri vardır. Onun "tərcümeyi-halı" ictimai şüurun "tərcümeyi-halı"ndan fərqlənir. Fərdi şüur adamın doğulması ilə doğulur, ölümü ilə ölüb-gedir. Şüur fərdin həyat yolunun təkraredilməz əməllərini, tərbiyəsinin xüsusiyyətlərini, ona olan müxtəlif siyasi və ideoloji təsirləri ifadə edir. Fərdi şüur – makro və mikromühitin (sosial qrupun həyat şəraiti), həmçinin ailənin, dostların, tanışların və nəhayət, şəxsi həyat şəraitinin təsirinin nəticəsi kimi meydana çıxır. Fərdi şüur insanın inkişaf səviyyəsi, şəxsi xarakteri və s. kimi amillərin də təsiri altında olur.

İctimai şüurla, fərdi şüur daim bir-birinə qarşılıqlı təsir göstərir, qarşılıqlı surətdə bir-birini zənginləşdirir. Hər bir insan bütün həyatı boyu başqa insanlarla münasibətləri vasitəsilə, təlim, tərbiyə yolu ilə ictimai şüur normalarını mənimsəyir. Bu, dialektik prosesdir.

## 5. İctimai münasibətlər və şəxsiyyət

Şəxsiyyət psixologiya elmində əsas kateqoriyalardan biri hesab olunur. Lakin bununla belə, qeyd etmək lazımdır ki, həmin kateqoriya heç də xalis psixoloji kateqoriya deyildir. Şəxsiyyət bir çox elmlər tərəfindən ayrı-ayrı istiqamətlərdə öyrənilir. Psixologiya elmini şəxsiyyətin psixoloji siması, onun daxili aləminin, psixi həyatının formalaşması prosesinin qanunauyğunluqları maraqlandırır. Bu zaman psixologiya elmi yuxarıda nəzərdən keçirdiyimiz belə bir fundamental faktı əsas götürür ki, psixi hadisələr fəaliyyət və ünsiyyət prosesində formalaşır, inkişaf və təzahür edir. Lakin öz-özlüyündə onlar fəaliyyət və ünsiyyətə deyil, şəxsiyyətə məxsusdur.

Bir halda ki, biz şəxsiyyət anlayışı ilə insanı ictimai varlıq, cəmiyyətin üzvü kimi səciyyələndiririk, o zaman zəruri surətdə məsələyə "Cəmiyyət və şəxsiyyət" problemi aspektində yanaşmalı, insanın cəmiyyətdə həyatını öyrənməliyik.

Sosial qrupların, siniflərin və millətlərin iqtisadi, ictimai-siyasi, mədəni həyatı və fəaliyyəti prosesində onların arasında və öz daxilində əmələ gələn münasibətlərə ictimai münasibətlər deyilir. Ayrı-ayrı adamlar ictimai münasibətlərə bu və ya digər sosial ümumilik və qrupun üzvü kimi daxil olur. Fərdlərin münasibətləri yalnız ilk baxışda daha çox şəxsi münasibətlər kimi görünür. Əslində isə onlar bir-biri ilə ünsiyyətə bu və ya digər sosial müəyyənliyə mənsub olan fərdlər kimi daxil olurlar.

İctimai münasibətləri maddi və ideoloji münasibətlər olmaq üzrə iki böyük qrupa bölürlər:

Maddi nemətlər istehsalı cəmiyyətin əsasını təşkil edir. Buna görə ictimai münasibətlər içərisində maddi münasibətlər – iqtisadi istehsal münasibətləri xüsusi yer tutur. Onlar aparıcı, müəyyənedici münasibətlərdir. Maddi ictimai münasibətlərin xarakteri cəmiyyətin məhsuldar qüvvələri ilə müəyyən olunur, onlar adamların şüuru və iradəsindən asılı deyildir.

İdeoloji münasibətlərə siyasi, hüquqi, əxlaqi və başqa münasibətlər daxildir. Onlar maddi ictimai münasibətlərin əsasında meydana çıxır. İdeoloji münasibətlərin xarakteri istehsal münasibətləri ilə müəyyən olunur.

Şəxsiyyət üçün cəmiyyət, sadəcə olaraq, xarici mühit deyildir. O, cəmiyyətin üzvü kimi, cəmiyyətdə bərqərar olmuş ictimai münasibətlər sisteminə daxil olur və bu əsasda onun bir şəxsiyyət kimi özünəməxsus xassələri formalaşır.

## 6. Psixologiya elminin təşəkkülü tarixindən

Azərbaycanda ilk psixoloji təsəvvürlərin təşəkkülü xalqın qədim adət-ənənə, mərasim və ayinləri, əyləncə və oyunları ilə bağlı olmuşdur. Ailə və məişət (toy, yas və s.) mərasimlərində kütləvi psixoloji hadisələrin maraqlı xarakteristikalarına təsadüf edilir.

Azərbaycan şifahi xalq ədəbiyyatı da bu baxımdan diqqəti cəlb edir. Keçəl, küpəgirən qarı, kosa obrazları uzun müddət, həm də xalqın müəyyən etalon və stereotiplərini ifadə etmişdir. Azərbaycan lətifələrində xalqın müxtəlif sosial hadisələr haqqındakı ictimai rəyi özünün parlaq ifadəsini tapmışdır. Molla Nəsrəddin, Bəhlul Danəndə el-oba içərisində, "insan sərrafı" kimi məşhurlaşmışdılar. Onlar, necə deyərlər, əsl praktik psixoloq idilər. Ayrı-ayrı adamlara müəyyən ləqəblərin verilməsi də psixoloji baxımdan son dərəcə maraqlı hadisələrdir. Azərbaycan nağılları və dastanlarında müxtəlif psixoloji hadisələr geniş təsvir olunmuşdur. Vəzir, vəkil və başqa obrazlar, əgər müasir terminlərlə desək, xalqın referent qruplar haqqında təsəvvürlərini ətraflı xarakterizə etmək imkanı verir.

Hələ e.ə. II-I minilliklərdə "Avesta"da ruh və psixi hadisələr haqqında müxtəlif məzmunlu təsəvvür və ideyalar öz əksini tapmışdır. Azərbaycan şifahi xalq ədəbiyyatının ən qədim yazılı abidəsi "Kitabi-Dədə Qorqud"da insanın müxtəlif emosional halətləri təsvir edilmiş, davranış normalarında özünü büruzə verən xəyanət, həsəd, fərarilik kimi mənfi sifətlər tənqid edilmişdir.

"Kitabi-Dədə Qorqud" dastanı insanların qarşılıqlı münasibətlərinin psixoloji təhlili baxımından diqqəti xüsusilə cəlb edir. Dədə Qorqud qonağa hörmət etməyən tənbəl qadınları pisləyir, yaxşı qadınları tərifləyirdi. Qazan xan oğlunun öz yoldaşlarını döyüş meydanında qoyub qaçdığını güman etdikdə, ona ağır cəza verməyi qərara alır və s.

"Kitabi-Dədə Qorqud" nəinki tayfadaxili və tayfalararası münasibətlərin psixoloji təhlili, həm də müxtəlif sosial-psixoloji fenomenlərin, xüsusilə stress şəraitində qrup üzvləri arasında münasibətlərin təsviri baxımından da əhəmiyyətlidir.

XI əsrdən başlayaraq Azərbaycanda psixoloji ideyalar fəlsəfi traktat və bədii ədəbiyyat nümunələrində daha geniş surətdə öz əksini tapır.

Azərbaycanda psixoloji ideyaların inkişafında Nizami Gəncəvi, Bəhmənyar, Xaqani Şirvani, Nəsirəddin Tusi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Üzeyir Hacıbəyli, Hüseyn Cavid, Cəfər Cabbarlı kimi görkəmli ictimai-elmi fikir nümayəndələrinin, mütəfəkkir şair və yazıçıların böyük xidməti olmuşdur.

Bəhmənyarın zəngin fəlsəfi irsində maraqlı psixoloji ideyalara rast gəlinir. O, fikri "insan zehninin hərəkəti" adlandırmış, idrakda hissin və rasional anla-

rın əlaqəsini, təfəkkür formalarının (məfhum, hökm və istidlalın) psixoloji mahiyyətini geniş şərh etmiş, insan fikrinin nəticədən səbəbə doğru hərəkətinə diqqət yetirmişdir.

Xaqani ünsiyyət prosesində mühüm rol oynayan doğruçuluq, təvazökarlıq, işgüzarlıq, mərdlik kimi psixoloji keyfiyyətlərə böyük əhəmiyyət verirdi.

Dövrün elmi biliklərini bədii yaradıcılığında sintez edən dahi Nizaminin bədii əsərlərində çox zəngin, orijinal psixoloji ideyalar öz əksini tapmışdır. Nizami ruhla bədənin vəhdətini qeyd etmiş, insanın daxili aləminə dərindən nüfuz edərək əsərlərində dəqiq psixoloji təsvirlər vermiş, mühitin təsiri ilə şəxsiyyətdə baş verən psixoloji dəyişiklikləri, onun yeniləşməsi, ehtirasın dərin məhəbbət hissini özgələşdirməsi və s. kimi psixoloji problemlərə toxunmuşdur.

XII-XVI əsrlərdə, xüsusən Nəsirəddin Tusi, Nəsimi, Füzuli yaradıcılığında psixoloji ideyalar daha qabarıq surətdə özünü göstərmiş, "Əxlaqi Nasiri", "Alicənab insanların xarakteri və keyfiyyətləri" (N.Tusi), "Mətləül-etiqad", "Həqiqətüs-süəda" (Füzuli) kimi xüsusi fəlsəfi-psixoloji traktatlar yazılmışdır.

İmadəddin Nəsimi şəxsiyyətin mənəvi azadlığının carçısı kimi insanı, onun yaradıcı dühasını tərənnüm etmişdir. O, yaradıcılığının ilk dövrlərində sufizm mövqeyində dayanmış, sonralar isə ömrünün axırına kimi hürufizmin əsas ideoloqlarından biri olaraq qalmışdır. Nəsiminin nöqteyi-nəzərincə, insan mürəkkəb struktura malik, həm genetik, həm də sosial cəhətdən şərtlənmiş dərin fərdiyyəti olan şüurlu varlıqdır. Onun fikrincə, bu amillər insanın davranışını şərtləndirir, lakin şəxsiyyətin formalaşmasında üstün mövqeyi həyatda qazanılan keyfiyyətlər təşkil edir. Həm də belə insani keyfiyyətlərin təşəkkülü daha çox tərbiyə və özünütərbiyədən asılı olur. O, insan münasibətlərinin təhlilinə də bu cəhətdən yanaşırdı. Nəsimi qəzəb, həsəd, təkəbbür, hərislik və s. kimi insanı alçaldan hislərdən uzaq olmağı xüsusi olaraq qeyd edirdi.

Azərbaycanda psixoloji fikrin inkişafında XIX əsrin yazıçı və mütəfəkkirləri daha mühüm rol oynamışdır. Psixi hadisələr haqqında mülahizələr materialist nəzəriyyəyə, xüsusən təbiətşünaslığın inkişafına istinad etmişdir.

A.Bakıxanovun "Nəsihətnamə" və "Təhzibül-əxlaq" əsərlərində müxtəlif etik problemlər müəyyən psixoloji kontekstdə təhlil olunmuşdur. Onun "mənəviyyat fəlsəfəsi" adlandırdığı etika və tərbiyə nəzəriyyəsində maraqlı psixoloji hadisələrə toxunulmuş, təlim və tərbiyənin köməyi ilə insanın əxlaq və mənəviyyatını məqsədəuyğun surətdə dəyişdirməyin mümkünlüyü ideyası əsaslandırılmışdır. Həmin ideya M.F.Axundovun əsərlərində daha bariz şəkildə özünü büruzə vermişdir.

S.Ə.Şirvani, M.Ə.Sabir, C.Məmmədquluzadə, H.Zərdabi, Ə.Haqverdiyev, Ü.Hacıbəyli kimi görkəmli mütəfəkkirlərin əsərlərində də psixologiyanın müxtəlif problemlərinə aid maraqlı mülahizələr vardır. Bu daha çox həmin sənətkarların maarifçilik ideyası, insan psixologiyasını dəyişdirmək, onu yeniləşdir-

mək, dövrün tələbləri səviyyəsinə qaldırmaq meyli ilə bağlı olmuşdur. Xüsusilə də M.Ə.Sabirin əsərlərində ayrı-ayrı qrupların, milli xüsusiyyətlərin sosial-psixoloji baxımdan xarakteristikası diqqəti cəlb edir.

XIX əsrin sonu XX əsrin əvvəllərində mütərəqqi rus pedaqoq və psixoloqlarının əsərləri vasitəsi ilə psixoloji biliklər Azərbaycan pedaqoqlarının əsərlərində pedaqoji psixologiya məsələlərinə daha geniş yer verilsə də, onlar psixoloji səpkidə də maraqlı idi. Bu halda aydın təsəvvür əldə etmək üçün təkcə görkəmli Azərbaycan pedaqoqu Məhəmməd Tağı Sidqinin "Nümuneyi-əxlaq" əsərini xatırlamaq kifayətdir.



XIX əsrin ortalarında psixologiya elmi bir sıra nailiyyətlər əldə etdi. Onlardan ən başlıcası isə bundan ibarət idi ki, həmin dövrdən eksperimental üsullar tədricən psixologiya elminə nüfuz edirdi.

Azərbaycanda ilk psixologiya laboratoriyası 1926-cı ildə F.Ə.İbrahimbəyli tərəfindən yaradılmışdır.

### 7. Şəxsiyyət, fərd və fərdiyyət anlayışları

Orqanizm geniş anlayışdır. Hər bir canlı varlıq – bitki də, heyvan da, insan da orqanizmdir. Psixologiya insanı orqanizm kimi deyil, fərd və şəxsiyyət kimi öyrənir.

Hər bir insan, bir tərəfdən, bioloji varlıqdır, digər tərəfdən, sosial varlıqdır. Onun bioloji varlıq kimi psixoloji xüsusiyyətlərini fərd termini, sosial varlıq kimi psixoloji xüsusiyyətlərini şəxsiyyət termini ilə ifadə edirlər. İnsanın həyat fəaliyyətində bu iki cəhət bir-biri ilə elə uzlaşır ki, biz çox vaxt nəinki onları aydın şəkildə fərqləndirmir, hətta bu haqda fikirləşmirikdə. Halbuki insanın fərd və şəxsiyyət kimi xarakteristikaları vəhdət təşkil etsə də, onları eyniləşdirmək olmaz.

*Fərd* – özünəməxsus psixoloji xüsusiyyətləri olan, heç kəsə oxşamayan təbii varlıq deməkdir. Fərd anlayışının mənası da elə bundan ibarətdir. Bu baxımdan hər bir adam – həm təzə doğulmuş uşaq, həm də hər hansı bir yaşlı adam fərddir.

Bir cəhəti dəqiqləşdirək: insan fərd kimi doğulur, cəmiyyətdə müəyyən sosial keyfiyyətlər kəsb edir və şəxsiyyətə çevrilir.

Şəxsiyyətin inkişafında sosial amillər isə müəyyənedici rol oynayır. Sosial amillər müxtəlifdir və onlar qarşılıqlı əlaqədə şəxsiyyətin inkişafını şərtləndi-

rirlər. Sosial amillər içərisində insanın yaşadığı və fəaliyyət göstərdiyi konkret-tarixi şərait, yəni məhsuldar qüvvələrin və müvafiq istehsal münasibətlərinin inkişaf səviyyəsi birinci yerdə dayanır. Konkret-tarixi şərait öz əksini şəxsiyyətin maddi, siyasi və sosial həyat şəraitində, o cümlədən əmək şəraitində tapır.

Uşaq doğulduğu gündən valideynlərin statusu və ya vəziyyətindən, iqtisadi, siyasi və hüquqi mövqeyindən, peşəsindən, təhsilindən və sairdən asılı olaraq müəyyən ictimai mühitdə formalaşır. Ailənin maddi və mədəni həyat səviyyəsindən əmələ gələn kəskin dəyişikliklər şəxsiyyətin formalaşması şəraitinə bilavasitə təsir göstərir. Ailənin statusu bu və ya digər dərəcədə davamlı olduqda isə şəxsiyyətin ayrı-ayrı keyfiyyətlərinin möhkəmlənməsi üçün əlverişli şərait yaranır.

Psixoloji baxımdan başlıca məsələ ondan ibarətdir ki, həyat şəraiti öz-özünə, yəni bilavasitə, birbaşa uşağın psixi inkişafını, o cümlədən onun bir şəxsiyyət kimi formalaşması prosesini müəyyən edə bilməz. Eyni bir şəraitdə uşaqlarda müxtəlif psixoloji xüsusiyyətlərin formalaşması da məhz bununla izah edilməlidir.

A.S.Makarenko şəxsiyyətin formalaşması prosesini təhlil edərkən uşağın mühitlə münasibətləri sisteminə xüsusi diqqət yetirirdi. O, düzgün olaraq göstərirdi ki, uşağın ətrafdakı aləmlə münasibətləri təkcə mühitin özünün təsirləri ilə deyil, həm də uşağın özünün fiziki və mənəvi inkişafı ilə əlaqədar olaraq mürəkkəbləşir, yeni məna çalarları kəsb edir.

Mühitin təsirləri uşağın özünün inkişaf səviyyəsindən, psixoloji xüsusiyyətlərindən asılı olaraq dəyişilir.

## 8. Emosiyalar və hislər

Hiss və emosiya insanın dərk etdiyi cisim və hadisələrə, başqa adamlara, həmçinin özünün rəftar və davranışına, fikir və arzusuna bəslədiyi münasibəti ifadə edən psixi prosesdir.

Hissin obyekti ətrafdakı cisim və hadisələr, başqa adamlar, onun subyekti isə şəxsiyyətin özüdür. Çünki hər bir şəxs ətrafdakı cisimlərə, adamlara başqa-başqa münasibət bəsləyir. Vətənə məhəbbət, öz xalqını sevmək insanın müqəddəs hissidir. Həmin hiss, lazım gəldikdə, onu öz həyatını Vətən yolunda qurban verməyə təhrik edir. Lakin bu hiss adamların hamısında eyni səviyyədə təzahür etmir. Bu, insanın dünyagörüşündən, əqidəsindən, sərvət meylindən, həyat idealından asılıdır. Yalnız özünü düşünən eqoist insanların Vətənə, millətə münasibətini dahi Azərbaycan şairi M.Ə.Sabir vaxtilə çox dəqiq ifadə etmişdir:

*Millət necə tarac olur-olsun, nə işim var?!*
*Düşmənlərə möhtac olur-olsun, nə işim var?!*
*Qoy mən tox olum, özgələr ilə nədi karım,*
*Dünyavü cahan ac olur-olsun, nə işim var?!*

Deməli, hər kəsin emosiya və hissləri onun özünə, ətraf aləmə bəslədiyi və məxsusi səciyyə daşıyan şəxsi münasibətdir. İnsanın emosiya və hisslər aləmi çox rəngarəng və mürəkkəbdir.

## 9. Emosional halətlər

Hisslər qüvvə, davamlılıq və sürətə görə müxtəlif növlərə ayrılır. Bunları insanın emosional haləti də adlandırırlar. Müasir psixologiyada insanın emosional halətlərinin öyrənilməsinə xüsusilə böyük əhəmiyyət verilir. Bu isə təsadüfi deyildir. İnsanda əmələ gələn, günlərlə, hətta, bəzən həftələrlə davam edən emosional halətlər təkcə onun əmək məhsuldarlığına deyil, həm də psixi sağlamlığına mühüm təsir göstərir. Onlardan bəziləri ilə tanış olaq:

*Əhval* – çox zəif cərəyan edən emosional halətdir. Məsələn, insan qəmgin, şad, gümrah, qüssəli və s. əhvalda ola bilər, lakin onlar zəif cərəyan etdiklərindən o qədər də aydın surətdə nəzərə çarpmır və çox kəskin xarici ifadəyə malik olmur.

*Affektlər* (latın dilində *affektus* – ruhi təlatüm, həyəcanlanma deməkdir) – coşqun surətdə əmələ gəlib, kəskin xarici ifadəyə malik olan azmüddətli, lakin qüvvətlə cərəyan edən hisslərdir. Qeyz, dəhşət, həddən artıq şadlıq, kədər, qəzəb və s. affektə misal ola bilər.

Affekt halları bəzi adamların fəaliyyətinə pozucu təsir göstərir, hətta onların belə məqamlarda öz hərəkətləri, danışığı üzərindəki şüurlu nəzarəti də zəifləyir. Affekt anında bəzi adamlar qışqırır, kəskin hərəkətlər edir, aydın danışığını itirir, ayrı-ayrı hallarda isə heç bir söz deyə bilmir, tutulur, "donub qalır", "daşa dönür", bayılır və s. Həmin vəziyyətlər beyində baş verən sinir prosesləri ilə əlaqədardır. Bu zaman beyində kəskin oyanma ocağı əmələ gəlir və ətrafdakı oyanmış sahələrə ləngidici təsir göstərir. Mənfi induksiyanın təsiri ilə başqa sahələrdəki oyanma ocaqları ləngimə halına keçdiyinə görə adam ətrafda baş verən hadisələri aydın dərk etmir. O, öz hərəkətləri və onun nəticələri barədə sanki düşünmür. Qabıqaltı sahələr beyin qabığının ləngidici təsirindən azad olduğundan öz fəaliyyətlərini gücləndirir və nəticədə affekt halında insanda bir sıra artıq, lüzumsuz, məqsədsiz hərəkətlərdə özünü büruzə verir.

Affekt halından yaxa qurtarmaq üçün onun nəticəsini göz önünə gətirmək, onu dərk etmək zəruridir. Bununla yanaşı olaraq, affekti yaradan obyektdən diqqəti yayındırmaq, başqa səmtə yönəltmək də faydalıdır. Əlbəttə, affekt halı-

nın qarşısını almaq insanın iradə qüvvəsindən, şüurluluğundan, mədəni rəftar vərdişlərinə möhkəm yiyələnməsindən çox asılıdır.

*Ehtiras* – qüvvətli, uzunmüddətli və dərin hissdir. Ehtiras insanın şüurunun, daxili qüvvələrinin cəmləşməsində, müəyyən vahid məqsədə yönəlməsində öz əksini tapır. Bu zaman hislər iradi cəhd ilə birləşərək adamı müəyyən çətinlikləri aradan qaldırmağa təhrik edir.

Ancaq ehtiras insanı həmişə fəallaşdıra bilmir. Bəzən bir obyektə olan ehtiraslı münasibət insanı başlıca olaraq passiv surətdə əzab çəkməyə düçar edir. Bu cəhət ehtirasın ikili xarakterdə olduğunu: ya insanın qüvvəsini zəiflətdiyini, ya da artırdığını aydın surətdə göstərir. Ehtiras çox böyük qüvvəyə malik olur. Ancaq əsas məsələ ehtirasın nəyə, hansı obyektə yönəlməsindədir. Bu cəhətdən ehtiraslar iki qrupa: mənfi və müsbət ehtiraslara bölünür. İnsanın qumara, spirtli içkilərə, pula, varlanmağa və s. olan ehtirası mənfi ehtiraslardır.

Azərbaycan ədəbiyyatında mənfi ehtirasların əsiri olan bir sıra tiplər yaradılmışdır. M.F.Axundovun Hacı Qara surəti ("Hacı Qara" əsərində) pul ehtirasına tutulmuş klassik xəsis tipidir. O, pul yığmaq üçün hər cür alçaqlığa, hətta ailə üzvlərini belə, fəda etməyə hazırdır. Yaxud N.Vəzirovun "Dağılan tifaq" pyesində qumara ehtirasın tipik nümunəsi verilmişdir. Həmin ehtiras evin, ailənin, (əsərin adından da göründüyü kimi) tifağın dağılmasına gətirib çıxarır. Mənfi ehtiraslar əsiri olan adamlar həyatda insanların nifrətindən başqa bir şey qazanmırlar.

Elmə, musiqiyə, incəsənətə, zəhmətə və s. olan ehtiras isə müsbətdir. Əsl məsələ müsbət ehtirasları inkişaf etdirməkdir. Əməyə, elmə, incəsənətə, musiqiyə ehtiraslı məhəbbət bəsləmədən, həmin sahədə heç bir yenilik yaratmaq mümkün deyildir. K.Marks ehtirasa çox yüksək qiymət vermiş və onu insanın öz obyektinə ciddi surətdə cəhd edən mühüm qüvvəsi hesab etmişdir.

*Stress* (ingiliscə *stress* – təzyiq, gərginlik deməkdir) – insanın gözlənilməz gərgin şəraitlə rastlaşarkən keçirdiyi emosional halətdir. Yəni qəflətən təhlükəli vəziyyətdə və ya mürəkkəb şəraitdə təcili surətdə müstəqil qərar qəbul etmək, hərəkət etmək lazım olarkən insanda özünü büruzə verən halətdir. Müasir dövrdə, elmi-texniki tərəqqi şəraitində insanlarda belə emosional halətlər tez-tez müşahidə olunur. Şagirdlər imtahan verəndə, sərnişinlər təyyarədə uçanda, operator qəza ilə rastlaşanda, rəhbər işçi mürəkkəb şəraitdə təcili surətdə müstəqil qərar qəbul edəndə çox vaxt gərginlik keçirir və onu stress haləti kimi yaşayır.

Stress vəziyyətində adamlar çox vaxt ətraf cisimləri belə düzgün qavramırlar, hafizələri dolaşır, diqqətlərini başqa səmtə keçirə bilmirlər, gözlənilməz qıcıqlayıcılara qeyri-adekvat reaksiyalar verirlər. Bəzən bütünlüklə çaşır, məqsədyönlü hərəkət edə bilmirlər. Bəzən isə, əksinə, stress vəziyyəti elə bil

onların qüvvə və enerjisini artırır, fikrini aydınlaşdırır, çətin məsələni tez və asanlıqla həll etməsinə kömək edir.

*Frustrasiya* (latınca *frustratio* – aldanma, nahaq gözləmə, əhval pozğunluğu) – insanın öz məqsədinə çatmasına maneçilik real və ya xəyali maneələrlə rastlaşdığı zaman düşdüyü psixi vəziyyətdir. Bu emosional halətin mahiyyətini başa düşmək üçün, hər şeydən əvvəl, maneənin xarakterinə, onun insan üçün şəxsi mənasına diqqət yetirmək lazımdır. Məsələn, insanın istədiyi kinoya, konsertə getməməsi və s. – onda narazılıq doğurur, lakin şüur və fəaliyyətini poza bilmir. Bəzən isə insan elə maneələrlə rastlaşır ki, bunlar onun arzu və istəklərini ürəyində qoyur, yaranan davamlı mənfi emosional halət onun şüur və fəaliyyətini pozur.

Frustrasiya yalnız o zaman meydana çıxır ki, insanın narazılıq və ya təmin olunmamaq səviyyəsi onun dözüm səviyyəsindən üstün olur. Frustrasiya daha çox şəxsiyyətin mənfi sosial qiymətləndirilməsi, onun üçün müqəddəs sayılan hiss və duyğularına həqarətlə yanaşılması və s. kimi hallarda özünü itirmək, qəzəb, küskünlük və s. şəkildə təzahür edir. Frustrasiya halətində insanda dərin psixi sarsıntılar baş verir. Frustrasiya haləti bəzən insanın xarakterinə təsir edir, onda bir sıra dəyişikliklər törədir: onun davranış və rəftarında özünə inamsızlıq, şablon davranış tərzinə meyletmə və s. nəzərə çarpır. Bir sıra nevrozların baş verməsi də frustrasiya haləti ilə izah edilə bilər. Bunun qarşısını almaq üçün psixi gərginliyə dözüm tərbiyə edilməlidir.

Şagirdlərdə frustrasiya halları müşahidə edildikdə, onlara maneələri aradan qaldırmağın daha səmərəli yollarını tapmaqda, çətinlikləri düzgün qiymətləndirməkdə kömək göstərmək, ən başlıcası isə özlərinə inam hissi aşılamaq zəruridir. Bu cəhət gənclər üçün də gərəklidir.

## 10. Temperament

Temperament nəzəriyyəsi qədim tarixə malikdir. Onun mahiyyəti haqqında ilk təlim hələ e.ə. V əsrdə əmələ gəlmişdir. Temperament haqqında təlimlərin tarixi nə qədər zəngin olsa da, müxtəlif dövrlərdə insan orqanizminin aşağıdakı bioloji sistemləri temperamentin əsası kimi irəli sürülmüşdür:

1. *Humoral sistem:* antik dünyanın məşhur həkimi Hippokratın (e.ə. 460-377) təlimində temperament qan, öd, qara od və seliyin bədəndəki nisbəti ilə əlaqələndirilirdi.

2. *Somatik sistem:* alman psixiatrı E.Kreçmer, amerikan alimlər U.Şeldon və S.Stivens temperamenti insan bədəninin quruluşu kimi izah edirdilər.

3. *Sinir sistemi:* insanın temperamentini akademik İ.P.Pavlov ali sinir fəaliyyətinin (ASF) tipləri ilə izah edirdi. Sovet fizioloqları onları son zamanlar həm də beyin strukturlarının xüsusiyyətləri ilə əlaqələndirirdilər.

Qədim yunanlara (Hippokrat və b.) orqanizmdə 4 cür maye qan: (sanqvus), öd (xole), qara öd (meleyna xole) və selik (fleqma) məlum idi. Onlar belə güman edirdilər ki, insanların davranışındakı fərqlər orqanizmdə həmin mayelərin müəyyən nisbətindən asılıdır. Guya, orqanizmdə bu mayelərdən biri – ya qan, ya öd, ya qara öd, ya da selik, müasir terminlərlə desək, daha çox bioloji aktivliyə malik olur. Hansı mayenin üstünlük təşkil etməsindən asılı olaraq adamın davranışında özünəməxsus xüsusiyyətlər əmələ gəlir. Qədim yunanlar bəzi adamların coşqun olmasını onların orqanizmində qanın, soyuqqanlı olmasını isə seliyin bioloji cəhətdən daha mühüm rol oynaması ilə izah edirdilər. Onlar bu baxımdan 4 temperament tipini – sanqvinik, xolerik, melanxolik və fleqmatik tiplərini fərqləndirirdilər.

Yeri gəlmişkən qeyd edək ki, bu terminlərin taleyi uğurlu olmuşdur. Onlar yarandıqları gündən müasir dövrə qədər, sözün əsl mənasında, nəinki psixologiya elmi tarixində vətəndaşlıq hüququ qazanmış, həm də ümumişlək sözlərə çevrilmişlər.

Hal-hazırda temperament haqqındakı bu təsəvvürlər ancaq tarixi əhəmiyyətə malikdir: hər şeydən əvvəl, qeyd etmək lazımdır ki, orqanizmdə çoxlu miqdarda hormonlar və mediatorlar vardır, yəni mayenin miqdarı 4 deyil, daha çoxdur. Bundan başqa, indi tamamilə aydındır ki, onlar insanın davranışına birbaşa deyil, dolayısı ilə – sinir sistemi vasitəsilə təsir göstərirlər.

## 11. Temperamentin xassələri

Müasir psixologiyada temperamentin əsas formal – dinamik xarakteristikası kimi aşağıdakı xassələrinə xüsusi diqqət yetirilir: ümumi aktivlik – temperamentin strukturunda xüsusilə böyük əhəmiyyətə malikdir. Onun mahiyyətini insanın özünü ifadə etmək, xarici aləmi səmərəli surətdə mənimsəmək və dəyişmək meyli təşkil edir. Temp, ritm, sürət, intensivlik, plastiklik, dözümlülük və s. ümumi aktivliyin əsas göstəriciləridir. Süstlük, ətalətlilik və passiv seyrçilikdən tutmuş, yüksək enerjilik və daimi coşqunluğa qədər, ümumi aktivlik müxtəlif temperamentli adamlarda, müxtəlif dərəcədə özünü göstərir.

Hərəki aktivlik də mahiyyət etibarilə ümumi aktivliyin tərkib hissəsi kimi meydana çıxır. Onda hərəki (və xüsusilə nitq-hərəkət) aparatla bağlı keyfiyyətlər əsas yer tutur.

**Sanqvinik temperamenti tipi.** Sanqvinik üçün nə səciyyəvidir? Hər şeydən əvvəl, yüksək reaktivlik. Sanqvinik yüksək fəallıqla da fərqlənir. Sanqvinik temperamentə malik olan adamlarda aktivlik və reaktivlik müvazinətdə olur. Onların reaksiyalarının tempi kifayət dərəcədə yüksəkdir. Sanqvinikin davranışı yüksək plastikliyi ilə səciyyələnir. Nəhayət, sanqvinik temperamentli adamlar onlara bilavasitə təsir edən xarici qıcıqlara olduqca həssasdır.

**Xolerik temperament tipi.** Sanqvinik kimi, xolerik üçün də yüksək reaktivlik, aktivlik və reaksiyaların cəld olması səciyyəvidir. Lakin xolerikin reaktivliyi onun aktivliyindən üstündür. Buna görə də onlar tez özlərindən çıxır, hövsələsiz, səbirsiz və tündməcazdırlar. Onlar sanqviniklərə nisbətən az plastik, lakin çox rigiddirlər (rigid – sərt, bərk), ona görə də maraqları davamlı və sabitdir.

**Fleqmatik temperament tipi.** Sanqvinik və xolerikdən fərqli olaraq, fleqmatikdə reaktivlik azdır. Bu onda özünü göstərir ki, onları güldürmək və ya hirsləndirmək çətindir. Səbirli, təmkinli və soyuqqanlıdırlar. Pis xəbərdən sonra zahirən sakit olmaları, hamı güləndə onların təmkinlə oturması, onlarda emosional oyanıqlığın zəifliyi ilə izah olunur. Fleqmatikin psixi tempi ləngdir, onun hərəkətləri asta, yerişi ağırdır, suallara dərhal cavab vermir. Fleqmatik temperament az plastikliyi, böyük rigidliyi və introvertliyi ( introvert – özünəqapalı) ilə fərqlənir.

**Melanxolik temperament tipi.** Temperamentin başqa tiplərindən fərqli olaraq, melanxolik üçün yüksək senzitivlik (senzitiv – həssas) səciyyəvidir. Bu, özünü onun ifrat həssaslığında, küsəyənliyində göstərir. Melanxolik temperamentə xas olan zəif reaktivlik və aktivlik onun nadir hallarda gülməyində, özünə inanmamağında, tez-tez özünü itirməyində, işi axıra çatdıra bilməməyində təzahür edir. Melanxolikin hərəkətləri süst və zəifdir, o, çox asta-asta danışır. Melanxolik rigid (ətalətli) və introvertdir.

Beləliklə, aydın olur ki, hər temperament tipinin özünəməxsus əlamətləri vardır.

## 12. Peşə fəaliyyətində və təlim fəaliyyətində fərdi üslub

Hər temperament tipinin özünəməxsus xüsusiyyətləri vardır. Əslində, onları müsbət və ya mənfi xüsusiyyətlərə bölmək də düzgün deyildir. Sözün mütləq mənasında müsbət və mənfi temperament xüsusiyyətləri yoxdur. Əsas məsələ bu və ya digər temperament xüsusiyyətinin müsbət və ya mənfi olmasında deyil, insanın onları özünün peşə fəaliyyətində və ya təlim fəaliyyətində necə (nə dərəcədə düzgün) nəzərə almasındadır.

Məsələn, sanqviniklər qəza hallarını işin gedişində, məsələn, sap qırılan kimi dərhal aradan qaldırırlar. Halbuki fleqmatiklər qəza hallarını tez aradan qaldıra bilmirlər. Sanqviniklərin, tutaq ki, 2 dəqiqədə aradan qaldırdıqları qəzanı onlar, bəlkə də, 10-15 dəqiqə ərzində aradan qaldıra bilmirlər. Bəs, belə hallarda fleqmatik nə edir? Onlar öz xüsusiyyətlərini nəzərə alaraq hazırlıq işlərinə daha çox diqqət yetirirlər və bununla da qəzanın qarşısını mümkün qədər qabaqcadan alırlar.

Psixoloqlar bu faktların təhlili əsasında aşağıdakı nəticəni çıxarıblar: iş üsulları, üslubu fərdi xüsusiyyətlərinə uyğun gələn işçilər daha yüksək isteh-

salat uğurları əldə edirlər. Beləliklə də, psixologiyada fərdi üslub anlayışı yaradılmışdır. Göründüyü kimi, anlayış iki sözdən ibarətdir. Fərdi sözünün mənası aydındır. Bəs, üslub nə deməkdir? Üslub çoxmənalı sözdür. Burada o, iş priyomu, vasitəsi, üsulu mənasında işlənmişdir.

Eyni bir əmək şəraitində müxtəlif tipli adamlar, müxtəlif iş üsullarından istifadə edirlər.

Fərdi üslub fəaliyyətin bütün sahələrində mühüm rol oynayır. Peşə fəaliyyəti ilə yanaşı, təlim fəaliyyətində də onun əhəmiyyəti böyükdür. Təlim prosesində şagirdlərdə özünəməxsus fərdi üslub formalaşdıqda, onlar daha yaxşı oxuyur, ev tapşırıqlarını vaxtında və səliqə ilə yerinə yetirirlər.

Fərdi üslub birdən-birə yaranmır. Onun yalnız kortəbii surətdə əmələ gəlməsini düşünmək də səhvdir. İnsan öz temperamentinə müvafiq olaraq daha yaxşı nəticə əldə etmək üçün səmərəli olan iş üsullarını fəal surətdə axtaranda, fərdi üslubun əmələ gəlməsi üçün əlverişli şərait yaranır. Kiçik yaşlarında fərdi üslubun formalaşmasında təlim və tərbiyə mühüm rol oynayır.

## 13. Xarakter. Xarakter və şəxsiyyətin motivasiya sahəsi

İnsanlar özlərinin xarakterinə görə də bir-birindən fərqlənirlər. Onlar həmişə bir-birinin xarakterinə böyük əhəmiyyət verir, özlərinin davranış və rəftarında biri digərinin xarakterini nəzərə alır. “Yaxşı adam”, “pis adam” haqqındakı etalon və stereotiplər nə qədər ümumi olsa da, onların əsasını insan xarakterləri haqqındakı təsəvvürat təşkil edir. “Qonşun pisdir köç qurtar” kimi 10-larla atalar sözlərində xalqın insan xarakterləri haqqında olan təsəvvürləri öz əksini tapmışdır. Nağılların və dastanların təhlili göstərir ki, ünsiyyət prosesində xarakterin mühüm rol oynaması insanlara empirik (empirik – təcrübəyə əsaslanan) surətdə çoxdan məlum imiş.

## 14. Xarakter əlamətləri

Xarakter əlamətləri çoxdur. Ayrı-ayrı dillərdə xarakter əlamətlərini ifadə edən 4000-dən çox söz vardır. Onların çoxu olduqca müxtəlif mənalarda işlənir, hətta bəzən eyni bir xarakter əlamətini müxtəlif çalarlarda səciyyələndirirlər.

Xarakter əlamətlərini necə təsnif etmək olar? Məlumdur ki, xarakter insanın münasibətlərini ifadə edir. Bu baxımdan xarakter əlamətlərini aşağıdakı kimi təsnif edirlər:

I. *Kollektivə və başqa adamlara münasibəti ifadə edən xarakter əlamətləri:* kollektivçilik, doğruçuluq, kobudluq, qayğıkeşlik, tələbkarlıq və s.;

II. *Əməyə münasibəti ifadə edən xarakter əlamətləri:* əməksevərlik, tənbəllik, məsuliyyətlilik və s.;

III. *İnsanın özünə münasibətini ifadə edən xarakter əlamətləri:* təvazökarlıq, lovğalıq, şöhrətpərəstlik və s.;

IV. *Şeylərə (əşyalara) münasibəti ifadə edən xarakter əlamətləri:* səliqəlilik, pintilik, qayğıkeşlik və s.

Hər şeydən əvvəl, qeyd edək ki, insanın başqa adamlara, əməyə, özünə və şeylərə (əşyalara) münasibətlərini ifadə edən xarakter əlamətləri bir-biri ilə üzvi surətdə əlaqədardır. Məsələn, müəyyən olunmuşdur ki, özünə hörmət etməyən adam başqalarına da hörmət etmir. "Xalçasalan özü oturar" – atalar sözünün dərin psixoloji mənası vardır. Bu o deməkdir ki, biz insanın başqa adamlara münasibətini ifadə edən xarakter əlamətlərini özünün özünə münasibətini ifadə edən xarakter əlamətləri ilə və əksinə, insanın özünə münasibətini ifadə edən xarakter əlamətlərini onun başqa adamlara münasibətini ifadə edən xarakter əlamətləri ilə qarşılıqlı əlaqədə təhlil etməliyik. Xarakterin digər əlamətləri haqqında da eyni sözləri demək olar. İnsan xarakterinin bütövlüyündən danışanda da, adətən, bu cəhəti – xarakter əlamətlərinin qarşılıqlı əlaqədə olmasını nəzərə alırlar. Bununla əlaqədar olaraq, tərbiyə nöqteyinəzərindən böyük əhəmiyyətə malik olan iki məsələni qeyd etmək lazımdır:

1. Tutaq ki, uşaqda kobudluq kimi xarakter əlaməti özünü göstərir. Tərbiyəçi (ana və ya müəllim) bu mənfi cəhəti aradan qaldırmaq üçün onda nəzakətlilik kimi müsbət xarakter əlaməti tərbiyə etməyə çalışır. O, düzgünmü hərəkət edir?

İlk baxışda adama elə gəlir ki, tərbiyəçi məsələyə düzgün yanaşır. Halbuki ona psixoloji baxımdan haqq qazandırmaq olmaz. Çünki kobudluq uşağın başqa insanlara münasibəti ilə bağlıdır. Kobudluğu aradan qaldırmaq üçün onun, birinci növbədə, insanlara münasibətini dəyişmək lazımdır. Uşaqlarda insanlara düzgün münasibət tərbiyə etmədən, kobudluğa qarşı mübarizə aparmaq və nəzakət tərbiyə etmək mümkün deyildir.

2. İnsanın xarakteri dəyişirmi? İnsanın xarakterini necə dəyişmək olar? İnsanın başqa adamlara, əməyə, özünə və şeylərə (əşyalara) münasibəti dəyişdikcə, yeni keyfiyyətlər kəsb etdikcə, onun xarakteri də dəyişilir. Xarakter əlamətləri yalnız uşaq yaşlarında deyil, bütün ömür boyu inkişaf edir və tərbiyə olunur. Adamların böyük əksəriyyəti öz xarakterində 25-55 yaş arasında müəyyən dəyişikliklər baş verdiyini qeyd edirlər. İnsanın xarakterini dəyişmək üçün onun başqa adamlara, əməyə, özünə və şeylərə (əşyalara) münasibətini dəyişmək lazımdır. Xarakterin tərbiyəsi və yenidən tərbiyəsinin əsas qanunauyğunluğu belədir.

Xarakterin tipik və fərdi əlamətləri vəhdətdədir. Onlar həmişə qarşılıqlı əlaqədədirlər. Xarakter əlamətlərini məhz qarşılıqlı əlaqədə təhlil etmək üçün onların strukturunu müəyyən etmək lazımdır.

Xarakterin strukturunda insanın başqa adamlarla, əməyə, özünə və şeylərə (əşyalara) münasibətlərini bilavasitə ifadə edən xarakter əlamətləri müəyyənedici rol oynayır.

Eyni bir xarakter əlamətinin müxtəlif adamlarda, müxtəlif çalarlarla təzahür etməsinə bir amil də təsir göstərir: biz xarakter əlamətlərinin formalaşmasında temperamentin rolunu nəzərdə tuturuq. Adətən, temperamentin mühüm xassələrindən biri – emosionallıq xarakterin strukturuna daxil olur. Hər bir xarakter əlamətinin emosionallıq baxımından çalarları məhz bununla bağlıdır. Lakin nəzərə almaq lazımdır ki, temperament tipləri xarakterin ancaq dinamik xüsusiyyətlərinə təsir göstərir, onlar xarakter əlamətlərinin məzmununu müəyyən etmir və edə də bilməz. Xarakterin məzmun baxımından bütün xüsusiyyətləri sosial amillərlə müəyyən olunur. Xarakter ailədə, uşaq bağçasında, məktəbdə, əmək kollektivlərində insanlarla birgə fəaliyyət və ünsiyyət şəraitində formalaşır. Bu prosesdə tərbiyə ilə yanaşı, özünütərbiyə də mühüm rol oynayır.

Özünütərbiyə yeniyetmə və gənclərin qiymətli xarakter əlamətləri haqqında etalon və stereotipləri ilə bilavasitə bağlıdır. Psixoloji tədqiqatlar əsaslı surətdə göstərir ki, insan özündə, birinci növbədə, yüksək qiymətləndirdiyi keyfiyyətləri, o cümlədən xarakter əlamətlərini tərbiyə edir. Şagirdlər hansı xarakter əlamətlərini yüksək qiymətləndirirlər? Onlar özlərində hansı xarakter əlamətlərini tərbiyə edirlər? Hər bir müəllim və tərbiyəçi böyük əhəmiyyətə malik olan bu sualları psixoloji cəhətdən vaxtında və düzgün həll etməlidir.

## 15. Şəxsiyyət əmək və tədris kollektivlərində. Qrup və kollektiv

Psixologiyada qrup dedikdə tarixən müəyyən cəmiyyət çərçivəsində yaranmış ümumi mənafe, sərvətlər və davranış normalarına malik olan adamların nisbətən sabit məcmusu nəzərdə tutulur. Hər bir qrupda fərdlərin bir-biri ilə və bütövlükdə cəmiyyətlə özünəməxsus qarşılıqlı rabitələri təcəssüm edirlər.

Qrup özünəməxsus sistemdir və müəyyən struktura malikdir. Qrupa daxil olan hər bir adam onda müəyyən rol və vəzifə ifadə edir. Hər bir qrup özünün məqsədlərinə, normalarına, sərvət meyillərinə, sosial gözləmələrinə və s. müvafiq olaraq, müxtəlif formalarda öz üzvlərinə nəzarət edir: onları rəğbətləndirir və ya cəzalandırır. Qrup üzvləri müvafiq normaları və sərvət meyillərini mənimsədikcə, sosial-psixoloji cəhətdən qrupun həyatında köklü dəyişikliklər əmələ gəlir: qrup üzvlərində qrupa mənsubluq hissi – “biz” hissi yaranır. Bunun psixoloji baxımdan ilk əlaməti ondan ibarətdir ki, qrupun hər bir üzvü qrupun nailiyyətlərini öz nailiyyətləri, müvəffəqiyyətsizliyini isə öz müvəffəqiyyətsizliyi hesab edir, onları öz şəxsi nailiyyəti və ya məğlubiyyəti

kimi yaşayır: birinci halda sevinir, ikinci halda kədərlənir və s., yəni qrup doğma qrupa çevrilir. Qrup mahiyyət etibarilə, bu andan əsl qrup kimi fəaliyyət göstərməyə başlayır.

## 16. Qrupların təsnifatı

Böyük qruplar bütövlükdə cəmiyyət (ölkə) miqyasında mövcud olan adamların məcmusudur: siniflər, sosial təbəqələr, peşə qrupları, etnik birliklər (millət, xalq, qəbilə), yaş qrupları (gənclər, təqaüdçülər və s.) böyük qruplara misal ola bilər. Fərdlərin böyük qruplara mənsubiyyəti müəyyən obyektiv əlamətlər əsasında təyin olunur.

Eyni bir müəssisə işçilərini, istehsal birliklərini və ərazi birliklərini (bir kəndin, bir şəhərin, rayonun əhalisini) sosiologiyada orta və ya lokal qruplar adlandırırlar. Lakin özünün strukturuna görə orta qrupların böyük qruplara əsasən uyğun gəldiyini nəzərə alaraq, sosial psixologiyada onları xüsusi olaraq ayırd etmirlər.

Kiçik qrupların üzvləri nəinki bir-biri ilə müxtəlif formalarda gündəlik ünsiyyət və rabitəyə girir, bir-biri haqqında müəyyən təsəvvürə malik olurlar, həm də onların arasında müəyyən qeyri-rəsmi münasibətlər formalaşır. Başqa sözlə, onlar kontakt (təmasda olan) qruplar kimi təşəkkül tapıb, inkişaf edirlər. Bu xüsusiyyətlərdən heç biri böyük qruplar üçün səciyyəvi deyil.

İnkişaf etmiş qrupun ən yüksək forması kollektivdir. Kollektivin sosial-psixoloji tədqiqi sovet sosial psixologiyasının ən aktual problemi olmuşdur.

Hər bir kollektiv qrup hesab olunur. Hər bir qrup isə kollektiv deyildir. Kollektiv cəmiyyətin bir hissəsi olan, birgə fəaliyyətin ümumi məqsədlərinə tabe olan insan qrupudur. Qrup, adamları yalnız cəmiyyət üçün tamamilə faydalı fəaliyyət vəzifələri ətrafında birləşdirəndə kollektiv kimi formalaşır.

Əmək, uşaq, hərbi, idman və digər kollektivləri, habelə tədris müəssisələrində pedaqoji kollektivi və şagird kollektivini fərqləndirirlər. Onlardan hər birinin özünəməxsus xüsusiyyətləri vardır. Kollektivlər eyni zamanda özlərinin inkişaf səviyyəsi etibarilə bir-birindən fərqlənir.

## 17. Liderlik problemi

Hər bir qrupun öz başçısı olur. Psixologiyada kollektivin idarə edilməsi prosesində iki cəhəti – rəhbərlik və liderliyi fərqləndirirlər.

Rəhbərlik – nisbətən yüksək səviyyəli təşkilatlar tərəfindən rəsmi surətdə təsdiq edilmiş əsasnamə çərçivəsində rəsmi səlahiyyətin tətbiqi yolu ilə kol-

lektivin idarəolunması prosesidir. Liderlik dedikdə işçilərdən birinin şəxsi nüfuzunun kollektivin bir çox və ya bütün üzvlərinin davranışına təsiri nəzərdə tutulur.

Lider özünün işgüzar və şəxsi keyfiyyətləri, ünsiyyətə girmək, adamlarla rabitə yaratmaq qabiliyyəti ilə fərqlənir. O məhz bu xüsusiyyətlər hesabına insanların psixologiyasına təsir göstərə bilir. Bir sıra hallarda lider rolunda müəyyən adamlar qrupu da çıxış edirlər. Sosial psixologiyada belə qrupa kollektiv subyekt deyilir.

Liderlik funksiyasının həyata keçirilməsi dinamikası istər liderin özünün, istərsə də qrupun sosial-psixoloji xarakteristikaları ilə bilavasitə bağlıdır. Qrupun öz məqsədlərini müvəffəqiyyətlə həyata keçirməsi və ya müvəffəqiyyətsizliyə uğraması, qrupda həmrəylik səviyyəsi və ya konflikt şəraitinin yaranması – bunların hamısı özünəməxsus formalarda liderlik funksiyalarının həyata keçirilməsi dinamikasında əks olunur.

Beləliklə, rəhbərlik və liderlik idarəetmə prosesinin iki müxtəlif tərəfi – hüquqi hakimiyyət (rəhbərlik) və psixoloji təsir (liderlik) – kimi özünü göstərir. Kollektiv səviyyəsində onların hər ikisi rəhbər işçinin nüfuzunda təcəssüm edir.

Sosial psixologiyada liderin müxtəlif tiplərini fərqləndirirlər. Onlardan ikisi – rəsmi (formal) və qeyri-rəsmi (qeyri-formal) liderlər diqqəti xüsusilə cəlb edir.

Rəsmi lider kollektivdə xidmət və peşə nüfuzuna malik olan inzibati və ictimai rəhbərdir. Lakin nəzərə almaq lazımdır ki, rəsmi lider olmaq üçün yalnız müəyyən inzibati və ictimai vəzifə tutmaq hələ kifayət deyildir. Bunun üçün həm də işgüzar və şəxsi keyfiyyətlərin elə çulğalaşması zəruridir ki, onların fəal təzahürü rəhbər işçinin, sözün əsl mənasında, şəxsi nüfuzunu təmin etsin. Rəhbər işçi ancaq bu zaman liderə çevrilir.

Rəhbər işçi eyni zamanda lider rolunda çıxış etdikdə kollektivin ahəngdar inkişafı üçün əlverişli psixoloji şərait yaranır. Rəhbər işçinin lider olması həm də bu gün – işçilərin mədəni-texniki səviyyəsinin yüksək dərəcədə artdığı bir şəraitdə xüsusilə böyük əhəmiyyət kəsb edir.

Əksər hallarda kollektivin rəhbəri həm də onun lideri olur. Bu mürəkkəb proses olub, yuxarıda nəzərdən keçirilən müxtəlif amillərlə şərtlənir. Psixoloji səpkidə onlardan biri – rəhbər işçinin özünün şəxsi keyfiyyətləri diqqəti bilavasitə cəlb edir. Həmin məsələnin əhəmiyyətini düzgün qiymətləndirmək üçün nəzərə almaq lazımdır ki, işçilər rəhbər işçini, adətən, onun şəxsi keyfiyyətləri vasitəsilə “görürlər”, başqa sözlə, rəhbər işçidə müşahidə üçün ən münasib cəhət məhz onun şəxsi keyfiyyətləridir.

Rəhbər işçi yüksək peşə keyfiyyətlərinə malik olduqda liderlik hüququ kəsb edə bilər. Bundan başqa, işçilər rəhbər işçiyə istehsalat və müəssisənin təşkilatçısı və tərbiyəçisi kimi də yüksək tələblər verirlər.

Bu cəhətdən rəhbər işçinin intellektual keyfiyyətləri ilə yanaşı, kommunikativ xüsusiyyətləri, təşkilatçılıq qabiliyyəti, rəhbərlik üslubu, ünsiyyət və liderlik qabiliyyəti, kollektivdə zəruri mənəvi və psixoloji iqlim yaratmaq və saxlamaq məharəti çox əhəmiyyətlidir.

Qrup rəhbər işçini yüksək qiymətləndirdikdə, nüfuzu ilə hesablaşdıqda, onun fəaliyyətinin səmərəli olması üçün əlverişli şərait yaranır.

Bəzən kollektivin rəhbəri onun lideri ola bilmir. Kollektiv üzvləri arasında yaranmış münasibətlərin təhlili zamanı aydın olur ki, kollektivdə rəhbər işçi ilə bərabər, heç bir rəsmi səlahiyyəti olmayan, lakin ümumi işlərin həllinə ondan çox təsir göstərən başqa bir işçi də vardır. Sosiologiyada və sosial psixologiyada belə şəxsə qeyri-rəsmi lider deyirlər.

Rəsmi liderlə qeyri-rəsmi lider arasında ziddiyyətin olması heç də zəruri deyildir. Onlar bir-birini qarşılıqlı surətdə tamamlaya da bilər. Lakin belə bir şəraitdə konflikt mənbəyi potensial surətdə mövcuddur və onun vaxtında qarşısını almağın böyük əhəmiyyəti vardır. "İki qoçun başı bir qazanda qaynamaz" – atalar sözü güzəran təcrübəsinə istinad etsə də, ciddi sosial-psixoloji mənaya malikdir. Bu baxımdan qeyri-rəsmi liderin meydana çıxması şəraitinin təhlili xüsusi aktuallıq kəsb edir.

Sosial psixologiyada qeyri-rəsmi liderin təsvir olunmuş tipləri içərisində pozitiv və neqativ qeyri-rəsmi liderlər xüsusilə mühüm yer tutur.

Pozitiv qeyri-rəsmi lider öz davranışında yüksək əxlaqi prinsiplərə istinad edir və kollektiv üzvlərinə müsbət təsir göstərir.

Neqativ qeyri-rəsmi lider isə, adətən, mənfi əxlaqi prinsiplərə istinad edir və kollektiv üzvlərinə pozucu təsir göstərir.

## 18. Emosional stress və psixosomatik xəstəliklər

Artıq qeyd edildiyi kimi, stress ingilis sözü olub, insanın psixi halətində baş verən gərginlik və sıxıntını bildirir. Yəni insanın gündəlik fəaliyyətində, xüsusi şəraitdə rastlaşdığı çətin və mürəkkəb amillərin yaratdığı psixi gərginliyə stress deyilir. Stressi törədən amillər, səbəblər isə stressorlar adlanır.

Stress orqanizmin daha çox gözlənilməz halda, qeyri-adi ekstremal təsirlərə məruz qalması ilə əlaqədar olaraq baş verir və müxtəlif təzahürlərə malik olur.

Hər hansı stressor insanın sağlamlıq dərəcəsindən və şəxsiyyət tipindən asılı olaraq müəyyən təsir gücünə malik olub, bu və ya digər dərəcəli stress yaradır.

İmtahanqabağı ürəkbulanma, qarınağrısı, dizlərin və əllərin əsməsi, ovucun tərləməsi, xolesterin ifrazının artması, iştahanın küsməsi və s. emosional stressə olan somatik reaksiyadır. Elə psixomatik reaksiyalar var ki, onlar

emosional komponentsiz baş verir. Məsələn, bilavasitə hiss orqanlarına təsir edən limona baxarkən ağız suyu ifrazı müşahidə olunur. Hətta limon haqda düşündükdə belə, həmin reaksiyalar olur. Bu proseslər ali sinif fəaliyyətinin birinci siqnal sisteminin funksional strukturunda baş verir. İkinci siqnal sisteminin işi (limonun sözlə ifadə olunması) fizioloji reaksiya (ağız suyu ifrazı) yaradır. Deməli, qeyri-emosional psixosomatik reaksiya da mümkündür. Bilavasitə təsir edən qıcıqla, təxəyyüllə və sözlə ifadə şərti refleks əmələ gətirir.

Psixosomatik proseslər insanın müxtəlif orqan və sistemlərində müşahidə olunur. Onlar müəyyən psixofizioloji mexanizmə malikdir.

Psixogen faktorların təsiri nəticəsində somatik pozulmalar formalaşır və bunlara psixosomatik xəstəliklər deyilir. Psixosomatik xəstəliyin əmələgəlmə mexanizmi belədir: stress faktoru affektiv gərginlik əmələ gətirir. Affekt psixi və somatik sahələr arasında körpü rolunu oynayır. Psixosomatik xəstəliklərin formaları çoxdur: hipertoniya, diabet, mədə və onikibarmaq bağırsaq xorası, infarkt miokard, işemiya, miqren (xroniki kəskin başağrıları), bronxial astma, revmatik artrit, kolit, neyrodermatit.

Hər bir işi dəqiqliklə, diqqətlə, incəliklə və çalışqanlıqla icra edənlərin əksi olan insanlarda zədələnməyə meyillik kimi psixosomatik pozulma olur. Psixosomatik pozulmanın digər forması toksik maddələrdən, tütündən və dərmandan asılılıqdan, alkoqolizmdən əmələ gəlir. Psixogen təsir zamanı tütündən istifadə nəticəsində tənəffüs yollarının xəstəlikləri, bronxit, ağciyər xərçəngi və qan-damar xəstəlikləri baş verir. Həyat stimulu olmayanlar, işsizlər, bir problemin həllini səbirsizliklə gözləyənlər kəskin tütün asılılığına düçar olurlar. Yeniyetmə və gənc adamlar tütündən istifadə etməklə özlərini daha da böyük göstərmək, özünəinama nail olmaq üçün riskə gedirlər.

Alkoqol qəbul etməklə eyforiya (yüksək əhvali-ruhiyyə) hissi keçirən "dərdli", "problem"li şəxsiyyət sanki yüngülləşir, qorxunu, həyəcanı və real problemləri unudur. Əslində isə bu, psixoloji müdafiə reaksiyasıdır. Müəyyən toksik maddələrdən asılı olan adamlar "problem"lərini unutmaq üçün həmin maddələri qəbul etdiklərinin nəticəsi olaraq bir müddət keçdikdən sonra hərəkətlərinə nəzarəti artıq itirir, deqradasiyaya (dəyərlərin itirilməsinə) uğrayırlar. Belə hallar hətta ailədaxili zorakılığa da gətirib çıxarır.

Toksik asılılıq əsasən psixi izaha malik olur. Məsələn, siqaret çəkdikdə "aclığı unutmaq", "yuxulamanı yaxşılaşdırmaq", alkoqol qəbul etdikdə "susuzluğun yatması", "böyrəklərə xeyirli olması", "həkimlər də içir və çəkir", "içən də ölür, içməyən də ölür" sözləri ilə psixoloji bəraət müşahidə olunur.

Bazar iqtisadiyyatı insanların qarşısına müəyyən tələblər qoyur. Onlardan geri qalmaqla insan cəmiyyətdəki mövqeyini itirir, bu, onun həyat səviyyəsinə təsir edir, psixi gərginliyin və narazılığın səbəbinə çevrilir. İşsizlik, iqtisadi çətinlik dövründə müəyyən əhali qrupları özlərini atılmış, lazımsız hesab

edir və digərlərinə nisbətən alçaldılmış sayırlar. Belə olan halda psixi sağlamlığa mənfi təsir daha qabarıq olur və "həyatdan bezənlər" çoxalır, intihar və psixosomatik xəstəliklər artır. Sadalanan psixi stress faktorlarının insana təsiri onun mənsub olduğu ictimai qrupdan, tərbiyəsindən, temperamentindən, xarakterindən, həyat meyarlarından, sərvət meyillərindən və adaptasiya qabiliyyətindən bilavasitə asılıdır.

Son illərin stressorları sırasına baxaq:

*1) iş, onun təşkili və iqtisadi çətinliklər;*

*2) ailə üzvlərinə çətinlik yaradan geniş tələbat malları ilə təchizat;*

*3) işləyən qadınlarda bu tələbatlarla əlaqədar əmələ gələn psixi gərginlik;*

*4) həll olunmamış ev problemi;*

*5) ailə münaqişələri, işdə və digər yerlərdə olan narazılıqlar;*

*6) gərginliyi, frustrasiyanı aradan götürmək məqsədilə toksik maddələrdən istifadə* (alkoqol, nikotin, narkotik maddələr və s.).

Bunları aradan qaldırmaq üçün psixi gigiyena və profilaktika tətbiq olunmalıdır:

*1) Uşaqların tərbiyəsi sahəsində qadağalar, qorxu əmələgətirmə ilə yox, davranış nümunələri əsasında tərbiyəyə geniş yer verilməlidir;*

*2) Böyüklərdə əməyi düzgün qiymətləndirmə, düzgün işgüzar davranış, tənqidi düzgün qəbul etmək, şəxsi uğursuzluğa, sarsıntıya qarşı dözümlü olmaq təlqin edilməlidir;*

*3) Çox yorulmaqdan qorunmaq lazımdır. Çünki bu zaman görülən işə antipatiya formalaşır;*

*4) Boş vaxtdan, səmərəli aktiv istirahət formasından istifadə etmək lazımdır;*

*5) Toksik maddələrdən, tütündən, alkoqoldan imtina etməli.*

Bütün bu vasitələr psixosomatik xəstəliklərin qarşısını alar və adamların psixi sağlamlığını təmin edər.

## 19. Psixi sağlamlıq

İnsanın psixi sağlamlığını üç səviyyədə nəzərdən keçirmək olar: bioloji, psixoloji və sosial səviyyədə. Qeyd edilən hər bir səviyyədə insan sağlamlığı özünəməxsus təzahürlərə malik olur.

Bioloji səviyyədəki sağlamlıqda orqanizmin bütün daxili üzvlərinin dinamik ahəngdarlığı və onların xarici təsirlərə adekvat reaksiyası əsas olur. Bu sahədə təbabətin təsiri nisbətən səmərəli olur.

Psixoloji sağlamlıq isə başqa səciyyə daşıyır, yəni burada məsələyə şəxsiyyət kontekstindən yanaşılır və onun psixi bütövlüyü əsas götürülür. Yəni sağlam şəxsiyyət kimdir və ya nə deməkdir mülahizəsi ön plana keçir. Əgər

şəxsiyyətin bütün mühüm keyfiyyətləri kifayət qədər ahəngdar inkişaf etmişsə, onlar o qədər də davamlı, müvazinətli olur və onun tamlığını pozmağa yönəlmiş təsirlərə qarşı durmağı bacarır.

İnsanın psixi sağlamlığı o zaman pozula bilir ki, şəxsiyyətin xarakterində, inteqral psixi keyfiyyətlərində bu və ya digər neqativ cəhət özünü qabarıq surətdə büruzə verir, xüsusən də mənəvi-əxlaqi sferada defekt nəzərə çarpır.

Psixoloji sağlamlıqdan sosial sağlamlıq səviyyəsinə keçid əsasən şərtidir. Çünki hər iki sağlamlıq səviyyəsi bir-birini həm müsbət, həm də mənfi mənada asanlıqla şərtləndirə bilir. Lakin sosial şəraitin, ictimai münasibətlərin şəxsiyyətin psixi sağlamlığında təsiri daha güclü olur. Yəni sosial-maddi və sosial-mənəvi şərait, ailə münasibətləri, ünsiyyətin xarakteri, digər qarşılıqlı münasibətlərin səciyyəsi psixi sağlamlığa ciddi təsir edir. Burada əlverişli sosial şəraitin olub-olmaması əsas yer tutur. Məlum olduğu üzrə həmin amil şəxsiyyətin psixi sağlamlığına həm müsbət, həm də mənfi təsir göstərə bilər. Pozğun tərbiyə şəraiti, əlverişli olmayan ətraf mühit insanlarda müxtəlif xarakterli qeyri-adekvat, hətta kriminal səciyyəli davranışın mənbəyi olur. Belə olduqda şəxsiyyət mənəviyyatca pozulur, onun özünüidarə və özünütənzimi lazımi səviyyədə ola bilmir.

Şəxsiyyətin psixi sağlamlığı onun idrak proseslərinin xüsusiyyətlərində də özünü büruzə verir. Buraya özünü adekvat qavramaq, hafizədə lazımi informasiyaların hifz edilməsində, informasiyaları məntiqi təhlil etmək qabiliyyətində, təfəkkürün tənqidiliyində, yaradıcılığa qabil olmaqda, intellektdən istifadə etmək bacarığında, özünü yaxşı tanımaqda, ağılın, təfəkkürün intizamlı olmasında, yəni fikir və düşüncələrini idarə edə bilməsində özünü göstərir. Əlbəttə, şəxsiyyətin psixoloji cəhətdən sağlamlığının göstəricisi və meyarları həddən ziyadə çox və rəngarəngdir. Əsl məsələ şəxsiyyətin özünü düzgün dərk edib adekvat qiymətləndirməsində, mənəvi cəhətdən sağlam olmaq, həm də insanın özünü idarəetmə qabiliyyətindədir.

Şəxsiyyətin sosial sağlamlığı daha çox onun sosial gerçəkliyi adekvat qavramasında, ətraf aləmə maraq, fiziki və ictimai mühitə uyğunlaşmaqda (müvazinətdə) səmərəli fəaliyyətə yönüm, istehlak mədəniyyətində təmənnasızlıq, davranışda demokratizm və sairdə ifadə olunur.

## 20. Özünüidarə və psixi sağlamlıq

Sağlam psixikanın təmin olunmasında müəyyənedici rol şəxsiyyətin ətraf aləmə qarşılıqlı əlaqəsi və təsiri amilinə məxsusdur.

Psixoloji özünüidarəyə aşağıdakı mərhələlər daxildir:

*a) idarəetmə məqsədinin qoyulması;*

*b) informasiyanın qəbulu və işlənməsi;*

*c) qərar qəbulu;*

*ç) qərarın həyata keçirilməsi və nəzarət.*

Bu mərhələlərin hər birində psixi sağlamlığı təmin etməyə təsir göstərən proseslər inkişaf edir.

Sağlam psixikaya malik olan şəxs cəmiyyətdə mövcud olan davranış normalarına zidd olan qərar qəbul etmir. Başqa sözlə, əgər insanın mənəvi statusu deformasiyaya məruz qalmayıbsa, onun qəbul etdiyi qərar həm özünə, həm də ətrafdakılara xeyir verəcəkdir. Mənəvi cəhətdən etibarlı və sağlam psixikaya malik olan şəxsiyyət əxlaqsız davranış və hərəkətlərə qabil olmayan alicənab, vicdanlı insandır.

## ƏDƏBİYYAT

### Azərbaycan dilində:


1. Aristotel. Nikomax etikası (tərc.F.Təbibi). Bakı, 2007
2. Aristotel. Ritorika (tərc.Q.Abbasova, B.Səfərova). Bakı, 2008
3. Aristotel. Politika. Böyük etika (tərc.F.Həbibi). Bakı, 2006.
4. Bayramov Ə.,Əlizadə Ə. Psixologiya. Bakı, 2006.
5. Bakıxanov A.A. Təhzibül-əxlaq. Bakı, 1984.
6. Cəfər Məmməd. Nizaminin fikir dünyası. Bakı, 1982.
7. Cəfərli T. Marksist-leninçi etikanın nəzəri əsasları. Bakı, 1974.
8. Eyvazov F. Dahi alim və filosof. Bakı, 1981.
9. Əfəndiyev A. Müdriklik səlahiyyəti. Bakı, 1976.
10. Əliyev R. Ədəbiyyat nəzəriyyəsi. Bakı, 2008.
11. Əliyev S. Füzulinin poetikası. Bakı, 1986.
12. Göyüşov Z. Daxilə pəncərə. Bakı, 1978.
13. Göyüşov Z. Əxlaqi sərvətlər. Bakı, 1966.
14. Göyüşov Z. Müasir burjua əxlaqının iflası. M., 1961.
15. Göyüşov Z. Həzz və iztirab. Bakı, 1969.
16. Qasımzadə Fuad. «Qəm karvanı», yaxud zülmətdə nur. Bakı, 1968.
17. Quluzadə M. Füzulinin lirikası. Bakı, 1965.
18. Mir Cəlal. Füzuli sənətkarlığı. Bakı, 1994.
19. Xəlilov Q. Azərbaycanda humanizm ideyaları. Bakı, 1980.
20. Marksist etikası (tərcümə). Bakı, 1985.
21. Mədəniyyət tarixi və nəzəriyyəsi. Dərslik. Bakı, 2010.
22. Məmmədov Q. Nizami Gəncəvinin ictimai və siyasi görüşləri. Bakı, 1962.
23. Paşayev Q. Sadə əxlaq normaları. Bakı, 1974.
24. Sadıqov Q. Etika. Bakı, 1991.
25. Tusi N. Əxlaqi-Nasiri. Bakı, 1989.
26. Şahhüseynova S. Etika. Dərslik. Bakı, 2009.
27. Zəkiyev Ə.K. Bəhmənyarın fəlsəfi görüşləri. Bakı, 1958.


### Rus dilində:


28. Аристотель. Никомахова этика. V кн.: Соч. V 4-х t. t.4, М., 1984.
29. Ахмедов Г. Философия азербайджанского просвещения. Б., 1983.
30. Ахундов М. Избранные философские произведения. Б.,1982.
31. Балашов Л. Этика: учебное пособие. М., 2008.
32. Бердяев Н. Философия свободного духа. М., 1994.
33. Васильев Л.С. История Востока. М., 1998.

34. Венедиктов В. О деловой этике и этикете. М., 1994.
35. Всемирная история в 13 т. М.,1955-1983.
36. Голубева Л. Этика: учебник. М., 2005.
37. Грибунина Н.Г. История мировой художественной культуры. В 4 ч. Тверь, 1993.
38. Заводская Е. В. Эстетические проблемы живописи старого Китая. 1975
39. Зелинский Ф.Ф. История античной культуры. СПб.
40. Зеленкова И., Беляева Е. Этика: учебное пособие. Минск, 2007.
41. Ибн Сина. Избранные философские произведения. М., 1980.
42. Ильин Е. Пол и гендер.-СПб.:Питер, 2010.
43. Карнеги Д. Как оказывать влияние на людей. М., 2005.
44. Коновалова Л. Прикладная этика. Вып.1. М., 1998.
45. Конфуций. Древнекитайская философия. М., 1972. т.1.
46. Кропоткин Л. Этика. М., 1991.
47. Лосев А.Ф. Эстетика Возрождения. М., 1978
48. Мехтиева Д. Эстетическая активность культуры Б., 1990
49. Назаров В. Прикладная этика: учебник. М., 2005.
50. О. Коннор.Дж. НЛП (Популярная психология). М., 2008.
51. Платон. Соч.,в 3-х т., т.1. М., 1970.
52. Проблемы этики и эстетики (сборник статей). Вып. 2. Л., 1975.
53. Скрипник А. Этика: учебник. М., 2004.
54. Соколов Н. Этическое и эстетическое воспитание. М., 1976.
55. Справочник практического психолога. М., 2006.
56. Учебный курс по культурологии. Ростов-на-Дону. М. 1996.
57. Фрейд З. Психология бессознательного. М. 1979.
58. Этическое и эстетическое. Л., 1971

# MÜNDƏRİCAT

*Giriş* ....................................................................................................3

## I HİSSƏ

**Estetika elminin mövzusu və vəzifələri** ....................................................4
1. Estetika elminin predmeti və strukturu ....................................................4
2. Estetikanın vəzifələri ....................................................................................5
3. Estetik tələbat ..............................................................................................7
4. Estetik tərbiyənin mahiyyəti .......................................................................7
5. Estetik mədəniyyət ......................................................................................8
6. Gözəllik nədir? ..............................................................................................8
7. Gerçəkliyə estetik münasibət .....................................................................11
8. Estetik fəaliyyətin subyekti .........................................................................11
9. Elmi-texniki tərəqqi və estetika .................................................................12
10. Yaradıcılıq və estetika ...............................................................................13
**Estetikanın yaranma tarixindən** ................................................................14
1. Antik dövrün estetikası ...............................................................................14
2. İntibah dövrü ..............................................................................................15
3. Romantizm dövrü .......................................................................................16
4. Maarifçilik dövrü ........................................................................................17
5. Realizm dövrü .............................................................................................18
6. Sosialist realizminin estetik prinsipləri .....................................................19

## II HİSSƏ

**Etika elminin mövzusu və vəzifələri** ..........................................................21
1. Etika elminin predmeti ...............................................................................21
2. Qədim Hindistanda və Çində etik fikir ......................................................25
3. Antik dövrün etik fikri .................................................................................29
4. Orta əsrlərdə və yeni dövrdə etik fikir .......................................................34
5. Azərbaycanda etik fikir tarixindən ..............................................................36
6. İslam etikası ..................................................................................................45

7. Əxlaqın mahiyyəti və əsas funksiyaları ....47
8. Əxlaq və ictimai şüurun digər formaları....51
9. Əxlaq və şüur....57
10. Əxlaqi fəaliyyət....62
11. Etikanın əsas kateqoriyaları....67
12. Xeyir və şər....68
13. Borc və vicdan....71
14. Şərəf və ləyaqət....77
15. Həyatın mənası və xoşbəxtlik....81

## III HİSSƏ

**Peşə etikası**....90
1. Tətbiqi etika nəyi öyrənir?....90
2. Peşə etikası....91
3. Peşə etikası peşə mədəniyyətinin tərkib hissəsi kimi....96
4. Peşə-etik metodların formalaşması....97
5. Peşə etikası və peşə mədəniyyətinin formalaşmasının etapları....97

## IV HİSSƏ

**Psixologiya elminin mövzusu və vəzifələri**....98
1. Psixologiya elminin predmeti....98
2. Psixologiya elminin tarixindən....98
3. Psixi hadisələr....99
4. Şüur psixikanın yüksək forması kimi....100
5. İctimai münasibətlər və şəxsiyyət....101
6. Psixologiya elminin təşəkkülü tarixindən....102
7. Şəxsiyyət, fərd və fərdiyyət anlayışları....104
8. Emosiyalar və hislər....105
9. Emosional halətlər....106
10. Temperament....108
11. Temperamentin xassələri....109
12. Peşə fəaliyyətində və təlim fəaliyyətində fərdi üslub....110
13. Xarakter. Xarakter və şəxsiyyətin motivasiya sahəsi....111
14. Xarakter əlamətləri....111

15. Şəxsiyyət əmək və tədris kollektivlərində. Qrup və kollektiv ............................ 113
16. Qrupların təsnifatı ........................................................................................ 114
17. Liderlik problemi ........................................................................................... 114
18. Emosional stress və psixosomatik xəstəliklər...................................................... 116
19. Psixi sağlamlıq ............................................................................................... 118
20. Özünüidarə və psixi sağlamlıq......................................................................... 119

*Ədəbiyyat* ........................................................................................................ 121

*Qeyd üçün*

*Qeyd üçün*

# ESTETİKA, PEŞƏ ETİKASI VƏ PSİXOLOGİYA

Müəllif:

**NAİDƏ NOVRUZ** qızı **HACIYEVA**

Şərq East
Qərb West
1986-cı ildən since 1986

"**Şərq-Qərb**" Nəşriyyat Evinin məhsuludur
www.eastwest.az
www.fb.com/eastwest.az

Buraxılışa məsul SEVİL İSMAYILOVA
Redaktor ƏLİHƏSƏN NAĞIYEV
Səhifələyicilər RƏVAN MÜRSƏLOV
ƏLƏKBƏR KƏRİMOV
Dizayner ELŞƏN QURBANOV
Korrektor GÜLTƏKİN YUSİFOVA
Nəşriyyat direktoru RASİM MÜZƏFFƏRLİ

Çapa imzalanmışdır: 29.12.2012. Format 70x100 1/16. Ofset çapı.
Fiziki çap vərəqi 8,0. Sifariş 12 084. Tiraj 1500

"**Şərq-Qərb**" Nəşriyyat Evinin mətbəəsində çap olunmuşdur.
AZ1123, Bakı, Aşıq Ələsgər küçəsi, 17
Tel.: (+99412) 374 83 43, Faks: (+99412) 370 18 49

Nəşriyyat Evinin bütün kitablarının toplusu:
**http://www.eastwest.az/az/books/** ünvanda